недоношенных и маловесных детей наблюдается высокая летальность. В настоящее время выбор адекватного хирургического метода является одной из важных проблем детской хирургии.

Summary
Pathogenesis, clinic, diagnosis and treatment of necrotic enterocolitis in newborns
A.A.Musayev

Necrotizing enterocolitis remains one of the main causes of morbidity and mortality, mainly among premature infants with low and extremely low body weight. The percentage of newborns with necrotizing enterocolitis tends to increase in recent years, which is associated with the intensive development of neonatology and resuscitation. Diagnosis in the early stages of the disease in small children is extremely difficult. Active study of the most significant diagnostic factors in the early stages of the disease is one of the first tasks of neonatologists. X-ray examination is the most reliable diagnostic method when a clinical picture of necrotizing enterocolitis appears. With the development of the surgical stage of the disease, the mortality rate among premature infants with extremely low body weight increases dramatically. The choice of the most optimal method of surgical treatment in such children remains an important task for pediatric surgeons.

Daxil olub: 11.07.2022

Yenidoğulanlarda nekrotik enterokolit: diaqnostik və proqnostik problemləri

İ.İ.Hüseynova
Azərbaycan Tibb Universiteti, I Uşaq xəstəlikləri kafedrası

Açar sözlər: nekrotik enterokolit, yenidoğulanlar, NİRS, USM
Ключевые слова: некротический энтероколит, новорожденные, ИКС, УЗИ
Key words: necrotising enterocolitis, newborn infants, NIRS, US.

Nekrotik enterokolitlə (NEK) əlaqədar olan çoxsaylı problemlərdən biri onun dəqiq diaqnozunun vaxtında qoyulmamasıdır. Vahid səbəbin olmaması və onun təhlili zamanı çoxsaylı variasiyaların mövcudluğu NEK-ə aid olan qeyri-müəyyənliyi şərtləndirir. Klinik təcrübədə xəstəliyin dəqiq diaqnozunun qoyulması istər müalicə həkimi, istərsə də pasientin ailəsi baxımından çox önəmlidir. Qeyd olunanlar NEK-in Bell tərəfindən təkilif olunmuş və modifikasiya edilmiş meyarlarının yenidən işlənməsini tələb edir. Cari tədqiqatlar, xüsusilə çoxölçülü yanaşmalarla biomarkerlərin xarakterizə olunması NEK-in erkən diaqnostika və proqramlaşdırılmasına, həmçinin bağırsağın ağır zədələnmələrinin differensasiyasına kömək edə bilər.

Neonatal təcrübədə klassik gedişli NEK-in diaqnozu sistemli iltihabın qeyri-spesifik əlamətlərinə, yerli abdominal əlamətlərə və mədə-bağırsaq traktında iltihabı təsdiq edən rentgenoloji əlamətlərə əsasən qoyulur. NEK-ə şübhə olduqda Bell meyarlarından istifadə olunur. Lakin bu meyarlardan istifadə olunmasının çoxlu çatışmazlıqları mövcuddur. Qeyd etmək lazımdır ki, bu təsnifat NEK-in erkən, prenozoloji diaqnostikası üçün işlənməmişdir və həssas deyildir. Bell təsnifatı klinik, laborator və rentgenoloji əlamələrdən ibarət olub əksəriyyəti qeyri-spesifik və qeyri həssasdırlar. Məsələn, süstlük, apnoe, tənəffüs çatışmazlığı, qeyri-sabit hərarət və s. Hətta hemodinamik dəyişikliklərin daha ciddi markeri olan şok NEK üçün qeyri-spesifikdir. Bağırsaq pnevmatozunun klassik rentgenoloji əlaməti, həmişə nəzərə alınmır. Vahid patoqnomonik əlamətin və ya testin olmamasına görə NEK diaqnozunu qoymaq çətinlik törədir. NEK-in daha dəqiq diaqnozu histoloji-cərrahi və ya patoloji anatomik olaraq qoyulur. Körpələrin 1/3-də cərrahi müdaxiləyə ehtiyac duyulur, ona görə NEK-in təsdiqi üçün əsas əlamətlərin seçilməsi önəmlidir. Əksər həkim-neonatoloqlar Bell təsnifatına əsasən NEK diaqnozunu qoyur və onun çatışmazlıqlarına etiraz edirlər.

NEK-in müəyyən olunması və diaqnostikası. Klinik təcrübədə NEK-in müəyyən olunması zamanı yaranan qeyri-müəyyənlik tədqiqatçılar və həkim-neonatoloqlar arasında mövcud olan müxtəlif yanaşmalarla əlaqədardır. Həkim-neonatoloq və tədqiqatçıların NEK diaqnozuna aid fərqli yanaşmaları aşağıdakı kimi ümumiləşdirilmişdir:

NEK diaqnozunun qoyulmasında həkim-neonatoloqun məqsədi:

- bağırsağın bütün növ zədələnmələri, o cümlədən, NEK zamanı müalicənin səmərəliliyinə diqqət yetirmək;
- xəstəliyin patoqnomonik əlamətinin təyin olunması;
- xəstəliyin erkən proqnostik meyar və ya risk faktorunun müəyyən edilməsi;
- idarəolunma və proqnoz üçün xəstəliyin mərhələlərinin təyin edilməsi;
- klinik qərarın qəbul edilməsi üçün göstəriş və müalicə alqoritminin hazırlanması, cərrahi müdaxilənin vacibliyinin müəyyən edilməsi.
- NEK –in müəyyən edilməsində tədqiqatçının məqsədi:
- işin daha dəqiq təyin olunması və eyni kateqoriyaya aid olanlara üstünlük verilməsi;
- zəmin yaradıcı faktorların və patofizioloji mexanizmlərin müəyyən edilməsi;
- xəstəliyin müəyyən edilməsində köməkedici dürüst meyarların təyin olunması;
- proqnostik faktorların təyin edilməsi;
- yeni müalicə üsullarının nəzərə alınması.

Göründüyü kimi, tədqiqatçı konkret vəziyyətin inkişafına zəmin yaradan risk faktorları və pasient haqqında məlumat toplamağa üstünlük verir. Həkimin məqsədi-NEK diaqnozunun qoyulması, həmçinin, NEK-ə aid olmayan bağırsaq zədələnmələrinin müəyyən edilməsindən ibarətdir. Battersby C. et al [1] hestasiya yaşının NEK-in inkişaf riskinin strategiyası ilə əlaqəsini müəyyən etmişdir. Tədqiqatçı bu aspektdə proqnostik faktora və müalicənin mümkün mexanizmlərinə diqqət yetirir.

Gordon və həmm. [2] NEK zamanı bağırsaqda baş verən spontan perforasiyanın (SİP) təyin edilməsinə diqqət yetirmişdir.

Caplan M.S. et al (2019) NEK-in müəyyən olunmasında hestasiya yaşı və doğuşdan sonrakı dövrdə döllə əlaqəli yanaşmaya üstünlük verirlər [3]. Bu modeldə NEK diaqnozu körpələrdə doğuşdan sonrakı 10 gün müddətində klassik NEK əlamətlərini təyin etmək mümkün deyil. Bunun üçün eyni səbəb faktorunun seçilməsi önəmlidir. Həkim-neonatoloq üçün isə həm müalicə, həm də proqnoz üçün düzgün diaqnostik meyarlar önəmlidir.

NEK diaqnozunun qoyulması nə üçün çətindir?

Klinik təcrübədə NEK diaqnozunun qoyulmasını çətinləşdirən əsas səbəb bu günə qədər NEK-in patogenezini əks etdirən, bağırsaq zədələnmələrinin müxtəlif fenotipik təzahürlərini ayırd edən dürüst modelin mövcud olmamasıdır. NEK inkişaf edən körpələrin 20-30%-də müsbət hemokultura müəyyən edilir [4]. NEK-in inkişafının risk faktorlarını təyin edən bir sıra mühüm elementlər mövcuddur. İlk növbədə bu NEK-in əsasən vaxtından əvvəl doğulmuş, morfofunksional yetişməmiş körpələrdə daha çox rast gəlməsi ilə əlaqədardır. Nəzərə alsaq ki, mədə-bağırsaq traktı orqanizmdə immun və sinir-sisteminin təşəkkülündə mühüm rol oynayır, onda bağırsaqda iltihabın və NEK-in inkişafı zamanı bu sistemlərdə baş verən dəyişikliklər xüsusi əhəmiyyət kəsb edir. Həmçinin, bu qrup uşaqlarda qidalanmada enteral substrat çox önəmli olub NEK-in inkişaf etməməsi üçün vacibdir. Berseth et al [5] müəyyən etmişdir ki, trofik qidalanmanın ilk mərhələsində təbii qidalanma vaxtından əvvəl doğulan körpələrdə NEK-in inkişaf riskini azaldır. Digər müəlliflər də NEK-in inkişaf riskinin azalmasında ana südünə böyük əhəmiyyət verirlər [6].

Yaxın vaxtlarda aparılmış tədqiqatlarda göstərilir ki, mikrobiotadakı dəyişikliklərin identifikasiyası zamanı disbiozun müəyyən edilməsi NEK-in inkişafında mühüm rol oynayır [7]. Vaxtından əvvəl doğulmuş uşaqlarda bağırsaqda müxtəlif fenotipik zədələnmələr əksər hallarda NEK kimi təsnif olunur. NEK-in müasir diaqnostik meyarlarının "qranulyarlığı" bağırsağın müxtəlif formalı zədələnmələrini fərqləndirməyə imkan vermir. Fenotiplər patogenez əsasında qruplaşdırılır, hansı ki, müxtəlif mexanizmlər anoloji vəziyyətdə birləşdirilir. Bu baxımdan NEK və ya NEK-ə oxşar xəstəliklər üçün təklif olunmuş yeni terminologiya – hipoksik-işemik enterokolit (HiEnt) xüsusi maraq doğurur [8].

HiEnt-prenatal dövrdə bağırsağın zədələnməsi və iltihabi ilə müşahidə olunan və həyatın 1-ci həftəsində kliniki olaraq təzahür edən patoloji vəziyyətdir. HiEnt rast gəlməsində hestasiya yaşından asılılıq qeyd edilir; hestasiya yaşı nə qədər azdırsa, HiEnt-in inkişaf ehtimalı o qədər çoxdur. Bu bir sıra mühüm səbəblərlə izah edilir. Belə ki, hestasiya yaşının nə qədər az olması enteral qidalanmanın o qədər gec başlanmasına və mikrobiotanın formalaşmasının ləngiməsinə səbəb olur.

Patoloji vəziyyətə aid olan bu yeni baxış vaxtından əvvəl doğulmuş körpələr üçün yeni-fərdi profilaktik və terapevtik strategiyanın işlənməsinə zəmin yaradır. NEK-in diaqnostikası üçün yeni modelin yaradılmasında biz nəzərə almalıyıq ki, klinik əlamətlərin son manifestasiyası qarın boşluğu və sistem əlamətləri ilə yanaşı bağırsağın zədələnməsi və bakterial invaziya (pnevmatoz intestinalis) ilə müşahidə oluna bilər. Fərqli yollar və nəticələr klassik NEK zamanı aşkar edilən anoloji bağırsaq zədələnmələrinin başqa patofizioloji mexanizminə malik ola bilər. Onlar bir çox infeksiyalar, o cümlədən, virus infeksiyaları, travma, işemiya-reperfuziya, anadangəlmə anomaliyalar (bağırsaq atreziyası və ya qastroşizis), inək südünə qarşı allergiya və ya hiperosmolyar qida ilə əlaqəli ola bilər. Bu vəziyyətləri yoxlamaq üçün ayrı-ayrı testlərin işlənməsi klassik NEK diaqnozunu qoymağa kömək edə bilər. Bununla yanaşı bütün bu nəticələr uzunmüddətli proqnoz üçün zəmin yarada bilər. Qeyd olunanlara nümunə olaraq biz göstərmək istəyirik ki, SİP (BSP) ayrı və fərqli bir vəziyyət olub, görünür, qidalanma və disbiozla deyil, dərin vaxtından əvvəl doğulmuş və bağırsaq divarının struktur tamlığının itirilməsi nəticəsində həssas seqmentlərin genişlənməsi və qanla təchiz olunmanın pozulması ilə əlaqədar [9,10]. SİP hətta bağırsaqda iltihab olmadıqda belə müşahidə oluna bilər. Bununla yanaşı, SİP bağırsaq pnevmatozunun rentgenoloji əlamətləri olmadıqda, bağırsaq divarının müvəqqəti qalınlaşması və fiksə olunmuş genişlənmiş bağırsaq həlqələri zamanı da baş verə bilər. Qeyd olunanların nəzərə alınması SİP-in NEK kimi qəbul olunmasının qarşısını almaq üçün xəstəliyin bütün sferalarda –klinik, laborator və rentgenoloji, mövcud olan markerlərinin dəqiqləşdirilməsinə və fərdi neonatal yanaşmanın təmin edilməsinə səbəb ola bilər.

NEK-in sürətli inkişafı onun erkən diaqnostika və differensial diaqnostikası üçün bir sıra çətinliklər yaradır. Ona görə də NEK-i sepsisin erkən başlanması ilə müqayisə etmək lazımdır, hansı ki, sonuncunun inkişafı bir sıra ağır fəsadlarla və letallıqla nəticələnə bilər. Erkən sepsisin diaqnostik markerləri həyati vacib orqan və sistemlərin monitorinqi zamanı aşkar edilən əlamətlərinə əsasən aparılır, bu əlamətlərə sistemli iltihabı səciyyələndirən göstəricilər aiddir. NEK-lə sepsis arasında olan fərq ondan ibarətdir ki, sepsis zamanı müəyyən bir mikrob xəstəliyin törədicisi kimi identifikasiya ola bilər, ancaq NEK zamanı belə vahid səbəb

yoxdur [11]. NEK-in başlanma tezliyi və ağırlıq dərəcəsi onun erkən diaqnostik meyarlarının axtarılmasını xüsusilə çətinləşdirir. Aparılan tədqiqatlarla yeni biomarkerlərin təyin olunması, hansı ki, müsbət və mənfi proqnostik əhəmiyyət kəsb edir, NEK zamanı klinik yanaşmanın təkmilləşməsinə səbəb olur.

Öyrənilmiş bir sıra biomarkerlər mövcuddur ki, NEK-in erkən diaqnostikası, ağırlıq dərəcəsinin təyin edilməsi və proqnozlaşdırmasına kömək edir. Lakin onların heç biri klinik təcrübədə standart əsas həlqə kimi qəbul edilmir [12,13,14]. Əsas və daha vacib problem ondan ibarətdir ki, bir sıra biomarkerlər ancaq müxtəlif xarakterli iltihabi proses hətta NEK-siz bağırsaq keçməməzliyi zamanı yüksəlir, yüksək spesifiklik göstərmirlər [13].

Hiperdiaqnostikanın zərərləri. Qeyri-spesifik klinik əlamətlər və rentgenoqrammada müəyyən edilən pnevmatoz zamanı NEK-ə şübhə yaranır və müalicə ehtimalı artır. Klinik təcrübədə diaqnostik səriştənin dəqiq olmaması, xüsusilə körpənin vaxtından əvvəl doğulması, NEK-in sürətli inkişaf etmə ehtimalı qan analizlərinin aparılmasına, antibakterial terapiyanın başlanmasına və enteral qidalanmanın kəsilməsinə əsas verir. Bütün bunlar isə öz növbəsində anemiya riskinin artmasına, bağırsaq mikrobiozunun pozulmasına və uşaqda çəki artımının ləngiməsinə səbəb olur və NEK-in inkişaf etmə ehtimalını artırır. Belə hallarda daha səmərəli strategiyanın hazırlanmasına və müalicədə əlavə tədbirlərin görülməsinə cəhd olunmalıdır.

NEK-in diaqnostikasında vizualizasiyanın rolu. NEK-in klinik diaqnostikasının əsas çatışmazlıqlarından biri onun müxtəlif mərhələlərinin aşkar edilməsi üçün həssaslıq və spesifiklik nöqteyi-nəzərindən abdominal rentgenoqrammanın (AR) qənaətbəxş olmamasıdır. AR bağırsaq zədələnmələrinin mühüm aspektlərini göstərə bilər, hansı ki, aşkar edilmə zamanı spesifiklik göstərir. Lakin, digər məlumatlar da mövcuddur ki, NEK-in diaqnostikası üçün AR kifayət qədər həssas və spesifik deyil. Vaxtından əvvəl doğulmuş, çox az kütləli körpələrdə aşkar perforasiyanı AR-də asanlıqda görməmək olar, hansı ki, sərbəst hava və pnevmoperitoniumu göstərmir. Belə qeyri-həssaslıq daha çox cərrahlar üçün problem yaradır.

NEK diaqnozunun dəqiqləşdirilməsinin daha çox ümidverici aspektlərindən biri abdominal ultrasəs müayinəsinin dinamikada istifadə olunmasıdır. Müəyyən edilmişdir ki, bağırsağın ultrasəs müayinəsi NEK diaqnozu qoymaq üçün potensial əhəmiyyətə malikdir [15,16].

Hal-hazıra kimi bu müayinələrin bir sıra üstünlükləri nümayiş etdirilmişdir; onlara bağırsaq divarının arxitektonikasının unikal xüsusiyyətləri (qalınlığı və exogenliyi, bağırsaq pnevmatozu) və funksiyaları (hərəkətlilik və qanın perfuziyası) aiddir.

Abdominal USM ilə identifikasiya olunmuş bağırsağın xüsusiyyətlərinə aşağıdakılar aid edilir:

1. Bağırsaq divarının qalınlaşması; bağırsaqda başlanğıc dəyişikliklər bağırsaq divarının qalınlaşması və bağırsağın köndələn kəsikdə dairəvi olması və qan cərəyanının sürətlənməsi. Bağırsaq divarının qalınlaşmasının sonoqrafik təsviri mərkəzi exogen ocaq və hipoexogen həlqə ilə bağırsaq nekrozunun və perforasiyasının labüdlüyünü göstərir.
2. Bağırsaq divarının exogenliyi; bağırsaq divarının exogenliyinin artması iltihab və ödem zamanı zədələnmiş bağırsaqlarda perfuziyanın artması ilə müşahidə olunur.
3. Bağırsaq pnevmatozunun aşkar edilməsi; bağırsaq divarında kiçik hava qabarcıqlarının bağırsaq pnevmatozu kimi sonoqrafik aşkar edilməsi. Ultrasonoqrafiya həmçinin "qaz qabarcıqlarının qaraciyər parenximası və qapı venası" nahiyəsində aşkar etməyə imkan verir, hansı ki, rentgenoqrammada müəyyən edilmir.
4. Bağırsaq divarının perfuziyası. NEK-in diaqnostikası üçün həmçinin rəngli doppleroqrafiyadan istifadə olunur. Bağırsaq nekrozunun aşkar edilməsində və bağırsaq divarının perfuziya dərəcəsinin müəyyən edilməsində rəngli doppleroqrafiya daha həssasdır, nəinki abdominal rentgenoqrafiya; qeyd olunanlar laparatomiya zamanı təsdiq olunmuşdur.
5. Bağırsağın perforasiyası; sərbəst havanın aşkar edilməsi, bağırsaq divarının qalınlaşması və assit bağırsaq perforasiyasını dürüst olaraq göstərir.
6. Bağırsaq peristaltikası, aktiv bağırsaq peristaltikasının vizualizasiyası bağırsağın sağlam olmasının əlamətidir, əksinə, peristaltikanın olmaması-bağırsaq keçməməzliyinin və ya bağırsağın qeyri-qənaətbəxş vəziyyətinin markeridir.

NEK-in diaqnostikasında abdominal oksimetriyanın rolu. Abdominal nahiyədə mövcud olan çoxsaylı morfunksional xüsusiyyətlər baxımından NİRS-lə aparılan splanchnic monitorinq xüsusi əhəmiyyət daşıyır [18,19,20].

M.Gillam-Krakaner et al. [21] tədqiqatına görə, abdominal oksimetriya (Ao) göstəriciləri yuxarı müsariqə arteriyasının doppler göstəriciləri ilə korrelyasiya əlaqəsinə malikdir. Müəlliflərin fikirlərinə görə, abdominal nahiyədə aparılan NİRS bağırsaq qan cərəyanının səviyyəsini qeyri-invaziv qiymətləndirməyə imkan verir. Bu nəticələr digər müəlliflər tərəfindən də təsdiq edilmişdir [20,22].

NİRS-lə aparılan regional splanchnic oksimetriya (SrO2) təkcə eksperimentdə deyil, in vivo NEK-in erkən diaqnostikasında xüsusi maraq doğurur. J.Cortez [20] və A.Dewitt [23] tərəfindən NEK-in klinik əlamətləri olan vaxtından əvvəl doğulmuş körpələrdə aparılmış tədqiqatda göstərilmişdir ki, abdominal oksimetriya göstəriciləri nəzarət qrupundan dürüst aşağı olur və kiçik variabelliklə səciyyələnir. Eyni zamanda S.McNeill və həmmüəlliflərin tədqiqatının nəticələrinə görə serebral oksimetriyanın səviyyəsi vaxtından əvvəl doğulmuş körpələrdə həyatın ilk 2 həftəsində hestasiya yaşından sıx asılı olaraq təzahür edir [24]. Bəzi ekspertlərin fikirlərinə görə, AO-nun kritik əhəmiyyətinin təyin edilməsində pasientin hərəkəti zamanı yaranan çətinliklər bu üsulun abdominal sahənin trend-monitorinqi kimi istifadəsini məhdudlaşdırır [17].

Son 5 ildə daxili orqanlarda toxumaların regional oksigenasiya səviyyəsinin (rSO_2) NİRS-lə qiymətləndirmə və qeyri-invaziv fasiləsiz monitorinqinə böyük əhəmiyyət verilir [25,26]. Göstərirlir ki, intestinal hipoksiya və işemiya yenidoğulanlarda bağırsaq patologiyalarının, o cümlədən NEK-in daha çox formalaşmasının və fəsadlı gedişinin əssında durur [27,28].

Trijntje E. Schat və həmm. [29] hestasiya yaşı 32 həftədən az, açıq arterial axacağı olan vaxtından əvvəl doğulmuş körpələr üzərində apardıqları prospektiv tədqiqatda müəyyən etmişlər ki, doğulandan sonrakı 2 gün müddətində aşağı serebral oksigenasiya zamanı NEK-in inkişaf ehtimalı artır, intestinal NİRS monitorinq klinik əhəmiyyət daşıyır.

Martin van der heide və həm. [28,30] vaxtından əvvəl doğulmuş (HY<32 həftə, bədən kütləsi <1200q) 220 körpədə doğulandan sonra 1-ci həftədə daxili orqanlarda oksigenin regional saturasiyasını öyrənmiş və müəyyən etmişlər ki, hestasiya yaşı və perinatal yaş $SrSO_2$-nin referent səviyyəsinə təsir edir. Daha kiçik hestasiya yaşı olanlarda $SrSO_2$-nin daha az olur, postnatal yaş artdıqca 4-cü günə qədər azalır və sonra 7-ci günə qədər artır.

Müəlliflər apardıqları digər tədqiqatlarda NİRS-dən istifadə etməklə vaxtından əvvəl doğulanlarda NEK-ə şübhə olduqda onun təsdiq və ya inkar edilməsini müəyyən etmuşlər. Belə ki, klinik simptomlar olduqda yüksək SCOR NEK-i təsdiq edə və $SrSO_2$-nin yüksək variabelliyi NEK-i inkar edə bilər [28,31].

Beləliklə, abdominal oksimetriyanın imkanlarından NEK-in erkən diaqnostikasında və gedişinin proqnozlaşdırılmasında geniş istifadə olunması məqsədəuyğundur [32,33].

Abdominal USM-in NEK-in diaqnostikası üçün potensial əhəmiyyəti 15 il əvvəl ədəbiyyatda təsvir olunsa da, bu üsulun istifadəsi istər neonatal təcrübədə, istərsə də radioloji olaraq çox məhduddur [17]. Bunun üçün müfəssəl klinik protokollarının işlənməsi labüddür. Abdominal USM-in üstünlüklərini müəyyən etmək üçün onun geniş tətbiq olunmasına başlanmalıdır. Həmçinin optimal cərrahi müdaxilələrin təyin edilməsini əsaslandıran tədqiqatların istifadəsinə geniş yer verilməlidir. Yeni biomarkerlərlə birlikdə abdominal vizualizasiyanın (USM, oksimetriya) imkanlarından geniş istifadə olunması NEK-in erkən diaqnostikası və gedişinin proqnozlaşdırılması üçün vacibdir.

Yekun. NEK diaqnozunu vaxtında və dəqiq qoymaq üçün həkim-neonatoloqun ciddi meyarları olmalıdır. Bell meyarları köhnəlmişdir, uyğun alternativ təyin edilməmiş və klinik olaraq inteqrasiya olunmamışdır. Spontan bağırsaq perforasiyası və klassik NEK-i imitasiya edən şəraitin və faktorların müəyyən edilməsi bu vəziyyətlərin differensasiyasında kliniki strategiyanı müəyyən edir. NEK diaqnozunun qoyulmasında və gedişinin proqnozlaşdırılmasında klinik-laborator müayinələrlə yanaşı bağırsağın USM-nin imkanlarından geniş istifadə olunmalıdır.

ƏDƏBİYYAT

1. Battersby C., Longford N., Costeloe K. et al. Development of a gestational age-specific case definition for neonatal necrotizing enterocolitis // JAMA Pediatr., 2017, v.171, p.256-263

2. Gordon P.V., Swanson J.R., MacQueen B.C. et al. A critical question for NEC researchers: can we create a consensus definition of NEC that facilitates research progress // Semin. Perinatol., 2017, v. 41, p. 7-14

3. Caplan M.S. et al. Necrotizing enterocolitis: using regulatory science and drug development to improve outcomes // J. Pediatr., 2019, v. 212, el-215

4. Kliegman R.M., Fanaroff A.A. Necrotizing enterocolitis // N. Engl. J. Med., 1984, *v.* 310, p.1093-1103

5. Berseth C.L., Bisquera J.A., Paje, V.U. Prolonging small feeding volumes early in life decreases the incidence of necrotizing enterocolitis in very low birth weight infants // Pediatrics, 2033, v. 111, p. 529-534

6. Meinzen-Derr J. et al. Role of human milk in extremely low birth weight infants' risk of necrotizing enterocolitis or death // J. Perinatol., 2009, v.29, p.57-62

7. Neu J., Pammi, M. Necrotizing enterocolitis: the intestinal microbiome, metabolome and inflammatory mediators // Semin. Fetal Neonatal Med., 2018, v. 23, p. 400-405

8. Hypoxic-ischemic enterocolitis: a proposal of a new terminology for early NEC or NEC-lice disease in preterm infants. A single-center prospective observational study // Eur. Y. Pediatr., 2020, v.179(4), p.561-570.

9. Yee W. H. et al. Incidence and timing of presentation of necrotizing enterocolitis in preterm infants // Pediatrics, 2012, v. 129, e298-e304

10.Vongbhavit K., Underwood M. A. Intestinal perforation in the premature infant // J. Neonatal Perinat. Med., 2017, v.10, p.281-289

11.Fairchild K D. et al. Vital signs and their cross-correlation in sepsis and NEC: a study of 1,065 very-low-birth-weight infants in two NICUs // Pediatr. Res., 2017, v.81, p.315-321

12.Garg B.D., Sharma D., Bansal A. Biomarkers of necrotizing enterocolitis: a review of literature // J. Matern. Fetal Neonatal Med., 2018, v. 31, p. 3051-3064

13.Gephart S.M. et al. Changing the paradigm of defining, detecting, and diagnosing NEC: perspectives on Bell's stages and biomarkers for NEC // Semin. Pediatr Surg., 2018, v.27, p.3-10

14.Goldstein G.P., Sylvester K.G. Biomarker discovery and utility in necrotizing enterocolitis // Clin. Perinatol., 2019, v. 46, p.1-17

15.Cuna A., George L., Sampath V. Genetic predisposition to necrotizing enterocolitis in premature infants: current knowledge, challenges, and future directions // Semin. Fetal Neonatal Med., 2018, v. 23, p. 387-393

16.Kim J.H. Role of abdominal US in diagnosis of NEC // Clin. Perinatol., 2019, v.46, p.119-127,

17.Faingold R. et al. Necrotizing enterocolitis: assessment of bowel viability with color Doppler US // Radiology, 2005, v. 235, p. 587-594

18.Engelhazdt B., Gillam-Krakaner M. Use of near-infrared spectroscopy in the management of patients in neonatal intensive care units-an example of implementation of a new technology. İntrared spectroscopy-life and Biomedical Sciences. 2012

19.Bailey S.M. et al. Splanchnic –cerebral oxygenation ratio as a marker of preterm infant blood transfusion needs // Transfusion, 2012, v.52/21, p.252-60.

20.Corter J. et al. Noninsavie evalution of splanchnic tissue oxygenatio using near-infrared spectroscopy in preterm neonates // J.Matern Fetal Neonatal Med., 2011, v.24(4), p.574-82.

21.Gillam-Krakaner M. et al. Correlation of abdominal rSO_2 with superrior mesentux artery velocities in preterm infants // J.Perinatology, 2013, v.33(8), p.609-12.

22.Zabaneh R.N., Cllary J.P. Mesenteric oxygen saturations in premature twins with and without necrotizing enterocolitis // Pediatr. Crit. Care Med., 2011, v.12(6), e.404-6.

23.Dewitt A.G.et al. Splanchnic near-infrared spectroscopy and risk of necrotizing enterocolitis after neonatal heart surgery // Pediatr. Cardiol., 2014, v.35(7), p. 1286-1294

24.McNeill S. et al. Normal cerebral, renal and abdominal regional oxygen saturations using near-infrared spectroscopy in preterm infants // J.Perinatology, 2011, v.21(1), p.51-57.

25.Chen M.W. et al. Abdominal near-infrared spectroscopy in a piqlet modul of qatrointestinal hypoxia produced by qraded hypoxic or superior mesenteric artery liqation // National Library of Medicine. 2018, v. 37

26.Martina S., Corvaglial L. Splanchnic NİRS monitoring in neonatal care: rationall, current applicetions and future perspectives // J.Perinatalogy, 2018, v.31, p. 431-449.

27.Schat T.E. et al. Early cerebral and intestinal oxygenation in the risk assessment of necrotizing enterocolitis in preterm infants // Early Hum Dev., 2019, v. 131, p.75-80

28.Van der Heide et al. Near-infrared spectroscopy as a diagnostic toll for necrotizing enterocolitis in preterm infants // Pediatric Research, 2020, v. 08

29.Schat T.E. et al. Near-infrared spectroscopy to predict the course of necrotizing enterocolitis // Plos One, 2016, 11.e.0154710

30.Martin van der Heiae et al. Regional splanchnic oxygen saturation for preterm infants in the first week age birth: reference values // Pediatrics Res., 2021, v.30(4), p. 882-887.

31.Kalteren W.S. et al. Red blood cell transfusions affect intestinal and cerebral oxygenation differently in preterm infants with and without subseqment necrotizing enterocolitis // Am.J.Perinatal., v. 35, p. 1031-1037

32.Patel A.K.et al. Abdominal near-infrared spectroscopy measurments are bower in preterm infants at risk for necrotizing enterocolitis // PediatrCrit Care Med., 2014, v.151, p. 735-741

33.Kuik S.J.et al. The effect of enteral bolus feeding on regional intestinal oxygen saturation in preterm infants is age-dependent: a longitudinal observational study // BMC, Pediatr, 2019, v. 19, p. 404

Резюме

Некротический энтероколит у новорожденных: проблемы диагностики и прогноза

И.И.Гусейнова

Одной из многих проблем, связанных с некротизирующим энтероколитом (НЭК), является отсутствие точной диагностики. Отсутствие единой причины и наличие множественных вариаций в ее анализе приводят к неопределенности, связанной с НЭК. Точная диагностика заболевания в клинической практике очень важна как с точки зрения лечащего врача, так и семьи больного. Вышеизложенное требует пересмотра критериев НЭК, предложенных и модифицированных Bell. Текущие исследования, особенно характеристика биомаркеров с многомерными подходами, могут помочь в ранней диагностике и программировании НЭК, а также в дифференциации тяжелых поражений кишечника.

Summary

Necrotising enterocolitis in newborns: diagnostic and prognostic problems

I.I.Huseynova

One of the major problems associated with necrotising enterocolitis (NEC) is a lack of accurate diagnosis. The lack of a single cause and the presence of multiple variations in its analysis leads to the uncertainty associated with NEC. Accurate diagnosis of the disease in clinical practice is very important from the point of view of both the treating doctor and the patient's family. The above requires a revision of the NEC criteria proposed and modified by Bell. Current research, especially the characterization of biomarkers with multidimensional approaches, may help early diagnosis and programming of NEC, as well as differentiation of severe intestinal lesions.

Daxil olub: 24.05.2022

Современные представления профилактики и регулирования артериальной гипертензии

Г.Ч. Алиева, Э.С.Рагимова
НИИ кардиологии имени Дж.Абдуллаева, г.Баку

Açar sözlər: hipertoniya, müalicə, profilaktika, diaqnostika, preparatlar
Ключевые слова: гипертензия, лечение, профилактика, диагностика, препараты
Key words: hypertension, treatment, prevention, diagnosis, preparations

По данным Всемирной организации здравоохранения (ВОЗ), артериальная гипертензия занимает 8-е место среди основных причин смерти в развитых странах и составляет 2,5%. [1]. В исследовании проведенным в нашей республике автор указывает, что среди обследованного мужского населения трудоспособного возраста 20-59 лет распространенность артериальной гипертензии составляет 31%. В ее структуре преобладает артериальная гипертензия I степени. 17,8% [2].

В исследовании проведенного среди школьников автор указывает, что распространенность АГ среди школьников составляет в среднем 11,3±1,0%, а распространенность высокой нормальной артериальной гипертензии составляет 8,8±0,9%, увеличивается в зависимости от возраста, соответственно от 3,7±3,1 до 15,2±3,6% и возрастает с 2,5± от 1,7 до 9,6±2,9%. Первичные симптомы наблюдаются у 69,2±4,5% школьников при АГ и у 34,6±5,4% школьников при высокой нормальной артериальной гипертензии [3].

течение многих лет известно, что уровень АД у человека подвержен значительным спонтанным колебаниям. Причины вариабельности АД (ВАД) относительно некоего «истинного» уровня АД многообразны, но их можно четко разделить на две основные группы. Первая из них отражает возможные погрешности в измерении (несоблюдение техники измерения, недостаточная квалификация измеряющего, неисправный прибор). Другую группу причин можно определить как биологическую ВАД (true biological variability). Биологическая ВАД многообразна. Прежде всего, вспоминается 24-часовая ВАД, на которую влияет не только снижение АД во время сна, но и физическая активность субъекта в течение суток, а также психоэмоциональные факторы различной интенсивности и продолжительности. АД «вариабельно» и в течение более коротких отрезков времени - часы, минуты и даже между отдельными сердечными сокращениями (beat-to-beat variability) и в течение более длительных периодов - дни, месяцы, времена года. Наконец, к ВАД можно условно отнести возрастные изменения систолического (САД) и диастолического (ДАД) АД. Известно, что САД с возрастом увеличивается, а ДАД претерпевает характерные двухфазные изменения [2].

Артериальная гипертензия является наиболее важным фактором глобального фактором многих развития многих болезней, также многие болезни могут создать условия для развития гипертензии. Хотя диагноз артериальной гипертензии по-прежнему основывается на измерении артериального давления в обычном условии, настоятельно рекомендуется подтверждение с помощью измерений артериального давления в амбулаторных условий. Определение артериальной гипертензии различается в разных руководствах, но показания к антигипертензивной терапии относительно схожи. С фармакологической точки зрения ингибиторы ангиотензинпревращающего фермента или блокаторы рецепторов ангиотензина, блокаторы кальциевых каналов и диуретики являются препаратами первой линии, при этом в большинстве руководств рекомендуется использовать комбинированную терапию.

Артериальная гипертензия, хотя и феноменально проста в своей патофизиологии, определении, диагностике и лечении, по-прежнему вызывает трудности, особенно в отношении наилучшего ведения пациентов с высоким кровяным давлением и повышенным сердечно-сосудистым риском [3]. Поэтому артериальная гипертензия определяется на основании эпидемиологических и проспективных данных, устанавливающих уровень артериального давления, при котором польза от лечения превышает возможные побочные эффекты. Действительно, с годами по мере развития эпидемиологических данных, прогрессирования тактики лечения и методов диагностики определение артериальной гипертензии и цели лечения корректировались в лучшую сторону для пациента [4,5].

Современные принципы лечения артериальной гипертензии. Прежде чем начинать лечение больного АГ, каждый врач должен представлять себе, когда начинать фармакотерапию, каких целевых значений АД следует достигать с ее помощью с учетом разной выраженности сердечно-сосудистого риска, какими должны быть тактика лечения и выбор препаратов. Цель лечения любого больного с артериальной гипертензией - максимальное снижение риска развития сердечно-сосудистых осложнений и смерти от них. Это стратегия, определяющая выбор препаратов. Целевым АД в рекомендациях 2013 года считается АД меньше 140 и 90 мм рт. ст., а для больных сахарным диабетом - менее 140 и 85 мм рт. ст. Все эти показатели обоснованы анализом результатов разнообразных клинических исследований, как сравнительных, так и проспективных, причем нередко с участием метаанализов [6]. Существуют надежные данные, позволяющие рекомендовать больным АГ пожилого и старческого возраста моложе 80 лет с уровнем САД ≥ 160 мм рт. ст. его снижение до 140–150 мм рт. ст. Заметим, что в предыдущих версиях рекомендаций предлагалось лицам пожилого возраста снижение САД до 130 мм рт. ст. и ниже, что вызывало протесты со стороны неврологов и гериатров. В то же время, если пациент пожилого возраста хорошо переносит снижение АД менее 140 мм рт. ст., а именно -не падает в обморок, не испытывает головокружений, сохраняет когнитивные способности на хорошем уровне, нет необходимости искусственно поддерживать АД на более высоком уровне. Тактика лечения больных АГ определяется индивидуально и направлена на улучшение качества жизни, ликвидацию симптомов заболевания. Следует отметить, что подобный терапевтический подход в настоящее время используется в лечении всех сердечно-сосудистых заболеваний: стратегия - улучшение выживаемости и смертности, тактика - ликвидация симптомов. Обязательным условием ведения больного с любой степенью риска является настойчивая и интенсивная немедикаментозная коррекция образа жизни и привычек. Если она неэффективна, надо устранять факторы риска с помощью лекарств. Гипотензивная терапия назначается с учетом оценки риска, поражения органовмишеней, сопутствующих заболеваний, и, как правило, включает два-три препарата. Особенно актуально это положение для России, где больные поздно попадают к врачу, и уже при первых обращениях у них фиксируется и высокий риск, и сопутствующие заболевания, и высокий уровень АД. Контроль эффективности терапии осуществляется с помощью регулярного измерения АД, которому обучают больного. Лечение больного артериальной гипертензией осуществляется в несколько этапов:

1. Оценка риска развития сердечно-сосудистых заболеваний.
2. Лечение до цели АД менее 140/90 мм рт. ст. или менее 140/85 мм рт. ст.:
- изменение образа жизни;
- медикаментозная терапия.
3. Обеспечение выполнения рекомендаций врача.

Если не соблюдать эту последовательность, добиться эффективности лечения практически невозможно.

Первичная профилактика артериальной гипертензии должна быть направлена в первую очередь на определение факторов риска и нужно снизить их употребления [7]. Профилактические мероприятия должны направлены на: соблюдение умеренных тренировок, чтобы был правильно подобранный комплекс упражнений, чтобы всё способствовало повышение работоспособности, следовательно, нагрузки должны быть не менее 3 раз в неделю с умеренной силой, полчаса ходьба бегом, плавание, а так же занятие на тренажерах. Соблюдение здорового питание, то есть жареное, соленое и острое категорически нельзя употреблять. Если пациент употребляет в пищевом рационе соль, то максимум в день должно быть не превышать 4 грамм, так же соблюдение питьевого режима, употреблять ежедневно не менее 1,5-2 литра воды, категорически запрещено употреблять в пищу: майонез, консервированные продукты, колбсные изделия, копчености. Так же необходимо соблюдать отдых, чтобы справиться со стрессовыми ситуациями, к методиками релаксации, относится: медитация, прогулка на свежем воздухе, слушать успокаивающие музыку [8]. Важным соблюдением профилактики является отказ от вредных привычек, в большинстве случаев это курение и алкоголь. Вторичная профилактика направлена на диагностику ранней стадии, как правило, патология длительное время не проявляется никак. Третичная профилактика направлена на избежание осложнений со стороны сердечно-сосудистых осложнений [9,10].

Хотя гипертония является следствием сочетания экологических и генетических факторов риска, социальные детерминанты здоровья также являются факторами риска гипертонии. Социальные детерминанты здоровья в широком смысле определяются как «обстоятельства, в которых люди

рождаются, растут, живут, работают и стареют, а также системы, созданные для борьбы с болезнями». Социально-экономический статус означает социально определенные экономические факторы, влияющие на положение, которое отдельные лица или группы занимают в стратифицированной структуре общества. Социально-экономический статус включает богатство и доход, образование, занятость/статус занятости, доступ к медицинскому обслуживанию и другие факторы. Хотя социальные детерминанты чаще всего упоминаются при обсуждении неравенства или различий, социальные факторы влияют на здоровье сердечно-сосудистой системы практически у всех людей [11,12].

В Соединенных Штатах существует сильная связь между социальными детерминантами здоровья и артериальной гипертензией, особенно среди меньшинств (чернокожие и латиноамериканцы) [13].

Гипертония чаще встречается у чернокожих, чем у белых, и гипертония непропорционально увеличивает риск инсульта и терминальной стадии заболевания почек у чернокожих [14]. У чернокожих чаще развивается неконтролируемая гипертензия, в основном из-за более низкого уровня контроля АД при приеме антигипертензивных препаратов.

Характеристики соседства могут влиять на распространенность артериальной гипертензии. У лиц, проживающих в наиболее экономически неблагополучных районах, отмечается высокая частота АД [16]. Также существует связь между проживанием в определенных географических районах, таких как юго-восток США, и распространенностью артериальной гипертензии [17,18]. В совокупности эти и другие социальные детерминанты АД имеют решающее значение для профилактики и контроля артериальной гипертензии среди населения.

Профилактика и контроль артериальной гипертензии могут быть достигнуты путем применения целевых и/или популяционных стратегий. Целевой подход является традиционной стратегией, используемой в медицинской практике, и направлен на достижение клинически значимого снижения АД у лиц с верхним пределом распределения АД. Таргетный подход используется при лечении пациентов с артериальной гипертензией, но этот же подход хорошо зарекомендовал себя как эффективная стратегия профилактики артериальной гипертензии у лиц с высоким риском ее развития [19]. Стратегия, ориентированная на население, основана на опыте общественного здравоохранения в области массового контроля окружающей среды. Он направлен на достижение меньшего снижения АД, которое применяется ко всей популяции, что приводит к небольшому сдвигу вниз во всем распределении АД.

Основой популяционного подхода заключается в том, что модельные исследования последовательно предполагают, что он обеспечивает больший потенциал для предотвращения сердечно-сосудистых заболеваний по сравнению с целевой стратегией. Этот вывод основан на принципе, согласно которому большое количество людей подвергается воздействию небольшого Риск сердечно-сосудистых заболеваний может привести к гораздо большему количеству случаев, чем небольшое число людей, подвергающихся значительному повышенному риску. Например, снижение ДАД в общей популяции всего на 2 мм рт. болезни сердца. Поскольку в них используются одни и те же меры вмешательства, целевые и популяционные стратегии дополняют друг друга и усиливают друг друга.

Факторы, препятствующие/мешающие контролю артериальной гипертензии. У взрослых с гипертензией контроль АД до негипертензивного уровня с помощью немедикаментозного и фармакологического лечения снижает риск сердечно-сосудистых событий и смертности от всех причин на 20–40%. Было подсчитано, что примерно 46 000 смертей в год можно предотвратить за счет улучшения Контроль АД среди взрослых в США, больше смертей, чем можно предотвратить путем изменения любого другого основного фактора риска (79). Тем не менее, контроль АД может быть достигнут только в том случае, если люди с гипертонией будут выявлены, диагностированы и пролечены. Первым шагом в этом каскаде является диагностика артериальной гипертензии. После постановки диагноза артериальной гипертензии необходимо применять эффективные немедикаментозные и фармакологические подходы для снижения АД. Наконец, необходимо соблюдать режим лечения и титровать его, чтобы оптимизировать снижение АД и риска сердечно-сосудистых заболеваний [21].

При наличии неконтролируемой АГ, если пациент уже находится на комбинированной 2-компонентной схеме, в соответствии с текущими рекомендациями возможны следующие сценарии:

• добавление 3-го препарата к двойной фиксированной или свободной комбинации (от 2 до 5 таблеток в сутки);

• увеличение дозы используемых препаратов до максимальной (риск побочных эффектов);

• смена неэффективной двойной комбинации на другую;

• использование тройной фиксированной комбинации.

Последнее представляется предпочтительнее из-за снижения количества принимаемых таблеток, так как использование свободных комбинаций в условиях наращивания интенсивности терапии сопровождается значительным снижением комплаенса, особенно в молодой активной группе пациентов. Известно, что при переходе с однократного на четырехкратный прием лекарственных препаратов приверженность терапии падает с 80 до 50% [22]. Ранний переход к комбинированной АГТ постулирован во всех современных рекомендациях по ведению АГ и не требует дополнительных комментариев. Необходимо обсудить патофизиологическую оправданность раннего назначения комбинированной терапии АГ. Не вызывает сомнений разнообразие патогенетических путей формирования АГ (объемозависимые механизмы, активация ренин-ангиотензин-альдостероновой системы – РААС, вазоконстрикция). С этой точки зрения фиксированная комбинация – ингибитор ангиотензинпревращающего фермента (ИАПФ) + тиазидный диуретик (ТД) + антагонист кальция (АК) – представляется наиболее целесообразной и патогенетически оправданной. Среди преимуществ комбинированной АГТ традиционно отмечаются:

•воздействие на разные патогенетические звенья АГ – потенцирование антигипертензивного эффекта и нивелирование эффекта «ускользания»;

•нейтрализация побочных эффектов препаратов;

•достижение эффективной органопротекции;

•увеличение приверженности терапии;

• снижение риска сердечно-сосудистых осложнений [23,24].

Таким образом, современные представления об артериальной гипертензии, сформированные на основании эпидемиологических исследований, включают такие понятия, как целевое АД, которое одинаково для больных всех возрастов - менее 140 и 90 мм рт. ст., а для больных сахарным диабетом - менее 140 и 85 мм рт. ст., снижение риска, оценка риска развития ССЗ и их осложнений. В Азербайджане и в мире велика распространенность АГ, что частично объясняется недостаточной информированностью населения о принципах здорового образа жизни и плохим их соблюдением.

ЛИТЕРАТУРА

1. Arterial hipertenziyanin diaqnostika və müalicəsi üzrə klinik protokol. Bakı, 2009, 64 s.
2. Mürsəlov M.M. Əmək qabiliyyətli kişi əhalisi arasında arterial hipertenziya, metabolik sindromun yayılması və onlarin ürəyin işemik xəstəliyinin risk amilləri ilə qarşılıqlı əlaqəsi: tibb üzrə fəlsəfə doktoru ... diss. avtoreferatı. Bakı, 2018, 23s.
3. Mehdiyeva A.F. Məktəblilər arasinda arterial hipertoniyanin formalaşmasinin risk amilləri, onun tibbi-sosial nəticələri və profilaktikasina dair səmərəli yanaşmalarin əsaslandirilmasi (Bakı şəhəri üzrə): Fəlsəfə doktoru ... dis. Avtoreferatı. Bakı, 2021, 32s.
4. Горбунов В.М. Современные представления о вариабельности артериального давления // РФК, 2012, №6
5. Williams B., Mancia G., Spiering W. et al. 2018 ESC/ESH Guidelines for the management of arterial hypertension //Eur Heart J., 2018, v.39, p. 3021-3104
6. Mancia G., Fagard R., Narkiewicz K. et al. 2013 ESH/ESC guidelines for the management of arterial hypertension: the Task Force for the Management of Arterial Hypertension of the European Society of Hypertension (ESH) and of the European Society of Cardiology (ESC) // Eur Heart J., 2013, v. 34, p. 2159-2219
7. Whelton P.K., Carey R.M., Aronow W.S. et al. 2017 ACC/AHA/AAPA/ABC /ACPM/AGS/APhA/ASH/ASPC/NMA/PCNA Guideline for the Prevention, Detection, Evaluation, and Management of High Blood Pressure in Adults: A Report of the American College of Cardiology/American Heart Association Task Force on Clinical Practice Guidelines // J Am Coll Cardiol, 2018, v.71, p. e127-e248
8. Диченскова А.М. Гимнастика для гипертоников. - М.: Феникс, 2016, 373 с.
9. Заботина Н. Гипертония. Исцеление травами. - М.: Ареал Принт, 2019, 160 с.
10. Иванова В. Давление под контролем. - М.: Газетный мир «Слог», 2014, 504 с

11. Poulter N.R. Can we improve BP controlrates? Lessons from the Health Survey for England 2006 // Medicogaphia, 2010, v.32 (3), p. 227-234
12. Wolf-Maier K., Cooper R.S., Banegas J.R. et al. Hypertension prevalence and blood pressure levels in 6 European countries, Canada, and United States // JAMA, 2003, v.289, p.2363-9
13. Havranek E.P., Mujahid M.S., Barr D.A. et al. American Heart Association Council on Quality of Care and Outcomes Research, Council on Epidemiology and Prevention, Council on Cardiovascular and Stroke Nursing, Council on Lifestyle and Cardiometabolic Health, and Stroke Council. Social determinants of risk and outcomes for cardiovascular disease: a scientific statement from the American Heart Association // Circulation, 2015, v.32, p.873-98
14. Rodriguez F., Ferdinand K.C. Hypertension in minority populations: new guidelines and emerging concepts // Adv Chronic Kidney Dis., 2015, v.22, p.145–53
15. Howard G., Lackland D.T., Kleindorfer D.O. et al. Racial differences in the impact of elevated systolic blood pressure on stroke risk // JAMA Intern Med., 2013, v.173, p. 46-5
16. Keita A.D., Judd S.E., Howard V.J. et al. Associations of neighborhood area level deprivation with the metabolic syndrome and inflammation among middle - and older-age adults // BMC Public Health, 2014, v.14, p.1319
17. Kershaw K.N., Diez Roux A.V. et al. Geographic variation in hypertension prevalence among blacks and whites: the Multi-Ethnic Study of Atherosclerosis // Am J Hypertens., 2010, v.23, p. 46-53
18. Whelton P.K., Carey R.M., Aronow W.S. et al. 2017 ACC/AHA/AAPA/ABC/ ACPM/AGS/APhA/ASH/ASPC/ NMA/PCNA guideline for the prevention, detection, evaluation, and management of high blood pressure in adults: a report of the American College of Cardiology/American Heart Association Task Force on Clinical Practice Guidelines // J Am Coll Cardiol., 2018, v.71, e127–248
19. Carey R.M., Muntner P., Bosworth H.B. et al. Prevention and Control of Hypertension JACC Health Promotion Series // JACC, 2018, v.72, N11, p.1278-9
20. Адашева Т.В., Задионченко В.С., Федорова И.В., Шахрай Н.Б. Резистентная vs неконтролируемая артериальная гипертензия: тактика назначения антигипертензивной терапии // Consilium Medicum, 2017, №5, с.20-26
21. Persu A., Jin Y., Baelen M. et al. Eligibility for renal denervation: experience at 11 European expert centers // Hypertension, 2014, v.63, p.1319-25
22. Garrison S.R., Kolber M.R., Korownyk C.S. et al. Blood pressure targets for hypertension in older adults // Cochrane Database Syst Rev., 2017, v.8, Cd011575
23. Krämer B.K., Hausberg M., Sanner B. et al. Blutdruckmessung und Zielblutdruck // Dtsch med Wochenschr, 2017, v.142, p.1446-7
24. Whelton P.K., Carey R.M., Aronow W.S. et al. Guideline for the prevention, detection, evaluation, and management of high blood pressure in adults // Hypertension, 2017, v.71, p. 1269-324.

Xülasə

Arterial hipertenziyanın profilaktikası və tənzimlənməsinin müasir konsepsiyaları

G.Ç. Əliyeva, E.S.Rəhimova

Məqalə müasir dövrdə arterial hipertoniyanın diaqnostikası və profilaktikası məsələlərinə həsr edilmişdir. Müəlliflər bu xəstəliyin diaqnozu və müalicəsinin yeni perspektivli yollarını tədqiq etmişlər. Müəllifin fikrincə, arterial hipertoniyanın ilkin profilaktikası ilk növbədə risk faktorlarının müəyyən edilməsinə və onlardan istifadənin azaldılmasına yönəldilməlidir. Hipertenziyalı xəstələrin müalicəsinin taktikası fərdi olaraq müəyyən edilir və həyat keyfiyyətinin yaxşılaşdırılmasına, xəstəliyin əlamətlərinin aradan qaldırılmasına yönəldilmişdir. Qeyd etmək lazımdır ki, bənzər terapevtik yanaşma hazırda bütün ürək-damar xəstəliklərinin müalicəsində istifadə olunur: strategiya sağ qalma tezliyini artırmaq və ölüm fazini azaltmaq.

Summary

Modern provision of prevention and treatment of arterial hypertension

G.Ch.Aliyeva, E.S.Rahimova

The article deals with the issues of diagnosis and prevention of arterial hypertension in the modern period. The author studies new promising ways for the diagnosis and treatment of this disease. According to

the author, the primary prevention of arterial hypertension should be aimed primarily at identifying risk factors and reducing their use. The tactics of treating patients with hypertension is determined individually and is aimed at improving the quality of life, eliminating the symptoms of the disease. It should be noted that a similar therapeutic approach is currently used in the treatment of all cardiovascular diseases: the strategy is to improve survival and mortality, and the tactic is the elimination of symptoms.

Daxil olub: 24.05.2022

Ətraf mühit təsirindən yaranmış patologiyalar

G.Q.Qarayeva
Azərbaycan Silahlı Qüvvələrinin Mərkəzi hospitalı Milli Müdafiə Universiteti, Bakı

Açar sözlər: ətraf mühit, atmosfer, patologiyalar, ekoloji amillər
Ключевые слова: окружающая среда, атмосфера, патологии, экологические факторы.
Key words: environment, atmosphere, pathologies, ecological factors

Ətraf mühitlə orqanizm arasında ayrılmaz təmas mövcuddur. İnsan xarici mühitdən qəbul etdiyi oksigen və qida maddələri vasitəsilə daxili mühit tələbatını ödəyir və bununla da canlı orqanizmin həyat fəaliyyətini təmin edir. Belə ki atmosfer havasından qəbul etdiyi oksigen vasitəsilə orqanizmdə gedən mübadilə prosesini, oksidləşmə reduksiya reaksiyalarını başa çatdırmaqla hüceyrələrin fəaliyyəti üçün lazım olan mühiti tarazlayır.

Xarici mühitdən qəbul etdiyi qida məhsulları isə həzm traktında parçalanaraq orqanizmi energetik resurslarını yaradır. Qida məhsullarının parçalanması nəticəsində əmələ gəlmiş energetik maddələr o cümlədən minerallar, mikroelementlər, vitaminlər qana toplanaraq orqanizmə yayılır və hüceyrələrin normal fizioloji fəaliyyətini tənzimləyir.

Ətraf mühit insan orqanizminin fizioloji fəaliyyətinin təmin olunmasında vacib rol oynaması ilə yanaşı insan sağlamlığına neqativ təsir göstərən amillərin ön sırasında durur [1,2]. Ətraf mühitin çirkləndirilməsinin qarşısını almaq üçün çox ciddi dövlət tədbirlərinin həyata keçirilməsinə baxmayaraq ətraf mühit mütamadi olaraq çirklənməyə məruz qalır və son 10 ildə yüksək sürətlə intensivləşərək onun insan orqanizminə neqativ təsiri daha da güclənmişdir [3,4]. Bu hal Rusiya Federasiyasında daha acınacaqlı vəziyyət almışdır. Hökümət tərəfindən verilən rəsmi açıqlamada [5], Buryatiya Respublikasında, Xabarovski diyarında, Taymır avtonom vilayətində əhalinin 12%-i atmosfer katastrofu baş vermiş ərazilərdə yaşamağa məcbur olduqları bildirilir.

Aparılan elmi araşdırmalar sübuta yetirmişdir ki, atmosferin çirklənməsi multifaktorial prosesdir. İlk növbədə atmosferin çirklənməsi urbanizasiya ilə bağlıdır [6,7]

Son illərin tədqiqatları atmosferə toplanan zərərli maddələrin tərkibində ağır metalların da olmasını təsdiq edir. Azərbaycan Tibb Universitetinin Elmi-Tədqiqat Mərkəzində bu istiqamətdə maraqlı təcrübələr aparılmış və ağır metalların orqanizmin humoral və immun sisteminə neqativ təsiri sübuta yetirilmişdir [8,9,10,11].

Atmosferdə gedən katostrofik dəyişikliklərin əsas səbəblərindən biri iri sənaye müəssisələrinin açılmasıdır [12]. Sənaye müəssisələrinin inkişafı yeni texnologiyaların tətbiqi, atmosferə benzoprein, kükürd oksidi, amiak, fenol, azot oksidinin və ağır metalların toplanmasına səbəb olur. Hazırda qara və əlvan metallurgiya, kimya və neft kimya, selloz-kağız sahəsi atmosferi çirkləndirən amillərin 80%-ni təşkil edir və stasionar çirklənmə mənşəyi hesab olunur [13,14,15].

Atmosfer havasının çirklənməsində avtonəqliyyat vasitələrinin işlənməsi nəticəsində əmələ gəlmiş qazların da xüsusi rolu vardır. Yanacaqla işləyən avtonəqliyyat vasitələrinin atmosferə buraxdığı qara tüstü ilə ətraf mühitə yayılmış qazların və ağır metallar insan orqanizminə daha ciddi zərərli təsir göstərir [16]. Müəyyən edilmişdir ki, həmin toksiki maddələrin təsiri nəticəsində qanın laxtalanma müddəti sürətlənir və damarlarda trobun yaranma ehtimalını reallaşdırır. Bununla bağlı olaraq mütəxəssislər elektriklə işləyən avtonəqliyyat yaratmaq üzərində çalışmış və müasir dövrdə artıq bu növ nəqliyyat vasitələrindən geniş istifadə etmək imkanı yaranmışdır. Artıq əhali hibrid tipli (yanacaq və elektriklə) minik avtomobillərindən elektriklə işləyən "Samakat"lardan istifadə edirlər. Lakin bu tipli nəqliyyat vasitələri də özünəməxsus qaydada ekoloji mühitə neqativ təsir göstərir [17].

Ю.Л.Копытенко с соавт., (2006) müəyyən etmişdir ki, elektriklə işləyən nəqliyyat vasitələrinin sıx hərəkəti olan yaşayış məntəqələrində ultra aşağı tezlikli maqnit sahəsi nəqliyyat vasitələri sıx olmayan şəhər və kəndlərlə müqayisədə 3,5 dəfə artıqdır [17].

Bütün bunlar göstərir ki, hər hansı bir texnoloji prosses ekoloji mühitə neqativ təsirdən xalı deyildir.

Lakin bütün bunlara baxmayaraq müasir həyatımızı elektrik enerjisiz düşünmək qeyri-mümkündür. Çünki, insanın həyat keyfiyyətlərinin yaxşılaşdırılmasında elektrik enerjisi vacib rol oynayır. İstər elmin inkişafını, istər istehsalatı və eləcə də məişətimizi elektrik enerjisiz təsəvvür etmək mümkün deyildir. Bununla bağlı olaraq ekoloji təhlükəsiz və etibarlı enerji ilə əhalini təmin etmək bu elm sahəsində çalışan alimlərin əsas prioriteti olmuşdur. Xüsusilə bu məsələnin həlli işğaldan azad olunmuş Qarabağ torpağında günün tələbinə çevrilmişdir [18].

Müəyyən edilmişdir ki, hər bir elektrik stansiyası gücündən 3 dəfə artıq elektromaqnit sahəsi ilə əhatə olunmuşdur. Bu isə biosferaya fasiləsiz olaraq maqnit dalğalarının toplanmasına və eyni zamanda mikrodalğaların sıxlığına səbəb olur.

Bu gün kompyuter texnikasının və eləcə də mobil telefonların geniş istifadəsi də elektromaqnit dalğalarının atmosferə yayılma səbəbi kimi dəyərləndirilir. Bütün bunlar əlaqəli şəkildə toplanaraq ətraf mühitdə gərginlik yaradırlar. Yaranmış gərginlik təbii ki, canlı orqanizmin normal funksiyasının pozulması ilə nəticələnir [19,20].

Muəyyən edilmişdir ki, toz tutan sistemi olmayan güclü elektrik stansiyaları ətrafa çoxlu miqdarda toz səpələyir. Müəyyən zaman çərçivəsində tozun tərkibində olan toksiki maddələrin konsentrasiyası artır və həmin ərazidə yaşayan insanların tənəffüs yollarını qıcıqlandıraraq tənəffüs sisteminin müxtəlif xəstəliklərini o cümlədən bronxitin, emfizemanın, astmanın, silkozun etioloji amilinə çevrilir. Bu xəstəlik uşaqlarda daha tez inkişaf edir və əksər hallarda onların əlilliklərı ilə nəticələnir. Məsələyə bu prizmadan yanaşdıqda adları çəkilən ekoloji xəstəliklər sosial xarakter daşıması aydın görünür.

Müşahidələrin nəticələri əsasında bəlli olmuşdur ki, bu sayaq elektrik stansiyası yerləşən yaşayış məntəqələri və iri sənaye şəhərlərinin üzərində hava durğunluğu qatı duman şəklində olur. Bu atmosfer havasının həddən artıq çirklənməsinin nəticəsində meydana gəlir. Qatı duman tüstü və qaz tullantılarından toplanmış, yüksək qatılıqlı aerozoldan ibarətdir. Onların əksəriyyəti toksiki təsirə malik maddələr olub hava vasitəsilə orqanizmə daxil olaraq tənəffüs sisteminin vacib hissəsi olan qırtlağın selikli qişasını qıcıqlandırmaqla yanaşı bəzi hallarda səs tellərinin spazmını da yaratmış olur. 0,6-1,0 mkm ölçüdə olan hissəciklər isə ağciyər alveollarına daxil olub, oradan qana sorulur. Bəzi hissəciklər isə limfatik düyünlərə toplanır.

Atmosfer havasını çirkləndirən maddələr nəinki tənəffüs sistemini, digər üzvlərin də zədələnməsinə səbəb olur. Onların əksəriyyəti toksiki maddə olduğu üçün dəri və selikli qişaya çökür və orqanizmin dərin qatlarına keçmə ehtimalı artır.

Ekoloji mühitin çirklənməsində müharibələr və ondan törənmiş yanğınlar xüsusilə meşə yanğınları xüsusi rol oynayır. Müharibələr zamanı müxtəlif çaplı silahlardan açılan atəşlərdən, mərmi və minaların partlamasından əmələ gəlmiş qazlar atmosferə toplanırlar. Bizim apardığımız tədqiqatların nəticəsində müəyyən edilmişdir ki, bu qazlardan biri olan hidrogen sulfid qazının qatılığı artdıqca mərkəzi sinir sisteminə güclü təsir göstərərək yaddaşın və digər davranış reaksiyalarının pozulmasına səbəb olur [21].

Müxtəlif çaplı silahlardan atılan atəş nəticəsində havaya orqanizm üçün zərərli qazların yayılması ilə yanaşı ətraf mühitdə radioaktiv şüaların da toplanmasına səbəb olur [22].

Müharibələr zamanı açılan atəşlər təbii ki, müxtəlif miqyaslı yanğınlarla nəticələnir. Yanğınlar zamanı əmələ gələn müxtəlif tərkibli qazlarda ətraf mühitdə güclü katastrofik dəyişikliklərə səbəb olur.

Atmosfer havasının çirklənməsində kənd təsərrüfatında müasir texnologiyaların tətbiq olunması da vacib rol oynayır. Ərzaq bolluğu yaradılması məqsədilə yeni tipli istixanaların qurulması, ziyanvericilərə

qarşı kimyəvi maddələrin işlədilməsi, məhsuldarlığı artırmaq məqsədilə müxtəlif sintetik gübrələrin tətbiqi və s. ətraf mühitdə müxtəlif kimyəvi birləşmələrinin sıxlığını yaradır.

Torpağın gübrələnməsi nəinki yer səthində eyni zamanda onun dərin qatlarında da insan sağlamlığı üçün təhlükə törədir. Belə ki, yerin dərin qatlarına nüfuz edən kimyəvi birləşmələr suya qarışaraq çirkləndirməklə həmin maddələrin insan orqanizminə daxil olmasına şərait yaradır.

Bütün bu göstərilən səbəblərin sayəsində ekoloji mühitin dəyişməsi onun canlı orqanizmə zərərli təsiri o dərəcəyə çatmışdır ki, onunla mübarizə aparmağa bütün bəşəriyyəti cəlb etmək məqsədilə müxtəlif adlar altında ("Klimat günləri", "Yer günləri", "Beynəlxalq ətraf mühit günləri") tədbirlər keçirilir. Bu kimi tədbirlərin keçirilməsində əsas məqsəd baş verə biləcək ekoloji katastrofun qarşısını almaqda bəşəri birlik yaratmaqdır.

Müəyyən edilmişdir ki, xarici mühitlə orqanizmin daxili mühiti arasında olan əlaqə xaotik deyil müəyyən bir tarazlıq çərçivəsindədir. Bu tarazlığın pozulma dərəcəsindən asılı olarq orqanizmin fizioloji halı dəyişir. Daxili mühitlə xarici mühit arasında tarazlığın yüngül dərəcədə pozulduğu hallarda orqanizmdə mübadilə prosesi, oksidləşmə reduksiya reaksiyaları, hormonal və mediator sistemi dəyişərək qeyri-adekvat dəyişiklikləri kompensasiya etməklə normal fizioloji hala salmağa çalışır. Bu mərhələdə insanların qan təzyiqi yüksəlir, ürək vurğuları ilə tənəffüsün sayı artır, sinir sistemi və görmə funksiyasında yüngül dəyişikliklər qeydə alınır.

Xarici mühitlə daxili mühit arasında olan tarazlığın kəskin şəkildə pozulması isə artıq orqanizm dekompensasiya mərhələsinə keçid alır. Bu zaman orqanizmin pozulmuş funksiyaları fizioloji çərçivədən çıxıb, patoloji reaksiyalarla əvəz olunur. Ürək-damar, endokrin, sinir və həzm sistemində mövcud olan xroniki xəstəliklər kəskinləşir, hətta ölüm həddinə çatır.

Rəsmi məlumatda göstərildiyi kimi hər il 7 milyon insan atmosfer havasının çirklənməsi üzündən dünyasını dəyişir. Təxminən bir o qədər şəxsin xroniki xəstəliyi kəskinləşir və eləcə də subkliniki xəstəlikləri inkişaf edir ki, bu da ölümün baş verməsində aparıcı rol oynayır [23,24].

И.Г.Зорина, В.В.Макаров [12] sübuta yetirmişlər ki atmosfer havasının kimyəvi substansiyalarla (karbon oksidi, azot oksidi, formaldehid, benzol, etil benzol, kadmiy, nikkel, xrom, fenol, dihidrosulfid, kükürd dioksidi, ammiak) çirklənməsi aşağıdakı xəstəliklərin inkişafının əsas amilidir.

Xarici mühitin insan sağlamlığıma neqativ təsiri bir sıra amillərdən asılıdır. Bu amillər içərisindən atmosfer havasının tez-tez dəyişməsi və ya deyildiyi kimi aklimatik hava mühüm əhəmiyyət kəsb edir. Bu amilə helio- və hemimaqnit oyanmaları da qoşulduqda ekstremal vəziyyət yaranır və insan sağlamlığına ciddi neqativ təsir göstərir. Bu neqativ təsirə dözümlülük individual xarakter daşıyır. Ürək-damar sistemi, sinir sistemi, endokrin sistemi xəstə olan insanlar atmosferdə yaranmış ekstremal vəziyyətə uyğunlaşmaqda çətinlik çəkir. Ona görə də ətraf mühitin kəskin dəyişməsi zamanı bu qəbildən olan xəstələrdə xəstəliyin kəskinləşmə ehtimlı yüksəlir və hətta ölüm hadisəsi artmış olur.

Göstərilən rəsmi məlumatda qeyd edildiyi kimi 2019-cu ildə atmosferə tullanan diokid 33,3 giqatona bərabər olmuş və yer kürəsində 7 milyon insan havanın çirklənməsindən irəli gələn xəstəlikdən dünyasını dəyişmişdir [23].


Müəyyən edilmişdir ki, ekoloji amillərin insan sağlamlığına neqativ təsir gücü ekoloji şəraitin çirklənmə masştabından asılıdır.

Masştabına görə ekoloji çirklənmə 3 dərəcəyə ayrılır.

1. Qlobal ekoloji çirklənmə: bütövlükdə cəmiyyəti əhatə edir.
2. Regional ekoloji çirklənmə: həmin regionda yaşayan əhali üçün təhlükə yaradır.
3. Lokal ekoloji çirklənmə: ayrı-ayrı şəhər və ya kənd əhalisinin sağlamlığına ciddi zərər yetirir.

Müasir tibb elminin sürətlə inkişaf etməsinə baxmayaraq ekoloji vəziyyətdən asılı olan xəstəliklərin müalicəsində əldə etdiyi müvəffəqiyyətlər lazımı səviyyədə deyildir.

Ekoloji mühitin çirklənməsi nəticəsində insan orqanizmində baş vermiş dəyişikliklər vaxtında aşkar edilmir. Bir sıra xəstəliklərin o cümlədən ionlaşdırıcı şüaların təsirindən inkişaf edən xəstəliklərin müalicəsi demək olur ki, qeyri-qənaətbəxş vəziyyətdədir. Bunun əsas səbəblərindən biri də ekoloji mühitin törətmiş olduğu xəsətliklərin müalicəsi üçün ixtisaslaşdırılmış tibb mütəxəssislərin olmamasıdır. Bu günki vəziyyət yəni ətraf mühütin tez-tez dəyişməsi və onun çirklənmə ehtimalının sürətlə artması geotibb sahəsi üzrə mütəxəssislərin hazırlanmasının vacib olduğunu bir daha sübuta yetirir. Bu mütəxəssislərin tədqiqat obyekti insan və onu əhatə edən ətraf mühit olub, ətraf mühitin yaxşılaşdırılmasına, insan sağlamlığının qorunmasına və onun həyat keyfiyyətlərinin yaxşılaşdırılmasına yönəlməlidir.



Ekoloji təbabət üzrə hazırlanmış tibb mütəxəssis ekoloji mühitdən asılı olaraq kənd təsərrüfatında baş vermiş dəyişikliklər haqqında da məlumatlandırılmalıdır. Çünki, ekoloji mühitin pisləşməsi kənd təsərrüfatı məhsullarının bolluğuna ciddi ziyan gətirməklə yanaşı onların keyfiyyətini də kəskin şəkildə aşağı salır və həmin mühitdə yetişən qida məhsullarının qəbulu insan sağlamlığını təhlükə altında qoyur. Ona görə də geotibb mütəxəssislərinin apardıqları tədqiqatlar və elmi araşdırmalar iqtisadçılar, geofiziklər və kənd təsərrüfatı mütəxəssisləri ilə birgə aparılmalıdır.

Azərbaycanda da ekologiyanı qorumaq məqsədilə inteqrativ tədqiqat işlərinin aparılması olduqca vacibdir.

Erməni faşistlərinin Qarabağı işğal altında saxladığı müddətdə törətdiyi yanğınlar, torpaqda basdırdıqları minaların partlaması və eləcə də qarabağın azadlığı uğrunda aparılan müharibə zamanı istifadə olunan yeni texnologiyalı silahlar ətraf mühitə ciddi ziyan gətirmiş və onun kəskin çirklənməsinə səbəb olmuşdur.

Ətraf mühitin insan orqanizminə, iqtisadiyyata neqativ təsirini araşdırmaq və onun sağlamlaşdırılması üçün müxtəlif elm sahəsi mütəxəssisləri bir araya gəlməli və kompleks tədqiqat planı hazırlanmalıdır. ***Bu baxımdan 2022-ci ilin 24-25 fevral tarixli "Postkonflikt vəziyyətlərdə yenidənqurma və ya bərpa" mövzusunda II Beynəlxalq Konfransının keçirilməsi təqdirə layiqdir və müharibədən sonra baş vermiş ekoloji mühitin saglamlaşdırılması istiqamətdə atılan ilk addım kimi dəyərləndirilməlidir. Lakin bu problemin həllində*** Rusiya Federasiyasında olan təcrübədən yararlanmaq faydalı olardı.

2010-cu ildə RF-də iqlimin kəskin şəkildə dəyişməsi sayəsində ekstremal vəziyyətə çatan isti yay

günləri baş vermişdir. Bununla bağlı olaraq Rusiya Elmlər Akademiyası dövlət səviyyəsinə çıxaraq 2011-ci ildə akademik E.İ.Çazovun təşəbbüsü ilə geniş miqyaslı elmi tədqiqat layihəsi hazırlamış və layihənin icrası Səhiyyə Nazirliyinə, Elmlər Akademiyasına, Lomonosov adına Moskva Dövlət Universitetinə, Rusiya Hidrometrologiya komitəsinə həvalə etmişdir. Adı çəkilən təşkilatların əməkdaşlarından ibarət qrup yaradılmış və layihə üzrə tədqiqat işi aparılmışdır (Доклад Вице-Президент Российский АН академик А.И.Григорьев).

Ətraf mühitin çirklənməsində ionlaşdırıcı və qeyri-ionlaşdırıcı şuallar da vacib rol oynayır. Sivilizasiyanın yüksək pilləsi olan müasir dövrdə hər iki növ şüalanma həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. İstehsalatda, məişətdə və eləcə də tibbdə yer alan müasir texnologiyaların əksəriyyəti şüalanma mənbəyi kimi qəbul olunmuşdur. Son 50 ildə radiolokasiya stansiyalarından 24 saat müddətində şüalanmanın gücü 50 min dəfə artmışdır [25]. Bunun əsas səbəblərindən biri də yer kürəsində yeni elektrik enerji mənbələrinin tikilməsidir.

Məlumdur ki, hər bir elektrik stansiyası gücündən 3 dəfə artıq elektromaqnit sahəsilə əhatə olunmuşdur. Bu isə biosferaya sonsuz maqnit dalğalarının toplanmasına və eləcə də mikrodalğalar sıxlığına səbəb olur.

Bu gün kompüter texnikasının və eləcə də mobil telefonların geniş istifadəsi də elektromaqnit dalğalarının atmosferə yayılma səbəbi kimi dəyərləndirilir.

Bütün bunlar əlaqəli şəkildə toplanaraq ətraf mühitdə gərginlik yaradırlar. Ətraf mühitdə yaranmış gərginlik isə oz novbəsində canlı orqanizm normal funksiyasının pozulmasına səbəb olur [19,20].

Ədəbiyyatda atmosfer havasının çirklənməsindən irəli gələn patologiyalar haqqında xeyli tədqiqat işlərinin nəticələri haqqında yazırlar vardır [26,27,28].

Belə ki, aparılan monitorinqlər nəticəsində müəyyən edilmişdir ki, atmosfer havasının toksiki maddələrlə zəngin olduğu yaşayış məntəqələrində məskunlaşmış əhali arasında arterial hipertoniya geniş yayılmışdır [12].

Mütəxəssislərin fikrincə çirklənmiş atmosfer havasında toplanmış toksiki maddələrin təsirindən sinir sisteminin tənzimləyici funksiyası pozulur və bu səbəbdən də arterial təzyiqin səviyyəsi qeyri-stabil olur.

Qarabağın işğaldan azad edilmiş ərazisində atmosfer havasında hidrogen sulfid qazının qatılığının normadan çox yüksək olmasını nəzərə alaraq biz Azərbaycan Tibb Universitetinin Elmi-Tədqiqat Mərkəzində çəkisi 18-22 qr arasında olan 30 baş ağ siçovul üzərində təcrübələr apardıq. Onlar xüsusi kamerada müxtəlif dozada və müxtəlif müddətlərdə hidrogen sulfid qazı ilə tənəffüs etdirilmişdir. Açıq sahə testi vasitəsilə təcrübə heyvanlarının davranış reaksiyaları qiymətləndirilmişdir. Apardığımız təcürbələrin nəticəsində müəyyən etdikdə hidrogen sulfid qazının dozası artdıqca mərkəzi sinir sistemi daha çox süstləşmiş və xarici qıcıqlara cavab reaksiyası ləngimişdir [23].

Ətraf mühitin xüsusilə də atmosfer havasının çirklənməsi insanların genofondu üçün də təhlükəlidir. Belə ki, atmosfer havasına toplanmış toksiki maddələrin təsirindən reproduktiv sistemdə gedən dishormonik dəyişikliklərin nəticəsində anadangəlmə qüsurla doğulan uşaqların sayı digər regionlarla müqayisədə yüksəkdir. Vaxtından əvvəl doğulan, ölü dölün doğulmasının əsas səbəblərindən biri ətraf mühitdə gedən katastrofik dəyişikliklərdir [29].

Ədəbiyyat məlumatlarını nəzərdən keçirdikcə belə bir qənaətə gəlirik ki, dövlətin qarşısında duran əsas problemlərdən biri insan sağlamlığına nəzarəti gücləndirməklə xəstəliyin. əlilliyin və ölümün qarşısını almaq, cəmiyyət üçün vacib olan genofondu qorumaqdır. Bu məqsədlə insan sağlamlığına neqativ təsir göstərən amillər araşdırılır və onların aradan qaldırmaq üçün müxtəlif tədbirlər hazırlanır və həyata keçirilir. Artıq sübuta yetirilmişdir ki, insan sağlamlığına təsir göstərən əsas amillərindən biri ətraf mühitin qlobal xarakterli çirklənməsidir.

Görülən tədbirlərə baxmayaraq ətraf mühitin çirklənməsinin qarşısını almaq mümkün deyildir. Çünki cəmiyyətin sivilizasiyası yeni texnologiyaların tətbiqi, sənaye və kənd təsərrüfatının sürətli inkişafı və s. ətraf mühit mütəmadi olaraq çirkləndirəcəkdir. Bununla bağlı olaraq çirklənmiş ətraf mühitcanlı orqanizmə neqativ təsir göstərməklə yaratmış olduğu patologiyanın profilaktikasını hazırlamaq daha məqsədəuyğundur.

ƏDƏBİYYAT

1. Гурович В.Б., Кузьмин С.В, Ярущин С.В., и др. Методические подходы к обеспечению санитарно - эпидемиологического благополучия на основе методологии управления риском для здоровье населения // Гигиена и санитария 2015, № 94 (2), с.82-90

2. Ревич Б., Терентьев Н. Зеленая среда мегаполисов как фактор сбережения здоровья // Проблемы теории и практики управления 2018, № 9, с.38-44

3. Стрельникова Т. Влияние климатических изменений на заболеваемость населения и экономическое развитие регионов //Экономист 2018, № 2, с.34-43.

4. Nağıyev C.Ə., Əhmədov B.F., İlyasov N.N. və b., İşğaldan azad olmuş ərazilərin ilkin radioloji tədqiqatların nəticələri // Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin II Beynəlxalq Konfransının Materialları. Bakı 2022, c.38-480-86.

5. Государственный доклад «О состоянии и об окружающих среды Российский федерации в 2017 году» М. 2018. 23 с.

6. Вирж Л. Урбанизация как образ жизнь. М., 2018.

7. Ковальжина Л.С. Концепция «Здоровье города» и здоровье сберегающее поведение городского населения социологический анализ // Урбанистика 2020, № 1, с. 1-10.

8. Vəliyeva Z.Y., İsmayılov Y.B., Rzaquliyeva D.M., İsmayılova A.T. Ağır metalın qalxanabənzər vəzin çatışmazlığında orqanizmin immun statusuna təsiri /Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan Otorinolarinqologiya üzrə Beynəlxalq Elmi-Praktik Konqres materialları, Bakı, 2018, s.93-94.

9. Гулиева С.В., Керимова Р.Дж., Юсифова М.Ю. Влияние тяжелых металлов на биохимические процессы в организме человека // Журнал «Академу» 2018, № 12 (39), с.711-75. Импакт фактор 0,19.

10.İsmayılov Y.B., Cəfərova Q.K., Quliyev N.O. Orqanizmin hormonal statusuna ağır metalın təsiri /Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan Otorinolarinqologiya üzrə Beynəlxalq Elmi-Praktik Konqres materialları, Bakı, 2018, s.97.

11.Garayev G.Sh., Khalilov V.H., Müseyibov F.M., Guliyeva S.V. Patological changes in liver tissue during chronic poisoning with cadmium ions in eksperimental conditions. /Karadeniz, Uluşlararası multidisipliner çalışmalar kongresi, Giresun, 15-17 mart, 2019, p.470-475.

12.Зорина И.Г., Макарова В.В. Социально-гигиенический мониторинг как основа управления в контрольно – надзорной деятельности Роспотребнадзора // Гигиена и санитария 2020, № 99, с.43-52.

13.Довгуща В.В., Довгуща Л.В. Электромагнитные поля. Роль и механизмы контроля над сознанием и заболеваемостью //Медицина экстремальных ситуаций 2008, № 8 (24), с.49-59.

14.Əliyev E.Ə., Hüseyinov R., Bəkirova V.Y. Respublikada armatur istehsalının ekoloji problemləri və məhsulun qiymətinə təsir edən amillərin araşdırılması // Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin II Beynəlxalq Konfransının Materialları. Bakı 2022, c.8-13.

15.Səmədov Ş.X., Fətullayeva S.F., Baxışlı F.Q. Neft rezervuarları parkı – az intensivlikli radiasiya mənbəyi kimi //Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin II Beynəlxalq Konfransının Materialları. Bakı 2022, c.38-42.

16.Qədirova E.M. Ekoloji problemlərin həllində fotokimyavi reaksiyaların rolu //Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin II Beynəlxalq Konfransının Materialları. Bakı 2022, c.91-96.

17.Копытенко Ю.А., Птицына Н.Г. Загрязнение городской среды ультранизкочастотными магнитными полями от электротранспорта // IV Международный конгресс: Погода и биосистемы СПБ., 2006, 85 с.

18.Məmmədova T.A., Abbasov M.M., Tağıyeva A.F., Səfərli İ.A. Tərkibində 5-15% yağ turşularının butil efirləri olan əmtəə dizel yanacaqlarının keyfiyyət göstəricilərinun və tüstü qazlarının tərkibinin tədqiqi //Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin II Beynəlxalq Konfransının Materialları. Bakı 2022, c.135-142.

19.Васильева Т.И., Сароковаша Щ.Ю. Влияние электромагнитного поля сотового телефона на организм человека в зависимости от возраста //Вестник Сам. ГУ, Естественно – Научная серия. 2012, № 3 (2), с.29-36.

20.Бабаев Х.Ф., Садыхзаде Р.А., Гаджиева Б.Х. Влияние электромагнитных волн низкой интенсивности на радиационные поражения мозга // Седьмой Международный Междисциплинарный Конгресс: Нейронаука для медицины и психологии. Крым, 2011, с.73-74.

21. Axundov R.Ə., Qarayeva G.Q., Babaxanova A.N. Atmosferə yayılan hidrogen sulfid qazının mərkəzi sinir sisteminə təsiri // Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin II Beynəlxalq Konfransının Materialları. Bakı 2022, c.180-184.

22. Rəhimov V.A. Qarabağın bölgələrinin ekoloji təmiz və etibarlı elektrik enerjisi təminatının prespektivləri //Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin II Beynəlxalq Konfransının Materialları. Bakı 2022, c.299-303.

23. 7 миллионов смертей ежегодно связаны с загрязнением воздуха. Всемирная организация здравоохранения Available at: https://www.who.int/ru/news- room/detail/25-03-2014-7-million-premature-

deaths-annuallv-linked-to-air- pollution (accessed 03.06.2020).

24. Джеков-с Дж. Смерть и жизни больших американских городов. М. 2015. С.156.

25. Иванов В.Л., Чибисова О.Ф. Палыга Г.Ф. Экспериментальная оценка комбинированного действия радиации и внешней гипотермии на радиочувствительность овоцитов по показателям беременности и развитию потомство двух поколений крыс // Радиация и риск, 2011, Т 20, №4, с.54-63.

26. Аклеев А.В. Реакции тканей на хроническое воздействие ионизирующего излучения // Радиационная биология. Радиоэкология. 2009, Т. 49, № 1. с.5-20.

27. Латфуллин И.А.Основы поражающего действия ионизирующего излучения на организм человека. Учебное пособие Казань 2014, с.193.

28. Случанко Е.И. Патофизиологические механизмы при лучевой болезни. Псков. 2018. с.46.

29.Исупов В.А. Эпидемиологический переход в России: Взгляд историка // Демографическое обозрение, 2016, №3 (4), с.82-92.

Резюме
Патологии, вызванные воздействием окружающей среды
Г.Г.Гараева

Между окружающей средой и организмом существует неразрывный контакт. Человек удовлетворяет потребности внутренней среды за счет кислорода и питательных веществ, которые он получает из внешней среды, обеспечивая тем самым жизнедеятельность живого организма. Он уравновешивает среду, необходимую для жизнедеятельности клеток, завершая обменный процесс и окислительно-восстановительные реакции в организме за счет кислорода, который он получает из атмосферного воздуха. Несмотря на принимаемые меры, предотвратить загрязнение окружающей среды не удается. Потому что цивилизованность общества – это внедрение новых технологий, бурное развитие промышленности и сельского хозяйства и т.д. будет регулярно загрязнять окружающую среду. В связи с этим целесообразнее подготовить профилактику патологии, вызванной негативным воздействием на живой организм загрязненной среды. Принимая это во внимание, автор представил анализ литературы о влиянии факторов окружающей среды на здоровье.

Summary
Pathological, caused by exposure to the environment
G. G. Garayeva

There is an unbreakable contact between the environment and the organism. A person satisfies the needs of the internal environment due to oxygen and nutrients that he receives from the external environment, thereby ensuring the vitality of a living organism. It balances the environment necessary for cell activity, completing the exchange process and oxidation-reduction reactions in the body due to the oxygen it receives from atmospheric air. Despite the measures taken, environmental pollution cannot be prevented. Because the civilization of society is the introduction of new technologies, rapid development of industry and agriculture, etc. will regularly pollute the environment. In this regard, it is more expedient to prepare the prevention of pathology caused by the negative impact on the living organism of the polluted environment. Taking this into account, the author presented an analysis of the literature on the influence of environmental factors on health.

Daxil olub: 31.05.2022

Süd vəzi xərçəngi xəstələrində aksilyar limfatik metastazların radio-immunoloji xüsusiyyətləri

C.N. Axundova, N.V.Qasımov
Azərbaycan Tibb Universitetinin Onkoloji klinikası, Bakı

Açar sözlər: süd vəzisi xərçəngi, aksilyar limfa düyünləri, ultrasəs müayinəsi, süd vəzisi xərçənginin molekulyar yarımtipləri
Ключевые слова: рак молочной железы, подмышечные лимфатические узлы, ультразвуковое исследование, молекулярные подтипы рака молочной железы
Key words: breast cancer, axillary lymph nodes, ultrasound, molecular subtypes of breast cancer

Süd vəzi xərçəngi (SVX) geniş yayılmasına və ölüm hallarının artmasına görə Səhiyyə sisteminin ən aktual problemlərindən biridir. Statistik məlumatlara əsasən dünyada 2020-ci ildə 19,3 milyon insanda xərçəng aşkarlanmışdır və onun 2,3 milyonu (11,7%) məhz SVX-nin payına düşür [1]. SVX-dən ölüm halları bütün xərçəng xəstəliklərindən ölüm nisbətində 6,9% təşkil edir [2]. SVX qadınlar arasında bədxassəli şişlərlə xəstələnmənin strukturunda 1-ci yeri tutur. Faktiki olaraq hər 18 qadından birində SVX yaranır və bu xəstəlik kliniki təzahürlərinə və proqnozuna görə fərqlənir. Erkən diaqnostika üsullarının təkmilləşdirilməsi və sistemli qeyri-adyuvant kimyəvi dərman terapiyasının tədbiqi bu xəstələrin mülaicəsinin nəticələrini yaxşılaşdırmışdır. SVX-nin proqnozuna və müalicə taktikasına xəstənin yaşı, şişin molekulyar tipi və qoltuqaltı limfa düyünlərinə metastazlar əhəmiyyətli dərəcədə təsir göstərir [3]. Məlumdur ki, SVX əsasən limfogen yolla metastaz verir. Süd vəzisindən limfa axınında əsas rol qoltuqlatı limfa düyünlərinə məxsusdur, belə ki, bu limfa düyünləri süd vəzisinə məxsus limfa sisteminin 97%-ni təşkil edir [4]. Qoltuqaltı limfa düyünlərinə metastazın olması, onların sayı və lokalizasiyası SVX-nin patoloji mərhələsini müəyyən edir [5, 6]. Limfa düyünlərinə metastaz xəstəliyin residivinin və yaşama göstəricilərinin mühüm prediktoru hesab edilir. Belə ki, törəmə yalnız süd vəzisində lokalizasiya olunan pasiyentlərin 5 illik yaşama göstəriciləri 98,8% təşkil etdiyi halda, regionar limfa düyünləri zədələndikdə bu rəqəm 85,8%-ə qədər azalır [7]. SVX xəstələrində qoltuqaltı limfa düyünlərinin metastatik zədələnməsinin erkən dövrdə identifikasiyası xəstəliyin proqnozlaşdırılmasında, klinik gedişinin müəyyən edilməsində, müvafiq müalicə üsulunun seçilməsində böyük əhəmiyyət kəsb edərək lazımsız qoltuqaltı əməliyyatların və xəstəliyin ağırlaşmalarının qarşısını ala bilər.

Bu baxımdan aksilyar limfa düyünlərinə metastazların öyrənilməsi həm proqnostik, həm də müalicə sxeminin təyinində mühüm praktik əhəmiyyət kəsb edir [8]. İlk dəfə SVX xəstələrində aksilyar limfa düyünlərinə metastazlar sonoqrafik müayinə ilə 1984-cü ildə Bruneton İ. tərəfindən müəyyən edilmişdir [9].

Aksilyar limfa düyünlərinin sayı 15-dən 45-ə qədər ola bilər. Bu limfa düyünləri mürrəkkəb quruluşa malik olub, şiş hüceyrələrinin və iltihab amillərinin yayılmasında aktiv iştirak edirlər. Bədxassəli törəmələr zamanı şiş hüceyrələrinin ocaqdan limfa axarlarına doğru hərəkət etməsi nəticəsində ilkin olaraq aksilyar limfa düyünləri metastaza məruz qalır. Normada aksilyar limfa düyünlərinin ölçüləri bəzi ədəbiyyatlarda 5-10 mm, bir sıra müəlifflərə görə isə 1,5-2 sm arasında dəyişir. Hər hansə patoloji proses baş verərsə, onların ölçüləri, konsistensiyası və sıxlığı dəyişir [10-12]. SVX zamanı regionar, xüsusilə də aksillyar limfa düyünlərinin klinik-morfoloi dəyişikliklərinin öyrənilməsində şüa diaqnostika üsullarından geniş istifadə edilir [13]. Müasir dövrdə ultrasəs şüa diaqnostika metodu (USM) SVX zamanı aksillyar limfa düyünlərinin diaqnostikasında ən mühüm üsullardan biri sayılır. Həmişə ilkin baxış zamanı aksilyar limfa düyünlərinin zədələnmə dərəcəsini müəyyən etmək mümkün olmur, bu baxımdan limfa düyünlərinin biopsiyası bu patologiyanın mərhələsinin və şiş toxumsının yarımtiplərinin klassifikasiyasında standart prosedur kimi qəbul edilmişdir. Limfa düyünlərinin biopsiyası limfadenektomiya nəticəsində yaranan bu və digər mənfi halların sayını əhəmiyyətli dərəcədə azaltmışdır [14,15]. SVX zamanı aksillyar limfa düyünlərinin zədələnmə xarakterinin düzgün təyin edilməməsi aparılan müalicə metodlarının ardıcıllığının pozulmasına, xəstəliyin proqnozunun və xəstələrin həyat keyfiyyətlərinin pisləşməsinə səbəb ola bilər [16].

Müasir dövrdə SVX-nin erkən diaqnostikasında və süd vəzisi zonasında aksilyar limfa düyünlərinə metastazların müəyyən edilməsində USM metodu mühüm rol oynayır. USM, süd vəzisində və regionar limfa düyünlərində baş verən patoloji dəyişiklikləri müəyyən edən təhlükəsiz, az invaziv, yüksək informativ və praktik olaraq əks göstərişi olmayan bir üsuldur. USM Rentgen Mammoqrafiya (RM) ilə müqayisədə daha çox informativliyə malik olub, orqan və toxumaları real zaman daxilində müayinə etməyə imkan verir, RM müayinəsi ilə təyin edilə bilinməyən sıxlığı yüksək olan sahələri müəyyən edir. Bu metod aybaşı tsiklindən

və pasiyentin yaşından asılı olmadan tədbiq edilə bilər və əlavə şüa yükü olmadan dinamik müşahidələrin aparılmasına imkan verir [11, 17, 18].

USM müayinəsi qoltuqaltı limfa düyünlərinin qiymətləndirilməsi üçün istifadə edilən rutin və əsas vizualizasiya metodudur. Bundan əlavə, döş qəfəsinin MRT (maqnit rezonans tomoqrafiya) və KT (komputer tomoqrafiyası) müayinələri süd vəzilərinin daxili damarları və körüpücükaltı limfa düyünləri barədə əlavə məlumat verə bilər. Aparılan bir sıra müşahidələr göstərir ki, palpasiya olunmayan limfa düyünlərinin qiymətləndirilməsində USM–in həssaslığı 49-87%, spesifikliyi 55-97% təşkil edir. Bu metodun morfoloji meyarlara əsaslanan həssaslığı 26-76%, spesifikliyi isə 88-98% arasında dəyişir. Normal limfa düyünü oval formalı olub, kənarları dəqiq və hamar, qabıq qatı zəif hipoexogen və nazikliyi 3 mm və ya ondan nazik olmalıdır [12, 19].

1988-ci ildə Bonnema J. tərəfindən limfa düyünlərinin ölçülərinin 5 mm-dən böyük olması bədxassəliyin meyarı kimi təklif edilibdir. Onun göstəricilərinə görə, limfa düyünlərinə metastazların ultrasonoqrafik meyarlarının təyinində USM-in həssaslığı 87%, spesifikliyi isə 56% təşkil edir. Limfa düyünlərinin exostrukturunun (qabıq qatının qeyri-həmcins strukturu, exogenliyinin artması) pozulması kimi əlavə əlamətlərin olması isə USM-in spesifikliyni 95%-ə qədər artırır [9].

Məlumdur ki, limfa damarlarının divarları yarpaqşəkilli bir-birini örtən endotelial hüceyrələrdən ibarətdir. Limfa kapilyarlarında saya əzələ hüceyrələrinin, perisitlərin və bazal membranın olmaması onların xarakter xüsusiyyətidir və yüksək damar keçiriciliyini təmin edir. Şiş toxumasının inkişafı zamanı toxumalarda interstsial təzyiqin artması nəticəsində endotelial hüceyrələr genişlənir, yaranan məsamələr şiş hüceyrələrinin limfa damarlarına keçməsinə şərait yaradır. Bundan əlavə, limfa kapilyarlarının diametrinin qan damarları ilə müqayisədə böyük olması şiş hüceyrələrinin limfa damarlarında miqrasiyası üçün əlverişli şərait yaradır. Limfa damarlarında hipodinamik təzyiqin olmaması da metastatik fenotipli şiş hüceyrələrinin sərbəst hərəkətini təmin edir. Nəticədə yaranan limfogen disseminasiya limfa düyünlərinin metastatik zədələnməsinə səbəb olur [20].

Aparılan tədqiqatlar göstərir ki, limfa düyünlərinə metastaz riski yaş artdıqca azalır, belə ki, 35 yaşdan aşağı gənc pasiyentlərdə (44%) ən yüksək metastaz riski müəyyən edilibdir, 65 yaşdan yuxarı pasiyentlərdə isə (27,7%) bu risk daha aşağıdır. Aksilyar limfa düyünlərinə metastazların baş vermə tezliyi ilkin invaziv şişin ölçüləri ilə birbaşa korrelyasiya təşkil edir: ≤ 5 mm-dən kiçik şişlərdə aksilyar limfa düyünlərinə metastazlara 8,3%, 2 sm-dən yuxarı olan şişlərdə isə - 50,6% hallarda rast gəlinir. Belə ki, 0,5 sm-dən aşağı ölçülü şişlərdə aksilyar limfa düyünlərinə metastaz riski 2,3 dəfə, 0,5-1 sm olduqda 4 dəfə, 1-2 sm olduqda 7,6 dəfə yüksəkdir. T1 kateqoriyasında limfa düyünlərinə metastazlar 9,5%, T2 və T3-də isə, müvafiq olaraq 49,9% və 65,6% qeydə alınıbdır. Bundan əlavə, müəyyən edilibdir ki, invaziv axacıq karsinomalarında metastazvermə riski digər histoloji tiplərə (o cümlədən medulyar, musinoz və tubulyar axacıq karsinomaları) nisbətən daha yüksəkdir. Aksilyar limfa düyünlərinə yüksək metastaz riski 2-ci və 3-cü dərəcəli şişlərdə və proliferativ fraksiyası 16%-dən yüksək olan şişlərdə müşahidə edilir [21].

USM göstəricilərinə görə limfa düyünlərinin uzun oxunun qısa oxa diametrinin nisbəti < 2, qabıq qatının diffuz qalınlaşması >2,5-3 mm, qabıq qatının fokal qabarması >3 mm, qabıq qatının ekssentrik qalınlaşması >3 mm olduqda, eləcədə kürə formalı hipoexogen düyün, rəngli Dopler görüntüləmədə qeyri-hilar normal kortikal qan dövranı, mərkəzdə piy toxumasının tam və ya hissəsi azalması aksilyar limfa düyünlərinə metastaza şübhə hesab edilir. Bundan əlavə, rəngli dopler təsvirində limfa düyünün tam və ya hissəvi qeyri-düzgün formalı kütlə və mikroksalsifikatlarla əvəzlənməsi də limfa düyünlərinə metastazları ehtimal edə bilər. Metastaza uğramayan normal limfa düyünləri paxla formalı, maksimal qalınlığı 3 mm, fokal çıxıntısız, hamar konturlu olub, mərkəzi piy toplantıarı ilə müşayiət olunur [22, 23].

SVX zamanı şişin yayılması ilk növbədə törəməyə yaxın limfa düyünündə müşahidə edilir. Limfa düyünlərinə metastazın əsas simptomlarına onların ölçülərinin böyüməsi, qabıq qatının qalınlaşması, periferik vaskulyarizasiya, süd vəzisi daxilinə infiltrasiya və onların paxlaformalı quruluşunun dəyişilməsi kimi morfoloji anomaliyalar aid edilir. Uzun müddət davam edəm metastaz prosesi limfa düyünlərinin histoloji xüsusiyyətlərinin tamamilə dəyişilməsinə səbəb ola bilər. Şiş hüceyrələri limfa düyününün qabıq qatında yayılaraq onun daxili parenximasına və daxili qatının sinuslarına qədər proliferasiya edir, daha sonra isə efferent limfa damarlarına nüfuz edərək nəticədə düyündaxili arxitektonikanın pozulması ilə müşayiət olunur. Bundan əlavə, şişin qoltuqaltı piy toxumasına ekstranodal yayılması da baş verə bilər. Bir çox tədqiqatlarda süd vəzisinin xoşxassəli törəmələrində tək-tək patoloji aksilyar limfa düyünlərinə rast gəlinir və onların ölçüləri 2 sm-dən yuxarı olmur. Lakin süd vəzisinin bədxassəli törəmələrində bu ölçülər 2 sm-dən yüksək olur. Aparılan bir sıra tədqiqatlar göstərir ki, qoltuqaltı limfa düyünlərinin USM göstəriciləri ilə xəstəliyin klinik T-kateqoriyaları arasında asılılıq vardır. 52 nəfər SVX xəstəsinin USM müayinəsi zamanı

T0N1M0-dan T2N1M0-ə qədər olan mərhələdə metastatik limfa düyünlərinin ölçüləri 0,5-1,5 sm arasında dəyişmişdir. T3N1M0 mərhələsində olan 10 xəstədə isə limfa düyünlərinin ölçüləri əksər hallarda 2 sm-dən yüksək olmuşdur. Lakin limfa düyünlərinin ölçüləri metsatazların proqnozlaşdırılmasında çox aşağı diaqnostik əhəmiyyətə malikdir. Bu baxımdan limfa düyünün qabıq qatının morfoloji dəyişiklikləri, exogenliyi və vaskulyarizasiyası kimi digər patoloji əlamətlər də nəzərə alınmalıdır [24].

SVX olan xəstələrdə limfa düyünün qabıq qatının qalınlaşması onların reaktivliyi ilə əlaqədardır, belə ki, xəstəliyin bədxassəliyi ilə qabıq qatının qalınlığı arasında düz mütənasiblik vardır. Limfa düyünün qeyri-dəqiq sərhədləri və ətrafında perinodal ödemlərin aşkarlanması şişin ekstranodal yayılmasını göstərir, yüksək ölüm riskini və residivi proqnozlaşdırır. USM metodunun diaqnostik effektivliyini yaxşılaşdırmaq məqsədilə əlavə metodlardan istifadə edilir. Rəngli dopleroqrafiya limfa düyünlərində kökdən kənar periferik qan dövranının aşkarlanmasında faydalıdır. Metastatik, həmçinin reaktiv limfa düyünlərində diffuz hiperemiya, yüksək vaskulyarizasiya müşahidə edilir. Metastatik limfa düyünləri normal limfa düyünlərindən fərqli olaraq daha uzun müddətli müqavimətə və daha çox ümumi və periferik damarlara malikdir [25].

SVX xəstələrində aksilyar limfa vəzilərinin MRT müayinəsinin nəticələrinə görə, metastatik limfa düyünləri olan xəstələrdə şişin ölçüləri, limfa düyünlərinin qısa və uzun oxunun diametri və qabıq qatının qalınlığı metastaz müəyyən edilməyən limfa düyünləri ilə müqayisədə əhəmiyyətli dərəcədə yüksəkdir. Tədqiqatın nəticələri göstərir ki, metastazlı xəstələrdə şişin ölçüləri 34,0 mm (metastaz olmayanlarda – 24,8 mm) olduqda, metastatik aksilyar limfa vəzilərinin qısa oxunun diametri – 12,86 mm (metastaz olmayanlarda – 9,29 mm), uzun oxunun diametri – 21,39 mm (metastaz olmayanlarda – 16,16 mm), kortikal qatın qalınlığı – 10,59 mm (metastaz olmayanlarda – 4,97 mm) təşkil edir [25].

Erkən SVX zamanı aksilyar limfa düyünlərinə metastaz riski birbaşa şişin ölçüsündən, limfovaskulyar invaziyadan və şiş toxumasının bioloji xüsusiyyətlərindən asılıdır. Hətta qeyri-invaziv in situ axar karsinomasında 0,8% hallarda aksliyar limfa düyünlərinə metastaz aşkarlanıbdır. T1-T2 mərhələsində aksilyar limfa düyünlərinə metastaz riski 28-36% təşkil edir [26]. Şişin ölçüləri böyük olduqda (5,0 sm-dən böyük) aksilyar limfa düyünlərinin zədələnmə ehtimalı daha yüksək olur [27]. M. Chung və həmmüəlliflərinin nəticələrinə görə, T3N0M0 klinik mərhələsində 73% hallarda aksilyar limfa düyünlərinə metastazlar aşkar edilmişdir və bu da regionar limfadisseksiyanı tələb edir [28]. Aksilyar limfa düyünlərinin zədələnmə dərəcəsi ilkin şişin ölçüsündən asılıdır, belə ki, SVX olan xəstələrdə T1-T3 mərhələsində 3,7-15% hallarda aksliyar limfa düyünlərinə metastaz müşahidə edilmişdir [29]. Limfa axını yolunda ilk limfa düyünü siqnal düyün hesab edilir. Siqnal limfa düyünündə hər-hansı metastazın olmaması qoltuqaltı-körpücükaltı limfadenektomiyanın aparılmasına ehtiyac olmadığını göstərir, eyni zamanda əməliyyatdan sonra yaranan ağırlaşmaların qarşısnı ala bilər, o cümlədən müalicə xərclərini azalda bilər [30].

Ultrasəs diaqnostika kontrolu altında aparılan nazik iynə ilə aspirasion biopsiya və punksiya USM-in həssaslığını (96%), spesifikliyini (94%) və dəqiqliyini (88%) artırır, eyni zamanda yüksək proqnostik əhəmiyyətə malikdir (97%) [15, 31].

Şişin başlangıc formalarında punksion biopsiya ilə diaqnozu təsdiqləmək mümkün olmadıqda trepan-biopsiya vasitəsilə götürülmüş materialın histoloji müayinəsi aparılır. İmmunohistokimyəvi müayinə ilə molekulyar şiş markerləri: esterogen reseptorları (ER), progesteron reseptorları (PR), HER2/Neu (human epidermal growth faktor reseptor 2) onkogeni, Ki-67 proliferasiya markeri və s. başqaları müəyyən edilir. Son illər ÜST tövsiyəsinə əsasən St. Gallen (2011) tərəfindən təqdim edilmiş molekulyar-bioloji qradasiya təsnifatı tətbiq edilir. Bu təsnifata görə, süd vəzisinin bədxassəli epitelial şişləri dörd antigen-reseptorunun (esterogenlər, progesteron, HER2/Neu və Ki67) ekspressiyasına müvafiq olaraq yarımtiplərə bölünür [32, 33].

ER və PR reseptorları təyin edilməklə süd vəzisi xərçənginin hormonal həssaslığı müəyyən edilir. ER-in və PR-in səviyyələri 10 finol/mq zülaldan yüksək olduqda şiş reseptoru müsbət hesab edilir. Esterogen-α reseptorlarının (ER), progesteron reseptorlarının (PR), epidermal böyümə amili-2 reseptorunun (HER-2/neu və ya ERBB2) ekspressiyasından asılı olaraq SVX-nin yarımtipləri müəyyən edilir. Bu reseptorların təyini hormonal və anti-HER-2 müalicəsinin tədbiqində və kimyəvi dərman müalicə**si**nin nəticələrinin proqnozlaşdırılmasında böyük praktik əhəmiyyət kəsb edir. HR+ (hormone reseptor) SVX-nin müalicəsində esterogenlərin və ya progesteron reseptorlarının funksiyasını zəiflədən və ya onların qan serumunda qatılığını azaldan hormonal terapiyadan istifadə edilir [34]**.**

Bir neçə tədqiqatda göstərilir ki, aksilyar limfa düyünlərinin klinik-patoloji xüsusiyyətləri əsasında şişin dərəcəsini, histoloji tipini, limfovaskulyar invaziyanı, Ki-67 proliferasiya indeksini və hormonal reseptorların statusunu proqnozlaşdırmaq mümkündür.

ER və PR reseptorlarının səviyyələri yüksək olan şişlər yüksək differensiasiya və ya aşağı bədxassəlik dərəcəsinə malik olurlar. ER müsbət olan hormonal şişlər hormonal kimyəvi terapiyaya həssas olur. ER+ SVX hallarının 75%-ni, PR+ isə 55-65%-ni təşkil edir. PR-nin iki izoforması vardır: A və B. PRA-nın PRB-yə nisbətən yüksək nisbəti endokrin müalicəyə pis cavaba və ya pis proqnoza səbəb ola bilər. Ümumiyyətlə, şişin nüvəsinin 1%-dən çoxu rənglənibsə şişlər ya ER+ və ya PR+ kimi interpritasiya olunur. Süd vəzisinin karsinoma hüceyrələrində esterogenlərin və progesteronun, həmçinin epidermal böyümə amilinin reseptorlarının (Her-2/neu, ErbB2) ekspressiyasınının immnuohistoloji tədqiqi əsasında SVX-nin 4 yarımtipi müəyyən edilmişdir. Lüminal yarımtip A (HR+/HER2-), lüminal yarımtip B (HR+/HER2+), HER2-pozitiv zəngin yarımtip (HR-/HER2+) və üçqat neqativ yarımtip və ya bazal tip (HR-/HER2-) [35-37].

SVX-nin yarımtiplərindən asılı olaraq aksilyar limfa düyünlərində müəyyən klinik-morfoloji dəyişiklər müşahidə edilir. Erkən SVX zamanı aksillyar limfa düyünlərinin zədələnməsi həm klinik, həm də praktik əhəmiyyətə malikdir. Bu baxımdan metastatik zədələnmiş limfa düyünlərinin radio-morfoloji göstəriciləri ilə birincili süd vəzisi şişinin bioloji-molekulyar xüsusiyyətlərinin əlaqəli öyrənilməsi zəruridir. Bir sıra tədqiqatlardan məlum olmuşdur ki, SVX-nin bəzi molekulyar yarımtiplərində aksilyar limfa düyünlərində müxtəlif dərəcədə dəyişikliklər qeydə alınır. Aksilyar limfa düyünlərinin zədələnmə dərəcəsi ilkin şişin ölçüsündən də asılıdır, belə ki, SVX T1-T3 kateqoriyasında 3,7-15% hallarda aksliyar limfa düyünlərinə metastaz verir [38].

Son illər erkən SVX zamanı şişin bioloji xüsusiyyətləri ilə aksilyar limfa düyünlərinə metastaz ehtimalı arasında əhəmiyyətli korrelyasiya müəyyən edilmişdir. T. Liu (2017) və həmmüəlliflərinin fikrinə görə erkən SVX olan 528 pasiyentdə aparılan aksilyar limfadisseksiya əməliyyatından sonra 58,3% halda limfa düyünlərinə metastaz qeydə alınmışdır; N0 vəziyyətində olan maksimal luminal A tipində bu faiz 73,3%, üçqat neqativ yarımtipində isə 77,4%, minimal B yarımtipində 45,3% və HER2+ yarımtipində 40,0% təşkil edir. Brazilyada aparılan tədqiqatlarda da analoji nəticələr əldə edilibdir, belə ki, HER2+ SVX zamanı aksliyar limfa düyünlərinə metastaz riski digər yarımtiplərlə müqayisədə 2,6 dəfə yüksək olmuşdur [37, 39, 40].

Maraqlıdır ki, regionar limfa düyünlərinin vəziyyətinin USM müayinəsinin həssaslığı birbaşa şişin bioloji yarımtiplərindən asılıdır. R. Helfgott və həmm.-nin 583 xəstənin aksilyar limfadisseksiyasının analiz nəticələrinə görə, aksilyar limfa düyünlərinin USM müayinəsinin həssaslığı və spesifikliyi, müvafiq olaraq 39% və 96% təşkil edir [41]. Limfa düyünlərinin vəziyyətinin qiymətləndirilməsində USM müayinəsinin minimal həssaslığı HER2-neqativ luminal yarımtipində (40%-dən aşağı), maksimal həssaslığı isə üçqat neqativ yarımtipində (68,8%) və HER2+ yarımtipində (71,4%) qeydə alınmışdır [42]. Digər tədqiqatda da analoji nəticələr alınmışdır, belə ki, qoltuqaltı limfa düyünlərinin USM müayinəsi SVX-nin HER2+ və üçqat neqativ yarımtiplərində daha yüksək diaqnostik əhəmiyyətə malikdir [43].

Aparılan bir sıra tədqiqatlarda cinsiyyət hormonlarının reseptor statusunun proqnostik rolunun ziddiyyətli olması qeyd edilir, hətta bəzi tədqiqatlarda ER və PR statusunun ümumiyyətlə proqnostik əhəmiyyətinin olmaması göstərilir. PR reseptorları olmayan şişlər aksliyar limfa düyünlərinə metastaz riski (27%) daha aşağı olduğu halda, HER2-/neu –nun hiperekspressiyası (≥ 3) zamanı bu risk əhəmiyyətli dərəcədə artır. Şişin göstəriciləri (ölçüsü, histoloji tipi və s.) ilə aksilyar limfa düyünlərinin USM parametrləri arasındakı korrelyasiya asılılığı əsasında proqnostik model hazırlanıbdır. Belə ki, ölçüsü ≤ 1 см olan və damar invaziyası müşahidə olunmayan mülayim histoloji tipə malik istənilən şişlər aksilyar limfa düyünlərinə metastaz riski aşağı (9,5%) olduğu halda, damar invaziyalı və ölçüsü > 2 см olan şişlər zamanı metastatik zədələnmə riski yüksək olub 77%-dən yuxarıdır [21, 44]. Chua et al. ölçüsü ≤ 5 мм olan və palpasiya olunmayan birocaqlı və limfivaskulyar invaziyası olmayan şişlərin aksliyar limfa düyünlərinə metastazlarını aşkar etməyiblər [45].

SVX xəstələrində şişin həcmi 100 mm^3 –dən (diametri – 6 mm) aşağı olan limfa düyünlərinə metastaz praktiki olaraq müşahidə edilmir, lakin həcmi 0,5 mm^3 olan şişlərdə (diametri – 1 mm) limfa düyünlərinə yayılma ehtimal 7,4%, 113 mm^3 olduqda 8,5% təşkil edir. Ümumiyyətlə 100 mm^3-dən yuxarı şişlərdə limfa düyünlərinə metastaz riski artır. Analoji olaraq ER+/HER2- və üçqat neqativ yarımtip olan xəstələrdə limfa düyünlərinə metastazlar şişin ölçüləri 100 mm^3-dən böyük olduqda baş verdiyi halda, 14,1 mm^3-ə (diametri – 3 mm) yaxın olduqda belə metastazların yaranma riski artır [46].

Aparılan tədqiqat işlərinin birində süd vəzisinin axardaxili invaziv karsinoması olan qadında sol süd vəzisinin USM nəticələrinə görə, süd vəzisinin yuxarı daxili kvadrantında 1,6 sm ölçüsündə qeyri-düzgün formalı hipoexogen törəmə (T2N2M0, ER+PR+HER2-) izlənilibdir Bu xəstədə 28 ədəd çıxarılmış limfa düyünlərindən 7-də metastaz qeydə alınıbdır. Digər bir tədqiqatda göstərilir ki, 148 SVX xəstəsindən 61 nəfərində (41,2%) aksliyar limfa vəzilərinə metastazlar müşahidə edilibdir. Metastatik limfa düyünlərinin

qabıq qatının qalınlığı metastaz olmayan limfa düyünləri ilə müqayisədə **(**7,5 ± 5,0 мм metastaz olmayan 2,6 ± 2,8 мм, p <0,001) statistik əhəmiyyətli yüksəkdir [47].

Multihistoloji reqression analiz göstərdi ki, qabıq qatının qalınlığının 3 mm-dən yüksək olması və piy təbəqəsinin olmaması aksliyar limfa düyünlərinə metastazın sərbəst prediktorlarıdır [48]. Bu metodun spesifikliyi (76,7%) və dəqiqliyi (73,6%) adi USM müayinəsinə nisbətən yüksək olsa da, onun həssaslığı aşağıdır. Bu baxımdan elastoqrafiyanı adi USM-ə əvəz olaraq tədbiq etmək mümkün deyildir. Elastoqrafiya zamanı yalnış diaqnozun qoyulmasına səbəb limfa düyünlərinin kiçik olması və dəriyə yaxın yerləşməsi, bəzi bədxassəli limfa düyünlərinin parçalanması və nekrozu, elastik və kollagen liflərin sayının (elastiklik modulunun aşağı olması) az olması ilə izah edilir. Bu tədqiqatda elastoqrafiya göstəriciləri ilə SVX-nin molekulyar yarımtipləri arasında korrelyasiya aparılıb və aksilyar limfa düyünlərinin elastiklik modulu əsasında bu yarımtiplərin müəyyən edilməsinin mümkünlüyü araşdırılıbdır. Tədqiqatın nəticələrinə görə SVX-nin molekulyar yarımtipləri arasında elastik modula görə əhəmiyyətli dərəcədə fərq müəyyən edilməmişdir, yalnız üçqat neqativ yarımtip aşkarlanan SVX xəstələrində aksilyar limfa düyünlərinin elastiklik modulu digər molekulyar yarımtiplərə nisbətən daha yüksək olmuşdur [49].

Beləliklə, qoltuqaltı limfa düyünlərinə metastazlar əhəmiyyətli proqnostik marker olub, ilkin şişin klinik xüsusiyyətləri, molekulyar yarımtipləri və mərhələsi ilə korrelyasiya təşkil edir. Limfa düyünlərinə metastazların proqnozlaşdırılması SVX-nin müalicəsində erkən klinik qərarların alınmasında mühüm əhəmiyyət kəsb edə bilər. Eyni zamanda SVX xəstələrində metastaza uğramayan qoltuqaltı limfa düyünlərinin disseksiyasının qarşısını ala bilər.

ƏDƏBİYYAT

1. Sung H., Ferlay J., Siegel R.L. et al. Global Cancer Statistics 2020: GLOBOCAN Estimates of Incidence and Mortality Worldwide for 36 Cancers in 185 Countries CA // Cancer J Clin., 2021, v.71(3), p. 209-49.
2. Thorat M.A., Balasubramanian R. Breast Cancer Prevention in High-Risk Women // Best Pract Res Clin Obstet Gynaecol., 2020. v. 65, p. 18-31.
3. Loibl S., Poortmans P., Morrow M. et al. Breast Cancer // Lancet, 2021, v.397(10286), p.1750-69.
4. Шведавченко А.И., Высоцкая И.В., Михайленко О.С. и др. Некоторые аспекты анатомии подмышечных лимфатических узлов // Опухоли женской репродуктивной системы, 2009. №1-2, с.21-24.
5. Савельева Н.А. Ультразвуковая диагностика злокачественного поражения периферических лимфатических узлов // Практическая медицина, 2014, №.3, с.135-138.
6. Франк Г.А., Завалишиной Л.Э., Пожарский К.М. Рак молочной железы. Практическое руководство для врачей. Москва: Практическая медицина, 2014, 176 с.
7. Chang J.M., Leung J.W.T., Moy L. et al. Axillary Nodal Evaluation in Breast Cancer: State of the Art // Radiology, 2020, v.295(3), p.500-515.
8. Friedenreich, C.M., Cust A.E. Physical activity and breast cancer risk: impact of timing, type and dose of activity and population subgroup effects // Br. J. Sports Med., 2008, v. 42, № 8, p. 636-647.
9. Kim E.Y. Sonography of axillary masse // J. Ultrasound Med., 2009, v. 28, p. 923-939.
10. Carbo G. Normal and pathological axillary lymph nodes. Case study, Radiopaedia.org. (accessed on 20 Jul 2022) https://doi.org/10.53347/rID-84164.
11. Трофимова, *Е.Ю.* Ультразвуковое исследование лимфатических узлов // SonoAce International, 2008, №18, с. 59-64.
12. Marino M.A., Avendano D., Zapata P. et al. Lymph Node Imaging in Patients with Primary Breast Cancer: Concurrent Diagnostic Tools // Oncologist, 2020, v.25(2), p. 231-242.
13. Бусько Е.А., Мищенко А.В., Семиглазов В.В. и др. Эффективность УЗИ и соноэластографии в диагностике непальпируемых и пальпируемых образований молочной железы // Вопросы онкологии, 2013, №3, с. 375-381.
14. Сенча А.Н., Сенча Н, Евсеева Е.В. и др. Методики ультразвукового исследования в диагностике рака молочной железы. М.: «ВИДАР», 2011, 152 с.
15. Труфанов Г.Е., Рязанов В.В., Иванова Л.И. Ультразвуковая диагностика заболеваний молочных желез: Учебное пособие. СПб.: ЭЛБИ – СПб, 2012, 160 с.
16. Рожкова Н.И. Лучевые методы обследования молочных желез // Лучевая диагностика. Спецвыпуск, 2013, с. 28-29.

17. Корженкова Г.П. Верификация непальпируемых образований молочной железы на дооперационном этапе // Радиология практика, 2013. №2, с. 16-24.

18. Гажонова В.Е., Ефремова М.П., Дорохова Е.А. Современные методы неинвазивной лучевой диагностики рака молочной железы // РМЖ, 2016. №5, с. 321-324.

19. Lee B., Lim A.K., Krell J. [et al.] The efficacy of axillary ultrasound in the detection of nodal metastasis in breast cancer AJR // Am J Roentgenol., 2013, v.200(3), p. 314-20.

20. Paduch R. The role of lymphangiogenesis and angiogenesis in tumor metastasis // Cell Oncol., 2016 v.39, p.397-410.

21. Viale G., Zurrida S., Maiorano E. et al. Predicting the status of axillary sentinel lymph nodes in 4351 patients with invasive breast carcinoma treated in a single institution // Cancer, 2005, v.103(3), p. 492-500.

22. Pinheiro D.J., Elias S., Nazário A.C. Axillary lymph nodes in breast cancer patients: sonographic evaluation // Radiol Bras., 2014, v. 47(4), p. 240-4.

23. Zheng X., Yao, Z., Huang, Y. et al. Deep learning radiomics can predict axillary lymph node status in early-stage breast cancer // Nat Commun., 2020, v.11, p. 1236.

24. Головко Т.С. Эхосемиотика поражения аксиллярных лимфатических узлов при патологических образованиях молочной железы // АВС Диагностики, 2009, №2 (58), с. 61-64.

25. Duran B., Agridag B.U. Diagnostic Value of Diffusion Magnetic Resonance Imaging in Detecting Malignant Axillary Lymph Nodes in Breast Cancer Patients // 7545 Med Bull Haseki, 2021, v.59, p. 381-387.

26. Silverstein M.J., Skinner K.A., Lomis T.J. Predicting axillary nodal positivity in 2282 patients with breast carcinoma // World J Surg., 2001, v.6 (25), p. 767-72.

27. Fein D.A., Fowble B.L., Hanlon A.L. et al. Identification of women with T1- T2 breast cancer at low risk of positive axillary nodes // J Surg Oncol., 1997, v.1 (65), p. 34-9.

28.Chung M.H., Ye W., Giuliano A.E. Role for sentinel lymph node dissection in the management of large (>or = 5 cm) invasive breast cancer // Ann Surg Oncol., 2001, v.9 (8), p. 688-92.

29. Ursin G., Lillie E.O., Lee E. The relation importance of genetics and environment on mammographic density // Cancer Epidemiol. Biomarkers Prev., 2009, v.18, p.102-112.

30. Ashbeck E.L. R.D. Rosenberg, P.M. Stauber et al. Benign breast biopsy diagnosis and subsequent risk of breast cancer // Cancer Epidemiol. Biomarkers Prev., 2007, v.16. № 3, p. 467-472.

31.Guo Q., Dong Z., Zhang L. et al. Ultrasound Features of Breast Cancer for Predicting Axillary Lymph Node Metastasis // J Ultrasound Med., 2018, v.37(6), p. 1354-1353.

32.Gnant M., Harbeck N., Thomssen C. St. Gallen 2011: Summary of the Consensus Discussion // Breast Care (Basel), 2011, v.6(2), p. 136-141.

33. Dass S.A., Tan K.L., Selva Rajan R. et al. Triple Negative Breast Cancer: A Review of Present and Future Diagnostic Modalities // Medicina (Kaunas), 2021, v.5 7(1), p. 62.

34. Taurin S., Alkhalifa H. Breast cancers, mammary stem cells, and cancer stem cells, characteristics, and hypotheses // Neoplasia, 2020, v.22(12), p. 663-678.

35. Щепотин И.Б., Зотов А.С., Любота Р.В. и др. Молекулярные типы рака грудной железы, определенные на основе иммуногистохимических маркеров: клинико-биологические особенности и прогноз течения // Клиническая онкология, 2012, v.8 (4), с. 1-4.

36.Пак Д.Д., Рассказова Е.А., Данилова Т.В. Подтипы рака молочной железы // Опухоли женской репродуктивной системы, 2012, № 3-4, с. 13-19.

37.Колядина И.В., Данзанова Т.Ю., Хохлова С.В. и др. Современный взгляд на вопросы диагностики и верификации поражения аксиллярных лимфатических узлов при раннем раке молочной железы // Современная онкология, 2020. т. 22, № 1, с. 46-52.

38. Бондаренко И.Н., Эльхажж М.Х., Прохач А.В. и др. Рак молочной железы. От молекулярной биологии к персонифицированной терапии // Морфология, 2016, v.10 (1), с.18-25.

39. Liu T., Yang Z., Liu X. et al. Lymph node status in different molecular subtype of breast cancer: triple negative tumours are more likely lymph node negative // Oncotarget, 2017, v.33 (8), p. 55534-43.

40. De Oliveira Filho H.R., Dória M.T., Piato J.R. et al. Criteria for prediction of metastatic axillary lymph nodes in early-stage breast cancer // Rev Bras Ginecol Obstet, 2015, v.37 (7), p. 308-13.

41. Helfgott R., Mittlböck M., Miesbauer M. et al. The influence of breast cancer subtypes on axillary ultrasound accuracy: A retrospective single center analysis of 583 women // Eur J Surg Oncol., 2019, v.45(4), p. 538-543.

42. Гордеева О.О., Жукова Л.Г., Колядина И.В. и др. Оценка рецепторного статуса первичной опухоли молочной железы и синхронных регионарных метастазов: их клиническая и прогностическая роль? // Сибирский онкологический журн., 2019. 18 (2), с. 78-82.

43. Fei J., Wang G.Q., Meng Y.Y. et al. Breast cancer subtypes affect the ultrasound performance for axillary lymph node status evaluation after neoadjuvant chemotherapy: a retrospective analysis // Jpn J Clin Oncol., 2021, v.51(10), p. 1509-1514.

44. Liu N., Yang Z., Liu X. et al. Lymph node status in different molecular subtype of breast cancer: triple negative tumours are more likely lymph node negative // Oncotarget., 2017, v.8(33), p. 55534-55543.

45.Chua B., Ung O., Taylor R. et al. Frequency and predictors of axillary lymph node metastases in invasive breast cancer // ANZ J Surg., 2001, v.71(12), p. 723-8.

46. Sopik V., Narod S.A. The relationship between tumour size, nodal status and distant metastases: on the origins of breast cancer // Breast Cancer Res Treat., 2018, v.170(3), p. 647-656.

47.Chen C.F., Zhang Y.L., Cai Z.L. et al. Predictive Value of Preoperative Multidetector-Row Computed Tomography for Axillary Lymph Nodes Metastasis in Patients With Breast Cancer // Front Oncol., 2019, v. 8, p. 666.

48.Wu J.L., Tseng H.S., Yang L.H. et al. Prediction of axillary lymph node metastases in breast cancer patients based on pathologic information of the primary tumor // Med Sci Monit., 2014, v.20, p. 577-81.

49. Luo C., Lu L., Zhang W. et al. The Value of Shear Wave Elastography in the Diagnosis of Breast Cancer Axillary Lymph Node Metastasis and Its Correlation With Molecular Classification of Breast Masses // Front. Oncol., 2022, v.12, p. 8465-68.

Резюме

Радиоиммунологическая характеристика метастазов в подмышечные лимфатические узлы у больных раком молочной железы

Дж.Н. Ахундова, Н.В.Касумов

Определение метастаза аксиллярных лимфатических узлов является одним из важнейших прогностических факторов и существенно влияет на лечения рака молочной железы (РМЖ). Метастазирования аксиллярных лимфоузлов напрямую зависит от размера опухоли, наличия лимфоваскулярной инвазии и молекулярных подтипов, Т-дескриптора и стадии болезни. Для определения клинико-морфологических характеристик аксиллярных лимфатических узлов, ультразвуковое исследование (УЗИ) является безопасным, малоинвазивным, высокоинформативным и практически не имеющий противопоказаний методом, который позволяет выявить участки с повышенной тканевой и капиллярной плотностью. С помощью УЗИ можно оценить форму, контуры и структуру лимфатических узлов. В данной статье на основе данных современной литературы подробно интерпретируются полученные к настоящему времени результаты зависимости между радиоморфологическими показателями поражения подмышечных лимфатических узлов у больных РМХ и клинико-морфологическими характеристиками пациента. Данные литературы показывают, что УЗИ подмышечных лимфатических узлов имеет более высокую диагностическую ценность при HER2+ и трижды негативных подтипах РМЖ. Рак молочной железы с подтипом HER2+ в 2,6 раза чаще метастазирует в подмышечные лимфатические узлы, чем другие подтипы. Изучение влияния некоторых молекулярных подтипов РМЖ на подмышечные лимфатические узлы может быть использовано для определенных прогнозов развития этого заболевания и оценки процесса заживления.

Summary

Radioimmunological characteristics of metastases in the axillary lymph nodes in patients with breast cancer

J.N. Akhundova, N.V. Gasımov

The definition of axillary lymph node metastasis is one of the most important prognostic factors and significantly affects the treatment of breast cancer (BC). Metastasis of axillary lymph nodes directly depends on the size of the tumor, the presence of lymphovascular invasion and molecular subtypes, the T-descriptor, and the stage of the disease. To determine the clinical and morphological characteristics of axillary lymph nodes, ultrasound (ultrasound) is a safe, minimally invasive, highly informative and practically no

contraindications method that allows you to identify areas with increased tissue and capillary density. With the help of ultrasound, the shape, contours and structure of the lymph nodes can be assessed. In this article, based on the data of modern literature, the results obtained so far of the relationship between radiomorphological parameters of axillary lymph nodes in patients with PMC and the clinical and morphological characteristics of the patient are interpreted in detail. Literature data show that ultrasound of the axillary lymph nodes has a higher diagnostic value in HER2+ and triple-negative breast cancer subtypes. Breast cancer with the HER2+ subtype is 2.6 times more likely to metastasize to the axillary lymph nodes than the other subtypes. The study of the influence of some molecular subtypes of breast cancer on axillary lymph nodes can be used for certain predictions of the development of this disease and evaluation of the healing process.

Daxil olub: 13.07.2022

Pilonidal sinusa görə aparılmış əməliyyatlardan sonra yara sağalmasının vacib aspektləri

F.H. Camalov, G.A. Kosayeva, A.A.Kosayev
Azərbaycan Tibb Universiteti, III cərrahi xəstəliklər kafedrası, Bakı

Açar sözlər: pilonidal sinus, yara sağalması, müalicə, preparatlar
Ключевые слова: копчиковый отросток, заживление ран, лечение, препараты
Key words: coccygeal process, wound healing, treatment, preparations

Pilonidal sinus xəstəliyi oma-büzsüm nahiyyəsində ağrı, ifrazat, xroniki diskomfort hissi ilə müşayət olunan daha kişi cinsindən gənclər arasında geniş yayılmış xəstəlikdir. Xəstəliyin abseslə ağırlaşmış kəskin formaları zamanı əsas müalicə irinin evakuasiya və abses boşluğunun drenajından ibarətdir. İltihab əlamətləri keçdikdən sonra isə pilonidal sinus və epitelial yolların tam kəsilib götürülməsi - radikal eksiziya icra edilir. Radikal əməliyyatının son mərhələsinin daha çox yayılmış iki üsulu vardır. Orta xətt üzrə və ya orta xəttdən kənar (Karydakis, Limberq plastikaları ilə) dəri kənarlarını yaxınlaşdırıb birincili tikişlər qoymaqla yaranın qapalı sağalması üsulu geniş tətbiq edilir. Son onilliklərdə orta xəttdən kənarda yaranın bağlanması üsuluna daha çox üstünlük verilir. Başqa bir geniş tətbiq edilən üsul isə, radikal eksiziyadan sonra yaranı açıq saxlamaqla ikincili sağalma üsuludur. Bu zaman yara dibindən qranulyasiya və kənarlarından epitelizasiya etməklə tədricən yaranın sağalması və bağlanması ilə nəticələnir [1,2 3].

Lakin bəzi hallarda xəstələrdə yara sağalması ləngiyir və müəyyən fəsadlar meydana çıxır. Bu hal xüsusən geniş ölçülərdə toxuma defekti olan yaralar və ya residiv, bir neçə yerdən epitelial yolların kəsilməsindən sonra qalmış çapıq toxumalar olan xəstələrdə qeydə alınır. Yara sağalmasını tezləşdirmək məqsədilə xüsusi yara sarğı materiallarından istifadə edilir. Bu məhsullar yaranın xüsusiyyətlərindən asılı olaraq, yara sağalmasının müxtəlif fazalarında tətbiq edilir [4, 5, 6].

Tədqiqatın məqsədi pilonidal sinus xəstəliyinin cərrahi müalicəsi zamanı yaraların sağalması üçün yara-sarğı məhsulların istifadəsinə dair ədəbiyyat nümunələrinin müqayisəli analizi, müxtəlif məhsulların effektivlikləri barədə tədqiqatların nəticələrinin icmalından ibarətdir.

Müvafiq araşdırmanın aparılması üşün PubMed internet şəbəkəsində

Pilonidal OR ‘‘Pilonidal Sinus’’ [Mesh] OR ‘coccygeal sinus’ OR ‘sacrococcygeal sinus’ OR (jeep AND disease) OR “Open wound healing” OR “midline primary suture” OR “Limberg flap” OR ‘Surgical wound infection’ OR ‘postoperative wound infection’ OR ‘postoperative wound infections’ (wound AND

healing) OR ‘surgical wound dehiscence’ OR “recurrence” OR “re-operation” kimi sorğu-suallardan ibarət ssenari ilə axtarış verilmişdir. Axtarışın nəticəsi olaraq çox sayda məqalələrin çeşidlənməsi aparılmışdır. Araşdırmanın mövzusuna uyğun olaraq, 14 yaş və ya daha yaşlı xəstələrdə pilonidal sinusun müalicəsi üçün iki və ya daha çox cərrahi texnikanı müqayisə edən randomizə edilmiş tədqiqatlar seçildi. Pediatrik populyasiyalar və qeyri-cərrahi müdaxilə ilə bağlı tədqiqatlar analizdən çıxarıldı. Əsas dəyərləndirmə kriteriyaları olaraq yaraların sağalma vaxtı, cərrahi əməliyyatdan sonra infeksion ağırlaşmaların rast gəlmə tezliyi və residivlərin yaranması müqayisə edilən tədqiqatlar araşdırıldı. İkincili dəyərləndirmə kriteriyaları olaraq residivin meydana çıxdığı zaman müddəti, digər ağırlaşmalar və yanaşı xəstəliklər, əməliyyat və müalicəyə çəkilən xərclər, xəstəxanada qalma müddəti və yaraların sağalma sürəti olaraq araşdırılmışdır.

Yara sarğıları, onların yaranın sağalması prosesinə təsiri, infeksion ağırlaşmaların profilaktikası və s. kimi istiqamətlərdə müsbət və mənfi xüsusiyyətləri haqda ədəbiyyatda minlərlə nəşrlərə rast gəlinmişdir. Pilonidal sinus xəstəliyinin cərrahi müalicəsindən sonra açıq saxlanmış yaranın ikincili sağalması üçün istifadə edilən məhsulları bir neçə böyük qrupa ayırmaq olar:

a) Hidrosellular məhsullar (Allevyn®, Biatain®, Mepilex®, Tegaderm®, Tielle®, Urgotul® və s.) - nekrotik yaraların sağalmasında istifadəsi yarada sərinlik hissinin meydana çıxması ilə nəticələnir ki, əksər xəstələrdə komfortla qəbul edilir [7]. Pilonidal sinus xəstəliyinin müalicəsində hidrosellular məhsul olan Allevyn və Kaltostat – ın istifadəsi müqayisəli öyrənilmişdir. Hər iki məhsulun sinusların kəsilib götürülməsindən sonra qalmış dərin yaraların müalicəsində effektli olması müəyyən edilmişdir. Lakin, su tərkibli yara məhsullarının bir mənfi xüsusiyyəti vardır ki, bədən vəziyyətindən asılı olaraq yerlərini dəyişib, yaradan kənara axıb tökülürlər [8].

b) Hidrokolloid məhsullar (Algoplaque®, Comfeel Plus®, Duoderm® və s.) – biosorulan, nəfəs alan və yara səthinə yapışan xüsusi yara materiallarıdır. Hidrokolloid yara məhsullarının altında yarana nəm mühit fibrinoliz, angiogenez və yaranın sağalması üçün əlverişli şərait yaradır. Hidrokolloid məhsulların pilonidal sinuslu xəstələrdə istifadəsi ağrı hissini aradan qaldırır, yaradan ifrazatın qarşısını alır və xəstələrdə komfort hissi yaradır. Əksər hidrokolloid məhsullar su keçirməyəndir və buna görə də xəstələr bu yara örtükləri ilə duş qəbul edə bilirlər. Çox müsbət xüsusiyyətləi ilə yanaşı nisbətən bahalı olması, uzun müddət ərizndə istifadəsinin ekonomik cəhətdən çox məsrəfli etməsi kimi mənfi xüsusiyyəti də vardır [4, 9].

c) Alginatlar - (Algosteril®, Urgosorb®) biopolimer tərkibli yara materialları olmaqla yara möhtəviyyatını və eksudasiyasını özlərinə hopdurmaq, nəm mühiti qorumaq və bakterial infeksiyasının inkişafının qarşısının alınması qabiliyyətinə malikdir. Alginatlar bir sıra digər dərman preparatları ilə birlikdə kombinasiya şəkilində, məsələn antibakterial preparatlar ilə birlikdə işlədilə bilər [4, 10, 11].

d) Hidrofiberlər (Aquacel və s.) natrium karboksimetilselülozdan ibarət yumşaq, steril, toxunmamış lövhə və ya lent sarğı kimi müəyyən edilir. Bu material çox miqdarda yara mayesini, yaxud bakteriyalarla zəngin ekssudatı yüksək dərəcədə udma qabiliyyətinə malikdir. Marinovic və həmm. tərəfinədən pilonidal sinusun geniş həcmdə kəsilib götürülməsindən sonra adi tənzif sarğılar ilə hidrofiber material – Aquacel – in istifadəsini müqayisə etmişlər. Tədqiqatlar zamanı məlum olmuşdur ki, Aquacel istifadə olunan qrupda yara infeksiyasına yalnız 1 xəstədə (4%) rast gəlinmişdirsə, ənənəvi qaydada sarğı olunmuş xəstələrdə yaranın irinləməsi 16% təşkil etmişdir. Lakin, Alginatlar ilə müqayisə olunduğu zaman, Aquacel ilə müalicənin daha baha başa gəldiyini müəyyən edilmişdir. Yaranın sağalması istiqamətində isə alginatlardan daha effektli olması tədqiqatlarda təsdiq olunmuşdur [3].

e) Neytral sarğılar (Jélonet®, Tullegras®, Vaselitulle®, və s.) daha çox səthi və hamar yaralar zamanı isitfadə edilir. Əsas məqsədləri yarada yapışqan və nəm mühiti saxlamaq, maserasiyanı aradan qaldırmaq və yarada komfort hissinin yaradılmasıdır. Adətən bu örtüklərin üzərindən bint və ya digər sarğı materialların istifadəsi lazım gəlir. Daha bir üstün xüsusiyyəti isə üstdən qoyulmuş sarğının yatra səthinin yapışmasının qarşısını almaqdır ki, hər dəfə sarğı yenilənən zaman ağrı, dartılma və qansızma kimi xoşagəlməz halların qarşısı alınmış olur [13, 14, 15].

Elm və texnikanın inkişaf etməsi ilə əlaqədar olaraq, sarğı materiallarının da fiziki – kimyəvi xüsusiyyətlərinin təkmilləşdirilməsi istiqamətində irəliləyişlər əldə edilmişdir. Son illər sarğı materiallarının və yara üçün örtüklərin yeni klassifikasiyası təklif edilmişdir. Yara sarğıları ənənəvi, biomaterial əsaslı, interaktiv və bioaktiv sarğı kimi təsnif edilə bilər [16]. Biomaterial əsaslı kollagen tərkibli süngərlərin pilonidal sinusun cərrahi müalicəsində istifadəsinə son illər çox diqqət yetirilmişdir. Kollagen süngərlər yara eksudatı ilə kontaktda olduğu zaman eksudatı və ifrazatı yüksək səviyyədə özünə çəkmək, səthində gel əmələ gətirməklə yara kənarlarına yapışmaq xüsusiyyətlərinə malikdir. Kollagen süngərlər elastin, fibronektin, qlykozaminoqlikan, xitozan və s. kimi maddələr ilə kombinə edilir ki, bu da süngərləriin implantasiya olunduqları yerə daha yaxşı uyğunlaşması (oturması) və daha çox maye hopdurması xüsusiyyətlərini daha da

gücləndirir. İltihab əleyhinə və yaraların infeksiyalaşmasının profilaktikası məqsədilə kollagen süngərlərə antimikrob hissəciklər, antibiotiklərin qatılması da kliniki praktikada istifadə edilir [17, 18, 19, 20].

Chang W. və həmm. tərəfindən cərrahi əməliyyatlardan sonra gentamisin hopdurulmuş kollagen süngərlərin istifadəsinin yara infeksiyasına qarşı effektivliyini nümayiş etdirən 15 randomizə olunmuş tədqiqatın nəticələrini analiz etmişlər. Gentamisin hopdurulmuş kollagen süngər tətbiq edilmiş 6979 xəstə üzərində aparılan müxtəlif cərrahi əməliyyatların nəticələri öyrənilmişdir. Məlum olmuşdur ki, kollagen süngər həm təmiz, həm də qismən çirklənmiş cərrahi əməliyyat yaralarına implantasiya edildikdə, yara infeksiyasnın profilaktikası istiqamətində müsbət effektiv təsir göstərir. Sternotomiya ilə keçən ürək əməliyyatlarından sonra da döş sümüyü yarasında infeksion ağırlaşmalarının rast gəlmə tezliyinin azalmasına səbəb olmuşdur [21].

İngiltərə, İrlandiya, Çexiya və Avstraliyadan olan tədqiqatçılar tərəfindən yara infeksiyasının qarşısının alınmasında hansı vasitənin daha çox istifadə edilməsini müəyyən etmək üçün xüsusi sorğu-anket forması hazırlanmışdır. Sorğu forması Britaniya Antimikrob Kimyəvi Terapiya Cəmiyyəti (British Society for Antimicrobial Chemotherapy) və Avropa Yara Müalicəsi Cəmiyyətinin (European Wound Management Association) üzvləri arasında paylanmış və nəticələr analiz edilmişdir. Analizin nəticəsində məlum olmuşdur ki, topikal antibiotik istifadə edən cərrahların 25% -i gentamisin hopdurulmuş kollagen süngərdən yara infeksiyasının profilaktikası və yaraların tez sağalması üçün seçim yara sarğı materialı kimi tətbiq edirlər [22].

Rao M. və həmm. tərəfindən pilonidal sinus xəstəliyi olan 60 xəstə üzərində tədqiqat aparmışlar. 1 – ci qrupda pilonidal sinus və yollar kəsilib götürüldükdən sonra yara açıq saxlanmaqla ikincili sağalma üçün buraxılmışdır. 2-ci qrupda isə yara defektinə gentamisin hopdurulmuş kollagen süngər (Collatamp-G) yerləşdirilmiş və orta xətt boyu ikiqat olaraq birincili tikilmişdir. Əməliyyatın davam etmə müddəti, çarpayı günləri, ağrının intensivliyi, analgetiklərin istifadə miqdarı və müalicə xərcləri öyrənilmişdir. Birincili tikiş qoyulmuş qrupda əməliyyat vaxtı daha uzun olmuş, ağrının intensivliyi isə əksinə daha aşağı kimi qiymətləndirilmişdir. Birincili tikiş qoyulmuş yaraların əksər hissəsi ilk 4 həftə ərzində sağalmışdır. Müalicə xərcləri birincili tikiş qrupunda daha az olmuşdur. Əməliyyatdan sonra 5 il ərzində residivlərin sayı hər iki qrupda eyni olmuşdur. Müəllliflərin qərarına əsasən gentamisin hopdurulmuş kollagen süngərin istifadəsi nəticəsində yaralar açıq üsula nisbətən tez sağalır, yarada ağrı xəstələri az narahat edir və xərclər baxımından sərfəlidir [23].

Isveçli cərrahlar briqadası isə pilonidal sinus xəstəliyi olan 161 xəstəni 2 qrupda fərqli müalicə sxemləri tətbiq edərək, nəticələri müqayisə etmişlər. 1-ci qrupda sinuslar kəsilib götürüldükdən sonra, ilk qat tikişlər qoyulmuş, birinci qatın üzərində adi yara materialı qoyulmuş və yara açıq saxlanmışdır. 2-ci qrupda isə yaraya gentamisin hopdurulmuş kollagen süngər yerləşdirilmiş və üzərindən birincili olaraq orta xətt boyu yara tikilmişdir. Kollagen süngər olan qrupda yaradan eksudasiya daha az olmuş, ilk 3 ay ərzində tam sağalmış yaralar üstünlük təşkil etmiş və təkrar əməliyyatlara cəmi 4% hallarda ehtiyac yaranmışdır [24].

Türkiyənin Antakya-Hatay xəstəxanasında hərəsində 40 xəstə olmaqla 2 qrup pilonidal sinus xəstəliyi olan şəxslərin cərrahi müalicəsinin nəticələrini müqayisə etmişlər. Xəstələrin 1-ci qrupunda yara birincili olaraq bağlanmış və oral antibiotik verilmişdir. İkinci qrupda isə yaraya gentamisin hopdurulmuş kollagen süngər yerləşdirilmiş, birincili tikişlər qoyulmuş və oral antibiotik müalicəsi aparılmamışdır. Kollagen süngər qrupunda yaraların sağalma dövrü daha qısa, yara infeksiyasının rast gəlməsi və residiv riski daha aşağı, çarpayı günərinin sayı isə daha az olmuşdur. Belə ki, yaranın sağalması gentamisin hopdurulmuş süngər isitfadə edilmiş qrupda 8,9 gün, nəzarət qrupunda isə 15,1 gün olmuş, göstəricilər arasında fərq statistik dürüst olmuşdur. Müəlliflər kollagen süngərin effektivliyini yüksək qiymətləndirmişlər [25].

Doll və həmm. tərəfindən gentamisin hopdurulmuş kollagen süngərin pilonidal sinus xəstəliyinin cərrahi müalicəsinin uzaq nəticələrinə təsirini öyrənmişlər. Pilonidal sinus xəstəliyi olan, radikal kəsilib götürülmüş 187 xəstə üzərində tədqiqatlar aparılmışdır. Xəstələrin bir qrupunda gentamisin hopdurulmuş kollagen süngər istifadə edilməklə yara birincili bağlanmış, digərində isə süngər qoyulmadan yara orta xətt boyu simmetrik olaraq birincili tikişlər ilə tikilmişdir. Yaxın dövrdə gentamisin hopdurulmuş süngər istifadə edilmiş qrupda yaranın sağalması daha yaxşı olmuş, yara aralanması hallarına daha az rast gəlinmişdir [26].

Gentamisin hopdurulmuş kollagen süngərin birincili yara sağalmasına təsirini Avstriyalı mütəxəssis Holzer 103 pilonodal xəstə üzərində öyrənmişdir. Gentamisin hopdurulmuş süngər qoyulmaqla birincili tikişlər qoyulmuş xəstələr ilə, eksiziyadan sonra yara açıq saxlanmaqla süngər istifadə edilmədən ikincili sağalma üçün evə buraxılmış xəstələr araasında müqayisə aparılmışdır. Gentamisinli süngər qrupunda yaranın tam sağalması orta hesabla 17 gün, ikinci qrupda isə 68 gün davam etmişdir. 26 həftə ərzində

aparılan müşahidə zamanı genatmisin hopdurulmmuş süngər istifadə edilmiş qrupda cəmi 1 residiv halı qeydə alınmışdır. Yaranın açıq saxlanması ilə müalicə alan qrupda isə residiv müşahidə edilməmişdir [27].

Pilonidal sinusun cərrahi müalicəsi üçün müxtəlif fərqli üsulların təklif edilməsinə baxmayaraq, hər bir üsulun özünə məxsus müsbət xüsusiyyətləri və çatışmazlıqları vardır. Lakin, yaranın açıq saxlanması və orta xətt üzrə birincili tikişlərin qoyulması ilə müqayisədə, asimmetrik yara xəttinin yaradılması ilə sonlanan dəri plastikası üsulları daha effektiv sayılır. Lakin bu üsullardan sonra yaxın dövrlərdə yara infeksiyasının inkişaf etməsi və əməliyyatdan sonrakı uzaq dövrlərdə residiv vermə riski yüksəkdir. Əməliyyat yarasında infeksion ağırlaşmaların qarşısının alınması məqsədilə bir çox yara sağalması məhsulları kliniki praktikada geniş tətbiq edilir. Biouyğunlaşma, özünə maksimum eksudat hopdurma, az allergik olması və yaxşı mənimsənilməsi kimi müsbət xüsusiyyətləri ilə kollagen süngərlər daha məqsədəuyğun hesab edilmişdir. Müxtəlif cərrahi əməliyyatlardan sonrakı dövrdə yaraların daha qısa müddətdə sağalmasında, yara infeksiyasının qarşısının alınmasında bu süngərlərin rolu sübuta yetirilmişdir. Süngərlərə antimikrob maddələr və antibiotiklərin hopdurulması ilə müalicənin nəticələrinin daha da yaxşılaşdırılmasının mümkünlyü bir sıra randomizə olunmuş tədiqatlarda öz əksini tapmışdır.

Yekun. Pilonidal sinus xəstəliyinin cərrahi müalicəsində yanaşmalar fərqli və ziddiyətlidir. Yaraların tez sağalması, yarada infeksion ağırlaşmaların profilaktikası, xəstələrdə cərrahi əməliyyatdan sonra diskomfort hissinin və ağrının minimuma endirilməsi, residivlərin və təkrar əməliyyatların sayının azaldılması pilonidal sinus xəstəliyinin cərrahi müalicəsi ilə məşğul olan praktiki həkimlərin diqqət mərkəzində olan aktual məsələlərdən hesab olunur. Qeyd edilən aspektlərdə hələ də yeni innovativ üsulların istifadəsi ilə kliniki araşdırmaların aparılmasına ehtiyac duyulur. Bu istiqamətdə antibiotik hopdurulmuş kollagen süngər istifadə etməklə dəri plastikası üsullarının kombinasiyasının nəticələrinin öyrənilməsi perespektivlər vəd edir.

ƏDƏBİYYAT

1. Nechai I.A., Maltsev N.P., Pavlov M.V. Surgical treatment of pilonidal disease // Khirurgiia (Mosk), 2020, №12, c.99-104.
2. Iesalnieks I., Ommer A. The Management of Pilonidal Sinus // Dtsch Arztebl Int., 2019, v.116(1-2), p. 12-21.
3. Milone M., Di Minno M.N., Bianco P. et al. Pilonidal sinus surgery: could we predict postoperative complications? // Int Wound J., 2016, v.13(3), p.349-353.
4. Sadati L., Froozesh R., Beyrami A, et all. A comparison of three dressing methods for pilonidal sinus surgery wound healing // Adv Skin Wound Care. 2019, v.32(7), p. 1-5.
5. Al-Khamis A., McCallum I., King P.M., Bruce J. Healing by primary versus secondary intention after surgical treatment for pilonidal sinus // Cochrane Database Syst Rev., 2010, v. 10(1), CD006213.
6. Petersen S., Ommer A., Iesalnieks I et al. Wound healing disorders after excision and open treatment for pilonidal sinus // Zentralbl Chir., 2021, v.146(4), p.417-426.
7. Zhang L., Liu M., Zhang Y. et al. Recent Progress of Highly Adhesive Hydrogels as Wound Dressings // Biomacromolecules, 2020, v.21(10), p.3966-3983.
8. Berry D.P., Bale S., Harding K.G. Dressings for treating cavity wounds // J Wound Care, 1996, v.5(1), p.10-7.
9. Viciano V., Castera J.E., Medrano J. et al. Effect of hydrocolloid dressings on healing by second intention after excision of pilonidal sinus // Eur J Surg. 2000, v.166(3), p.229-32.
10. Aderibigbe B.A., Buyana B. Alginate in Wound Dressings // Pharmaceutics, 2018, v.10, p. 42
11. Romain B., Mielcarek M., Delhorme J.B. et al. SORKYSA group. Dialkylcarbamoyl chloride-coated versus alginate dressings after pilonidal sinus excision: a randomized clinical trial (SORKYSA study) // BJS Open, 2020, v.4(2), p.225-231.
12. Marinović M., Cicvarić T., Grzalja N. et al. Application of wound dressing Molndal technique in clean and potentially contamined postoperative wounds initial comparative study // Coll Antropol., 2011, v.35 Suppl 2, p.103-6.
13. Woo K.Y., Kwong E.W., Jimenez C. et al. topical agents and dressings for pilonidal sinus wound healing by secondary ıntention: a scoping review // Surg Technol Int., 2015, v.26, p. 57-63.
14. Harris C., Sibbald R.G., Mufti A. et al. Pilonidal Sinus Disease: 10 Steps to Optimize Care // Adv Skin Wound Care, 2016, v. 29(10), p.469-78.
15. Tavangari F.R., Lee J.A., Garza D. et al. Outcomes of unroofing with limited excision and structured postoperative care for pilonidal disease // Am Surg., 2017, v.83(10), p 1045-1049.

16. Sezer A.D., Cevher E. Biopolymers as wound healing materials: Challenges and new strategies. In Biomaterials Applications for Nanomedicine; Pignatello, R., Ed.; InTech: Rijeka, Croatia, 2011, p. 383-414

17. Chattopadhyay S., Raines R.T. Review collagen-based biomaterials for wound healing // Biopolymers, 2014, v.101(8), p.821-33.

18. Fleck C.A., Simman R. Modern collagen wound dressings: function and purpose // J Am Col Certif Wound Spec., 2011, v.2(3), p.50-4.

19. Wang H. A Review of the Effects of Collagen Treatment in Clinical Studies // Polymers (Basel), 2021, v.13(22), p.3868.

20. Cooper C., Horner C., Barlow G. et al. A survey of practice and opinions on the use of topical antibiotics to prevent surgical site infection: more confusion than consensus // J Antimicrob Chemother., 2018, v.73(7), p.1978-1983.

21. Chang W.K., Srinivasa S., MacCormick A.D. et al. Gentamicin-collagen implants to reduce surgical site infection: systematic review and meta-analysis of randomized trials // Ann Surg., 2013, v. 258(1), p.59-65.

22. Sandy-Hodgetts K., Guise T., Humphreys H. A survey of practice and opinions on the use of topical antibiotics to prevent surgical site infection: more confusion than consensus // J Antimicrob Chemother., 2018, v.73(7), p. 1978-1983.

23. Rao M.M., Zawislak W., Kennedy R., Gilliland R. A prospective randomised study comparing two treatment modalities for chronic pilonidal sinus with a 5-year follow-up // Int J Colorectal Dis., 2010, v. 25, 395e400.

24. Andersson R.E., Lukas G., Skullman S. et al. Local administration of antibiotics by gentamicin-collagen sponge does not improve wound healing or reduce recurrence rate after pilonidal excision with primary suture:a prospective randomized controlled trial // World J Surg., 2010, v. 34, 3042e8.

25. Yetim I., Ozkan O.V., Dervisoglu A. et al. Effect of gentamicin-absorbed collagen in wound healing in pilonidal sinus surgery:a prospective randomized study // J Int Med Res., 2010, v.38, 1029e33.

26. Doll1 D., Evers T., Matevossian E. et al. Does gentamycin affect long term recurrence rate in pilonidal sinus surge // Eur Surg., 2011, v.43/4, p. 236-243.

27. Holzer B., Grüssner U., Brückner B. et al. EMD study group. Efficacy and tolerance of a new gentamicin collagen fleece (Septocoll) after surgical treatment of a pilonidal sinus // Colorectal Dis., 2003, v. 5(3), p.222-7.

Резюме

Важные аспекты заживления ран после операций пилонидального синуса

Ф.Х.Джамалов, Г.А.Косаева, А.А.Косаев

Проведен анализ литературы по применению раневых материалов для заживления ран в хирургическом лечении пилонидального синуса. Многие средства для заживления ран широко используются в клинической практике для предотвращения инфекционных осложнений хирургических ран. Более целесообразными были признаны коллагеновые губки с положительными свойствами, как био-совместимость, максимальное всасывание экссудата, низкая аллергия и хорошее всасывание. Доказана роль этих губок в кратковременном заживлении ран после операций пилонидального синуса и в профилактике раневых инфекций. Возможность дальнейшего улучшения результатов лечения путем пропитки губок противомикробными средствами и антибиотиками была продемонстрирована в ряде рандомизированных исследований. Использование комбинации коллагеновых губок, пропитанных антибиотиками и методов пластики кожи, является перспективным методом.

Summary

Important issues of wound healing after pilonidal sinus surgery

F.H. Oamalov, G.A. Kosayeva, A.A.Kosayev

The analysis of the literature on the use of dressing materials for wound healing in the surgical treatment of the pilonidal sinus was carried out. Many wound healing agents are widely used in clinical practice to prevent infectious complications of surgical wounds. Collagen sponges with positive properties such as biocompatibility, maximum absorption of exudate, low allergy and good absorption were found to be more appropriate. The role of these sponges in short-term wound healing after operations of the pilonidal sinus and

in the prevention of wound infections has been proven. The potential to further improve treatment outcomes by impregnating sponges with antimicrobial agents and antibiotics has been demonstrated in a number of randomized trials. The use of a combination of antibiotic-impregnated collagen sponges and skin flap techniques promise better treatment outcomes for patients with pilonidal sinus.

Daxil olub: 29.07.2022

Kombinə olunmuş hipotenziv preparatlarla müalicənin əhəmiyyətli aspektləri haqqında

[1]A.A.Bəydəmirova, [2]S.H. Məhərrəmova
[1]Azərbaycan Tibb Universiteti, Kliniki farmakologiya kafedrası;
[2]Azərbaycan Tibb Universiteti, farmakologiya kafedrası, Bakı

Açar sözlər: hipotenziv preparatlar, arterial hipertenziya, dərman qrupları, müalicə
Ключевые слова: гипотензивные препараты, артериальная гипертензия, группы препаратов, лечение
Key words: antihypertensive drugs, arterial hypertension, groups of drugs, treatment

Son illərə qədər AH-nın etiopatogenezində, diaqnostikasında və müalicə məsələlərində nəzərəçarpacaq nailiyyətlər əldə olunsa da, bu gün müasir kardiologiyada onun daha ətraflı öyrənilməsi tələb olunur. Qeyd etmək lazımdır ki, arterial təzyiqin (AT) 20 mm.c.st artmasına qarşı fəsad göstəriciləri 2 dəfə yüksəlməsi faktı bunu daha ciddi düşünməyə imkan verir [1].

Ümumiyyətlə, AH rastgəlmə tezliyinin, xüsusən 18 yaşdan sonra 20-30%, 65 yaşdan sonra isə 50% artması, xəstəliyin patogenetik inkişaf zəncirinin bir daha ətraflı öyrənilməsi böyük aktuallıq təşkil edir.

Arterial hipertoniyanın klinik-patogenetik variantının dəqiqləşdirilməsi, onun müalicəvi–profilaktik proqramının işlənməsinin əsasını təşkil edir. Proqramın əsas məqsədi, xəstəliyin farmakoterapiya əsasında kardioloji fəsadların ikincili profilaktikasına təşkilinin təmin edilməsidir. Bu zaman xəstəliyin və ya konkret bir variantın genetik əsası ilə bərabər klinik şəklin formalaşmasında iştirak edən tənzimləyici sistemlərin və mexanizmlərin rolunu da nəzərə almaq lazımdır. Məlumdur ki, periferik damar müqavimətinin neyrohumoral tənzimində damar endotelin xüsusi rolu ilə bərabər, natriumuretik təsir göstərən və periferik damarların müqavimətini aşağı salan neyrohumoral peptid sistemi haqqında geniş məlumatlara rast gəlmək olur. Bu peptidlər AH zamanı ümumi periferik damar müqavimətini azaldaraq, periferik damarları genişləndirir, həmçinin natriumun ekskresiyasını sürətləndirirlər.

Qeyd etmək lazımdır ki, AH-nın patogenezində RAAS (renin- angiotenzin-aldosteron sistemi), natriumuretik peptid sistem, simpatiko- adrenal sistem böyük vəhdət təşkil edir. Buna görə də bu gün bu sistemlərin vəhdətini nəzərə almadan AH-nin düzgün farmakoterapiyasını və fəsadların profilaktikasını təşkil etmək mümkün olmaz. Natriumuretik peptidlər renin- angiotenzin-aldosteron sisteminin fizioloji antaqonisti hesab edilir. Ona görə də geniş vəhdət təşkil edən bu sistemin tədqiq edilməsi arterial hipertenziyanın diaqnostik müayinə planında vacib şərtlərdən biri və bu vahid sistemə təsir edən preparatların AH–nin patogenetik farmakoterapiyasında istifadəsi əsas şərt hesab edilməlidir [2,3].

Qeyd etmək lazımdır ki, AT-in endirilməsində və ürək-damar fəsadlarının qarşısının alınmasında, antihipertenziv preparatların heç bir qrupu mühüm üstünlüyə malik deyil. İstənilən antihipertenziv preparatın seçiminə əsas səbəb xəstəliyin patogenetik durumudur. Amma tək bu əsas şərt deyil. Praktiki həkimlər

xəstədə təsadüf edilən AH ilə yanaşı digər patologiyanın olmasını da nəzərə alması vacib sayırlar. Hipotenziv preparatların hər bir qrupu göstəriş və əks göstərişlərinə görə bir birindən fərqlənirlər. Bunu hipotenziv preparatların mütləq və nisbi göstəriş -əks göstərişləri əks edən cədvəldə aydın görmək olur.

Bu gün təəsüflər olsun ki, ÜST ekspertlərinin tövsiyə etdiyi monoterapiyanın köməyi ilə AT-in məqsədli səviyyəsinə çox vaxt nail olmaq mümkün olmur və AH-ın kombinə olunmuş terapiyanın konsepsiyası indiki zamanda şübhə yaratmır. Hipertoniya üzrə Avropa Cəmiyyəti / Avropa Kardioloqlar Cəmiyyətinin 2007-ci il və 2009-cu il yeniləşdirilmiş AH üzrə müalicə və profilaktika üzrə tövsiyələrində ürək damar fəsadları yüksək riski olan xəstələrə müalicənin, kombinə terapiya ilə başlanılması tövsiyə edilir. Kombinə müalicənin aparılmasına göstərişlər bunlardır:

-AT-nin sərhəd göstəricilərinin - SAT-ın 20 mm.c.st., DAT- ın isə 10 mm.c.st. yüksək olması (>AT 160/100mm.c.st);

-AT-in ən aşağı həddinin digər risk amilləri ilə bərabər təsadüfündə >150/90 mm.c.st (hədəf orqanlarının zədələnməsi, Şəkərli diabet (ŞD), böyrəklərin disfunksiyası, ürək dammar patologiyasının müştərək təsadüfü);

-Yüksək, çox yüksək ürək damar riski zamanı AH-nın II-III mərhələsində.

Beləliklə, bu gün Avropa tövsiyələrinə (iyun 2007) əsasən hipotenziv preparatların ən əlverişli kombinasiyaları bunlardır [4]:

-Angiotenzin çeirici fermentin ingibitoru (AÇFİ) və tiazid diuretikləri;

-Tiazid diuretikiləri (TD) və ARB (anqiotenzin reseptorların blokatoru);

-Kalsium kanallarının blokatorları (KKB) və AÇFİ;

-KKB və ARB;

-Tiazid diuretikiləri və KKB

-Beta-blokator + KKB (dihidropiridin qrupu).

Cədvəl

Dərman qrupları və onların təyinatı

Dərmanların qrupları	Mütləq göstəriş	Nisbi göstəriş	Mütləq göstəriş	Nisbi əks göstəriş
Diuretiklər	Ürək çatışm azlığı Yaşlı xəstələr Sistolik hipertenziya	Diabet	Podaqra	Dislipidemiya Seksual aktiv ki şilər
β-blokatorlar	Stenokardiya Keçirilmiş miokard infarktı Taxiaritmiya	Ürək çatışmazlığı Hamiləlik Diabet	Astma və xronik obstruktiv bronxit; Ürəyin ötürücü yollarının blokadası (II-III dərəcəli AB) bradikardiya (ÜVS 60≤)	Dislipidemiya İdmançılar və fiziki aktiv şəx slər Periferik damarların xəstəliyi
AÇF inhibitoru	Ürək çatışmazlığı Sol mədəciyin disfunksiyası Keçirilmiş miokard infarktı Diabetik nefropatiya		Hamiləlik Hiperkalemiya Böyrək arteriyasının ikitərəfli stenozu	Böyrək arteriyasının ikitərəfli stenozu
Ca kanallarının blokatotorları	Stenokardiya Yaşlı xəstələr Sistolik hipertenziya	Periferik damarların zədələnməsi	Ürəyin ötürücü yollarının blokadası (diltiazem və ya verapamil üçün II-III dərəcəli AB)	Durğun ürək çatışmazlığı
α-adrenergik blokatorlar	Prostat vəzinin hipertrofiyası	Qlükozaya tole rantlığın pozulması Dislipidem.		Ortostatik hipotenziya
Angiotenzin II antaqonisti	AÇF inhibitorlarının qəbulu zamanı yaranan öskürək	Ürək çatışmazlığı	Hamiləlik Böyrək arteriyasının ikitərəfli stenozu Hiperkaliemiya	
İmidazolin reseptorların aqonisti	Metabolik sindrom və piylənmə qlükozaya tolerantlığın pozulması	Şəkərli diabet Mikroalbuminuriya		II-III dərəcəli atrioventrikulyar blokada Ağır ürək çatışm azlığı


Sonda qeyd edilən fiksə olunmuş kombinə preparat uzun müddət istifadəsi zamanı mənfi metobolitik təsirə malik olduğu üçün istifadəsi məsləhət görülmür [5,6,7].

Kombinasiya yaratmaq üçün tövsiyə olunmuş preparatların sayının 6-dan 4-ə qədər azalması həkim üçün seçim prosessini bir qədər yüngülləşdirir. Bununla belə müxtəlif kateqoriyalara aid olan xəstələrdə AT-ın effektiv nəzarət imkanları məhdudlaşmır, çünki ekspertlər effektlik və təhlükəsizlik baxımından ən böyük sübütedici bazası olan preparatları seçmişlər.Aparılan bir çox tədqiqatlarda – ALLHAT-da 62%, İNVEST-də 80%, STOP-Hipertension-də 66%, LİFE- də 92% hallarda iki və daha artıq hipotenziv preparatıntəyini göstərilmişdir. Prof.A.O.Konradinin tövsiyəsinə əsasən hipertoniyalı xəstələrə təyin edilən müalicə fasiləsiz olduğunu nəzərə alsaq terapiyanın əvvəlində müxtəlif mexanizmə malik preparatların istifadə edilməsi məqsədyönlüdür (müalicənin əvvəlində təyin edilən preparata digər təsirə malik ikinci hipotenziv preparatın əlavə edilməsi nəzərdə tutulur) [8,9].

Hal-hazırda respublikamızın əczaçılıq bazarında kardioloqların arsenalında bir çox ölkələrin istehsalçıları tərəfindən təklif olunan müxtəlif kombinasiyalı çoxlu sayda dərman preparatları var və bunlıar geniş qiymət variasiyaları ilə apteklərdə realizə olunurlar. Qeyd etmək lazımdır ki, əksər kombinə preparatların tərkibində kiçik dozada tiazid diuretiklərin olması üstünlük təşkil edir. Robisol H (bisoprolol/hidroxdortiazid), Tevetent plus (eprosartan / hidroxdortiazid), Ko-diraton (lizinopril/ hidroxdortiazid), Ekvator, Lispress, Prestans və s. [10].

Antihipertenziv preparatların rasional kombinasiyalarından biri AÇFi və tiazid diuretikinin birləşməsidir.

Sübut olunmuşdur ki, tiazid diuretikinin AÇFİ-ə əlavə olunması sonuncunun antihipertenziv təsirinin xeyli gücləndirir və 80% pasientlərdə AT-ın məqsədli səviyyəsinə çatmasına imkan verir. Buna baxmayaraq uzun müddət tiazid diuretiklərin həm mono-, həm də kombinə olunmuş terapiyada istifadəsinə aid mübahisəli bir fikir var idi [11,12]. Qəribə sual qarşısında qalırıq - əgər tiazid diuretiklər həqiqətən də metabolik təhlükəsizliyi baxımından bu qədər pisdirlərsə, bəlkə onlardan imtina edək və yaxud digər qrup antihipertenziv preparatlarla əvəz edək? 60 il bundan əvvəl İ.H.PAGE (Pathogenesis of arterial hypertension. JAMA, 1949, 140: 451–457) AH-nın mozaik modelini təklif etmişdir [13].



Şək. Arterial hipertenziyanın patogenezinin mozaik modeli

Şəkildən gördüyümüz kimi, diuretiklərdən başqa antihipertenziv preparatların heç bir sinfi maye həcminin çoxalmasına təsir edə bilmir. "Mozaik" nəzəriyyənin müəllifi yazmışdır ki, "mozaika heç vaxt donmuş olmur. Onun tərkib həssələri kaleydoskopdakı kimi bir birindən başqa şəklə düşüb daima dəyişirlər".

Bu, kombinə olunmuş terapiyada diuretiklərin mövqesini daha da möhkəmləndirir, çünki onlarsız AH kimi mürəkkəb problemin həllinə birtərəfli yanaşmanın əsassızlığı tam mənada realizə edilir. Yuxarıda verilən suala cavab tamamilə aydındır – AH-sı olan pasientlərin müasir və effektiv müalicəsi diuretiklərsiz və, o cümlədən, tiazid diuretiklərsiz mümkün deyil!

Bu gün diqqət mərkəzində olan AÇFi-dən lizinopril ilə tiazid diuretiki hidroxlortiazidin kombinasiyasının istifadəsinə üstünlük verilir [14]. AÇFi ilə tiazid diuretikin kombinasiyası optimal hesab olunur, çünki nəinki onun komponentlərinin təsir sinergizminin hesabına hipotenziv effektin güclənməsinə gətirib çıxarır, həm də AT-ın qalxmasına səbəb olan "kontrrequlyator" mexanizmlərini blokada edir. Məsələn, bu halda diurezin çoxalmasına cavab olaraq RAAS-ın aktivləşməsinin zəifləməsinə imkan verir. Bundan başqa AÇFi hidroxlortiazidin yan effektlərini - kaliumun və qlyukozanın qanda miqdarına mənfi təsirini - mühüm dərəcədə neytrallaşdırır.

AH-da AÇFİ və hidroxlortiazid (HXT) kombinasiyasının əlverişli effektlərinə daha da ətraflı nəzər yetirək:

-Diuretikin kiçik dozada əlavə edilməsi AÇFİ-n antihipertenziv təsiri gücləndirir və uzadır;

-AÇFi və diuretikin kombinasiyası AH-sı olan xəstələrin yaşı və cinsindən, xorək duzun istifadəsindən, plazma reninin aktivləşməsindən və qanda kaliumun miqdarından asıllı olmayaraq yüksək antihipertenziv təsir göstərir;

-TD əlavə olunması AÇFİ-nin yaratdığı hiperkaliemiyanın rastgəlmə tezliyini azaldır;

-Hiperreniemiya zamanı diuretiklərin hipotenziv effekti azaldığından AÇFİ ilə onların kombinasiyası məqsədəuyğundur;

-Hiporeniemiyalı AH zamanı AÇFİ qəbulu zamanı hipotenziv effekt aşağı olduğundan HXT-in əlavəsi həssaslığı artırır.

-AÇFİ-nin təyini zamanı baş verən hiperaldosteronizm diuretiklərin törətdiyi hipokalemiya nəticəsində aradan götürülür.

-AÇFİ ilə kombinasiyada tiazid diuretiklərinin törətdiyi hipokaliemiyanı, karbohidrat, lipid və purin mübadiləsinin pozğunluqlarının təsadüfünü azaldır;

-AÇFİ-i diuretiklərin natriumuretik effektlərini potensiallaşdırır, diuretiklərin əlavə edilməsi isə onların dozasının azaldılmasına imkan verir;

-Kombinə olunmuş preparatların istifadəsi qəbul dozasını, həblərin qəbul sayını azaldır və bu halda AH-li xəstələrin antihipertenziv terapiya zamanı preparatın qəbul qaydasını asanlaşdırır.

-Kiçik dozalı kombinasiya dozadan asılı əlavə təsirlərin azalmasına səbəb olur.

-Monoterapiyaya nisbətən kombinə müalicənin maliyyə dəyərinin az olması.

Ko-Diroton qaraciyərdə metabolizmi olmayan AÇFi və diuretikin yeganə fiksə olunmuş kombinasiyasıdır [15]. Bu kriteriyə görə lizinopril (Diroton) digər AÇFi-lərlə müqayisə oluna da bilməz, bu da onun qaraciyərdə aktivləşən və yaxud parçalanan başqa kardiovaskulyar preparatlarla kombinasiya yaratmaq imkanını xeyli artırır. Lizinoprilin bu xüsusiyyətinə görə açılan imkanlarda daha da ətraflı dayanaq.

ÜST-ün məlumatlarına görə dünya əhalisinin 30%-ində müxtəlif mənşəli qaraciyər patologiyası var. Bu, alkohol və virus hepatitləri, dərman preparatların hepatotoksik effektləri, karbohidrat-lipid mubadilə pozulması ilə bağlı qaraciyər zədələnmələridir.

Qaraciyərin qeyrialkohol piy xəstəliyi (qeyri-alkohol steatoz və ya steatohepatit) xüsusi yer tutur. Qaraciyərin piy distrofiya əlamətləri bir sıra xəstəliklərdə aşkar olunur: metabolik sindrom, piylənmə, qadınlarda yumurtalıqların polikistozu, böyrəküstü vəzinin hipoplaziyası, gecə apnoe sindromu və s.

Qaraciyərin qeyrialkohol piy xəstəliyi olanların 70%-i hər hansı diskomfort hiss etmir. Hepatomeqaliya və qan plazmasında qaraciyər fermentlərin səviyyəsinin qalxması nadir hallarda müşahidə olunur. Adətən bu patologiyanın yeganə əlaməti astenik sindromdur [16].

Hipotenziv terapiyanı təyin etdikdə həkim qaraciyərdə biotransformasiyaya ehtiyacı olan preparatların istifadəsi zamanı ola biləcək qeyrieffektliyi haqqında düşünmür [10]. Çox hallarda klinikada alkohol hepatiti olan xəstələrdə AÇFİ-lərdən kifayət qədər yüksək antihipertenziv effekti almaq mümkün olmur. İstənilən preparatı lizinoprillə əvəz etdikdən sonra AH-ın effektiv nəzarətinə nail olmaq mümkün olur. Alkohol qəbul etməyən, amma AH, ÜİX və digər patologiyaya qarşı bir neçə dərman preparatını qəbul edən pasientlər adətən özləri də sual qabağında qalırlar: "Daha bir preparatın təyinatı mənim qaraciyərimə ziyan olmaz ki?" Qeyd etmək lazımdır ki, lizinoprilin uzunmüddətli istifadəsi arzuolunmaz dərman təsirləri inkişafının ən aşağı riski ilə xaraktərizə olunur. Çünki o, digər preparatlarla qaraciyər fermentləri uğrunda rəqabət aparmır.

Klinik praktikada yanaşı patologiyalı xəstələrə tez-tez rast gəlmək olur. AH-nın qaraciyər və böyrək xəstəlikləri və şəkərli diabetlə yanaşı olması antihipertenziv terapiyanı korreksiya etməyə məcbur edir. Bu

zaman müəyyən preparatlara və kombinasiyalara üstünlük verilir. Qaraciyər patologiyasının yanaşı olması xəstədə AH gedişini mürəkkəbləşdirir, ürək-damar ağırlaşmalarının riskini artırır. Məsələn, steatohepatitin qeyri-alkohol forması olan xəstələrdə miokardın hipertrofiyasının və diastolik disfunksiyanın inkişaf riski daha böyükdür. Ola bilər, buna səbəb belə xəstələrdə daha ifadəli insulinorezistentliyin olmasıdır. Bundan başqa təyin olunub ki, piyli hepatoz AT-in sirkad ritminin pozulması ilə bağlıdır. Bu xəstələrdə gecə vaxtı AT-in qeyri-qənaətbəxş enməsi daha tez müşahidə olunur.

Lizinopril aktiv dərman olaraq orqanizmə daxil olduqda qaraciyər fermentləri tərəfindən aktivləşməsini tələb etmir. Qan plazmasının digər zulalları ilə əlaqəyə girmir. Bu, o deməkdir ki, qaraciyər funksiyasının pozulması preparatın farmakokinetikasına təsir göstərmir. Xüsusi tədqiqatlar zamanı göstərilmişdir ki, qaraciyər sirrozu zamanı lizinoprilin dozalanma rejimi digər AÇFi-lərdən fərqli olaraq korreksiya tələb etmir [17]. Adətən piyli hepatozla yanaşı piylənməsi olan xəstələrdə lizinoprilin dozalanması dəyişiliklər tələb etmir. Bu, lizinoprilin nəinki qaraciyərdə metabolizmə uğramaması ilə, həm də onun unikal farmakoloji xüsusiyyəti – hidrofilliyi ilə bağlıdır. Digər AÇFi-lardan fərqli olaraq lizinopril piy toxumasında paylanmır, bu da onun qanda, damar endotelidə və digər orqan və toxumalarda yüksək konsentrasiyalarını yaratmağa imkan verir.

Kardioloqlara qeyri steroid iltihab əleyhinə (QSİƏ) preparatların AÇFİ-lərin antihipertenziv effektini azaltması faktı yaxşı tanışdır.

GİSSİ-3 tədqiqatında lizinopril miokard infarktı ilə xəstələrə təyin olunurdu və ÜİX-ın ikincili profilaktikasının əsas komponenti olan asetil-salisil turşrsu ilə qarşılıqlı təsirə girmirdi.

Hepatitis B surveillance in Azerbaijan covers the entire population (10 million 119 thousand population as of 01.01.2020). Based on the order of the Ministry of Health of 01.04.2010 in all areas, except Nakhichevan (400,000 population that makes 0.9% from the general population) EIDSS was introduced as the instrument of transfer, storage and analysis of the surveillance data [1]. Specific weight of the confirmed cases from all the suspicious cases makes 71% in 2018, 70% in 2019, and 78% in 2020.

Among surveillance indicators timeliness of notification, data entry and epidemiological investigation were reaching or were above the desirable target – conventional threshold. Means of the days of seeking medical care after onset of symptoms were 12 days in 2020 that is more twice less than in 2019 (See Table 1)

Among laboratory indicators Timeliness of Sample collection for VHB cases was increasing between 2018-2020 but not reaching the established target. Adequacy of sample collection and adequacy of testing were consistently high and above the target. Indicators of completeness of data entry show that more than 90% of data was entered for the evaluated variables.

Table 1
Indicators of VHB surveillance system, laboratory indicators and indicators of completeness of data entry

Surveillance Indicators	Years		
	2018	2019	2020
Timeliness of seeking medical care (means of days)	28	35	12
Timeliness of urgent notification (%)	86	96	91
Timeliness of data entry (%)	95	90	90
Timeliness of epi investigation (%)	94	85	85
Timeliness of sample collection (%)	52	74	78
Adequacy of Sample Collection (%)	95	93	99
Adequacy of Testing (%)	97	98	97
Completeness of filed sample type (%)	95	93	98
Completeness of field test result (%)	92	92	96
Completeness of field test name (%)	92	92	96
Timeliness of epi investigation (%)	94	85	85

Conclusion. Despite 3 times decrease in incidence over 2010-2020, the burden of Hepatitis B in the country remains: high rate of hospitalization due to delayed medical care; the most common risk factors are sexual contacts, dental procedures and the using of injections for medical or other purposes; in 14 regions the incidence rate was zero three years, which may be due to unreported cases. Reaching target of most indicators shows adequate surveillance system. But indicators of timeliness of seeking medical care and timeliness of sample collection remains inadequate. Completeness of data entry shows the high quality of data.

Recommendations. Based on our study results we recommend to conduct prevalence among dental clinics and identify factors contributing to increase of VHB among dental patients; to enhance surveillance in the zero reporting regions and to raise awareness of people about VHB, necessity of early seeking care and its risk factors. Also, we recommend carrying out similar evaluation of surveillance periodically that will allow taking purposeful measures for its improvement.

Limitations. Private laboratories do not include to the system and data could not be obtained.

Acknowledgements. We thank FETP Regional Office (EECA) US CDC (Tbilisi, Georgia) for guiding.

REFERENCES

1. "About applying of EIDSS system in the country" approved by order of MOH № 16, 25 02.2010.
2. Decree of the President of the Republic of Azerbaijan No. 418, 28 december 2018.
3. Guliyeva Sh., Rasulzade Z., Mursalova N. Decreasing of burden of Hepatitis B in Azerbaijan along with strengthening of the surveillance system in 2012-2016 / ASM Microbe 2018, June 5-8, 2018, Atlanta, US, abstract book.
4. Guidelines for Evaluation Surveillance System (CDC, Atlanta).
5. Karoney M.J., Some F.F., Dip H.I.L. et al. Burden of Hepatitis B Infection among High Risk Populations in Western Kenya // J Infect Dis Epidemiol., 2020, v.6, p.132
6. Schaefer S. Hepatitis B virus taxonomy and hepatitis B virus genotypes // World J Gastroenterol. 2007, v.13, p.14-21
7. Updated Guidelines for Evaluating Public Health Surveillance Systems // 2005, CDC, Atlanta.
8. WHO (2001). Introduction of hepatitis B vaccine into childhood immunization services. World Health Organization (ed) Geneva: No. WHO/V&B/01.31, i-48.
9. https://www.who.int/news-room/fact-sheets/detail/hepatitis-b
10. https://wwwnc.cdc.gov/travel/yellowbook/2020/travel-related-infectious-diseases/hepatitis-b
11. http://www.ecdc.europa.eu/en/publications/Publications/1111_SUR_Annual_Epidemiological_Report_on_Communicable_Diseases_in_Europe.pdf

Резюме

Бремя гепатита В и оценка системы эпиднадзора в Азербайджане, 2018-2020 ГГ.

В.Н.Сафарова, З.И.Расулзаде, Н.А.Мурсалова

Исследование было проведено в рамках проекта FETP EECA (CDC, Грузия) изучения оценки системы эпиднадзора за гепатитом В среди людей в 2018-2020г.г. Были использованы данные электронной системы EIDSS Министерства Здравоохранения Азербайджана. Установлено, что несмотря на значительное снижение числа новых случаев инфицирования гепатитом В за последние 10 лет, в стране сохраняется высокий уровень госпитализации в связи с несвоевременным оказанием медицинской помощи. Наиболее распространенными факторами риска являются половые связи, стоматологические процедуры и использование инъекций в медицинских или иных целях. Рекомендовано продолжение санитарного просвещения населения о гепатите В и его факторах риска с целью своевременного обращения в больницу.

Xülasə

Azərbaycanda hepatit B epidemioloji yükü və müşahidə sisteminin qiymətlənməsi, 2018-2020

V.N.Səfərova, Z.I.Rəsulzadə, N.A.Mürsəlova

Tədqiqat 2018-2020-ci illərdə insanlar arasında hepatit B üzərində epidemioloji nəzarət sisteminin qiymətləndirilməsi üzrə FETP EECA (CDC, Gürcüstan) layihəsinin çərçivəsində aparılmışdır. Azərbaycan Səhiyyə Nazirliyinin elektron sistemi olan YXEMS-nin məlumatlarından istifadə olunmuşdur. Təyin olunmuşdur ki, son 10 il ərzində hepatitə yoluxma hadisələrinin xeyli azalmasına baxmayaraq, tibbi yardımın vaxtında aparılmaması ilə əlaqədar ölkədə hospitalizasiya yüksək səviyyədə qalmaqdadır. Ən geniş yayılmış risk faktorlarına cinsi əlaqələr, stomatoloji prosedurlar, tibbi və digər məqsədlərlə istifadə olunmuş inyeksiyalar aiddir. Xəstəxanaya vaxtında müraciət etmək məqsədilə əhalinin hepatit B və onun risk faktorları haqqında sanitar maarifləndirilməsinin davam edilməsi məsləhət görülür.

Daxil olub: 18.07.2022

Tp53 Geninin Arg72pro polimorfizminin kolorektal poliplərdə tədqiqi

[1]H.M. Aslanov, [2] B.İ. Bayramov, [2]Z.M. Məmmədova, [2] G.Ə.İsmayılova
[1]M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi, Bakı, Azərbaycan
[2]Elm və Təhsil Nazirliyi, Genetik Ehtiyatlar İnstitutu, İnsan genetikası laboratoriyası, Bakı

Açar sözlər: Tp53 geninin Arg72pro polimorfizmi, kolorektal poliplər,
Ключевые слова: Arg72pro полиморфизм гена Tp53, колоректальные полипы
Key words: Arg72pro polymorphism of Tp53 gene, colorectal polyps

Poliplər bağırsaq mukozasından bağırsaq mənfəzinə doğru hüceyrələrin çıxıntı şəklində qeyri-normal toplanması və ya böyüməsidir. Zamanla poliplərdəki bölünən hüceyrələrdə genetik dəyişikliklər toplanır, həmin hüceyrələr bağırsaq divarını əhatə edərək yerli limfa düyünlərinə və nəhayət, uzaq metastatik sahələrə yayıla bilərlər (2). Poliplərin yalnız kiçik bir faizi bədxassəli xüsusiyyətlər qazanır və polipdən xərçəngə doğru proqressivləşmə bir neçə il, hətta on illər çəkə bilər [14]. Forma və xüsusiyyətlərinə görə poliplər müxtəlif növlərə bölünür. Bağırsaq poliplərinin iltihabi, hiperplastik və neoplastik formaları müəyyən olunmuşdur. Neoplastik poliplərin iki əsas növü vardır: Adenomalar və oturaq dişli poliplər. Adenomalar əsasən kiçik, yuvarlaq, atipik vəziləri olan tubulyar histologiyaya sahibdir, lakin inkişaf etdikcə filamentli quruluşa malik villoz, yaxud tubulovilloz poliplərə çevrilir. Tubulovilloz və villoz adenomalar (xüsusuilə də ≥25% villoz adenomalar) adətən daha böyük ölçülərə malik olur və onların xərçəng hüceyrələrinə çevrilmə potensialı daha yüksəkdir [6,15]. Adenokarsinomalar xoş xassəli polipdən (kolon adenoması) böyüyən ACP kimi premalign lezyonlardan inkişaf edir. Adenomatoz və normal polip arasındakı fərqi vurğulamaq çətindir. Lakin adenomatoz poliplər kolonun selikli qişasının strukturunda daha nəzərəçarpan dəyişikliklərə səbəb olur [11].

Son illərdə molekulyar səviyyədə aparılan çoxsaylı tədqiqatlar şişin inkişafının başlıca iki cür genin, yəni proto-onkogenlər və tümor supressor genlərin mutasiya uğramasına bağlı olaraq meydana çıxdığını göstərmişdir. Adenomalarda inkişaf edən ilk mutasiyalar hüceyrə bölünməsi zamanı xromosomların seqreqasiyasına təsir edən APC (Adenomatous polyposis coli) genində olur. Sonrakı mutasiyalar KRAS onkogenində inkişaf edir ki, bu da hüceyrənin böyüməsi, differensiasiyası, hərəkətliliyi və sağ qalması kimi göstəricilərinə mənfi təsir göstərir. Zamanla bu mutasiyalar transkripsiyanın və apoptozun əsas tənzimləyicisi olan p53 geninin funksiyasının itirilməsinə gətirib çıxarır, geniş spektrli hüceyrə funksiyalarına təsir edir, beləliklə, kanserogenezlə nəticələnir [12]. Bunun əksinə olaraq, dişli adenomaların inkişafı BRAF genindəki mutasiyalarla başlayır. Bu mutasiyalar böyümə siqnalının dəyişməsi və apoptozun itirilməsi ilə nəticələnir [4,9,15]. KRAS mutasiyaları dişli adenomalarda da baş verə bilər, lakin onlar adenomatoz poliplərə nisbətən dişli adenomalarla daha az əlaqələndirilir. Digər əlaqəli təsirlər ümumi epigenetik dəyişikliklər olub gen promotor bölgəsinin hipermetilasiyasıdır. Promotor bölgənin metilasiyası gen transkripsiyasına mane olur, təsirlənmiş genləri funksional olaraq "söndürür". Bu genin deaktivasiyası, böyüməni təşviq edən digər genlərin tənzimləyiciləri də daxil olmaqla bir çox genlərə təsir göstərir [9].

Aparılan araşdırmalarda TP53 molekulunun mutant formasının hüceyrə içərisində iki fərqli şəkildə meydana çıxdığı aşkarlanmışdır. Birinci yol TP53 proteinini kodlayan DNT fraqmentinin fiziki və kimyəvi agentlər səbəbindən çərçivə sürüşməsi və ya yanlış anlamlı nöqtə mutasiyası və digər mutasiyalar ilə quruluşunu dəyişməsi nəticəsində kodlanacaq olan TP53 proteinin quruluşunun dəyişməsidir. İkinci yol, TP53 proteinin 3 ölçülü konformasiya quruluşunun qazanmasında iştirak edən şaperonlar TP53 proteinin qatlanmasını düzgün şəkildə gerçəkləşdirməməsi ilə yeni 3 ölçülü quruluşa sahib gerçək quruluşu pozulmuş TP53 proteinin mutantlaşmasıdır. Mutasiya tetramer quruluşun bir qismində və ya tamamında meydana gələ bilər. Qismi mutasiya uğrayan TP53 molekulunda mövcud olan mutant zəncir digər zəncirlər üçün inhibitor xüsusiyyət daşıyaraq düzgün zəncirlərin funksiyasının qarşısını alır. Mutant zəncir beləcə karsinogenez üçün vacib vacib bir stoplayıcı mərhələ olan TP53 mərhələsini pozaraq şiş hüceyrələrinin formalaşmasına səbəb olur [5]. İrsi olaraq TP53 proteinin bir kopyası (=surəti) əskik və inaktiv doğulanlarda xərçəng yaranması riski daha çoxdur. Bu vəziyyət «Double hit» hipotezi ilə açıqlanır. TP53 genini əksik və ya inaktiv olaraq özlərində daşıyan şəxslər iki kopya daşıyan şəxslərdən daha erkən yaşlarda xərçəngə yaxalana bilər [7].

Amin turşu ardıcıllığına təsir göstərən vacib polimorfizmlər C47T (prolin-serin;4.eqzon) və G72C (arginin-prolin;4.eqzon) mutasiyalarıdır. Bunlardan xüsusilə G72C ən vacibi olub, başda uşaqlıq boynu xərçəngi olmaqla müxtəlif xərçəng növləri ilə əlaqəli olduğu aşkarlanmışdır [3].

P53 geni kodon 72 də tək nukleotlik bir dəyişimə bağlı olaraq arginin (Arg) və ya prolin (Pro) amin turşusunun formalaşdırır. Bu fərq p53 proteinin biokimyəvi və funsional xüsusiyyətlərinə təsir edir. Prolin amin turşusuna malik p53 transkripsiya aktivatoru olduğu təqdirdə, arginin amin turşusu daşıyan p53 proteini apoptoz induksiyaedici funskiya sərgiləyir [13].

P53 geni xromosom 17p13 bölgəsində yerləşib, 11 eqzondan ibarətdir. Kodladığı protein 393 amin turşusundan ibarət olub 53kDa ağırlığındadır. Hüceyrə içərisində bir tetramer formasında mövcud olur [10].

P53 hüceyrə tsiklinin G0/G1 mərhələsində rol alan bir çox siklin bağlı kinazın funksiyasını əngəlləyən p21 proteinin ekspresiyasını, $p21^{WAF2/Cip1}$ genin transkripsiyasını tənzimləyir. Beləcə, p21 proteini vasitəsilə hüceyrə tsiklini G1 mərhələsində dayandırır [1].


Ümumilikdə, p53 hüceyrə içində DNT təmiri, hüceyrə tsiklinin dayandırılması və apoptuzun stimullaşdırılması kimi bir çox funksiyaları yerinə yetirən çox istiqamətli bir proteindir. Bu funksiyalar əsas olaraq genomun qorunması, onkogenezin qarşısının alınması ilə əlaqəli olduğu bilinməkdədir. İnsan tümorlarında mutasiyaya ən çox uğrayan gen olan p53-ün fərqli metodlarla hüceyrə içi funksiyasının "restore" edilməsinə istiqamətlənmiş bir çoxu təcrübi, bəziləri də klinik şəraitdə davam etməkdə olan araşdırmalar mövcuddur. Kliniki səviyyədəki araşdırmalar ilkin nəticələrinə görə ümumi olaraq bu tətbiqlərin xəstələr üzərində məlum bir toksiki təsiri olmadığı, ancaq hələ ciddi sağalma hallarının baş vermədiyi görülməkdədir [8]. Yenə də bu cür müalicələrin konvansional xərçəng müalicəsi ilə birlikdə tətbiq edilməsi gözlənilir.

Tədqiqatın material və metodları. Tədqiqat işi 125 xəstə və 150 praktik sağlamdan götürülmüş 125 şəxsdən ibarət yoğun bağırsaq polipi diaqnozu qoyulmuş xəstə nümunələrinin və 150 şəxsdən ibarət kontrol qrupunun tədqiqi əsasında aparılmışdır. Xəstələrdən qan nümunələri götürülərək Genetik Ehtiyatlar İnstitutunun Biotexnologiya şöbəsi, İnsan Genetikası Laboratoriyasında DNT ekstraksiyası həyata keçirilmişdir. Qan nümunələrindən DNT ekstraksiyası "Salting out" genomik DNT ekstraksiya metodu protokolu əsasında həyata keçirilmişdir. Alınan DNT nümunələrinin kəmiyyət və keyfiyyət göstəriciləri nanodrop cihazında ölçülmüşdür. İzolə edilmiş DNT polimeraz zəncir reaksiyası ilə amplifikasiya olunmuşdur. Amplifikasiyada istifadə olunan spesifik primerlər F:5′-ATC TAC AGT CCC CCT TGC CG-3′ və R:5′-GCA ACT GAC CGT GCA AGTCA-3′ şəklindədir. PZR reaksiyası ümumi həcmi 25 µl olmaqla, aşağıdakı tərkibdə olmuşdur: 2µl DNT, 3 µl 10X buffer [10 mMTris–HCl pH 8.0 ,50 mM KCl], 3 µl MgCl2, 0.5 µl 10mM dNTP qarışığı, 0.5 µl 100 µM praymer və 0.3 µl 5 U/ µl Taq polimeraza fermenti. PZR reaksiyası ilkin denaturasiya (95 °C temperaturda 5 dəqiqə), 3 tsikl (95 °C-də 30 saniyə, 56°C-də 1 dəqiqə, 72°C-də 2 dəqiqə) və son elonqasiya (72°C-də 5 dəqiqə) mərhələlərindən ibarət olmuşdur. Alınmış PZR amplikonları *BSTUI* restriksiya enzimi vasitəsilə işlənilmiş (inkubasiya 37℃-dir) və aqaroz gel üzərində nəticələr təhlil edilmişdir. DNT fraqmentlərinin restriksiya enzimi ilə kəsilməsi nəticəsində; Arg/Arg 296 bp, heteroziqot Arg/Pro 296bp, 169bp və 127bp, homoziqot mutant Pro/Pro 169 bp və 127bp şəklində olmuşdur (şəkil 1). Nəticələr statistik metodlarla öyrənilərək hipotezə uyğunluq baxımından test edilmişdir. Bütün statistik analizlər SPSS proqramının 17.0 versiyası ilə test edilmişdir. Parametrlər arasındakı assosiasiya Fisher's exact və Pearsonun *chi square* testləriylə qiymətləndirilmişdir. $P<0,05$ statistik olaraq etibarlı qəbul edilmişdir.

Tədqiqatın nəticələri. Tədqiqat işinə 125 xəstə və 150 praktik sağlam şəxslər daxil edilmiş, Tp53 geninin 72-ci kodonunda argininin prolinlə əvəzlənməsinə səbəb olan tək nukleotid polimorfizmi öyrənilmişdir. Cədvəl 1-də xəstə və kontrolların demoqrafik göstəriciləri verilmişdir. Cədvəldən göründüyü kimi, xəstələrin 72-si (59,6%) kişi, 53-ü (40,4%) qadın, kontrol qrupunun isə 66 nəfəri (44%) kişi, 84-ü (56%) isə qadındır. Xəstə qrupun yaşları 21-80, kontrol qrupunun yaşları isə 32-80 aralığında olmaqla orta yaş göstəricisi uyğun olaraq 60±10,1 və 60,9±11,5 olmuşdur. Bununla yanaşı xəstə və kontrolların siqaret və alkoqol istifadəsi məlumatları da müvafiq olaraq cədvəl 1-də göstərilmişdir. Təqdid olunan iki qrupun yaş, cins, siqaret və alkoqol istifadəsi məlumatlarını qarşılaşdıranda statistik əlaqə müşahidə olunmamışdır ($P>0.05$).

Tədqiqat işimizdə Tp53 genin Arg72Pro polimorfizminin genotip və allel tezliyini hesabladıq (Cədvəl 2). Xəstə və kontrol qruplarında müvafiq olaraq Arg/Arg genotipi 14.4% və 29.3%, heteroziqot Arg/Pro 59.2% və 52%, homoziqot Pro/Pro isə 26.4% və 18.7% olduğu aşkar edilmişdir. Arg/Pro (OR: 2.319, 95%CI: 1.230-4.372, P=0.008) və Pro/Pro (OR: 2.881, 95%CI: 1.368-6.066, P=0.005) genotipləri ilə xəstəliyin artma riski arasında korrelyasiya müəyyən edildi. Dominant modelə görə statistik əlaqə (OR: 2.468, 95%CI: 1.340-4.544, P=0.003) aşkar edildiyi halda resessiv modeldə ($P>0.05$) isə hər hansı statistik əlaqə müşahidə edilməmişdir. Arg allelinin tezliyi xəstə qrupunda 52.5%, kontrol qrupunda 55.3%-ə bərabər olmuşdur. Mutant Pro allelinin tezliyi isə xəstə və kontrol qruplarında uyğun olaraq 47.5% və 44,7% olaraq

hesablanmışdır. Pro alleli xəstəliyin artma riski ilə assosiasiyalı tapıldı, OR:1.577, 95%CI: 1.125-2.210, P=0.008.



Şək. 1. RFLP elektroforez nəticələrinin görüntülənməsi
DNT ladder-1
Normal Arg/Arg - 5
Heteroziqot Arg/Pro - 2, 3, 4, 8
Homoziqot Pro/Pro - 6, 7

Cədvəl 1
Xəstə və kontrol qruplarını təşkil edən fərdlərin demoqrafik xüsusiyyətləri

Xüsusiyyətlər	**Xəstə,** N=125 (%)	**Kontrol,** N=150 (%)	***P* dəyəri**
Cinsiyyət			0.225
Kişi	72 (59,6)	66 (44)	
Qadın	53 (40,4)	84 (56)	
Yaş			
Yaş aralığı	21-80	32-82	0,351
Mean	60±10,1	60,9±11,5	
Siqaretdən istifadə			
Siqaret çəkənlər	45 (36)	58 (38,7)	
Çəkməyənlər	71 (56,8)	79 (52,7)	0,568
Bilinməyən	9 (7,2)	13 (8,6)	
Spirtli içkidən istifadə			
Bəli	50 (40)	54 (36)	0,308
Xeyr	65 (52)	91 (60,7)	
Bilinməyən	10 (8)	5 (3,3)	

Xəstə və kontrolların yaş faktorunun genotiplərlə əlaqəsi Cədvəl 3-də verilmişdir. Yaşı 60-dan kiçik olan individuallarda həm heteroziqot Arg/Pro (OR: 3.459, 95%CI: 1.438-8.323, P=0.004) həm də homoziqot mutant Pro/Pro (OR: 4.533, 95%CI: 1.518-13.538, P=0,006) genotipləri xəstəliyin artma riski ilə statistik baxımdan əlaqəli tapıldı. Amma 60 yaşdan yuxarı şəxslərdə Tp53 geni Arg72Pro polimorfizmi ilə xəstəlik arasında əhəmiyyətli statistik əlaqə müşahidə olunmamışdır (P>0,05).

Cədvəl 4-də siqaret və spirtli içki istifadə edən və istifadə etməyən xəstələrin genotip tezlikləri əks olunmuşdur. Siqaret çəkən və çəkməyənlər qarşılaşdırıldıqda Arg72Pro polimorfizmi ilə xəstəlik riski

arasında statistik əlaqə müşahidə olunmadı (P>0.05). Alkoqol istifadəçisi olan xəstələri istifadə etməyənlərlə qarşılaşdırdıqda heteroziqot Arg/Pro xəstəliyin artma riski ilə uyğunluq tapıldı (P<0,05).

Cədvəl 2
Kolorektal polipli xəstələrdə və sağlam şəxslərdə TP53 kodon 72 polimorfizminin paylanması

	Kolorektal polip, N=125 (%)	**Kontrol qrupu,** N=150 (%)	**OR (95%CI)**	***P* dəyəri**
Genotip				
Arg/Arg	18 (14,4)	44 (29,3)	1	-
Arg/Pro	74 (59,2)	78 (52)	2,319(1,230-4,372)	**0,008**
Pro/Pro	33 (26,4)	28 (18,7)	2,881(1,368-6,066)	**0,005**
Dominant				
Arg/Arg	18 (14,4)	44 (29,3)	1	-
Arg/Pro+Pro/Pro	107 (85,6)	106 (70,7)	2,468 (1,340-4,544)	**0,003**
Resessiv				
Arg/Arg+ Arg/Pro	92 (73,6)	122 (81,3)	1	-
Pro/Pro	33 (26,4)	28 (18,7)	1,563 (0,882-2,768)	0,124
Allel				
Arg	110 (52,5%)	166 (55,3%)	1	-
Pro	140 (47,5%)	134 (44,7%)	1,577 (1,125-2,210)	**0,008**

Cədvəl 3
Yaşa görə genotiplərin paylanması

Yaş ≤60	**Xəstələr,** N=74 (%)	**Kontrollar,** N=71 (%)	**OR (95%CI)**	**P dəyəri**
Arg/Arg	9 (12,1)	24 (33,8)	1	-
Arg/Pro	48 (64,9)	37 (52,1)	3,459 (1,438-8,323)	**0,004**
Pro/Pro	17 (23)	10 (14,1)	4,533 (1,518-13,538)	**0,006**
Age >60	N=51 (%)	N=79 (%)		
Arg/Arg	9 (17,6)	20 (25,3)	1	-
Arg/Pro	26 (51)	41 (52)	1,409 (0,557-3,563)	0,468
Pro/Pro	16 (31,4)	18 (22,7)	1,975 (0,701-5,564)	0,195

Cədvəl 4
Siqaret çəkən və spirtli içki qəbul edən xəstələrdə TP53 Arg72Pro polimorfizminin paylanması

Genotiplər	**Siqaret çəkənlər N=45 (%)**	**Siqaret çəkməyənlər N=71 (%)**	**OR (95%CI)**	**P dəyəri**
Arg/Arg	4 (8,9)	12 (16,9)	1	-
Arg/Pro	28 (62,2)	42 (59,2)	2,000 (0,585-6,832)	0,263
Pro/Pro	13 (28,9)	17 (23,9)	2,294(0,599-8,782)	0,220
	Alkoqol içənlər N=50 (%)	**Alkoqol içməyənlər N=65 (%)**		
Arg/Arg	2 (4)	13 (20)	1	-
Arg/Pro	37 (74)	33 (50,8)	7,288 (1,530-34,713)	**0,005**
Pro/Pro	11 (22)	19 (29,2)	3,763 (0,713-19,863)	0,165

Bunlardan əlavə tədqiqat qrupuna daxil edilən kişi və qadınlarda genotiplərin tezliyini və risk dəyərini müəyyənləşdirdik (Cədvəl 5). Polip diaqnozu qoyulmuş kişilərdə Arg/Arg, Arg/Pro və Pro/Pro tezlikləri uyğun olaraq 11.1%, 68.1% və 20.8% olduğu halda bu nisbət kontrol qrupunda 25.5%, 54.5% və 19.7%-ə

bərabər olmuşdur. Heteroziqot genotip ilə xəstəlik riski arasında statistik asılılıq müşahidə olunmuş (P=0.024), OR (95% CI) göstəricisi isə 2.892-ə (1.125-7.435) bərabər olmuşdur.

Cədvəl 5
Kişi və qadınlarda genotiplərin paylanması

Kişi	**Xəstələr, N=72**(%)	**Kontrollar, N=66**(%)	**OR (95%CI)**	***P* dəyəri**
Genotiplər				
Arg/Arg	8 (11,1)	17 (25,8)	1	-
Arg/Pro	49 (68,1)	36 (54,5)	2,892 (1,125-7,435)	**0,024**
Pro/Pro	15 (20,8)	13 (19,7)	2,452 (0,799-7,526)	0,114
Qadın	**N=53**(%)	**N=84**(%)		
Genotiplər				
Arg/Arg	10 (18,9)	27 (32,1)	1	-
Arg/Pro	25 (47,2)	42 (50)	1,607 (0,668-3,868)	0,288
Pro/Pro	18 (33,9)	15 (17,9)	3,240 (1,194-8,789)	**0,019**

Polip diaqnozu qoyulmuş qadın xəstələrdə isə Arg/Arg, Arg/Pro və Pro/Pro tezlikləri uyğun olaraq 18.9%, 47.2% və 33.9% olduğu halda kontrol qrupunu təşkil edən qadınlarda bu rəqəm 32.1%, 50% və 17.9% olmuşdur. Qadınlar arasında mutant Pro/Pro genotipi xəstəliyin artma riski ilə statistik əlaqəli tapılmışdır (OR: 3.240, 95%CI: 1.194-8.789, P=0.019).

Beləliklə, apardığımız tədqiqat işində TP53 geninin heteroziqot Arg/Pro və homoziqot Pro/Pro genotipləri, eləcə də mutant Pro alleli kolorektal poliplərinin inkişaf riski ilə statistik əlaqəli tapıldı (P<0.05). Bundan əlavə Arg/Pro və Pro/Pro genotipləri yaşı 60-dan kiçik xəstələrdə xəstəliyin inkişaf riski ilə əlaqəsi olduğu aşkar edildi. Alkoqol içənləri içməyənlərlə qarşılaşdırdıqda isə heteroziqot Arg/Pro genotipi ilə xəstəlik riski arasında statistik əhəmiyyətli fərq aşkar edildi (P=0.005). Eyni zamanda kişi xəstələləri sağlam kişilərlə qarşılaşdırdıqda heteroziqot Arg/Pro genotipi, qadın xəstələri sağlam qadınlarla qarşılaşdırdıqda isə homoziqot mutant Pro/Pro genotipi pozitiv assosiasiya göstərdi.

ƏDƏBİYYAT

1. Gabriel J.A. The Biology of Cancer, (Second Ed.), John Wiley and Sons Ltd, West Sussex, England, 2007, p.37-40.
2. American Cancer Society. Colorectal Cancer Facts & Figures 2011–2013. Atlanta, GA: American Cancer Society; 2011.
3. Andersson S., Rylander E., Strand A. et al. The significance of p53 codon 72 polymorphism for the devclopment of cervical adenocarcİnomas // Br J Cancer, 2011, v.85, p.1153
4. Bateman A.C. Pathology of serrated colorectal lesions // J Clin Pathol., 2014, v.67, p.865-874.
5. Bykov V.J., Issaeva N., Zache N. et al. Reactivation of mutant p53 and induction of apoptosis in human tumor cells by maleimide analogs // J. Biol. Chem., 2005, v. 280, p. 30384-30391.
6. Conteduca V., Sansonno D., Russi S. etal. Precancerous colorectal lesions (review) // Int J Oncol., 2013, v.43(4), p.973-984.
7. Hanel W., Marchenko N., Xu S. et al. Two hot spot mutant p53 mouse models display differential gain of function in tumorigenesis // Cell Death Differ, 2013, v. 20, p.898-909.
8. Hemminki A. From molecular changes to customised therapy // Eur J Cancer, 2001, v. 38.
9. Kang G.H. Four molecular subtypes of colorectal cancer and their precursor lesions // Arch Pathol Lab Med., 2011, v.135(6), p.698-703.
10. Gencel-Augusto, Jovanka, and Guillermina Lozano. "p53 tetramerization: At the center of the dominant-negative effect of mutant p53." // Genes & Development, 2020, v. 34.17-18, p.1128-1146.
11. Ortega-Quijano N., Fanjul-Vélez F., de Cos-Pérez J. et al. Analysis of the depolarizing properties of normal and adenomatous polyps in colon mucosa for the early diagnosis of precancerous lesions // Opt. Commun., 2011, v.284, p.4852-4856.
12. Pino M.S., Chung D.C. The chromosomal instability pathway in colon cancer // Gastroenterology, 2010, v.138(6), p.2059-2072.

13. Soussi T., Wiman K. G: TP53: an oncogene in disguise // Cell Death Differentiation, 2015, v.22.8, p. 1239-1249.

14. Kim, Soon-Young and Tae Il Kim. "Serrated neoplasia pathway as an alternative route of colorectal cancer carcinogenesis." // Intestinal Research, 2018, v. 16, p. 358 - 365.

15. Yamane L., Scapulatempo-Neto C., Reis R.M. et al. Serrated pathway in colorectal carcinogenesis // World J Gastroenterol., 2014, v.20(10), p.2634–2640.

Резюме

Изучение полиморфизма гена Tp53 Arg72pro в колоректальных полипах

Х.М. Асланов, Б.И. Байрамов, З.М. Мамедова, Г.А.Исмаилова

Целью исследования было изучение полиморфизма Tp53 arg72pro в колоректальных полипах. Для этого в исследование были включены 125 больных и 150 практически здоровых лиц, у которых были взяты образцы крови. ДНК выделяли из крови методом «высаливания», а генотипы изучали методами ПЦР-ПДРФ. По результатам исследования риск заболевания увеличивался при приеме Arg/Pro (ОШ: 2,319, 95% ДИ: 1,230-4,372, P=0,008) и Pro/Pro (ОШ: 2,881, 95% ДИ: 1,368-6,066), P=0,005) генотипы корреляция между По доминантной модели была обнаружена статистическая связь (ОШ: 2,468, 95% ДИ: 1,340-4,544, P=0,003), но по рецессивной модели статистической связи не наблюдалось (P>0,05). По частотам аллелей было установлено, что аллель Pro ассоциирован с повышенным риском заболевания (ОШ: 1,577, 95% ДИ: 1,125-2,210, P=0,008). У лиц моложе 60 лет как гетерозиготный Arg/Pro (ОШ: 3,459, 95% ДИ: 1,438–8,323, P=0,004), так и гомозиготный мутант Pro/Pro (ОШ: 4,533, 95% ДИ: 1,518–13,538, P=0,004) P=0,006) статистически связано с повышенным риском заболевания. Между гетерозиготным генотипом и риском заболевания наблюдалась статистическая зависимость (P=0,024), а показатель ОШ (95% ДИ) составил 2,892 (1,125-7,435).

Summary

Study of Tp53 Arg72pro gene polymorphism in colorectal polyps

HM. Aslanov, B.I. Bayramov, Z.M. Mamedova, G.A.Ismailova

The aim of the study was to determine the p53 arg72pro polymorphism in colorectal polyps. For this purpose, 125 patients and 150 practically healthy individuals were enrolled for research. "Salting out DNA extraction" protocol was used while DNA extraction from blood samples and PCR-RFLP method was carried out in this experiment. According to the results of the study, frequency of the polymorphism Arg/Pro (OR: 2.319, 95%CI: 1.230-4.372, P=0.008) and Pro/Pro (OR: 2.881, 95%CI: 1.368-6.066, P=0.005) genotypes was determined in colorectal polyp patients and control group. According to the dominant model, a statistical correlation (OR: 2.468, 95%CI: 1.340-4.544, P=0.003) was found, but no significant relation was observed in the recessive model (P>0.05). According to allele frequencies, Pro allele was found associated with increased risk of the disease (OR: 1.577, 95%CI: 1.125-2.210, P=0.008). In individuals younger than 60 years, both heterozygous Arg/Pro (OR: 3.459, 95%CI: 1.438-8.323, P=0.004) and homozygous mutant Pro/Pro (OR: 4.533, 95%CI: 1.518-13.538, P=0.004) P=0.006) was found to be statistically related to the increased risk of the disease. A statistical dependence was observed between the heterozygous genotype and the risk of the disease (P=0.024, OR: 2.892, (95% CI: 1.125-7.435).

Daxil olub: 28.07.2022

Populyasiya səviyyəsində yaşlı əhalinin orqanizmində maqnezium çatışmazlığının müəyyən etməsinə aid standartlaşdırılmış sorğu anketlərinin effektivliyinin qiymətləndirilməsi

R.Ə.Çobanov, M.Ə.Məhərrəmov, S.F.Mirhadi, A.O.Bədəlova, X.F.Şirinova
İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası, Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: maqnezium, sorğu anketi, hadisənin populyasiya səviyyəsində yayılması
Ключевые слова: магний, анкета-опросник, распространенность явления на популяционном уровня
Key words: maqnesium, questionnaries, population prevalence

Maqnezium çatışmazlığı (MÇ) dünya əhalisi arasında qlobal masştab almışdır. Populyasiya səviyyəsində bu məsələnin kifayət qədər az öyrənilməsinə baxmayaraq, Almaniyada müayinədən keçən 16500 nəfərin 55-65% hüdudlarında maqnezium çatışmazlığının olması müəyyən edilmişdir [1]. Eyni səviyyədə MÇ fizioloji səbəblərə görə hamilə qadınlarda da qeyd olunmuşdur [2]. Rusiyada əhali arasında maqnezium çatışmazlığının orta tezliyi 47,8% təşkil edir [3]. Dünyanın müxtəlif regionlarında MÇ-ın yayılması çox geniş hüdudlarda olaraq 22,0%-dən 74,0%-ə qədər dəyişir [4,5,6]. İnsan orqanizmində maqneziuma tələbat 300-350 mq/gün təşkil edir. Lakin əhalinin rasionunda maqnezium tərkibli məhsulların azlığı (və onların baha olması), fiziki yüklənmələr, stress isti iqlim (yüksək tərləmə), xroniki yorğunluq və, ələxsus, hamiləlik maqneziumun insan orqanizminə daxil olmasını əhəmiyyətli dərəcədə aşağı salır. Tütündən, alkoqoldan, narkotiklərdən sui-istifadə də maqnezium defisitinə gətirib çıxarır [7,8].

Qlobal şəkildə yayılmasına və sağlamlığa ağırlaşdırıcı təsir etməsinə baxmayaraq, MÇ-ın diaqnostikası, onun terapevtik korrelyasiyası hətta ambulator-stasionar şəraitlərdə lazım olan "vacib" statusunu almamışdır [9]. Populyasion tədqiqatlar zamanı isə MÇ -nın müəyyən edilməsi böyük çətinliklərlə bağlıdır - bu zaman qan nümunələrinin götürülməsi və onların biokimyəvi müayinəsinin aparılması lazımdır ki, bu da əhalinin böyük məcmuu şəklində reallaşdırılması və eyni zamanda olduqca baha başa gəlməsinə görə mümkün deyil.

Bununla belə, son vaxtlar bu istiqamətdə iki yeni sorğu sənədi təklif olunmuşdur - maqnezium çatışmazlığını müəyyən etmək üçün anket (MÇMA) [9] və maqnezium çatışmazlığının qiymətləndirilməsi testi (MÇQT) [3]. Hal-hazırda yaşlı əhali arasında populyasiya səviyyəsində insan orqanizmində MÇ aşkarlanmasında bu sorğu sənədlərinin effektivliyinin qiymətləndirilməsinə ehtiyac əmələ gəlmişdir ki, bu da hazırki, tədqiqatın məqsədi olmuşdur.

Tədqiqatın materola və metodları. Tədqiqat işi Azərbaycan Tibb Universitetinin klinik laboratoriyalarında aparılmışdır. Pasiyentlərdən biokimyəvi müayinə üçün qan alanlar, yaxud nəticələr əldə ediləndən alınandan sonra iki sorğu sənədinin (MÇMA və MÇQT) doldurulması xahiş olunmuş, sonradan isə müayinələrin nəticələri və anketlərə verilən cavablar müqayisəli şəkildə yoxlanılmışdır. Cəm olaraq, müayinə 419 pasient arasında aparılmışdır. Xəstəlik qruplarına görə pasiyentlər belə bölüşdürülmüşdür: ürək-damar üzrə - 44 pasiyent, arterial hipertenziya - 66 pasiyent, ağciyər xəstəlikləri - 56 pasiyent, qastroenteroloji xəstəliklər - 67 pasiyent, nevroloji xəstəliklər - 73 pasiyent, digərləri - 49 pasiyent, bunlardan başqa 64 nəfər - hamilə qadınlar olmuşdur.

ÜST tövsiyələrinə və Almaniyanın maqneziumçılar cəmiyyətinin məlumatlarına görə yaşlı insanın qan plazmasında maqneziumun normal miqdarı 0,76-1,2 mmol/l təşkil edir, bu zaman 0,5-0,7 mmol/l olduqda - MÇ-nın orta səviyyədə, 0,5 mmol/l-dən aşağıdırsa - MÇ kəskin şəkildə olduğundan xəbər verir [10]. Anketlərdə toplanmış balların cəmi yuxarıda qeyd olunan qiymətlərə praktiki olaraq uyğun gəlir. Alınan məlumatların statistik işlənməsi X^2 kriteriyasını tətbiq etməklə aparılmışdır [11].

Nəticələr və müzakirə. Maqneziumun orqanizmdə səviyyəsini müəyyən etmək məqsədi ilə əhalinin klinik laboraroriyalara müraciətləri çox azdır. Adətən belə müayinə digər biokimyəvi göstəricilərlə yanaşı aparılır. Məsələn, bizim tərəfdən təhlili aparılan 419 laborator biokimyəvi müayinələrindən yalnız 31 test (7,4±1,3%) maqneziumun müayinə olunmasına yönəlmişdir. Bu isə poliklinika təcrübəsində MÇ-na diqqətin aşağı olmasını göstərir, halbuki, müraciət edən pasiyentlərdə bir çox xəstəlik nozoformları müşahidə olunmuş və onlar müvafiq terapevtik müalicə almışlar (Cədvəl 1). İlk əvvəl qeyd etmək lazımdır ki, bütün müqayisə edilən üsullarda alınan nəticələr, orqanizmdə maqneziumun səviyyəsindən asılı olmayaraq identikdir. Rast gəlinən fərqlər isə bütün hallarda cüzidir və statistik nöqteyi-nəzərdən qeyri-dürüstdür (x^2=2,37; P>0,05). Beləliklə, istifadə edilən sorğu sənədləri yüksək dəqiqliklə nəinki orqanizmdə maqneziumun olmasını, həm də onun səviyyəsini müəyyən etməyə imkan verir ki, bu da populyasiya

səviyyəsində MÇ-nın yayılmasını öyrənməyə geniş perspektivlər açır. Hətta böyük həcmdə olmayan tədqiqatın nəticələri də MÇ-nın əhali arasında geniş yayılmasını təsdiq edir. Bu zaman onun səviyyəsi xəstəliklərin müxtəlif nozoformlarında kifayət qədər fərqlənir. Deyilənlər daha çox nevroloji xəstəliklərdə özünü biruzə verir.

Cədvəl 1
Orqanizmdə maqneziumun səviyyəsini biokimyəvi test və standartlaşdırılmış sorğu anketlərilə müəyyən edildikdə alınan nəticələrin uyğunluğu

Xəstəlik nozoformları	Üsullar	Orqanizmdə maqneziumun səviyyəsi					
		Norma		Orta dərəcədə çatışmazlıq		Kəskin şəkildə çatışmazlıq	
		müt.	%	müt.	%	müt.	%
Ürək-damar (n=44)	Qan	12	27,3±6,8	15	34,1±7,2	17	38,6±7,4
	MÇMA	14	31,8±7,1	14	31,8±7,1	16	36,4±7,3
	MÇQT	15	34,1±7,2	15	34,1±7,2	14	31,8±7,1
Arterial hipertenziya (n=66)	Qan	22	33,3±5,8	21	31,8±5,8	23	34,8±5,9
	MÇMA	24	36,4±6,0	23	34,8±5,9	19	28,8±5,6
	MÇQT	21	31,8±5,8	22	33,3±5,8	23	34,8±5,9
Ağciyər xəstəlikləri (n=56)	Qan	26	46,4±6,7	25	44,6±6,7	5	8,9±3,8
	MÇMA	23	41,1±6,6	27	48,2±6,7	6	10,7±4,2
	MÇQT	25	44,6±6,7	26	46,4±6,7	5	8,9±3,8
Qastroenteroloji (n=67)	Qan	21	31,3±5,7	25	37,3±6,0	21	31,3±5,7
	MÇMA	24	35,8±5,9	22	32,8±5,8	21	31,3±5,7
	MÇQT	23	34,3±5,8	22	32,8±5,8	22	32,8±5,8
Nevroloji (n=73)	Qan	8	11,0±3,7	22	30,1±5,4	43	58,9±5,8
	MÇMA	10	13,7±3,5	20	27,4±5,3	43	58,9±5,8
	MÇQT	10	13,7±3,5	19	26,0±5,2	44	60,3±5,8
Digərləri (n=49)	Qan	29	59,2±7,1	15	30,6±6,7	5	10,2±4,4
	MÇMA	30 32	61,2±7,0	15	30,6±6,7	4	8,2±4,0
	MÇQT		65,3±6,9	14	28,6±6,5	3	6,1±3,5
Hamilə qadınlar (n=64)	Qan	13	20,3±5,1	25	39,1±6,1	26	40,6±6,2
	MÇMA	14	21,9±5,2	25	39,1±6,1	25	39,1+6,1
	MÇQT	14	21,9±5,2	27	42,2±6,2	23	35,9+6,0

Qeyd: n=eyni vaxtda üç üsulla tədqiq olunan pasiyentlərin sayı

Belə ki, MÇ-nın "yüksək" səviyyəsi 58,9±5,8% pasiyentlərdə, "orta" səviyyəsi - 26,0±5,2% (x^2=16,15; P<0,01) və yalnız 13,7±3,5% pasiyentlərdə maqneziumun miqdarı norma çərçivəsində (x^2=3,49; P>0,05) olmuşdur. Onu da qeyd etmək lazımdır ki, poliklinika həkimləri nevroloji xəstəliklər altında çox vaxt emosional stresin təzahürlərini nəzərdə tuturlar, hərçənd məlumdur ki, xəstəliklərin müxtəlif formlarının 80% qədəri maqneziumun çatışmazlığı fonunda əmələ gəlir [12].

Maqnezium bir çox orqanların fəaliyyəti və daha çox cift üçün vacibdir. Məlumdur ki, cift 150-dən çox zülal və hormonları sintez edir ki, onların 70%-i maqneziumdan asılıdır və təbii ki, bu hamilə qadınların yüksək dərəcədə maqneziuma olan tələbatının əsas səbəblərindəndir [13,14]. Hamiləlik zamanı maqneziumun "fizioloji" çatışmazlığı və adekvat nutriyent dotasiyanın olmaması erkən və gecikmiş düşüklərin, vaxtından əvvəl doğuşların (miometriyin kontraktil fəaliyyətinin artmasına görə), preeklampsiyanın riskini artırır, dölün bətndaxili böyüməsini yubadır, embrional ödemlərə, dölün eybəcərliyinə, doğuş fəaliyyətinin diskordinasiyasına, uşaqların aşağı bədən çəkisi ilə doğulmasına gətirib çıxarır [15,16].

Qadın məsləhətxanalarının həkimləri bu problem haqqında məlumatlıdırlar, hamilə qadınları laborator müayinəyə göndərirlər və onlar arasında maqnezium terapiyasını geniş şəkildə tətbiq edirlər. Heç də təsadüfi deyildir ki, bizim tədqiqatlarda hamilələrin 35,9±6,0%-dən 42,2±6,2% qədəri orta və ya kəskin dərəcədə maqnezium çatışmazlığına malik idilər (x^2=1,68; P>0,05). Bu zaman 64 hamilə qadının 47-si (73,4± 5,6%) hamiləliyin I trimestrində idi ki, bu da onların vaxtında laborator müayinələrə göndərilməsini təsdiq edir.

Ürək-damar xəstəlikləri və arterial hipertenziyası olan pasiyentlərin 70%-dən çoxunda maqneziumun orta və kəskin şəkildə çatışmazlığı olmuşdur, bu zaman müxtəlif müayinə üsulları 28,8±5,6%-dən 38,6±7,4%

arasında müsbət nəticələrlə tərəddüd etmişlər (x^2=3,17; P>0,05). Məlumdur ki, ürək ağrılarından şikayət edən insanların 98%-nin maqneziuma ehtiyacı var. Epidemioloji tədqiqatların məlumatlarına görə içməli su-da maqneziumun defisiti ürək-damar sistemi xəstəliklərinin (ələxsus da, ürəyin işemik xəstəliyi) əmələ gəlmə və qəfil ölüm riskini artırır. O da məlumdur ki, ürək-damar patologiyasından ölən xəstələrin miokardında maqneziumun miqdarı digər səbəblərdən həyatını itirmiş xəstələrdən 2 dəfə azdır[17,18]. Alimlərin tövsiyələrinə görə, yumşaq içməli suyu olan rayonların əhalisi hər gün 60 mq. maqnezium və 100 mq. kalsium qəbul etməlidirlər, bu da sərt içməli suyun 2 litrinə bərabərdi [19].

Qastroenteroloji xəstəlikləri olan pasiyentlərin 70%-ə qədərinin orqanizmində orta və ya kəskin şəkildə maqnezium çatışmazlığı müəyyən edilmiş, ayrı-ayrı müayinə üsulların göstəriciləri müsbət nəticələr olmaqla 31,3±5,7%-dən 37,3±6,0% qədər tərəddüd etmişlər. Son tədqiqatlar göstərir ki, belə pasiyentlərdə qəbizlik və ya diareya, ürək bulanması, qusma, pilorospazm, abdominal ağrılar və s. tez-tez müşahidə olunur [12,20].

Ağciyər xəstəliklərində 41,1±6,6%-dən 46,4±6,7% pasiyentlərin orqanizmində maqneziumun miqdarı norma çərçivəsində idi (x^2=1,06; P>0,05). Müxtəlif üsulların tətbiqi ilə alınan müsbət nəticələr orqanizmdə maqneziumun orta dərəcədə defisitini oxşar rəqəmlərlə ifadə edir – 44,6±6,7%-dən 48,2±6,7% (x^2=0,76; P>0,05). Bu zaman kəskin şəkildə maqnezium çatışmazlığı göstəriciləri dürüst olaraq, aşağı idilər (x^2=12,77; P<0,01) və 8,9±3,8%-dən 10,7±4,2% arasında tərəddüd edirdilər (x^2=0,52; P>0,05). Buna baxmayaraq, hesab olunur ki, MÇ zamanı pasiyentlərdə tez-tez bronxospazm və larinqospazm müşahidə olunur [18]. Digər xəstəliklərə gəldikdə, 59,2±7,1%-dən 65,3±6,9% pasiyentlərdə maqneziumun miqdarı orqanizmdə norma çərçivəsində idi. Nisbətən az sayda pasiyentlərdə - 28,6±6,5%-dən 30,6±6,7% (x^2=7,08; P<0,02), müsbət nəticələr olaraq, orta dərəcədə maqnezium defisiti aşkar olunmuşdur.

Maqneziumun orqanizmdə kəskin çatışmazlığının aşkarlanması isə daha aşağı olmuş (x^2=5,29; P<0,02) və müsbət nəticələrin 6,1±3,5%-dən 10,2±4,4%-ə qədər təşkil etmişdir (x^2=0,69; P>0,05).

Beləliklə, orqanizmdə maqneziumun çatışmazlığı - ictimai sağlamlığın qlobal problem statusu səviyyəsinə qədər yüksəlmişdir. Bununla belə, populyasion tədqiqatların olduqca kiçik həcmi müxtəlif regionlarda yaşayan insanların orqanizmində maqnezium çatışmazlığının yayılmasını və müasir tibbi-sosial əhəmiyyətini dürüst qiymətləndirmə imkanlarını məhdudlaşdırır. Belə vəziyyətin əsas səbəbi-populyasion tədqiqatlar üçün lazımi metodikanın olmamasıdır. Yalnız son illərdə bu tədqiqatlar üçün standartlaşdırılmış sorğu sənədləri - maqnezium çatışmazlığını müəyyən etmə anketi (MÇMA) və maqnezium çatışmazlığını qiymətləndirmə testi (MÇQT) təklif olunmuş, lakin onların populyasion aprobasiyası aparılmamışdır.

Yekun: Müxtəlif xəstəlik nozoformları olan pasiyentlər arasında bizim tərəfimizdən MÇMA və MÇQT sorğu sənədlərinin klassik laborator biokimyəvi testlə müqayisəli aspektdə aprobasiyası həm orqanizmdə maqneziumun olmasını, həm də onun səviyyəsini müəyyən edərkən alınan nəticələrin identikliyini (yani uyğun olmasını) göstərmişdir. Aldığımız nəticələr populyasion tədqiqatlarda əhali arasında maqnezium çatış-mazlığının yayılmasında qanunauyğunluqların aşkar olunması üçün MÇMA və MÇQT sorğu sənədlərini tövsiyə etməyə imkan verir.

ƏDƏBİYYAT

1.Schimatschek H.F., Rempis R. Prevalence of hypomagnesemia in an unselected German population of 16000 individuals // Magnes Res. 2001, v. 14(4), p.283-90.

2.Дадак К. Дефицит магния в акушерстве и гинекологии // Акушерство. Гинекология. Репродукция. 2014, том 7, N2, с.6-14.

3.Тарасов Е.А., Блинов Д.В., Зимовина У.В. и др. Дефицит магния и стресс: вопросы взаимосвязи, тесты для диагностики и подходы к терапии // Терапевтический архив, 2015, №9, с 114-122.

4.Rude R.K. Magnesium metabolism and deficiency // Endocrinol. Metab. Clin. North Am., 2003, v. 22, p.377-395.

5.Ryan M.F., Barbour H. Magnesium measurement in routine clinical practice // App. Clin. Biochem., 2008, v.35, p.449-459.

6.Fawcett W.J., Haxby E.J., Male D.A. Magnesium: physiology and pharmacology // Medicine & Healtli BJA, 2009, v.83, p.302-320.

7.Трисветова Е.Л. Магний в клинической практике // Рациональная Фармакотерапия в Кардиологии, 2012, 8(4), с. 545-553.

8.Ueshima K. Magnesimn and ischemic heart disease: a review of epidemiological, experimental and clinical evidences // Magnes Res. 2015, v.18(4), p.275-84.

9.Громова О.А., Калачева А.Г., Торшин И.Ю. и др. О диагностике дефицита магния // Часть ГАрхивъ внутренней медицины, 2014, № 2(16), с 5-10.

10.Спасов А.А., Косолапов В.А. Применение магния L-аспарагината и комбинаций солей магния с витамином B_6 в медицине // Рос. мед. жур., 2017, 23(2), с.89-95.

11.Гланц С. Медико-биологическая статистика. М., 1999, с. 459.

12.Dreosti E, Magnesium and health // Nutr. Rev., 2011, v.53, p.23-27.

13.Дадак К., Макацарид А.Д., Блинов Д.В. и др. Клинические и биохимические аспекты применения препаратов магния в акушерстве, гинекологии и перинатологии // Акушерст., гинекол., репродукция, 2014, №2, с. 69-78.

14.Duley L., Gulmezoglu A.M., Chou D. Magnesium sulphate versus lytic cocktail for eclampsia // Cochrane Database Syst. Rev. 2010, v.9: CD002960.

15.Серов В.Н., Блинов Д.В., Зимовина У.В. с соавт. Результаты исследования распространенности дефицита магния у беременных // Акушерство и Гинекология, 2014, №6, с. 33-40.

16.Андреева Ю.В., Толмачева Н.В. Влияние дефицита магния на репродуктивное здоровье женщин // Успехи современного естествознания, 2014, №6, с 13-18.

17.Акарачкова Е.С. Дефицит магния: клиника, диагностика, терапия // ФАМАТЕКА, 2007, №20, 25-30.

18.Laires MJ., Monteiro CP., Bicho M. Role of cellular magnesium in health and human disease // Front Biosci. 2014, v.9, p.262-76.

19.Рагозина Н.П., Чурин К.В., Чурина С.К. Пероральные препараты магния при остром инфаркте миокарда: влияние на течение заболевания и развитие аритмий // Вести. Аритмологии, 2012, N19, с.23-28.

20.Цаллагова Е.В. Магний: перспективы женского и детского здоровья // Фарматека, 2013, N18, с.6-8.

Резюме

Оценка эффективности стандартизированных опросников для выявления дефицита магния в организме взрослого населения на популяционном

Р.Э.Чобанов, М.А.Магеррамов, С.Ф.Мирхади, А.О.Бадалова, Х.Ф.Ширинова

Цель работы: Сравнительное изучение эффективности опросника установлению дефицита магния (ОУДМ) и теста для оценки дефицита магния (ТОДМ) при определении ДМ и возможности их использования в популяционных исследованиях. Среди 419 пациентов с различными нозоформами заболеваемости провели биохимическое исследование крови и анкетирование с использованием ОУДМ и ТОДМ. Полученные позитивные результаты всеми тремя методами были практически идентичны как при диагностировании содержания магния в организме, так и определении его уровня. Опросники ОУДМ и ТОДМ рекомендуются для популяционных исследований по выявлению закономерностей распространенности дефицита магния среди населения.

Summary

Evaluation of the efficiency of standardized questionnaires for detection of magnesium deficiency in the organism of adult people at the population level

R.A.Chobanov, M.A.Maharramov, S.F.Mirhadi, A.O.Badalova, X.F.Shirinova

Objective: Comparative study of the effectiveness of questionnaires for establishment of magnesium deficiency (QEMD) and the magnesium deficiency assessment test (MDAT) in determining MD and the possibility of using theirs in population studies. Among 419 patients with various forms of disease were conducted a biochemical blood test and a questionnaire survey of QEMD and MDAT. The positive results obtained by all three methods were almost identical both as in the diagnosis of the magnesium content in the body as in determining its level. The QEMD and MDAT questionnaires are recommended for popula-tion studies to identify the regularity of prevalence of magnesium deficiency among the population.

Daxil olub: 28.06.2022

Эпидемиологический анализ больных с COVID-19 в Азербайджане

С.А. Фараджева, Ш.М. Велиева
Азербайджанский Медицинский Университет, Кафедра Легочных Заболеваний г. Баку

Açar sözlər: yeni koronovirus infeksiyası, COVİD-19.
Ключевые слова: новая короновирусная инфекция, COVİD-19.
Key words: a new coronavirus infection, COVID-19

Рост внезапно возникшей проблемы под названием COVID-19, вызванное возбудителем из семейства коронавирусов, на протяжении длительного времени держало в напряжении все мировое сообщество. Постоянное перемещение инфекта из одних географических регионов в другие, способствует распространению инфекционного заболевания в социуме, охватывая все большее число человеческой популяции. От трансмиссии патогенного агента будет зависеть эпидемическая ситуация [1-5]. За счет своей вирулентности и контагиозности, антигенно измененные микроорганизмы представляют опасность для людей. Весь мир встал на борьбу с этим грозным врагом, максимально используя имеющиеся ресурсы. По сегодняшний день, ученые умы из различных уголков планеты проводят многочисленные научно-исследовательские работы, направленные на изучение патогенеза заболевания и выбора верного курса терапии. Динамика эпидемического процесса COVID-19 зависит от таких факторов, как экономическое развитие страны, от политики здравоохранения, объема принятых превентивных мер и менталитета населения. С момента выявления первых случаев новой коронавирусной инфекции, в каждой отдельно взятой стране были созданы базы данных, куда поступала вся собранная эпидемиологическая информация по данному заболеванию. Выявление эпидемиологических особенностей новой коронавирусной инфекции COVID-19, поможет определить закономерности эпидемического процесса в отдельно взятом регионе [6-9].

Целью нашей работы явилось изучить степень и динамику распространения новой коронавирусной инфекции COVID-19 на территории Азербайджана с определением особенностей и закономерностей эпидемического процесса за 2020 год. А также проведение описательного анализа госпитализированных больных лиц, находящихся на стационарном лечении в «Ени клиника» с рассматриваемой проблемной патологией среди различных возрастных групп населения, проживающих в различных административно-территориальных регионах Азербайджана и получение достоверной информации об COVID-19 у нас в республике.

Для проведения поставленных задач и оценки результативности должен быть выбран характер намеченного исследования и найден баланс между выбором основных индикаторов и имеющимися ресурсами. Исходя из этого, чтобы судить о распространенности и развитие рассматриваемого заболевания на территории Азербайджана, можно начать с рассмотрения следующих поставленных задач, не требующих больших затрат, а именно:

-изучить закономерность распространения COVID-19 среди населения страны, принимая во внимание гендерно-возрастные особенности, место их постоянного проживания;

-определить степень распространенности и тяжесть течения инфекционного заболевания, вызванного SARS-CoV-2 во времени (по месяцам, сезону года);

-определить койко-дней среди больных лиц за весь период их время пребывания в стационаре, начиная с апреля по декабрь месяцы 2020 года.

Материалы и методы исследования. Для оценки динамики всех выявленных случаев заражения новой коронавирусной инфекцией SARS-CoV-2 в Азербайджане были использованы официальные данные регистрации, представленные на сайте koronavirusinfo.az, информирующий статистику по заражениям, а также данные собственного наблюдения,состоящее из больных лиц, находящихся на стационарном лечении в «Ени клиника» г. Баку. Начиная с момента первой вспышки заболевания в Азербайджане, в «Ени клиника» за апрель-декабрь месяцы было зарегистрировано 3256 больныхразличных возрастных групп и гендерной принадлежности. За исключением 8-х пациентов, все больные были гражданами Азербайджана, проживающие в различных административно-территориальных регионах страны. Верификация диагноза произведена на основании полученного позитивного результата на наличие SARS-CoV-2 путем забора из носоглотки биологического материала с последующим проведением метода ПЦР в реальном времени.

Клинические данные с учетом жалоб больных и их эпидемиологического анамнеза являлись косвенными параметрами в подтверждении диагноза.




Рис. 1. Заболеваемость и летальность от COVID-19 среди населения Азербайджана и госпитализированных лиц «Ени клиника» за 2020 г.

Проведенные необходимые лабораторно-инструментальные методы исследования давали нужное направление в выборе правильной тактики лечения с индивидуализированным подходом к каждому из больных. В состав больных входили лица детского и взрослого населения. На основании архивных данных, используя описательно-аналитический метод, проведен ретроспективный анализ за девять месяцев (апрель-декабрь) 2020 г. Выборка представлена взрослым контингентом в количестве 3166 (97,2%) человек, а также детьми и подростками в количестве 90 (2,8%) человек. Материал статистически обработан. Произведен расчет описательной статистики с определением среднего значения и ошибки среднего (M±m), медианы (Me) с определением 95% доверительного интервала (ДИ) к ним, что позволяет экстраполировать выборочные данные на генеральную совокупность, а также определены интерквартильные диапазоны (Q=25-Q=75%), минимальные и максимальные величины показателей (Min-Max). Для выявления статистической значимости между

1.Глобальная стратегия сектора здравоохранения по вирусному гепатиту 2016-2021 гг. На пути к ликвидации вирусного гепатита. Женева: Всемирная организация здравоохранения, 2016, 52 с.

2.Дадашева А.Э. Стратегия и тактика мероприятий по ограничению эпидемиологической опасности групп с высоким риском парентерального инфицирования в Азербайджане // Современные достижения азербайджанской медицины, 2011, N.4, с.12-16.

3.Мамедов М.К., Ахмедова И.Н., Гаибов Н.Т. и др. Серологические маркеры инфекции,обусловленной вирусом гепатита В у безвозмездных доноров крови и некоторых категорий больных // Азерб. мед. Ж., 1991, N.12, с.31-35.

4.Саилов М.Д., Мамедов М.К. Антитела к вирусу гепатита С в Азербайджане // Ж. микробиологии, 1995, N.6, с.37-38.

5.Гусейнова С.А., Мустафаева Р.Г., Бекир-заде Г.М. и др. Частота носительства поверхностного антигена вируса гепатита В у детей, больных хроническими гепатитами, нефритами и артритами. / Мат-лы 1-й Республ. научно-практической конфер. по службе крови. Баку, 1996, с.96-97.

6.Гулиев Н.Д., Векилова Ф.М., Кулиева С.М. и др. Иммуносерологическая структура в отношение вирусных гепатитов среди детского населения г.Баку // Азерб.Ж.онкологии., 1997, N.1, p.67-68.

7.Керимов А.А., Гаджиева П.Ш. О частоте выявления серологическмих маркеров инфицирования вирусами гепатитов В и С среди доноров крови, живущих в Азербайджане // Биомедицина, 2017, N.1, c.41-44.

8.Мамедов М.К. О распространении вирусных гепатитов в Азербайджане // Инфекционные болезни: новости, мнения, обучение, 2019, N.1, c.23-27.

Xülasə

Bakıda yaşayan müxtəlif yaşlı uşaqlarda B və C virus hepatitlərinin törətdiyi infeksiyaların seroloji markerləri

A.E.Dadaşova, R.İ.İsmayılova, N.D.Quliyev, S.A.Hüseynova, L.P.Xələfova, A.Y.Məhəmmədli

Müəlliflər hepatit B və C viruslarının törətdiyi infeksiyaların seroloji markerlərini müəyyən etmək üçün Bakı şəhərində yaşayan müxtəlif yaşlarda olan 900 uşağın qan zərdabını seroloji müayinədən keçiriblər. Məlum olmuşdur ki, son 25 ildə uşaqlarda bu markerlərin aşkarlanması tezliyi əhəmiyyətli dərəcədə azalmışdır. Burdan məlum olur ki, bu virusların uşaq əhalisi arasında yaratdığı epidemiya prosesinin intensivliyi həqiqətən də azalmışdır.

Summary

About serological markers of infections caused with hepatitis B and C viruses among different age children live in Baku

A.E. Dadasheva, R.I.Ismailova, N.D.Guliyev, S.A.Huseinova, L.P.Khalafova, A.Y.Mahammadly

The authors serologically tested blood serums of 900 child- ren live in Baku for detection of serological markers of infec- tions coused with hepatitis B and C viruses. It was demonstrated that frequencies of these markers detec- tion for passed 25 years significally decreased. This indicated tnat intensivity of epidemiologic prosess caused with these viru- ses reallly reduced.

Daxil olub: 19.07.2022

Ürəyin işemik xəstəliyi və arterial hipertenziya ilə qalxanabənzər vəzin patologiyaları olan qadınların müalicəsində beta-blokatorların klinik əhəmiyyəti

İ.M.Əfəndiyeva
Akad. C.Abdullayev adına Elmi Tədqiqat Kardiologiya İnstitutu, Bakı

Açar sözlər: hipertireoz, ürəyin işemik xəstəliyi, bisoprolol, ürəyin ritm variabelliyi
Ключевые слова: гипертиреоз, ишемическая болезнь сердца, бисопролол, вариабельность сердечного ритма
Key words: hyperthyroidism, coronary heart disease, bisoprolol, heart rate variability

Ürək-damar xəstəlikləri ölüm hallarının əsas səbəblərindən biridir və tiroid disfunksiyası ilə yanaşı gedişdə ürək fəaliyyətinin və ürək-damar hemodinamikasının tənzimlənməsində dərin dəyişikliklərə səbəb olur. Ürək aritmiyalarının əsas səbəblərindən biri vegetativ sinir sisteminin simpatik və parasimpatik bölmələrinin tonik fəaliyyəti arasında fizioloji əlaqənin dəyişməsidir. Avtonom sinir sisteminin simpatik və parasimpatik hissələrinin balanssızlığı nəticəsində yaranan ritm pozğunluğunun ən parlaq nümunələrindən biri psixoemosional stress zamanı ürəyin elektrik sabitliyinin azalmasıdır[10]. Tireotoksikoz zamanı ürəyin adrenoreaktivliyinin artması səbəbindən ürək aritmiyaları müşahidə olunur. Aritmiyaların tez-tez "endokrin" səbəblərindən biri adrenal korteksdə mineralokortikoidlərin həddindən artıq əmələ gələrək orqanizmdə Na+/K+ balansının pozulması ilə bağlıdır. Aldosteron Na+ reabsorbsiyasını və K+ ifrazını artırır, nəticədə kardiyomiyosit membranlarının repolyarizasiyası proseslərinin pozulmasına və aritmiyanın yaranmasına səbəb olan hipokalemiyaya səbəb olur[2]. Beta-adrenergik reseptorların aktivləşdirilməsi və Na/K-ATF fəaliyyəti də T3 tərəfindən tənzimlənir. Hipotireoz zamanı yaranan bradikardiya ürəyə simpatik-adrenal təsirlərin azalması - simpatik strukturların (məsələn, hipotalamusun) zədələnməsi və ya ürəyin adrenoreaktiv xüsusiyyətlərinin azalması ilə müşahidə olunur[8]. AH ürəyin struktur dəyişiklikləri ilə xarakterizə olunur, mədəcik və qulaqcıq miokardının toxumasında sonrakı elektrofizioloji dəyişikliklərə, xüsusən də qulaqcıq fibrilyasiyasının, mədəcik aritmiyalarının və qəfil ölümün təzahürünə səbəb ola bilər[12]. Hipertiroidizm qulaqcıqlarda və ağciyər venalarında avtomatizmin və trigger aktivliyin artması ilə müşayiət olunur. Qalxanvari vəzin elektrofizioloji təsiri əsasən triiodotironin (T3) vasitəsilə həyata keçirilir, sistolik depolarizasiya və diastolik repolarizasiya sürətini artırır. Bundan əlavə, T3 sinoatrial hüceyrələrin diastolik depolarizasiya sürətinə təsiri ilə AV düyündə və atrial miyositlərdə refrakter dövrü və fəaliyyət potensialının müddətini azaldır. Hüceyrə membranının fəaliyyət potensialının repolarizasiya mərhələsinin müddətinin azalması hüceyrə membranının səthində natrium (Na) nasoslarının sayının dəyişməsi, həmçinin Na+ və K+ ionları, eləcə də L tipli Ca2+ kanallarında keçiriciliyin dəyişməsilə müşahidə olunur. Tiroid hormonları ilə adrenergik sinir sisteminin qarşılıqlı əlaqəsi güman edilir. Tirotoksikoz zamanı plazmanın katexolaminləri dəyişmir və ya azalmır, β-adrenergik reseptorların sıxlığı isə toxumadan asılı olaraq dəyişir ki, bu da toxumaların katexolaminlərə həssaslığının artmasına səbəb olur [3,4]. Bu, hipertiroidizmi olan xəstələrə β-adrenoreseptor antaqonistinin tətbiqinin ürək ritmi yavaşlatması, lakin sistolik və ya diastolik təyziqi dəyişmir, T3 müsbət inotrop təsirinin adrenergik siqnal yollarından asılı olmadığını göstərir. Eyni zamanda, β-adrenergik reseptorlardan asılı olmayaraq, T3-ün ürəyə təsiri mümkündür[9].

Son tədqiqatlar göstərdi ki, vegetativ sinir sisteminin disfunksiyası ürəyin neyrogenik aritmiyalarının inkişafında mühüm rol oynayır. Artan simpatik fəaliyyətlə vegetativ balansın pozulması, adətən, həyati təhlükəsi olan ürək aritmiyasının inkişafına səbəb olur, vagal aktivləşdirmə isə nisbətən qoruyucu antifibrilyator təsir göstərir. Estrogen səviyyəsinin azalması simpatik avtonom sinir sisteminin həddindən artıq stimullaşdırılmasına səbəb ola bilər ki, bu da nizamsız ürək döyüntüsü və çarpıntılara səbəb ola bilər. Simpatik sinir sisteminin aktivliyinin artması miyokard işemiyasında, həm də miokard nekrozunda aritmiyaların tezliyində və miqdarında əhəmiyyətli bir artıma səbəb olur[7,11]. Qalxanabənzər vəzin hiperfunksiyası zamanı sinus taxikardiyası ürək-damar ağırlaşmalarının artmasına səbəb olur.

Tədqiqatın məqsədi ürəyin işemik xəstəliyi və arterial hipertenziya ilə qalxanabənzər vəzin funksional dəyişiklikləri olan qadınlarda bisoprololla müalicənin klinik effektivliyini və ürək ritm dəyişkənliyinin öyrənilməsirndən ibarətdir.

Tədqiqatın material və metodları. Tədqiqata QV patologiyalı (hipertireoz kliniki əlamətləri olan) ÜİX və AH orta yaşı 58,5±1,9 olan 30 qadın və nəzarət qrupu kimi ÜİX və AH eutireoz olan 20 qadın daxil edilmişdir. Diaqnoz qoymaq üçün bütün xəstələr laboratoriya və instrumental tədqiqat metodlarından istifadə edərək hərtərəfli ümumi klinik müayinədən keçdilər. Qarşıya qoyulan vəzifələri həll etmək üçün ilk növbədə bütün müayinə olunanlarda tireoid hormonların, qonadotrop hormonların müayinəsi aparılmışdır. QV USM müayinəsi, EKQ, EKQ-nin sutkalıq Holter monitorinqi aparılmışdır.

Aparılan tədqiqatda ÜİX və AH ilə yanaşı QV funksional dəyişikliyi olan qadınlarda Architect c J8200 aparatı vasitəsilə qonodotrop hormonlar- LH, FSH, estradiol yoxlanılmış, LH/FSH indeksi ölçülmüşdür.

ÜİX və AH ilə yanaşı QV funksional dəyişikliyi olan qadınlarda ürək ritm variabelliyini (ÜRV) öyrənmək üçün qeyri-invaziv EKQproHolter sistemindən (Almaniya) istifadə edərək Holter EKQ monitorinqi metodundan istifadə edilmişdir. ÜRV təhlili metodologiyası Avropa Ürək Cəmiyyəti və Şimali Amerika Stimullaşdırma və Elektrofiziologiya Cəmiyyətinin işçi qrupu tərəfindən hazırlanmış Ölçmə, Fizioloji Şərh və Klinik İstifadə Standartlarına uyğun olmuşdur (1996).

ÜRV zaman göstəriciləri ardıcıl sinus kardiosiklləri arasında R-R intervallarının müddətində dəyişikliklərin statistik təhlili daxildir.

SDNN, ms - R-R intervallarının standart sapması, ümumi ÜRV-ni əks etdirir;

SDNN-NN intervalının standart dəyişməsi. ümumi ÜRV-ni əks etdirir; Dəyişikliyi bütövlükdə xarakterizə edir. ÜRV-nin cəmini göstərir.

SDANN - ürəyə simpatik təsiri xarakterizə edir.

RMSSD-RR intervalları arasındakı kvadratların orta cəminin kvadrat kökü. Dəyişkənliyin yüksək tezlik (HF) komponentinin qiymətləndirilməsi. Ürəyə parasimpatik təsiri xarakterizə edir.

pNN50-müşayiət olunan ardıcıl NN intervalların faizi 50 ms aşanlar arasındakı fərq. Prosesin stasionarlığının təxmini qiymətləndirilməsi üçün istifadə olunur və VSS-in parasimpatik bölməsinin fəaliyyətini əks etdirir.

ÜRV-nin spektral xarakteristikası qiymətləndirilmişdir. Spektral analiz spektral gücün aşağıdakı komponentlərini ayırmağa imkan verdi.

VLF-çox aşağı tezlik diapazonu göstəricisi, əsasən RAAS-sistemi, katoxolaminlərin plazmada konsentrasiyası, termorequlyasiya sistemi və s. özündə əks etdirir.

LF/HF-simpatiko-parasimpatik balansı göstərir.

TP-dəyişikliyi ümumilikdə xarakterizə edir. SDNN kimi fizioloji məna daşıyır.

Ürək ritminə vegetativ təsirin aktivlik cəmini göstərir. Bu zaman simpatik təsirin artması spektrin ümumi göstəricisinin azalmasına gətirib çıxarır, vaqusun aktivliyi isə əks təsir edir.

LF – aşağı tezliklərdə spektrin komponenti, ms2 0,04-0,15 Hz - vegetativ sinir sisteminin simpatik şöbəsinin aktivliyini karotid sinus barorefleksin və uzunsov beynin vazomator mərkəzləri təsiri altında baş verir.


HF – yüksək tezliklərdə spektrin komponenti, ms2 0,15-0,4 Hz – bu komponentin əsasını tənəffüs aritmiyasından yaranan vagal aktivlik təşkil edir, VSS-in parasimpatik bölməsinin dalğalanmalarını əks etdirir.

Bundan əlavə, biz avtonom tənzimləmənin yalnız seqmental (LF, HF) deyil, həm də supraseqmental (VLF) mexanizmlərinin vəziyyətini qiymətləndirməyə imkan verən bir yanaşmadan istifadə etdik. Bunun üçün spektrin hər bir komponentinin neyrohormonal tənzimləmənin ümumi spektrinə (% VLF, % LF, % HF) töhfəsini faizlə əks etdirən nisbi göstəricilər hesablanmışdır. LF və HF nisbi (normallaşmış) vahidlərdə (LFnu və HFnu) ölçülmüşdür, bu da hər bir vibrasiya komponentinin ümumi spektrin gücünə nisbi qatqısını təmsil edir. VLF: LFnu=LF/(TP-VLF)x100; HFnu=HF/(TP-VLF)x100. Vegetativ balansı qiymətləndirmək üçün simpatikovagal qarşılıqlı indeks - LF / HF hesablanmışdır; bu dəyər simpatik və parasimpatik təsirlərin nisbətini (tarazlığını) xarakterizə edir. Aparılan tədqiqatda ÜİX və AH ilə yanaşı QV funksional dəyişikliyi olan qadınlarda qonodotrop hormonlar, estradiol yoxlanılmış, LH/FSH indeksi ölçülmüşdür.

Statistik məlumatların işlənməsi Statistica 8.0 proqram paketindən istifadə etməklə həyata keçirilmişdir. Hesablamalar EXCEL elektron cədvəlindən istifadə etməklə kompüterdə aparılmışdır. Alınan bütün nəticələr cədvəllərdə ümumiləşdirilmişdir. Davamlı kəmiyyətlərin paylanmasının qeyri-müntəzəmliyini nəzərə alaraq qeyri-parametrik Wilcoxon-Mann-Whitney testindən istifadə edilmişdir. Tədqiqat məlumatları göstəricinin minimum və maksimum dəyərləri ilə orta dəyərlər kimi təqdim olunur. Qruplar arasındakı fərqlər $P<0.05$-də statistik cəhətdən əhəmiyyətli hesab edilmişdir.

Nəticə və müzakirə. Qadınlarda hipertireoz, hipotireoz və nəzarət qrupunda qonadotrop hormonların müqayisəli təhlilindən belə qənaətə gəlmək olar ki, FSH və LH yüksəlməsi, estrogen çatışmazlığı

yaranmışdır. Eksperimental sübutlar estrogen çatışmazlığının miokardda beta 1 adrenergik reseptorların aktivliyinin artmasına kömək etdiyini, simpatikotoniya və ürək vurğularının artmasına səbəb olduğunu göstərir. Klimakterik sindrom patoloji simptomokompleksdir, perimenopauza dövrün fizioloji gedişini ağırlaşdırır [1]. Buna görə də, menopauza və postmenopoza dövr qadınlarda beta-blokatorlar patogenetik cəhətdən əsaslandırılmış dərmanlar hesab olunur. Bütün xəstələrə ürək vürğularının sayında azalma əldə olunana qədər hər 2 həftədən bir 2,5-dən maksimum gündəlik doza 10 mq-a (orta hesabla 8,11±0,10 mq) doza titrləmə ilə bisoprolol təyin edildi. Müalicənin 6-cı ayının sonuna qədər təkrar tədqiqatlar aparıldı.



Şək. 1. ÜİX və AH yanaşı qalxanabənzər vəzi patologiyalarında qonodotrop hormonların, estradiolun səviyyəsi

Cədvəl 1
Bisoprolol ilə müalicə zamanı ÜİX vəAH ilə yanaşı QV patologiyalı qadınlarda ürək ritm dəyişkənliyinin göstəriciləri

Göstəricilər	Nəzarət (n=20)	Müalicəyə qədər (n=30)	Müalicədən sonra (n=30)
SDNN, мс	133,2±2,3	89,0±1,8**	140,1±2,8 ##
iSDANN, мс	113,5±0,8	83,5±1,6*	121,0±3,4 ##
iSDNN, мс	52,7±0,5	41±0,9*	58,0±1,2 *##
rMSSD, мс	41,5±0,7	28±1,3*	39,5±0,9 #
pNN50, %	15,8±1,1	6,4±0,7***	11,64±0,7* ##
LF/HF	1,6±0,08	3,5±0,11***	2,4±0,09** ##
LF, %	10,2±1,3	4,9±0,3***	7,1±0,5** ##
HF, %	9,5±1,7	2,1±0,2***	5,87±1,4*** ###
HFnu	35,6±1,5	17,5±1,6***	27,9±1,3**###
LFnu	49,2±0,9	56,4±0,9*	58,1±0,8**
VLF, %	76,8±1,1	90,1±1,6***	85,2±0,5** ##

Qeyd: Göstəricilərin statistik əhəmiyyətli fərqi: 1.Nəzarət qrupu: * – $p < 0,05$; ** – $p < 0,01$; *** – $p < 0,001$; 2.Müalicəyə qədərki qrup: # – $p_1 < 0,05$; ## – $p_1 < 0,01$; ### – $p_1 < 0,001$

Aparılan müayinələr zamanı məlum olmuşdur ki, FSH nəzarət qrupunda 40,8+7,1mlU/ml, hipertireozlu qrupda 78,2+8,5mlU/ml, hipotireozlu qrupda 84,2+7,0 mlU/ml olmuşdur, PH=0,003 fərq statistik dürüstdür. LH nəzarət qrupunda 37,7+6,8 mlU/ml, hipertireozlu qrupda 42,1+4,8 mlU/ml, hipotireozlu qrupda 48,1+4,5 mlU/ml olmuşdur, qruplar arasında PH=0,445 statistik dürüst fərqlənməmişdir. LH/FSH göstəricisinə görə qruplar arasında PH=0,001 statistik dürüst fərqlənmişdir, E2 göstəricisinə görə qruplar arasında PH=0,037 olmuşdur, statistik dürüst fərq alınmışdır(şəkil 1). Qrupların göstəriciləri arasında fərqin statistik dürüstlüyü P_F - Fişer meyarına görə, P_H - Kruskal - Wallis meyarına görə aparılmışdır.

Bildiyimiz kimi sinir tənzimlənməsi ürəyin elektrik fəaliyyətini sabitləşdirir. Ürək vurğularının sayının artması ÜİX vəAH xəstələrdə qospitalizasiyanı artırır və həyat keyfiyyətini aşağı salır. Belə ki, C.T. Зубкова, 2015 göstərmişdir ki, qalxanabənzər vəzin hormonlarının toksiki təsiri (duffuz toksiki zobda) nəticəsində VSS-in simpatik bölməsinin tonusunun artması aritmiyaların (taxikardiya, qulaqcıqların fibrilyasiyası və titrəməsi, ekstrasistoliya) səbəbidir. Xüsusilə levotiroksinin supressiv dozasını qəbul edən əməliyyat olunan xəstələrdə EKQ məlumatlarının gündəlik monitorinqi taxikardiya və digər ürək aritmiyalarının epizodlarının olmasının VSS-in simpatik bölməsinin artan aktivləşməsi ilə əlaqəli olduğu bildirilmişdir. Bu dəyişikliklərin müəyyən edilməsi L-tiroksin dozasını tənzimləməyə və kardioselektiv β-bloker dərman təyin etməyə imkan verir.

Cədvəldən göründüyü kimi, bisoprololla müalicə 6 ay ərzində VSS simpatik aktivliyinin azalması və parasimpatik aktivliyinin artması, simpatikoparasimatik balansın əhəmiyyətli dərəcədə azalması olmuşdur. Ümumi variabelliyin göstəricilərinin SDNN müalicədən əvvəliki ilə müqayisədə 1,6 dəfə ($p<0,01$), artmışdır. Müvafiq olaraq iSDANN 1,5($p<0,01$), iSDNN 1,5($p<0,05$), rMSSD 1,1($p<0,05$), pNN50 1,8($p<0,001$) dəfə armışdır. Zaman parametrləri göstəricilərində yaxşılaşma müşahidə olundu, nəzarət qrupunun nəticələrindən əhəmiyyətli dərəcədə fərqlənmədi. Dərmanla müalicə zamanı simpatik təsirlərin ürək ritminə təsirinin artması fonunda nisbi simpatikotoniya əlamətləri aradan qaldırıldı, LF / HF 1 dəfə azalma ($p<0,01$) müşahidə edildl. Bisoprololla müalicə ürək ritminə həm mütləq dəyərlərdə (HF), həm də normallaşdırılmış vahidlərdə (HFnu) və faiz baxımından parasimpatik təsirlərin əhəmiyyətli dərəcədə artmasına səbəb oldu. Müalicə ərzində həm mütləq dəyərlərdə və faiz baxımından LF% 1,6 dəfə ($p<0,01$) və HF% 2 dəfə($p<0,001$), müvafiq olaraq HF,nu 2 dəfə ($p<0,001$) və LF,nu 1,2 dəfə ($p<0,01$) artmışdır. ÜİX və AH xəstəliyi ilə yanaşı hipertireozlu qadınlarda ÜRV-nin spektral parametrlərində dəyişikliklər ürək ritminə humoral və metabolik təsirlərin artması ilə xarakterizə olunur. Spektral parametrlərdəki dəyişikliklər müalicədən sonra ürək ritminə humoral və metabolik təsirlərin əhəmiyyətli dərəcədə azalması ilə VLF% 1,0 dəfə ($p<0,01$) müşayiət olundu. Simpatik fəaliyyətin azalması və artan parasimpatik fəaliyyətin klinik və müalicəvi təsiri ola bilər. Tədqiqatımızda müşahidəmizin sonunda ürək döyüntülərində əhəmiyyətli bir azalma qeyd edildi. 6 aylıq bisoprolol monoterapiyası zamanı ürək döyüntülərinin dəqiqədə 107,9 vurğudan 70,5-ə qədər azalması müşahidə olunub ki, bu da 34,6 % təşkil etmişdir ($p<0,001$). Oxşar məlumatlar digər tədqiqatlarda da əldə edilmişdir [5,6].

Aparılan müalicə nəticəsində ürəkdöyünmənin azalması, kardial xarakterli şikayətlərin azalması, ÜRV göstəricilərinin yaxşılaşması müşahidə olunmuşdur. Preparatın qəbulu zamanı əlavə təsirlərdən 2 xəstədə paresteziyalar, 3 xəstədə baş ağrıları qeyd edildi. Bu əlavə təsirlər keçici xarakterli olmuş, müalicə davam edilmişdir. Eyni zamanda, ekstrasistoliyanı xarakterizə edən parametrləri müqayisə edərkən, bisoprolol ilə müalicə zamanı mədəcik ekstrasistoliyalarının sayı əhəmiyyətli dərəcədə azalmışdır. Tədqiqatın nəticələri yüksək klinik effektivliyi və təhlükəsizliyini, həmçinin menopauza və postmenopoza dövrü qadınların müalicəsində bisoprololun müsbət metabolik profilini nümayiş etdirir. Dərman müalicəsi avtonom sinir sisteminin funksional vəziyyətinə korreksiya edici təsir göstərir, bu, nisbi simpatikotoniya əlamətlərinin və ürək ritminə humoral-metabolik təsirlərin eyni vaxtda aradan qaldırılması ilə parasimpatik tonusun artması ilə ifadə edilir.

ƏDƏBİYYAT

1. Зайдиева Я.З., Глазкова А.В., Кручинина Е.В. Заболевания щитовидной железы в пери- и постменопаузе (обзор литературы) // Медицинский алфавит, 2019, №4(33), с.48-53

2. Ahmad M., Reddy S., Barkhane Z. et al. Hyperthyroidism and the Risk of Cardiac Arrhythmias: A Narrative Review // Cureus, 2022, v. 14(4), p. 24378.

3. AlQahtani A., Alakkas Z., Althobaiti F. et al. Thyroid Dysfunction in Patients Admitted in Cardiac Care Unit: Prevalence, Characteristic and Hospitalization Outcomes // Int J Gen Med., 2021, v.14, p. 505-514.

4. Aziz Q., Li Y., Tinker A. Potassium channels in the sinoatrial node and their role in heart rate control // Channels (Austin), 2018, v. 12(1), p.356-366

5. Brusseau V., Tauveron I., Bagheri R. et al. Effect of Hyperthyroidism Treatments on Heart Rate Variability: A Systematic Review and Meta-Analysis // Biomedicines, 2022, v.10(8), p.1982.

6. Chen Y.D., Yang X.C., Pham V.N. et al. Resting heart rate control and prognosis in coronary artery disease patients with hypertension previously treated with bisoprolol: a sub-group analysis of the BISO-CAD study // Chin Med J (Engl), 2020, v.133(10), p.1155-1165.

7. Franciosi S., Perry F.K.G., Roston T.M. et al. The role of the autonomic nervous system in arrhythmias and sudden cardiac death // Auton Neurosci., 2017, v.205, p.1-11.

8. Floriani C., Gencer B., Collet T.H. et al. Subclinical thyroid dysfunction and cardiovascular diseases // Trends in cardiovascular medicine, 2018, v. 39(7), p. 503-507

9. Osuna P.M,. Udovcic M., Sharma M.D. Hyperthyroidism and the Heart // Methodist Debakey Cardiovasc J., 2017, v. 13(2), p.60-63.

10.Paschou S.A., Bletsa E., Stampouloglou P.K. et al. Thyroid disorders and cardiovascular manifestations: an update // Endocrine. 2022, v.75(3), p. 672-683.

11.Shrestha M., Shrestha R. Status of Thyroid Disorder among the Thyroid Function Test Samples Received in a Laboratory among Postmenopausal Women: A Descriptive Cross-sectional Study // JNMA J Nepal Med Assoc., 2021, v. 59(234), p. 170-175.

12.Varvarousis D., Kallistratos M., Poulimenos L. et al. Cardiac arrhythmias in arterial hypertension // J Clin Hypertens (Greenwich), 2020, v.22(8), p. 1371-1378.

Резюме

Клиническое значение бета-адреноблокаторов в лечении женщин с ишемической болезнью сердца и артериальной гипертензией при патологии щитовидной железы

И.М.Эфендиева

В исследовании изучалась клиническая эффективность вариабельности сердечного ритма при лечении бисопрололом у женщин с гипертиреозом. В исследование были включены 30 женщин с ишемической болезнью сердца (ИБС) и артериальной гипертензией (АГ) с сердечно-сосудистой патологией (с клиническими признаками гипертиреоза) и 20 женщин с ИБС и эутиреоидной АГ в качестве контрольной группы. Всем больным назначали бисопролол с титрованием дозы каждые 2 нед от 2,5 до максимальной суточной дозы 10 мг (в среднем 8,11±0,10 мг) до достижения снижения ЧСС. Повторные исследования проводились до конца 6-го месяца лечения. Метод холтеровского мониторирования ЭКГ с использованием неинвазивной системы ECG pro Holter (Германия) применяли для исследования УПВ у женщин с гипертиреозом. На фоне лечения препаратом в конце 6-го месяца отмечалось уменьшение числа сердечных сокращений, улучшение общей вариабельности. Результаты исследования продемонстрировали высокую клиническую эффективность и безопасность при лечении женщин с гипертиреозом. Принимаемый препарат оказывал корригирующее действие на функциональное состояние вегетативной нервной системы, выражающееся в одновременном устранении относительных симптомов симпатотонии и гуморально-метаболических влияний на сердечный ритм, повышении парасимпатического тонуса.

Summary

Clinical significance of beta-blockers in the treatment of women with coronary heart disease and arterial hypertension in thyroid pathology

I.M.Efendiyeva

The study examined the clinical efficacy of heart rate variability during treatment with bisoprolol in hyperthyroid women. The study included 30 women with IHD and arterial hypertension with tireoid pathology (with clinical signs of hyperthyroidism) and 20 euthyroid women with IHD and arterial hypertension as a control group. All patients were prescribed bisoprolol with dose titration every 2 weeks from 2.5 to a maximum daily dose of 10 mg (mean 8.11±0.10 mg) until a reduction in heart rate was achieved. Repeated studies were conducted until the end of the 6th month of treatment. Holter ECG monitoring method using non-invasive ECG pro Holter system (Germany) was used to study URV in women with hyperthyroidism. During drug treatment, at the end of the 6th month, there was a decrease in the

number of heart beats, an improvement in the overall variability. The results of the study demonstrated high clinical efficacy and safety in the treatment of hyperthyroid women. The received drug had a corrective effect on the functional state of the autonomic nervous system, expressed by the simultaneous elimination of relative symptoms of sympathotonia and humoral-metabolic effects on heart rhythm, and an increase in parasympathetic tone.

Daxil olub: 26.07.2022

Ucar rayonunda mığmığaların populyasiyasının hazırki vəziyyətinə dair

Ə.E.Hacıbəyova, A.Ə.Salehov, E.Ə.İsmayılova, F.H.Hüseynova
V.Axundov adına Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutu, Bakı

Açar sözlər: Phlebotomus, dəri leyşmaniozu, visseral leyşmanioz, , xəstəlik ocağı.
Ключевые слова: Phlebotomus, кожный лейшманиоз, висцеральный лейшманиоз, очаг болезни.
Key words: Sandfly,cutaneous leishmaniasis, visceral leishmaniasis, disease foci

Leyşmanioz dünyada geniş yayılmış transmissiv parazitar xəstəlikdir. Leyşmaniozların törədicilərinin müxtəlif növlərinin coğrafi yayılmasının dəqiq təyin olunması olduqca çətindir. ÜST leyşmanioz arealının getdikcə genişlənməsini vurğulayaraq dünyada bu xəstəliyin artmasının narahatlıq törətdiyini xüsusilə qeyd etmişdir. Belə ki, leyşmaniozların bir forması olan "qara – azar" müalicəsinin aparılmadığı təqdirdə əksər hallarda ölümlə nəticələnir [8].

Leyşmaniozlar Azərbaycan üçün həm keçmişdə, həm də hazırda ölkə patalogiyası kimi mövcuddur. Əvvəllər Respublikamızda leyşmaniozlar tüğyan edən zaman dəri leyşmaniozunun əsas ocaqları Kirovabad (Gəncə), Bərdə, Ağdaş rayonları olsada, bu xəstəlik Ucar, İsmayıllı Qax, Nuxa və digər rayonlarda sporadik halda rast gəlinirdi.

Müvafiq kompleks tədbirlərin aparılması nəticəsində və əsasən də o zaman geniş yayılmış visseral leyşmanioz xəstələrinin maksimal aşkarlanması, onların mütləq sürətdə qeydiyyatının aparılması xəstəliyin azalmasına səbəb olmuşdur. Belə ki, 1966-cı ildə 1956 – cı illə müqayisədə respublikada xəstəliyin səviyyəsi 20 dəfə, daha intensiv olan ocaqlarda isə (Ağdam, Ağdaş, Göyçay, Şamaxı, Ordubad) 64 dəfə aşağı düşmüşdür [7].

Mütəxəssislərin apardığı müşahidələrin nəticəsi xəstəliyin respublikanın ərazisində qeyri – bərabər yayılmasını və xəstələrin və xəstəlik ocaqlarının əksəriyyətinin Şirvan düzündə cəmləşdiyini göstərmişdir. Ocaqlarda xəstəliyə bəzən 1-4 il fasilələrlə sporadik halda rast gəlinir. Ocaqların dinamik öyrənilməsi göstərmişdir ki, insanlar arasında xəstəlik olmasada infeksiya yox olmur, itlər arasında dövr etməyə davam edir. Xəstəlik mənbəyi tək insanlar olmadığı üçün xəstəlik insanlar arasında olmasada visseral leyşmanioz ocaqları dayanıqlı olub fəaliyyətlərini itirmir [9].

Azərbaycanda leyşmaniozların klassik ocaqlarının sağlamlaşdırılmasından sonrakı 20 il ərzində dəri leyşmaniozu qeydə alınmırdı. 1987 – ci ildən leyşmanioz ocaqları yenidən fəallaşaraq respublika səhiyyəsinə problem yaratmış və hazırda həllini gözləyən aktual bir problem kimi qalmaqdadır. Fəallaşan xəstəlik olcaqların əksəriyyəti Şirvan düzündəki rayonlara aid olmuşdur və Göyçay, Ağdaş, Ucar, Bərdə və qismən İsmayıllı rayonunu əhatə etmişdir. Sonradan digər ərazilərə də yayılmışdır. 1988 – ci ildə Ucar rayonun 5 yaşayış məntəqəsində 9 xəstə qeydə alınmışdır. Sonrakı illərdə xəstəlik artmış və 1991 – ci ildə Ucar

rayonunun 23 kəndində 217 xəstə qeydə alınmışdır və son 15 il ərzində yaşayış məntəqələrinin 71,9% epidemioloji prosesə daxil olmuşdur.

Son 15 il ərzində Şirvan düzündə qeydə alınmış xəstələrin 94% - i, Ucar rayonunun payına düşmüşdür. (2,3,4,5,6,10). Digər müəlliflərin qeyd etdikləri kimi Ucar rayonunun 32 yaşayış məntəqəsindən 24 – ündə dəri leyşmaniozu aşkar edilmişdir. Lakin ən çox xəstəlik. 2 yaşayış məntəqəsi _- Qazyan və Ləkin kəndlərində rast gəlinir [1].

Yuxarıda göstərilənləri nəzərə alaraq 2022 – ci ildə Ucar rayonunda leyşmaniozların keçiriciləri olan mığmığaların faunası öyrənilmişdir. Bu məqsədlə son illər ərzində dəri və visseral leyşmanioz hadisələri qeyd olunan yaşayış məntəqələrindən 3 kənd Qazıqumlaq , Şahlıq , Lək və Ucar rayon mərkəzində Rəsulzadə 79 ünvanındakı həyət seçilmişdir. Mığmığaların yığılması üçün ÜST – da qəbul olunmuş metod tətbiq olunmuşdur. Bu məqsədlə 20x30sm ölçüdə yarımperqament kağızların hər iki üzü gənəgərçək yağı ilə yağlanaraq müşahidələr aparılacaq yerlərdə hər biotopda 2-4 ədəd olmaq şərtilə asılmışdır. Ekspozisiya 1 sutkaya bərabər götürülmüşdür. Yığılan material 96% spirt olan müxbər şüşələrində nəql olunur. Mığmığaların növünün təyin olunması üçün laboratoriyada KOH və ya For məhlulundan istifadə olunaraq preparatlar hazırlanıb və mikroskop altında baxılmışdır.

Cədvəl 1
Ucar rayonunda yığılan mığmığaların növ tərkibi

Yaşayış məntəqələri	Mığmığaların növləri					
	Ph.papatasi	Ph.sergenti	Ph.transcaucasicus	Ph.kandelakii	Ph.tobbi	Cəmi
Lək	12	4	4	6	___	26
Qazıqumlaq	__	6	3	2	2	13
Şahlıq	12	15	11	11	6	55
Rəsulzadə 79	1	2	2	2	__	7
Cəm	25	27	20	21	8	101
%	24.75	26.74	19.8	20.79	7.92	100

Cədvəldən göründüyü kimi Ucar rayonunun ərazisində yığılan mığmığaların identifikasiyası göstərmişdiri ki, onlar 5 növə aiddir. Onların arasında sayına görə üstünlük təşkil edən Ph.sergenti növüdür. Yəni keçiricilərin ümumi sayının 26.74% təşkil edir və bu növ Azərbaycanda dəri leyşmaniozunun keçiricisi sayılır. Əldə olunmuş materialın təhlili göstərmişdir ki, Ucar rayonunda tədqiqat aparılan 4 yaşayış məntəqələrində mığmığaların sayı müxtəlifdir olmuşdur. Belə ki, Şahlıq kəndində keçiricilərin sayı digərlərə nisbətən daha çox olmuşdur. Cədvəldən göründüyü kimi yığılan mığmığaların 54.4% - ni Şahlıq kəndində tutulan həşəratlar təşkil edir (Cədvəl1). Müşahidələr göstərir ki, Ucar rayonunun kəndlərində mığmığaların sıxlığı da müxtəlifdir və 1.3-3.1 arasındadır. Şahlıq kəndində digərlərə nisbtətən yüksək olaraq bu rəqəm 3,1 təşkil edir. Ümumiyyətlə isə sıxlıq 2.1-dir. (Cədvəl 2).

Cədvəl 2
Ucar rayonunda mığmığaların sıxlığı

Yaşayış məntəqələrinin adı	Biotop sayı	Yağlı kağızların sayı	Mığmığaların sayı	Mığmığaların orta sıxlığı
Ucar (Rəsulzadə 79)	5	10	20	2.1
Qazıqumlaq	8	20	26	1.3
Lək	14	33	49	1.5
Şahlıq	12	27	84	3.1
Cəm	39	90	189	2.1

Mığmığaların gündüz sığınacaqlarına gəldikdə müşahidələr aparılmış yerlərdə onların imago mərhələsinin biotopları kimi tövlə, hin, işlənməyən həyətyanı tikililər də istifadə olunur, axşamlar isə onlar heyvanların açıq havada bağlı saxlanan yerlərdə, işığı yanaraq saxlanılan eyvanlarda, sakinlərin axşam vaxtlarını keçirdiyi yerlərdə qida axtarışında yığılırlar. Yaşayış olan otaqlarda mığmığaları tutmaq mümkün olmamışdır, çünki əhali evlərin pəncərələrinə tor çəkmişdir.

GEM, kənd tibb müəssisələrinin işçiləri və eyni zamanda əhali arasında sorğu aparılarkən aydın olunmuşdur ki, tibb işçiləri və əhalinin keçiriciləri haqda məlumatları kifayət dərəcədə deyil. Deməli maarifləndirmə işlərinin aparılmasına ehtiyac vardır.

Belə hallar mığmığaların diqqətdən kənar qaldığını göstərir və onların sayının artması, yayılması, leyşmanioz keçiriciləri olaraq xəstəliyin yayılması üçün münbit şərait yaradır. Bundan başqa xəstəlik aşkar olunan həyətlərdə mığmığaların imaqodan əvvəlki mərhələlərinin inkişafına şərait yaranmaması üçün həmin həyətlər və həyətyanı tikililər insektisidlərlə işlənməlidir, həyətyanı sahələrdə sanitariya qaydalarına riayət olunmalıdır. Beləliklə aparılan müşahidələr Ucar rayonunda leyşmaniozların törədicilərinin dövr etməsinin optimal şəratini mövcud olmasını göstərir.

ƏDƏBİYYAT

1. Абдуллаев Х.И., Багиров Г.А., Фарамазов А.З. и др. Особенности очагов кожного лейшманиоза в районах Ширванской равнины» V.Axundov adına Milli ETTPİ 80 illik yubileyinə həsr olunmuş elmi konfrans material məcmuəsi.Bakı, 2002, s.17 -22

2. Багиров Г.А., Абдуллаев Х.И., Особенности очагов кожного лейшманиоза в районах Ширванской равнины / V.Axundov adına Milli ETTPİ 80 illik yubileyinə həsr olunmuş elmi konf. material məcmuəsi. Bakı, 2002, s.17

3. Багиров Г.А., Абдуллаев Х.И., Фарамазов А.З. Динамика кожного лейшманиоза в районах Ширванской равнины с 1987 по 2001г / V.Axundov adına Milli ETTPİ 80 illik yubileyinə həsr olunmuş elmi konf. mater. məcmuəsi. Bakı, 2000, s. 88

4. Багиров Г.А., Абдуллаев Х.И., Махмудова Ш.А.О состоянии заболеваемости висцералном лейшманиозом в Азербайджане / XXI əsrdə klinik mikrobiologiyanın aktual problemləri mövzusunda Respublika elmi-praktik konf. məcmuəsi. Bakı, 2001, s.52.

5. Багиров Г.А., Абдуллаев Х.И., Махмудова Ш.А. Особенности распространения кожного лейшманиоза в Ширванской равнине // XXI əsrdə klinik mikrobiologiyanın aktual problemləri məcmuəsi. Bakı, 2001, s.48

6. Багиров Г.А. Состояние заболеваемости кожным лейшманиозом в Азербайджане за 2000-2004 г.г Tibbi profilaktikanın müasir problemləri. Bakı, 2005, s.119

7. Джавадов Р.Б.«Успехи в борьбе с паразитарными болезнями в Азербайджанской ССР» Матер. науч Конф респ. Закавказ. по паразитарным болезням. Баку, 1967, s.11-14

8. .«Лейшманиозы» Докл. Комитета эксперта ВОЗ, 1986

9. Наджафов А.Ю. Научные основы ликвидации очагов висцералного лейшманиоза в Аз ССР / Матер. науч конф. респ. Закавказ. по паразитарным болезням. Баку, 1967, s. 61-65

10.Наджафов А.Ю., Мамедов И.Г.К истории изучения висцерального лейшманиоза и борбы с ним в Азербайджанской ССР / В кн: Труды НИИ МП и ТМ им. С.М.Кирова 1969, том VII, s.61

Резюме

К современному состаянию популяции москитов в Уджарском районе

Е.А.Гаджибекова, А.А.Салехов, Е.А.Исмайлова, Ф.Х.Гусейнова

В статье представлены результаты наблюдений за москитами в Уджарском районе, который является одним из вновь активизировавшихся очагов оздоровленных 20 лет назад вместе с другими активным очагами лейшманиозов.

Summary

To the current state of the sandfly population in the Ujar region

E.A.Hajibeyova, A.A.Salehov, E.A.Ismayilova, F.H.Huseynova

The article presents results of observation of sandfly in the Ujar region which is one of the newly activated foci of leishmaniasis that were healed 20 years ago along with other active foci of leishmaniasis.

Daxil olub: 27.07.2022

Предикторы преждевременных родов

Н.А. Шахбазова, Л.Р.Сулейманова
Научно-Исследовательский Институт Акушерства и Гинекологии, г.Баку,

Açar sözlər: hamiləlik, vaxtından əvvəl doğuş, fetal fibronektin, insulinəbənzər böyümə faktorunu bağlayan fosforlanmış protein 1, plasentar alfa-mikroglobulin-1
Ключевые слова: беременность, преждевременные роды, фетальный фибронектин, фосфорилированный белок 1, связывающий инсулиноподобный фактор роста, плацентарный альфа-микроглобулин-1
Key words: pregnancy, preterm labor, fetal fibronectin, insulin-like growth factor binding protein-1, placental alpha-microglobulin-1

Преждевременные роды – роды, наступившие в сроки беременности от 22 до 36 недель и 6 дней. Приблизительно 15 миллионов детей (около 11%) ежегодно рождаются недоношенными во всем мире, что указывает на глобальный уровень преждевременных родов. Преждевременные роды являются основной причиной смерти среди детей, на их долю приходится 18% всех смертей среди детей в возрасте до 5 лет и до 35% всех смертей среди новорожденных (в возрасте <28 дней). Также высока частота неврологических нарушений и других проблем развития, такие как церебральный паралич, бронхолегочная дисплазия, ретинопатия недоношенных и многие другие заболевания, сопровождающие недоношенность [1]. Существуют значительные различия в показателях преждевременных родов и смертности между странами и внутри стран, но частота преждевременных родов растет во всех странах [2]. Поскольку основная этиология преждевременных родов не совсем ясна, идентификация факторов риска и определение индивидуального риска для беременных женщин имеют важное значение в выборе тактики ведения женщин.

Около двух третей преждевременных родов наступают после спонтанного начала родовой деятельности или преждевременного разрыва плодных оболочек, тогда как оставшаяся треть индуцируются по медицинским показаниям ввиду осложнений со стороны матери или плода. Самопроизвольные преждевременные роды – это синдром, вызванный множественными патологическими процессами, прогнозирование которых было давней проблемой. Госпитализация пациенток с угрозой преждевременных родов составляет почти 33% всех госпитализаций в дородовые отделения стационаров, до 85% из которых не родоразрешаются в течение последующих 7 дней [3]. С развитием методов молекулярной биологии большие надежды возлагаются на исследования по выявлению маркеров, позволяющих дифференцировать ранние преждевременные роды от ложных. Способность прогнозировать сроки родоразрешения у беременных с признаками угрозы преждевременных родов, поможет решить две взаимосвязанные задачи: обеспечить раннее профилактическое лечение и избежать напрасной госпитализации и лечения кортикостероидами, токолитиками, использования ресурсов больницы.

Были предложены различные биохимические маркеры для выявления женщин с риском спонтанных преждевременных. Наиболее распространенные из них: фетальный фибронектин (ФФН), фосфорилированный белок 1, связывающий инсулиноподобный фактор роста (phIGFBP-1), плацентарный альфа-микроглобулин-1 (ПАМГ-1).

Фетальный фибронектин представляет собой гликопротеин, продуцируемый амниоцитами и цитотрофобластами, который связывает мембраны хориона с материнской децидуальной оболочкой. Обычно он обнаруживается в шеечно-влагалищной жидкости до 22 недель беременности, но его присутствие в шеечно-влагалищной жидкости между 24 и 34 неделями беременности указывает на риск преждевременных родов. Согласно клиническому протоколу по диагностике и лечению преждевременных родов Азербайджанской Республики (2014), начало преждевременных родов можно диагностировать при длине шейки матки ≤2,5 см по данным ультразвукового исследования или при наличии ФФН в шеечно-влагалищных выделениях [4]. В систематическом обзоре Honest H. сообщается, что, хотя точность наличия фетального фибронектина в прогнозировании спонтанных преждевременных родов варьировала, он наиболее точен в прогнозировании родов без выраженного раскрытия шейки матки в течение 7-10 дней после тестирования [5]. Тем не менее, недавний

метаанализ показал, что исследование ФФН при одноплодной беременности не было связано с профилактикой преждевременных родов или улучшением перинатальных исходов, сообщая, что заболеваемость до 28 недель, 32 недель, 34 недель и 37 недель не изменилась, несмотря на его более высокие расходы, и нет особых причин для оправдания рутинного его использования [6]. Американский колледж акушеров и гинекологов не рекомендует использовать только положительный тест на ФФН или короткую шейку матки для выбора тактики ведения пациенток с угрозой преждевременных родов из-за их низкой положительной прогностической ценности [7].

Использование ФФН у бессимптомных женщин оценивалось в многоцентровом исследовании Preterm Prediction Study, в котором участвовали 2929 женщин, у которых не было симптомов преждевременных родов на момент включения, регулярно проходили скрининг каждые две недели с 22–24 до 30 недель беременности на цервикальный и вагинальный ФФН. Положительная прогностическая ценность (для преждевременных родов до 34 недель гестации) была низкой, колеблясь от 17% до 25% в зависимости от гестационного возраста на момент взятия проб [8].

В нескольких обсервационных исследованиях было отмечено, что комбинация оценки длины шейки (ДШ) матки и ФФН может улучшить прогнозирование преждевременных родов у женщин с симптомами, особенно у женщин с длиной шейки матки 15–30 мм. В Нидерландах было проведено исследование с большой проспективной когортой из 665 женщин с угрозой преждевременных родов (≥3 схваток за 30 минут, неповрежденные плодные оболочки) в сроках между 24 и 34 неделями беременности с оценкой длины шейки матки и ФФН. Они обнаружили, что женщины с ДШ ≥ 30 мм или женщины с ДШ 15–30 мм и отрицательным результатом ФФН имели низкий риск (определяемый как <5%) самопроизвольных родов в течение 7 дней. Однако общая частота родов в течение 7 дней составила всего 12 %, а комбинация ДШ и ФФН только увеличила положительную прогностическую ценность с 0,23 (95 % ДИ: 0,19–0,29) до 0,27 (95 % ДИ: 0,22–0,33) [9]. Недавние исследования показали, что количественные измерения ФФН могут улучшить прогностическую ценность по сравнению с качественным тестом, который использует 50 нг/мл в качестве порога. В проспективном слепом исследовании положительная прогностическая ценность для преждевременных родов до 34 недель беременности увеличилась с 19%, 32%, 61% и 75% с увеличением пороговых значений (10, 50, 200 и 500 нг/мл, соответственно) [10]. Комбинация количественного оценивания ФФН и оценки ДШ может еще больше увеличить прогностическую ценность, но данные по-прежнему ограничены предварительными обсервационными исследованиями.

Таким образом, существующая литература остается ограниченной и разнообразной, и в настоящее время отсутствуют высококачественные данные, позволяющие предположить, что добавление ФФН к измерению ДШ у женщин с симптомами преждевременных родов значительно улучшает прогноз преждевременных родов или помогает изменить тактику ведения беременных.

Фосфорилированный белок 1, связывающий инсулиноподобный фактор роста, является основным белком, синтезируемым в децидуализированных клетках эндометрия во время беременности. Разрушение тканей на хориодецидуальном уровне из-за сокращений матки может привести к просачиванию phIGFBP-1 в цервикальный секрет. В 2001 году Kekki et al. сообщили, что высокие уровни phIGFBP-1 в цервикальном секрете могут выявить женщин, подверженных риску преждевременных родов [11]. С тех пор проводились различные исследования, авторы сообщали, что цервикальный phIGFBP-1 может точно предсказать преждевременные роды у женщин с эпизодом преждевременных родов и неповрежденными плодными оболочками, и что он имеет преимущества по сравнению с цервиковагинальным фетальным фибронектином. В частности, на результаты не влияют недавний половой акт или загрязнение мочой, требуются меньшие затраты и возможно более быстрое тестирование [12]. Тем не менее, в некоторых отчетах прогностическая способность этого теста в отношении преждевременных родов также подвергалась сомнению. В настоящее время цервикальный phIGFBP Тест -1 используется во многих странах мира, таких как Великобритания, Канада, Германия, Италия, Франция, Япония, Австралия, Новая Зеландия, Индия и Израиль. Поэтому критическая оценка его прогностической эффективности является своевременной и необходимой. Результаты систематического обзора, проведенного Conde-Agudelo A. et al., показывают, что в целом цервикальный тест phIGFBP-1 имеет низкую прогностическую точность в отношении преждевременных родов на сроке <34 и <37 недель гестации как у бессимптомных, так и у женщин с симптомами, а также для родов в пределах 7 и 14 дней после родов. Этот метаанализ эффективности phIGFBP -1 показал, что недостаточно доказательств, чтобы рекомендовать его рутинное клиническое использование [13].

По данным F. Fuchs et al. тест на фосфорилированный белок 1, связывающий инсулиноподобный фактор роста отдельно или в сочетании с измерением длины шейки матки имеет низкую прогностическую точность для прогнозирования преждевременных родов – исследование проводилось на 180 женщинах [14, 15].

ПАМГ-1 – это белок, высвобождающийся децидуальными клетками в амниотической полости на протяжении всей беременности. Он обнаруживается в вагинальных выделениях у женщин с симптомами преждевременных родов. Согласно исследованию, Lee et al. [16], этот механизм может быть объяснен транссудацией белка через поры плодных оболочек при маточных сокращениях или деградацией внеклеточного матрикса этих оболочек вследствие воспалительного процесса во время родов или инфекции. По данным Y. Chekmez et al. диагностическая точность ПАМГ-1 аналогична фетальному фибронектину в плане прогнозирования преждевременных родов в течение 7 дней (исследование проводилось на 72 беременных, положительные прогностические значения ПАМГ-1, ФФН и длины шейки матки составили 73,3%, 82,3% и 64,2% соответственно, а отрицательные прогностические значения -92,9%, 90,9% и 86,2% соответственно) [17]. Эффективность ПАМГ подтверждают также и другие исследования [18,19,20,21], в некоторых работах ПАМГ продемонстрировал статистическое превосходство в прогнозировании преждевременных родов [22,23]. Метаанализ 15 исследований, включающий 1906 женщин, выявил высокую точность ПАМГ для прогнозирования преждевременных в течение 7 и 14 дней после тестирования у беременных с клиническими симптомами [24].

Плацентарный альфа-микроглобулин-1 значительно более специфичен, чем фосфорилированный белок, связывающий инсулиноподобный фактор роста-1, для прогнозирования спонтанных преждевременных родов ≤7 дней (P<0,0001), тогда как оба теста имеют сопоставимую чувствительность (исследование проводилось на 403 пациентках) [25]. Исследование A. Radan et al. предоставляет доказательства того, что определение ПАМГ в цервиковагинальной жидкости в сочетании с измерением длины шейки матки позволяет точно прогнозировать преждевременные роды у женщин с симптомами преждевременных родов. Эта комбинация тестов может использоваться клинически для сортировки женщин с угрозой преждевременных родов, избегая чрезмерного лечения и ненужных госпитализаций [26]. Добавление к сонографическому исследованию длины шейки матки определения ПАМГ-1 тестирования может помочь избежать ненужного назначения антенатального назначения кортикостероидов женщинам с короткой длиной шейки матки [27].

Существуют комбинации биомаркеров преждевременных родов. Крупнейшее на сегодняшний день исследование, показывающее, что Amnioquick duo+ (insulin-like growth factor binding protein-1 (IGFBP-1)/alpha-fetoprotein) и ПАМГ обладают сравнительно высокой диагностической точностью при выявлении женщин с преждевременным разрывом плодных оболочек с коэффициентом соответствия 97,0% [28]. Для диагностики преждевременных AmnioQuick Duo+ не уступает и сопоставим по точности с тестом ПАМГ-1 с уровнем диагностического несоответствия 3,1%, исследование проводилось на 99 беременных [29].

Premaquick (комбинированный тест на IGFBP-1, общий IGFBP-1 и интерлейкин-6) показал более высокую точность с точки зрения чувствительности и положительной прогностической точности. Premaquick может быть приемлемой альтернативой ФФН для прогнозирования преждевременных родов у женщин с симптомами угрозы преждевременных родов в условиях низкого дохода [30]. Эта новая модель тройного биомаркера нативного и общего IGFBP-1 и IL-6, по-видимому, является точным тестом для прогнозирования спонтанных родов при угрозе преждевременных родов при одноплодной беременности, исследование проводилось на 97 беременных [31].

Проблема преждевременных родов в настоящее время очень актуальна, требуются дальнейшие исследования маркеров для ранней диагностики, своевременного и полноценного лечения. Если бы преждевременные роды можно было прогнозировать и лечить соответствующим образом, это значительно снизило бы смертность, заболеваемость и связанные с этим расходы.

ЛИТЕРАТУРА

1. Blencowe H., Cousens S., Oestergaard M. Z., et al. National, regional, and worldwide estimates of preterm birth rates in the year 2010 with time trends since 1990 for selected countries: a systematic analysis and implications // The Lancet, 2012, v.379(9832), p. 2162–2172.

2. Salimah R. Walani. Global burden of preterm birth // Int J Gynaecol Obstet., 2020, v.150(1), p.31-33
3. Russell R.B., Green N.S., Steiner C.A. et al. Cost of hospitalization for preterm and low birth weight infants in the United States // Pediatrics, 2007, 120, p.1-9.
4. C. Məmmədov, F. Qurbanova, F. Abbasova, H. et al. 22-28 həftəlik hamiləlik daxil olmaqla, vaxtından əvvəl doğuşların idarə olunması üzrə klinik protokol. Baki, 2014. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi.
5. Honest H. Accuracy of cervicovaginal fetal fibronectin test in predicting risk of spontaneous preterm birth: systematic review // BMJ, 2002, v.325(7359), p.301-301
6. Berghella V., Saccone G. Fetal fibronectin testing for prevention of preterm birth in singleton pregnancies with threatened preterm labor: a systematic review and metaanalysis of randomized controlled trials // American Journal of Obstetrics & Gynecology, 2016, v.215(4), p. 431–438.
7. American College of Obstetricians and Gynecologists' Committee on Practice Bulletins-Obstetrics. Practice Bulletin No. 171: Management of Preterm Labor // Obstet Gynecol. 2016, v.128, e155–164.
8. Leitich H, Kaider A. Fetal fibronectin-how useful is it in the prediction of preterm birth? // Br J Obstet Gynecol., 2003, v.110 (suppl 20), p. 66-70.
9. van Baaren GJ, Vis JY, Wilms FF, et al. Predictive value of cervical length measurement and fibronectin testing in threatened pre-term labor. Obstet Gynecol. 2014;123(6):1185–1192.
10.Bruijn MM, Kamphuis EI, Hoesli IM, et al. The predictive value of quantitative fibronectin testing in combination with cervical length measurement in symptomatic women // Am J Obstet Gynecol., 2016, v. 215(6), 793
11.Kekki M, Kurki T, Kärkkäinen T. et al. Insulin-like growth factor-binding protein-1 in cervical secretion as a predictor of preterm delivery // Acta Obstet Gynecol Scand., 2001, v.80, p.546-51.
12.Hillman-Cooper C., Ghag K., Dempsey A. et al. Actim partus - the first year at St. Michael's Hospital, Bristol //Arch Dis Child Fetal Neonatal Ed. 2014;99(Suppl 1):A158-9.
13.Conde-Agudelo A., Romero R. Cervical phosphorylated insulin-like growth factor binding protein-1 test for the prediction of preterm birth: a systematic review and metaanalysis // American Journal of Obstetrics and Gynecology, 2015, v. 214(1), p. 57-73
In connection with the global pandemic caused by the SARS–CoV–2 coronavirus, studies on the impact of COVID–19 on metabolic processes, protein metabolism, the body's antioxidant potential, as well as the search for additional ways to prevent coronavirus infection, are currently relevant in all countries. This paper provides an overview of scientific research on the possibility of using biologically active substances to increase the activity of the immune system and its resistance against coronavirus infection, both in preventive measures and as an additional element in medical procedures during a pandemic.

Daxil olub: 06.07.2022

Bronxial astma və allergik rinitin olan uşaqların allerqoloji-immunoloji göstəriciləri

T.T.Pənahova
Azərbaycan Tibb Universiteti, Uşaq xəstəlikləri kafedrası, Bakı

***Açar sözlər*:** astma, immunoloji status, rinit
Ключевые слова: астма, иммунологический статус, ринит
Key words: asthma, immunological status, rhinitis

Ümumdünya səhiyyə təşkilatının (ÜST) hesablamalarına görə, hazırda təxminən 300 milyon insan bronxial astmadan (BA) əziyyət çəkir. Astma uşaqlarda ən çox rast gəlinən xroniki respirator xəstəliklərdən biridir [1,2].

BA tənəffüs orqanlarının xəstəliklərinin strukturunda aparıcı yer tutaraq pulmonologiyanın və allerqologiyanın mühüm patologiyalarından biridir. Son illər BA və AR ilə xəstələnmə on dəfələrlə artmışdır və onun ən yüksək səviyyəsi gənc yaşlara təsadüf edir (GINA2021) [3]. Dünyanın bir çox ölkələrində həyata keçirilən epidemioloji tədqiqatların məlumatlarına əsasən, bronxial astma xəstəliyinin yayılma səviyyəsi 1%-dən 18%-ə qədər təşkil edir, allergik rinitin yayılma səviyyəsi 10%-dən 25%-ə qədər dəyişir [4]. Hər il bütün dünyada allerqopatologiyaların artması qeydə alınır ki, onlar keçən əsrin sonunda dünyanın əksər ölkərinin əhalisini əhatə etmişlər və XXI əsrdə də getdikcə artma meylinə malikdirlər [4,5,6]. Yaşadığımız əsrin xüsusiyyətlərindən biri respirator yolun müştərək allergik patologiyası olan pasiyentlərin sayının artması sayılır , bu, ilk növbədə BA və AR xəstəliklərinə aiddir. Son proqnozlara əsasən Avropada AR-in hər il artım meylinin saxlandığı təqdirdə yaxın onillikdə AR olmayan 1 uşağa AR olan 3 uşaq düşə bilər [7]. AR- li xəstələr 19-38% hallarda BA-dan əziyyət çəkirlər, eyni zamanda astma olanların 80%-ə qədəri rinitlə xəstədirlər [8,9,10]. Buna görə də, iltihab mexanizmlərinin ümumi olmasına və ümumi genetik fona əsaslanaraq BA və AR vahid xəstəlik (one way, one disease, allergic rhinobronchitis) kimi nəzərdən keçirilir [11,12]. BA və AR xəstəliyinin diaqnostikası, müalicə və profilaktikası metodlarının meyarlarının hazırlanmasına dair vahid müasir yanaşmaların yaradılmasına baxmayaraq, uşaq yaşlarında AR-nin diaqnostikası çətindir.

Astma immunopatoloji prosesdir və immun sisteminin fəaliyyətinin pozulması ilə xarakterizə olunduğundan, bronxial astmalı və allergik rinitlə müşayiət olunan uşaqların immunoloji vəziyyətini qiymətləndirdik.Beləliklə, respirator allergiyanın inkişaf etməsinə gətirib çıxaran mexanizmlər axıradək öyrənilməmişdir və bu, respirator yolun zədələnməsinin səviyyəsindən asılı olaraq, patologiyanın şiddətlənməsinin markerlərinin aşkar edilməsi məqsədi ilə immunoloji göstəricilərin müqayisəli təhlilinin aparılması zərurətini yaradır [13,14,15].

Tədqiqatın məqsədi bronxial astma və allergik rinit olan uşaqlarda immunoloji parametlərin müqayisəli şəkildə öyrənilməkdən ibarət olmuşdur.

Tədqiqatın material və metodları. Elmi-tədqiqat işini Azərbaycan elm və texnologiyalar üzrə Milli Komitəsinin klinik və biotibbi etika üzrə ekspert şurasının razılığı ilə planlaşdırılmışdır və Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının klinik bazasında yerinə yetirilmişdir.

Müşahidəmiz altında orta ağır dərəcəli atopik bronxial astma olan və allergik rinitlə birgə sürən orta ağır dərəcəli bronxial astması olan 1 yaşdan 18 yaşa qədər 768 uşaq olmuşdur. AR və BA diaqnozu müvafiq təlimatlara əsaslanan diaqnostik meyarlardan (GINA, ARIA) istifadə edilməklə qoyulmuş, diaqnozun verifikasiyası Xəstəliklərin Beynəlxalq Təsnifatına (XBT-10) uyğun olaraq aparılmışdır. Pasiyentlər 2 qrupa bölünmüşdür:

Birinci qrupa orta ağır dərəcəli BA-nın kəskinləşmə dövründə olan uşaqlar (375 uşaq) daxil edilmişdir. İkinci qrupa persistensiya edən allergik rinit (PAR) ilə birlikdə sürən kəskinləşmə dövründə orta ağır dərəcəli BA olan uşaqlar (393 uşaq) daxil edilmişlər. Müayinə edilən uşaqlar arasında birinci qrupda 308 (82,1%) oğlan və 67 (17,9%) qız, ikinci qrupda - 356 (90,6%) oğlan və 37 (9,4%) qız müşahidə olunmuşlar.

Tədqiqatda monoklonal anticisimlərdən istifadə edilməklə axıcı sitofluometriya metodunun köməyi ilə T-limfositlərin subpopulyasiya spektrin (CD3+, CD4+, CD8+), CD4/CD8 və CD3/CD 16+56, B-limfositlərin (CD19+), NK hüceyrələrin təyin edilmişdir (Beckman Coulter, USA.) Həmçinin bərkfazalı immunferment müayinə metodu ilə «Vektor Best, Rusiya» ZAO test-sistemlərinin köməyi ilə E

immunqlobulinlərin konsentrasiyası öyrənilmişdir. Əldə olunmuş məlumatların statistik təhlili «STATISTIC 6.0» (Statsoft, USA) tətbiqi proqram paketinin köməyi ilə aparılmışdır, bu zaman aşağıdakı metodikalardan: qeyri-parametrik Manna-Uitni meyarından (-test), variasion statistika, Spirmen korrelyasiya təhlilindən istifadə edilmişdir. Təhlilin bütün növlərində müqayisə edilən göstəricilər arasındaki fərglər $p<0,05$ və daha aşagı olduqda statistik əhəmiyyətli qəbul edilmişdir.

Tədqiqatın nəticələri və onların müzakirəsi. Məlumdur ki, atopik bronxial astmanın inkişafının əsasını təcili tip allergik reaksiya təşkil edir. Öz növbəsində təcili tip reaksiya humoral immunitetin reaksiyasının bir çox xüsusiyyətləri ilə bağlıdır. Bizim tədqiqatda humoral immunitetin fəallığı periferik qanda E immunqlobulinin və CD19+ B-limfositin miqdarına əsasən qiymətləndirilmişdir (Cədvəl 1).

Cədvəl 1
BA olan uşaqlarda humoral immunitetin göstəricilərinin xarakteristikası

Göstərici	Norma	Bronxial astma		P_H
		M±m	Aşagı göstəriciləri olan xəstələrin sayı,%	
İgE	60-90BV\ml	651,7±66,3 [7,46; 2494](n=75)	81,3±4,5 (n=61)	<0,001
CD19+	6,4-22,6%	14,8±0,3 (n=147)	5,4±1,9(n=8)	<0,238

Cədvəl 2
BA və AR birgə sürən BA uşaqlarda humoral immunitetin göstəricilərinin xarakteristikası

Göstəricilər	Norma	BA-nin ağırlıq dərəcəsi			
		Orta-ağır BA xəstələr		Rinitlə birgə orta-ağır BA xəstələr	
		M±m	Aşagı göstəriciləri, say,%	M±m	Aşagı göstəriciləri, say,%
CD19+	6,4-22,6%	14,7±0,4 (n=69)	5,8±2,8%	14,5±0,5%(n=48)	4,2±2,9%
İgE	60-90BE\ml	489,9±113,3* BE\ml [7,46; 1450] (n=15)	80,0±10,3 BE\ml(n=12)	555,3±101,9* BE\ml [17,5; 2141] (n=31)	71,0±8,2 BE\ml (n=22)

Qeyd: * P_H <0,001

Hər iki qrupda olan xəstələrdə immunitetin humoral həlqəsinin öyrənilməsi göstərmişdir ki, hər iki qrupda CD19+ norma həddində olmuşdur (Cədvəl 2). Tədqiq olunan pasiyentlərdə ümumi IgE səviyyəsi də müəyyən edilmişdir. Onun tezliyinin təhlili zamanı 81,3±4,5% pasiyentdə IgE ümumi səviyyəsinin yüksəlməsi aşkar edilmişdir, onun normal miqdari yalnız BA olan 12 (4,4%) pasiyentdə qeydə alınmışdır. Ümumi IgE qiyməti norma ilə müqayisədə orta hesabla 651,7±66,3 BV/ml təşkil etmişdir ($p<0,001$). Əgər orta-ağır astma zamanı E immunqlobulinin səviyyəsi müvafiq olaraq 489,9±113,3 BV/ml təşkil etmişdirsə, onda rinitlə birgə sürən orta-ağır astma zamanı onun xeyli -555,3±101,9 BV/ml-ə qədər yüksəlməsi nəzərə çarpmışdır. Bu göstərcilərin hamısı statistik cəhətdən fəqlənmişlər (P_H<0,001). E hiperimmunoqlobulinemiya zamanı atopik astmanın inkişaf etməsi riski yüksəkdir və ŞN=53,0 (95% Eİ: 2,8-988,3; $p<0,05$) təşkil edir. Beləliklə, ümumi IgE-nin səviyyəsinin yüksəlməsi BA-nin öyrənilən fenotipinin patogenezində allergik reaksiyaların iştirak etməsini əks etdirir. E immunqlobulinin yüksək səviyyəsi bronxial astmanın komorbidliyindən birbaşa asılıdır.

Bronxial astma zamanı 60,3±4,3% hallarda yetkin T-hüceyrələrin (CD3) miqdarının 50,6±1,6%-a qədər azalması baş vermişdir (P_H<0,238). CD3 - T-limfositlərin subpopulyasiyalarının bütün hüceyrələri üçün spesifik olan səthi markerdir. Funksiaylarına görə o, T-hüceyrə reseptorları ilə bağlı olan siqnalın membranla ötürülməsi kompleksini formalaşdıran zülallar ailəsinə aiddir. BA olan uşaqların immunoloji müayinəsinin məlumatları 3 və 4 saylı cədvəldə təqdim edilmişdir.

Cədvəl 3
BA zamanı hüceyrə immunitetinin göstəricilərinin xarakteristikası

Limfositlərin subpopulyasiyalarının göstəricisi	Norma	Bronxial astma		P_H
		M±m	Aşagı göstəriciləri olan xəstələrin sayı,%	
CD3+,%	59,4-84,6	50,6±1,6 (n=131)	60,3±4,3 (n=79)	<0,238
CD4+,%	28,5-60,5	38,6±0,7 (n=75)	4,0±2,3 (n=3)	<0,343
CD8+,%	11,1-38,3	27,8±0,8 (n=59)	1,7±1,7 (n=1)	<0,476
CD4+ / CD8+	0,9-3,6	1,46±0,06 (n=56)	7,1±3,4 (n=4)	<0,461
CD16+ / CD56+,%	5,6-30,9	11,9±0,8 (n=56)	10,7±4,1 (n=6)	<0,506
NK,%	95,0-105,0	102,0±2,0 (n=56)	21,4±5,5 (n=12)	<0,476

P_H - Kraskel-Uolles meyarları

BA, yanaşı gedən AR ilə birgə sürən BA zamanı immunitetin hüceyrə həlqəsinin tədqiqi zamanı müqayisədə aşağıdakı məlumatlar əldə olunmuşdur. Müəyyən edilmişdir ki, hər iki qrupda CD3+hüceyrələrin nisbi sayı kontrol qrupa nisbətən azalmışdır. Qruplarda immunitetin hüceyrə həlqəsinin göstəricilərinin CD4+, CD8+, CD4+/CD8+, CD16+/CD56+, NK- ilə nisbətdə müqayisə edilməsi zamanı dürüst fərqlər aşkar edilməmişdir. Orta-ağır astma ilə 62,7±5,9% hallarda və yanaşı gedən AR ilə sürən astma zamanı 64,1±7,7% hallarda bu göstərici aşağı qiymətlərə malik olmuşdur - müvafiq olaraq 49,7±2,3% və 49,9±3,0% (P_F<0,0599; P_H<0,238). BA olan uşaqların 4,0±2,3%-də CD4+ klasteri referens məlumatların aşağı sərhəddində tərəddüd etmişdir - P_H<0,343. CD4+ klasteri miqdarı çox vaxt - 9,7±5,3% hallarda orta-ağır astma zamanı qeydə alınmışdır. CD4 + helper T-hüceyrələr üçün səciyyəvidir; həmçinin monositlərdə, makrofaqlarda, dendrit hüceyrələrində təmsil olunmuşdur. O, antigenprezentasiya edən hüceyrələrdə ekspressiya olunan II sinif MNS molekulları ilə birləşir və peptid antigenlərinin tanınmasını asanlaşdırır.

CD8+ supressor və ya sitotoksik T-hüceyrələr, NK-hüceyrələr, daha çox timositlər üçün səciyyəvidir. O, T-hüceyrə aktivasiyasının reseptoru olub, I sinif MHC (major histocompatibility complex – histouyğunluğun başlıca kompleksi) hüceyrə-birləşmiş antigenlərin tanınmasını asanlaşdırır. Aşkar edilmişdir ki, CD8+ hüceyrələrin orta qiyməti 27,8±0,8 % təşkil etmişdir (P_H<0,476), bu zaman BA olan pasiyentlərin yalnız 1,7±1,7%-də referens məlumatlarla müqayisədə qiymətlərin dəyişilməsi nəzərə çarpmışdır. BA-nin müxtəlif ağırlıq dərəcələrində CD8+ miqdarı tədqiq olunmuşdur, yalnız orta-ağır dərəcəli BA-nin 3,4±3,4% hallarda CD8+ subpopulyasiyalarının klaster göstəricisinin dəyişilməsi qeydə alınmışdır. Ağırlıq dərəcələrinin digər qrupları üzrə CD8+ qiymətləri arasında fərqlər aşkar edilməmişdir.BA zamanı CD4+/CD8+ hüceyrələrin faizlə nisbəti normativ qiymətlərin hüdudunda - orta hesabla 1,46±0,06 olmuşdur, yalnız 7,1±3,4% xəstələrdə cüzi dəyişikliklər nəzərə çarpmışdır. Orta-ağır və orta ağır dərəcəli astma rinitlə birgə sürən zamanı CD4+/CD8+ nisbətinin orta qiyməti 1,43±0,09 və 1,46±0,12 olmuş, lakin 7,4±5,0% orta-ağır astma zamanı CD4+/CD8+ antigen indeksinin dəyişilməsi müşahidə edilmişdir (P_F <0,785, P_H <0,461).

CD16+\CD56+ limfositlərin nisbi ortalama miqdarı 11,9±0,8 normal parametrlərdən fərqlənməmişdir (P_H <0,506). Bu zaman BA olan 10,7±4,1% uşaqda CD16+ / CD56+ hüceyrələr tərəfindən biristiqamətli dəyişikliklər baş vermişdir.

Atopik astma ilə xəstələrin qanında təbii killer hüceyrələrin miqdarının öyrənilməsi zamanı aktivləşmiş NK-hüceyrələrin orta sayı 102,0±2,0 təşkil etmişdir ki, bu da referens qiymətlər həddində olmuşdur. Təbii killerlər (NK-hüceyrələr) – sitokinlər və xemokinlər mənbəyi olan böyük qranulyar limfositlərin populyasiyası olub, immun sistemin digər hüceyrələrini stimulyasiya edir və immun cavabın inkişaf etməsinə təkan verir. Atopik astma ilə xəstələrin 21,4±5,5%-də bu hüceyrələrin qanda miqdarının kəskin artması müşahidə edilmişdir (P_H<0,476), onlardan 19,2±7,7% uşaqda orta-ağır, 20,0±10,3% - rinitlə birgə sürən orta-ağır dərəcəli astma qeydə alınmışdır (P_F <0,757, Pn <0,476).

Daha sonra diferensial-diaqnostik immunoloji meyarların göstəricilərinin təyin edilməsi məqsədi ilə ən mühüm göstəricilərin ROC-müayinəsi aparılmışdır. Testin klinik əhəmiyyətinin miqdar göstəricisinin müəyyən edilməsi üçün AUC (Area under Curve) göstəricisindən istifadə edilmişdir. Bu tədqiqatda IgE üçün AUC- ROC, yəni əyrinin altında olan sahə 0,744-ə bərabərdir ki, bu da həmin metodun yüksək diaqnostik effektivliyə malik olmasını göstərir – 74,4%. AUC- ROC 95% Eİ:0,62-0,85 olduqda 0,744±0,06 təşkil edir (p<0,002) Bu göstərici (ümumi JgE) istifadə edilmişdir, çünki onlar allergiyanın və atopiyanın olmasını əks


etdirən laborator meyar sayılırlar və BA və AR diaqnozunun qoyulması zamanı pediatrlar və allerqoloqlar tərəfindən istifadə edilirlər (Şəkil).

Cədvəl 4

BA və AR birgə sürən BA uşaqlarda hüceyrə immunitetinin göstəricilərinin xarakteristikası

Limfositlərin subpopulyasi yalarının göstəricisi	Norma	BA-nin ağırlıq dərəcəsi				P_F	P_H
		Orta-ağır		Allergik rinitlə olan orta-ağır		Sig.	
		M±m	Aşagı göstəriciləri, say,%	M±m	Aşagı göstəriciləri, say,%		
CD3+,%	59,4-84,6	49,7±2,3 (n=67)	62,7±5,9	49,9±3,0(n=39)	64,1±7,7	0,0599	0,238
CD4+,%	28,5-60,5	39,3±1,3(n=31)	9,7±5,3	38,9±0,9(n=24)	0,0±0,0	0,458	0,343
CD8+,%	11,1-38,3	28,0±1,2(n=29)	3,4±3,4	29,3±1,5(n=15)	0,0±0,0	0,422	0,476
CD4+/ CD8+	0,9-3,6	1,43±0,09(n=27)	7,4±5,0	1,46±0,1(n=15)	0,0±0,0	0,785	0,461
CD16+/CD56+,%	5,6-30,9	12,3±1,1(n=27)	11,1±6,0	11,8±1,9(n=15)	13,3±8,8	0,906	0,506
NK,%	95,0-105,0	101±0,8(n=26)	19,2±7,7	101,3±1,2(n=15)	20,0±10,3	0,757	0,476

Qeyd: P_H - Kraskel-Uolles meyarı$ P_F - Fişer meyarı



Şəkil. ROC –əyri IgE

Əyri altındakı sahə

Variabelliyin nəticəsi: IgE

Say	Std. Xətaa	Asimptotik Dürüstlük.b	Asimptotik 95% Güvən intervalı İnterval	
			Aşağı əlaqəli	Yuxarı əlaqəli
,744	,060	,002	,624	,859

Test nəticəsi dəyişən(ləri): IgE müsbət faktiki vəziyyət qrupu ilə mənfi faktiki vəziyyət qrupu arasında ən azı bir əlaqəyə malikdir.

Beləliklə, BA olan və yanaşı gedən AR ilə birgə sürən BA olan pasiyentlər üçün bizim təqdim etdiyimiz məlumatlar hüceyrə immunitetinin parametrlərinin konsentrasiyasının əhəmiyyətli dərəcədə dəyişiklərinə gətirib çıxarmır. İmmunitetin tədqiq olunan həlqələrini əsk etdirən bütün göstəriciləri praktik olaraq referens qiymətlər hüdudunda olmuşdur. Buradan belə söyləmək olar ki, astma T-limfositlərin müxtəlif subpopulyasiyalarının, o cümlədən qan hüceyrələrinin miqrasiyasını və orqanizmin zədələnmiş toxumalarına onların daxil olmasını tənzimləyən - funksional aktivliyinə birbaşa təsir göstərmir. Aşkar edilmişdir ki, BA və AR birgə təsadüf edilən pasiyentlərdə yalnız BA-dan əziyyət çəkən uşaqlarla müqayisədə allergik proses daha qabarıq nəzərə çarpır. Beləliklə, bu problemin öyrənilməsi tədqiq olunan problemin artıq erkən yaşlardan etibarən yeni həll yollarının səmərələşdirilməsi üçün vacib olub, allergik

rinit və bronxial astma ilə xəstə uşaqların təqibi taktikasına kompleks yanaşmanı, belə xəstələrin diaqnostikasını və müalicəsini nəzərdə tutur.

ƏDƏBİYYAT

1. Национальная программа «Бронхиальная астма у детей. Стратегия лечения и профилактика» / под ред. И. К. Волкова, Н. А. Геппе, Е.Г.Кондюриной. – 5-е изд. М., 201, 184 с.

2.Global Strategy for Asthma Management and Prevention / Global initiative for Asthma. – 130 p. – http://ginasthma.org / 2020-gina-report-global-strategy-for- asthma-management-and-prevention.

3.Global intiative for Asthma. Global Strategy for Asthma Management and Prevention (GINA), updated 2021.

4. Mallo J., Grane J., von Mutius E. et al The International Study of Asthma and Allergies in Childhood (ISAAC) Phase Three a global synthesis and the ISAAC Phase Three Study Group // Allergol.Immunopathol (Madr.), 2013, v.41, p.413-423.

5.Гуртова М.Н., Гребневая Н.Н., Проковьев Н.Я.Аллергический ринит и бронхиальная астма: частота встречаемости, причины возникновеняи, клиника и лечение (обзор иностранной литературы) // Молодой ученый, 2014, №2(61), с.318-326.

6.Новиков Д.К., Новикова В.И., Новиков П.Д.Оптимизация лечения аллергических ринитов у взрослых и детей интраназальным антигистаминным препаратом «Аллергодил» // Медицинские новости, 2013, №5, с.38-42.

7. Passalacqua G., Baiardini I., Senna G. et al. Adherence to pharmacological treatment and spesifik immunotherapy in allergic rhinitis // Clinical and Experimental Allergy, 2013, v.43, p.22-28.

8.Иванова Н.А. Коморбидность аллергического ринита и бронхиальной астмы у детей // Медицинский совет, 2014, №6, с.54-58.

9. Pawankar R., Canonica G.W., Holgate S.T. et al. World Allergy organization (WAO) White Book on Allergy. Update 2013, 239 p.

10.Ненашева Н.М. Бронхиальная астма и сопутствующие заболевания:в фокусе аллергичсекий ринит // Лечебное дело, 2014, №1, с.18-26.

11.Obimbo E.M., Levin M.E. Allergik rhinitis and astma-evidence for an association // Curr.Allergy Clin.Immunol., 2013, v.26,

12.Turner P.J., Kemp A.S. Allergik rhinitis in children // J.Pediatrics and Child health 2012, v.48, p.302-310.

13. Quezada-Perez E., Guedo-Bayardo L.R., Marin-Larrain P.P. et al. Astma in elderly: from basic immunology to the clinic // Rev Alerg MEX, 2013, v.l60(2), p.69-77.

14.Bush A. Pathophysiological mechanisms of asthma // Front pediatr., 2019, v.7, p.68

15. Kim Y.M., Kim Y.S., Jeon S.G. et al. Immunopatogenesis of allergic asthma: more than the Th2 hypothesis // Allergy Asthma Immunol Res., 2013, v.5(4), p.189-196.

Резюме

Аллерго-иммунологические показатели у детей с бронхиальной астмой и аллергическим ринитом

Т.Т. Панахова

Цель исследования - сравнить иммунологические показатели у детей с бронхиальной астмой и аллергическим ринитом. Научно-исследовательская работа планировалась с одобрения экспертного совета по клинической и биомедицинской этике Национального комитета по науке и технологиям Азербайджана и проводилась на клинической базе II кафедры детских болезней Азербайджанского медицинского университета. Под нашим наблюдением находилось 768 детей в возрасте от 1 года до 18 лет с атопической бронхиальной астмой средней степени тяжести и бронхиальной астмой средней степени тяжести в сочетании с аллергическим ринитом. Установлено, что у больных БА и АР аллергический процесс более выражен, чем у детей, страдающих только БА. Таким образом, изучение данной проблемы важно для рационализации новых решений изучаемой проблемы с раннего возраста, предполагает комплексный подход к тактике диспансерного наблюдения детей с аллергическим ринитом и бронхиальной астмой, диагностике и лечению таких пациенты.

Summary

Allergo-immunological indicators in children with bronchial asthma and allergic rhinitis

T.T. Panahova

The aim of the study was to compare immunological parameters in children with bronchial asthma and allergic rhinitis. The research work was planned with the approval of the Expert Council on Clinical and Biomedical Ethics of the National Committee for Science and Technology of Azerbaijan and was carried out at the clinical base of the II Department of Childhood Diseases of the Azerbaijan Medical University. Under our supervision there were 768 children aged from 1 to 18 years with atopic bronchial asthma of moderate severity and bronchial asthma of moderate severity in combination with allergic rhinitis. It was found that in patients with BA and AR, the allergic process is more pronounced than in children suffering only from BA. Thus, the study of this problem is important for the rationalization of new solutions to the problem under study from an early age, it involves an integrated approach to the tactics of dispensary observation of children with allergic rhinitis and bronchial asthma, the diagnosis and treatment of such patients.

Daxil olub: 13.07.2022

Böyük Qafqaz təbii bölgəsinin qərb ərazisində leyşmanioz xəstəliyinin yayılmasında mığmığıların rolu

N.C. Namazov, F.H. Hüseynova, E. Ə. Hacıbəyova Z.Z. Abseynova
V.Y.Axundov adına Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutu.

Açar sözlər: möğmığılar, leyşmanioz, Azərbaycan
Ключевые слова: phlebotomus, лейшманиоз, Азербайджан
Key words: mosquitoes, leishmaniasis, Azerbaijan

Mığmığlılar ən qədim zamanlardan mezozoy erasının təbaşir dövründə ali məməlilərinin meydana çıxması zamanı təkamül prossesində əmələ gəlib, bu günə kimi davam edir.

Ədəbiyyat məlumatına görə mığmığıların dünyada 700 növü məlumdur.

Maskitlərin ilk dəfə olaraq erkək fərdi 1692-ciildə Romanda Flippo Bonanni tərəfindən təyin edilmişdir. Phlebotomus papatasi növü 1786-ci ildə Skopolii tərəfindən məlumat verilməlidir.

İlk dəfə İspan həkimi Kosme Bueno nəsr etdirdiyi kitabında Peruda leyşmanioz və bartonellərin törədicilərinin keçirilməsi haqqında məlumatlar vermiş və qeyd etmişdir ki, yerli əhali bu xəstəliyin ilk başlanmasının kiçik həşaratların, insanların sancmasından sonra baş verməsinin qeyd etmişdir.

Dəri leyşmaniozu haqqında ilk məlumatı 1898-ci ildə P.F. Borovik 1900-1903-cü illərdə leyşmanioz və S.D. Donova Hindistanda visserial leyşmaniozun törədici mikrobun tapılmışlar. 1910-cu ildə visserial leyşmanioz E.İ.Morsinovski Belorusiyada qeyd etmişdir. 1921-ci ildə F.Donaten və P.Porro qardaşları öz ekcperimentlərində dəri və vissral leyşmaniozun əlamətlərini göstərmişdilər.

1908 – ci ildə S.Nikol 1927-1929-cu illərdə N.İ. Xodukin və M.S. Sofiyev visserial leyşmaniozun törədicisi mikroblarının əsas keçiricilərindən biri kimi çöl itlərin rolunu qeyd edir.

1956-ci ildə A.Y.Nəcəfov tərəfindən *Ph.papatsi, Ph.sergenti, Ph.caucasius, Ph.tobbi, Ph.transcancasicus* və başqaları növlərin mövcudluğu haqqında məlumat verilmişdir.

Dəri leyşmaniozun keçiriciləri *Ph.sergenti, Ph.transcancasicus, Ph.papatasi* mığmığılardır. Dəri leyşmaniozun öyrənən alimlərdə P.P.Popov, İ.M.İsmayılzadə, A.İ.Kuryakina, A.T.Sadıxov, X.Cəfərov, K.M.Hüseynzadə, Ə.Y.Nəcəfov, N.Kolesnikov başqalarını göstərmək olar.

Visseral leyşmaniozun keçiriciləri: *Ph.kandelaki, Ph.transcaucasius, Ph.tobbi, Ph.brevis, Ph.alexandrov* göstərmək olar. Visseral leyşmaniozun öyrənilməsində Z.A.Hüseynbəyov, M.A.Boqoyavlenski, A.Eldarov, A.T.Sadıxov, P.P.Popov, C.U.Əliyeva, L.R.Axundov, İ.Q.Məmmədov, M.M.Nəzirov, Ə.Y.Nəcəfov, E.Ə.Hacıbəyova, A.Z.Fərəməzov və başqalarının xüsusi əməyi olmuşdur.

Leyşmanioz transmissiv parazitar xəstəliklər qrupuna daxildir. Leyşmanioz xəstəliyinin 2 növ forması mövcuddur.

1. Visseral leyşmanioz və Kala-Azar daxili orqanların zədələnməsi, xəstəliyin daha ağır formalaşır.
2. Dəri leyşmaniozu dərinin selikli qişasının zədələnməsi, xəstəliyin müalicəyə meyillik müşahidə edilir.

UST-nin proqramında yoluxucu xəstəliklərin içndə leyşmanioz xüsusi yer tutur. O cümlədən 98 ölkənin 350 milyon əhalisi leyşmanioz xəstəliyi təhlükəsi altında olmaqla, hər il 0,3 milyon əhali bu xəstəliktən dünyasını dəyişir. Ədəbiyyat məlumatına görə dünyada mığmığıların 700 növü məlumdur. Bunlardan 16 növü Azərbaycanda yayılmışdır.

Zaqatala və Şəki rayonunun ərazisi Böyük Qafqazın qərb ərazisində yerləşir. Rayonun relyefi düzənlik və dağlıq hissədən ibarət olub, meşə ilə əhatə olunmuşdur. Əhalinin məşquliyyəti əkinçilik, bağ, bostan və maldarlıqdan ibarətdir.

İqlim faktoru: yayı isti, qışı isə soyuq keçir. Dağ ətəyi rayonların iqlimi subtropik iqlimə uyğundur. Yayda havanın orta temperaturu 27°C, Qışı isə 0, -7° təşgil edir.

Ərazisində yoluxucu xəstəliklərin yayılmasında mığmığılar xüsusi yer tutur. Rayon ərazisində növ tərkibinə görə az olmasına baxmayaraq leyşmanioz xəstəliyi geniş yayılmışdır.

Mığmığılar kiçik həşarat olduğuna baxmayaraq qan sormada fəaldırlar. Onlar gün batandan gün çıxana qədər insan və heyvanlara hücum edir. İnsan sancıqdan sonra dəhşətli qaşınma baş verir. Bununda səbəbi tüpürcəyin tərkibndə toksin maddələrin çox olmasıdır.

Hazırda Azərbaycanın 32 rayonunda leyşmanioz xəstəliyini yayılması qeydə alınmışdır. Zaqatala və Şəki rayonları Böyük Qafqaz Coğrafi bölgəsinn cənub istiqaməində yerləşməklə və turist axınını nəzərə alaraq leyşmanoz törədicilərinin yəni mığmığıların faunasının öyrənilməsi məsləət görülür.

Tədqiqatın material və metodlar. Tədqiqatların aparılması ÜST-ün metodları əsasında aparılmışdır. Kənd və qəsəbədə təsqiqat apaarmaq üçün əhali yaşayan və heyvan saxlanılan yerlərdə iş aparıır. Sorğu zamanı qəsəbənin ətrafında çaqqal, canavar,tülkü və sahibsiz itlər olan ərazilər nəzərdə tutulur. Material toplamaq üçün toyuq hini, mal saxlanan tövlələr, zirzəmilərdə təcrübə qoyulur və mığmığıların toplanması yerinə yetirilir. Mığmığıların tutulması üçün 20x30 cm ölçüdə yarım perqament kağızı götürülür və hər iki üzü gənəgərçək yağı ilə yağlanır və iplərdən asılır. Həmin kağızlar obyektin girəcəyindən asılır. 10-15 saatdan sonra götürülür. Kağızlar gün batandan sonra asılır və səhər tezdən yığılır. Perqament kağızının üstünə düşmüş mığmığılar 95° spirt olan müxbər şüşəsinə yığılır. Ağ kağıza ayın tarixini, yerin adını qeyd edib şüşəyə qoyulur. Bir neçə müxbər şüşəsinə yığılmış materiallar yenidən 95° spit olan şüşəyə qoyulur və təyin olunmuş laboratoriyaya gətirilir. Laboratoriyada 5%-li KOH məhlulundan istifadə etmək üçün mikroskop altında növ təyin edilir.

Tədqiqat zamanı toplanan mığmığıların vəziyyəti aşağıdakı cədvəldə göstərilir.

Cədvəl
Zaqatala və Şəki rayonları ərazisində mığmığıların növ tərkibi

Rayonlar	Qəsəbələr	Vərəqlərin sayı	Toplanmış mığmığıların sayı	Orta Hesabla sıxlığı	Növlərin adları
Zaqatala	Çobangöl	15	28	11,2	Ph sergenti Ph candelaki Ph tobbi
	Car	13	37	15,2	Ph candelaki Ph papatasi Ph sergenti
	Yuxarı tala	9	38	15,9	Ph sergenti
	Danaçı	17	20	20,5	Ph sergenti Ph tobbi
	Lahıc	10	36	21,5	Ph candelaki Ph tobbi
	Cəmi:	39	132	16,6	
Şəki	Incə	8	29	4,4	Ph sergenti Ph troniz Ph tobbi Ph candelaki Ph brevis
	Zunud	23	29	1,3	Ph sergenti Ph tobbi Ph candelaki
	Aşağı göynük	11	33	3,0	Ph sergenti Ph tronis Ph candelaki Ph brevis
	Qoxmuq	17	198	11,6	Ph sergenti Ph tronis Ph brevis Ph candelaki
	Cəmi:	59	295	15,9	

Cədvəldən aydın olur ki, Şəki və Zaqatala ərazisində mığmığıların sayı coxluq təşkil edir.

Bunlardan: *Ph.papatasi, Ph.sergenti, Ph.monqolensis, Ph. Transcancasicus, Ph.tobbi, Ph.kandelakii, Ph.chinensis, və Ph.wenyoh* növləridir. Göstərilən ərazilərdə *Ph.sergenti, Ph.transcancasicus, Ph.candolaki* növləri dominantlıq təşkil edir.

Aparılan tədqiqatlar göstərir ki, respublikanın rayonlarında o cümlədən Şəki-Zaqatala zonasında visseral leyşmanioza görə epidemioloji gərginlik daha da öz aktuallığı saxlayır. Bu da xəstəliyi sayının ümumi artımına gətirib çxarır.

Leyşmaniozlar üzrə epidemioloji müşahidələrin düzgün aparılması sereloji müayinələrin tam yerinə yetirilməsi xüsusi əhəmiyyət təşqil edir. Ərazidə leymaniozun infeksiya mənbəyi olan onun yayılmasında mühüm rol oynayan işlərin, xüsusuilədə sahibsiz itlər, vəhşi heyvanlar, caqqal, canavar və s.qarşısı dərhal alınmalıdır.

Tədqiqat zamanı müayinə edilmiş kənd və qəsəbə sakinləri ilə aparılan *** işləri zamanı aydın oldu ki, axşamlar tülkü, canavar, caqqal və s toyuq himlərində *** hücum edirlər. Buda göstərilən ərazidə epidemioloji gərginliyin yuksəlməsinə mani olur.

Nətıcə:

1. Şəki-Zaqatala zonasında Ph.sergenti, Ph. Transcancasicus, Ph.kandelakii, dominant növlər sayılır.
2. Mığmığılar sığınacaq yerləri toyuq hini, mal-qara saxlanılan tövlə, zirzəmi və s. aşkar olunmuşdur.
3. Obyektiv sorğu zamanı *** xəstəliyin keçirilməsində sahibsiz itlər, caqqal, tülkü, canavar və s. canlılar.

Əməli təkliflər: Hıyatyani sahələrin, zibil qutularının təmiz saxlamaq məsləhətdir.

Yaşayış evlərinin ətrafında, zibil qutuları olan yerlərdə torpaq olmamalıdır.

Mal-qara saxlanan tövlələr, toyuq hini gündəlik təmizlənir lazım gələrsə dezinseksiya edilir maddələrləişlənməlidir.

Insanlar mığmığalardan qırmaq üçün bütün saxlamaq məsləhət görülmür.

Evlərin tikililərin divarlarında boşluq olmamalıdır. Təmiz suvaq çəkilməlidir. Təzə tikililərin həm içi həmdə çölü tam örtülməli və dezinseksiya edici maddələrə işlənməlidir.

Dezinseksiya tədbirlərin quru havada aparılmalıdır. Yaşayış yerlərinə yaxın olan ərazilərdə bütün olarsa anlarla dezinseksiya edilməlidir. Yapışqanlı yerlərin yaxın olan ərazilərdə bütün olarsa onlarda dezinseksiya edilməlidir. Yapışqanlı kağızlardan istifadə edərkən onları qapıların girəcəyinə, evlərin küncünə qoyulmalıdır. Pambıq və pambıq parçalardan az miqdarda solyar yağına batırıb, yandırıb tüstü vermək lazımdır. Malın quru təzəyindən mal saxlanma yerlərdə onun tüstüsündən də istifadə etmək olar.

ƏDƏBİYYAT

1. Труды Азербайджанского института микробтологии и гигиены им. Г.М.Мусабекова, вып.I, Баку, 1925, 171 с.
2. Архив Азербайджанского института микробтологии и гигиены им. Г.М.Мусабекова, Баку, 1929, том I, N 1-2, 159 с
3. Труды Азербайджанского института микробтологии и эпидемиологии им. Г.М.Мусабекова, вып.I, том 5, Баку, 1935, 297 с.
4. Труды Азербайджанского института пидемиологии и микробтологии вып.II, том 6, Баку, 1940, 166 с.
5. Сборник рефератов и отдельных работ по эпидемиологии, микробиологии и гигиены, Баку, 1956, 236 с
6. Труды Азербайджанского института эпидемиологии, микробтологии и гигиены , Баку, 1957, 453 с.
7. Сборник материалов по медико-географическому изучению инфекционных заболеваний в Азербайджанской ССР, Баку, 1966, 263 с
8. Материалы симпозиума по проблеме: Охрана труда и здоровья сельского населения, Баку, 1977, 161 с
9. Труды I Всесоюзной конференции «Научные основы гигиеным села», Баку, 1979
10. Материалы конференции «Гигиенические аспекты окружающей среды», Баку, 1981, 170 с
11. Труды IV съезда гигиенистов и санитарных врачей Азербайджана, Баку, 1981
12. Материалы конференции «Научные основы гигиены окружающей среды и инфекционной патологии», Баку, 1987, 203 с
13. Сборник материалов конференции «Исследования по гельминтологии в Азербайджане» Баку, 1990
14. Сборник материалов конференции «Патологические процессы и методы их коррекции», Баку, 1998

15. “XXI əsrdə klinik mikrobiologiyanın aktual problemləri” mövzusunda respublika elmi-praktik konfransın məcmuəsi, Bakı, 2001, 170 s.

Резюме

Роль мошков в распространении лейшманиоза на западной территории Большого Кавказа

Н.Дж. Намазов, Ф.Х. Гусейнова, Э.А. Гаджибекова З.З. Абсейнова

Несмотря на то, что мошки мелкие насекомые, они активно сосут кровь. Они нападают на людей и животных от заката до восхода солнца. Ужасный зуд возникает после укуса человека. Причина этого в том, что в слюне мошков находится много токсинов. В настоящее время распространение лейшманиоза зарегистрировано в 32 районах Азербайджана. Загатальский и Шекинский районы расположены в южной части Главного Кавказского географического района и с учетом потока туристов рекомендуется изучение фауны возбудителей лейшманиоза, т.е. комаров. Исследования проводились по методике ВОЗ. Для проведения следственных действий в селах и поселках он проводит работы в местах проживания людей и содержания животных. При обследовании учитываются участки обитания шакалов, волков, лисиц и бродячих собак вокруг населенного пункта. С целью сбора материала обследуют курятники, хлева, подвалы, проводят сбор соплей. Ph. sergenti в Шеки-Загатальской зоне, Ph. Transcancasicus, Ph. kandelakii, считаются доминирующими видами. Приюты комаров – это курятники, хлева для скота, погреба и т.д. был открыт. При объективном обследовании бродячие собаки, шакалы, лисы, волки и др. живые существа.

Summary

The role of midges in the spread of leishmaniasis in the western territory of the Greater Caucasus

N.J. Namazov, F.Kh. Huseynova, E.A. Gadzhibekova Z.Z. Abseinova

Despite the fact that midges are small insects, they actively suck blood. They attack people and animals from sunset to sunrise. Terrible itching occurs after a human bite. The reason for this is that there are a lot of toxins in the saliva of midges. At present, the spread of leishmaniasis has been registered in 32 regions of Azerbaijan. Zagatala and Sheki regions are located in the southern part of the Main Caucasian geographical region and, taking into account the flow of tourists, it is recommended to study the fauna of leishmaniasis pathogens, i.e. mosquitoes. The studies were carried out according to the WHO methodology. To conduct investigative actions in villages and towns, he conducts work in places where people live and animals are kept. The survey takes into account the habitats of jackals, wolves, foxes and stray dogs around the settlement. In order to collect material, chicken coops, barns, basements are examined, and snot is collected. Ph. sergenti in the Sheki-Zagatala zone, Ph. Transcancasicus, Ph. kandelakii are considered the dominant species. Mosquito shelters are chicken coops, cattle sheds, cellars, etc. was opened. An objective examination of stray dogs, jackals, foxes, wolves and other living creatures.

Daxil olub: 02.08.2022

Perinatal asfiksiya keçirmiş vaxtından əvvəl doğulanlarda bağırsaqların işemik zədələnmələri zaman lipidlərin peroksidləşməsi və antioksidant sisteminin vəziyyətinin qiymətləndirilməsi

A.S.Hacıyeva, G.M.Həsənquliyeva
K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutu, Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: perinatal asfiksiya, oksidativ stres, vaxtından əvvəl doğulan uşaqlar, β-defensin
Ключевые слова: перинатальная асфиксия, окислительный стресс, недоношенные дети, β-дефенсин-2
Key words: perinatal asphyxia, oxidative stress, premature infants, β-defensin-2

Perinatal asfiksiya keçirmiş vaxtından əvvəl doğulanlarda Mərkəzi sinir sistemi (MSS) ilə yanaşı digər üzv və sistemlər də patoloji prosesə cəlb olunur. Bu baxımdan bağırsaqların işemik zədələnməsi az kütləli uşaqların həyatı üçün çox təhlükəli olur. Bağırsaq funksiyasının pozulmasının əsasını damar pozğunluğu təşkil edir ki, nəticədə bağırsaqların motor, baryer funksiyası, mikrobların bağırsaqlarda lokalizasiyası pozulur və toksik maddələr qana daxil olur. Müəyyən olunmuşdur ki, hətta qısa müddətli hipoksiya bağırsaqların baryer funksiyasının pozulmasın səbəb olur. Son zamanlar müxtəlif faktorlar, o cümlədən, hipoksiya nəticəsində intensivləşən sərbəst radikallı oksidləşməyə patoloji proseslərin formalaşmasının vacib mexanizmi kimi baxılır. Sərbəst radikallı reaksiyalar üçün əsas substrat doymamış yağ turşularından ibarət lipidlər, aşağı və çox aşağı sıxlıqlı lipoproteid komponentli lipidlərdir [1,2].

Bağırsaqların hipoksik zədələnmələri nəticəsində hüceyrə membranının lipid tərkibi yeniləşir və lipidlərin peroksid oksidləşməsi baş verir. Lipidlərin peroksidləşməsinin (LPO) intensivləşməsi, bir qayda olaraq, çoxsaylı metabolik pozğunluqlarla müşahidə olunur; hüceyrədə lizosomal və mitoxondrial membranların keçiriciliyinin pozulması və destruksiyası oksidləşdirici, proteolitik və s. fermentlərin toxumadan qana keçməsinə və nəticədə enerji çatışmazlığına səbəb olur. Klinik olaraq bu proseslər müxtəlif orqanların, o cümlədən MSS-nin funksiya pozulmaları ilə müşahidə olunur [3].

LPO-nun son məhsullarından biri olan malondialdehid (MDA) yüksək bioloji aktivliyinə görə xüsusi maraq doğurur. MDA-nın səviyyəsinin təyini bir sıra patoloji proseslərdə, o cümlədən bağırsaqların hipoksik zədələnmələri zamanı LPO-nun fəallıq vəziyyəti haqqında dürüst təsəvvür yaradır [4].

Sərbəst radikallı oksidləşmə prosesinin gedişi, LPO-nun toksiki məhsullarının çökməsi əsasən orqanizmin antioksidant müdafiə sisteminin vəziyyətindən asılıdır; sonuncu qlutation peroksidaza, katalaza, superoksiddismutaza fermentlərinin fəallığı miqdarı ilə müəyyən olunur. LPO nəticəsində yaranan toksiki məhsulların zərərsizləşdirilməsinin inteqral göstəricisi qanın ümumi antioksidant fəallığı (AOF) hesab edilir [5,6].

Bağırsaq selikli qişasının işemik zədələnməsi anadangəlmə immunitetin induksiyasına və antimikrob peptidlərin stimulyasiyasına səbəb olur [7,8]. Bağırsaqların işemik zədələnmələrinin erkən diaqnostik markeri kimi fekal β-defensin-2-nin dinamikada təyini bağırsaq selikli qişasında lokal nekrotik prosesin inkişafını başlanğıc mərhələdə təyin etməyə imkan verər, hansı ki, rentgenoloji müayinədə müəyyən etmək olmur. Bağırsaqların anadangəlmə immun sistemində baş verən dəyişikliklərin aşkar olunan yenidoğulanlarda LPO və AOF-in öyrənilməsi xüsusi maraq doğurur [9,10].

Tədqiqatın məqsədi perinatal asfiksiya keçirmiş, bağırsaqların işemik zədələnmələri aşkar olunan vaxtından əvvəl doğulanlarda lipidlərin peroksidləşməsi və antioksidant sisteminin səviyyəsini müəyyən etməkdən ibarətdir.

Tədqiqatım material və metodları. Tədqiqata perinatal asfiksiya keçirmiş, erkən neonatal dövrdə reanimasiya və intensiv terapiya şöbəsinə daxil olmuş 98 vaxtından əvvəl doğulan uşaq cəlb edilmişdir. Nəzarət qrupuna fizioloji doğuşdan olan 14 vaxtından əvvəl doğulan uşaq aid edilmişdir. Sağlam yenidoğulanlarda (nəzarət qrupu) klinik adaptasiya qənaətbəxş olmuşdur. Belə ki, ilkin bədən kütləsinin itirilməsi 4-10% arasında olmuş və 7-12-ci gün bərpa olmuş, göbək ciyəsi qalığı 3-5-ci gün düşmüşdür, fizioloji sarılıq 6 (23%) uşaqda qeyd edilmiş, tənəffüs, ürək-damar, sinir sisteminin adaptasiyasında qabarıq kənaracıxmalar qeyd edilməmişdir. Bütün qeyd olunanlar bu yenidoğulmuşların sağlam uşaq və nəzarət qrupu kimi götürməyi şərtləndirmişdir.

İstisana meyarlarına daxil olmuşdur; 2500 q-dan çox kütlə, 36 həftədən çox hestasiya yaşı, nekrotik enterokolit III, IV dərəcə.

Müayinə uşağın 5-7, 10-14 və 24-28-ci günləri aparılmışdır. Müayinə üşün nəcis immunferment analizi vasitəsilə β-defensin-2 xüsusi (ELİSA Kit İmmundiaqnostik, Bensheim,Germany) dəst ilə aparılmışdır. Nəticə miqdarı nq/q-la hesablanmışdır.

Lipidləin peroksidləşməsinin fəallığını qiymətləndirmək üçün immunferment müayinə üsulu ilə lipidlərin peroksidasiyanın son məhsulu kimi qan zərdabında malondealdehid (MDA), katalaza, qlutation-peroksidaza (QPO) və antioksidant fəallığı (AOF) təyin edilmişdir.

Statistik analiz qeyri-parametrik üsullardan (Manna-Uitni, Vilkokson testləri, Spirmen korrelyasiyası) istifadə etməklə aparılmışdır.

Tədqiqatın nəticələri və onların müzakirəsi. Müəyyən edilmişdir ki, əsas və müqayisə qrup yenidoğulanların hestasiya yaşı, bədən kütləsi, Apkar şkalası ilə 1-ci və 5-ci dəqiqələrdə vəziyyəti bir-birindən dürüst fərqlənmir (p>0,01). Lakin əsas qrup yenidoğulanlarda MSS-nin ağır dərəcəli zədələnmələri ilə yanaşı intestinal distress əlamətləri daha qabarıq təzahür etmişdir.

Belə ki, onlarda ağciyərlərin süni ventilyasiyası müqayisə qrup yenidoğulanlardan xeyli uzun çəkmişdir - 10 (5-14) və 5 (2-9) gün müvafiq olaraq (p<0,01). Həmçinin əsas qrup yenidoğulanlarda inotrop terapiyanın (dopamin) müddəti müqayisə qrupu yenidoğulanlardan dürüst çox olmuşdur – 6 (3-10) və 3 (2-7) gün (p<0,01). Tam parenteral qidalanma əsas qrup yenidoğulanlarda 4 (2-9) gün, müqayisə qrupu yenidoğulanlarda 2 (1-4) gün (p<0,01) davam etmişdir. Enteral qidalanmaya keçid əsas qrup yenidoğulanlarda 20 (12-25) gün, müqayisə qrupu yenidoğulanlarda 12 (8-16) gün (p<0,01) olmuşdur. Qeyd olunanlarla yanaşı əsas qrup yenidoğulanlarda bədən kütləsi artımı neonatal dövrün sonu (27-28-ci gün) 210 (120-280)q, müqayisə qrupu yenidoğulanlarda 300 (220-420) q olmuşdur (p<0,01).

Əsas qrupa daxil olan yenidoğulanlarda MSS-nin hipoksik zədələnmələri ilə yanaşı intestinal distres sindromu da inkişaf etmişdir. Bu qrupa daxil olan az kütləli uşaqlarda apnoe tutmaları, qarnında köp olması, mədədə qıdanın qalması, qusma halları, süstlük sindromu müşahidə edilmişdir. Müayinəyə cəlb olunmuş bu qruplarda intestinal distresin inkişaf etmə ehtimalı öyrənilmişdir.

Bu məqsədlə qeyri-invaziv üsulla nəcisdə β-defensin-2 dinamikada təyin olunması ilə, bağırsaqların işemik zədələnmələrinin erkən mərhələdə diaqnozu qoyulmuşdur. Vaxtından əvvəl doğulan uşaqlarda fekal β-defensinin səviyyəsi neonatal dövrün dinamikasında müəyyən edilmişdir (Cədvəl 1).

Cədvəl 1
Vaxtından əvvəl doğulan uşaqlarda neonatal dövrün dinamikasında β-defensinin səviyyəsi

Qruplar	Göstəricilər				
	Hestayisa yası, həftə	Çəkisi, q	β-defensin, nq/q		
			5-7 gün	10-14 gün	24-28 gün
Nəzarət qrupu (n=14)	32,7±1,1 (29-37)	2071,4±83,7 (1800-2400)	40,4±4,8 (16,2-54,4)	39,1±4,6 (16,1-51,9)	28,2±3,1 (15,6-39,2)^
Tək struktur patologiyası olanlar (müqayisə qrupu) (n=40)	36,7±0,5 (33-38)	2850,0±142,1 (1800-3900)	100,4±18,9 (27,6-246,2)*	80,7±12,0 (29,2-173,7)*	60,7±9,6 (26,3-155,2)^*
Struktur patologiyası + bağırsaq disfunksiyası olanlar (n=58) (əsas qrup)	34,5±0,8 (30-38)	2370,0±188,0 (1300-3200)	129,7±21,6 (54,7-257,5)**	116,2±18,1 (46,9-206,9)**	96,4±16,5 (26,3-188,9)**

Qeyd: göstəricilər arasında fərqin statistik dürüstlüyü: 1.Müalicədən əvvəlki göstəricilər ilə: ^ - p_0< 0,05; ^^ - p_0<0,01; ^^^ - p_0<0,001: 2.Nəzarət qrupunun göstəriciləri ilə: * - p_1<0,05; ** - p_1<0,01; *** - p_1<0,001; 3.Tək struktur patologiyası olan qrupunun göstəriciləri ilə: & - p_2<0,05; && - p_2<0,01; &&& - p_2< ,001.

İntestinal distres sindromu olan yenidoğulanlarda HBD-2-nin səviyyəsi dinamikada tədqiq edilmişdir. Müəyyən edilmişdir ki, vaxtından əvvəl doğulan uşaqlarda HBD-2-nin konsentrasiyası neonatal dövrün dinamikasında [1, 7, 15, 30-cu gün] müqayisə və nəzarət qrupun göstəricilərindən dürüst yüksək olmuş, daha qabarıq fərq 3-cü gün qeyd edilmişdir. MSS-nin zədələnməsi fonunda inkişaf etmiş intestinal distress sindromu olan yenidoğulanlarda HBD-2-nin konsentrasiyası nəzarət qrupundan 3 dəfə cox olmuşdur.

Aparılan tədqiqat nəticəsində müəyyən edilmişdir ki, HBD-2-nin konsentrasiyası vaxtından əvvəl doğulan uşaqlarda 5-7-ci gün 246,2-257,5nq/q, 14-15-ci günlər- 173,7-206,9nq/q, 24-28-ci gün 155,2-

167,4nq/q arasında tərəddüd etməsi bağırsaqların işemik zədələnmələrinin inkişaf etməsini göstərir ki, da vaxtından əvvəl doğulan uşaqlarda nekrotik enterekolitin inkişaf inkişaf riskini artırır. MSS-nın hipoksik zədələnmələri ilə yanaşı bağırsaqların işemik zədələnmələrinin inkişaf etməş yenidoğulanlarda LPO göstəriciləri (MDA, Katalaza, QPO) və AOF-in səviyyəsi neonatal dövrün dinamiksında tədqiq olunmuş, alınan nəticələr cədvəl 2-də verilmişdir.

Cədvəl 2
Perinatal asfiksiya keçirmiş və bağırsaqların işemik zədələnmələri aşkar olunan yenidoğulanlarda LPO-nın və AOF-ın dinamikası

Həyatın günləri	Göstəricilər	Qruplar		
		MSS zədələnməsi + bağırsaq disfunksiyası aşkar olanlar (n=58) (əsas qrup)	MSS-nın zədələnməsi aşkar olanlar (müqayisə qrupu) (n=40)	Nəzarət
5-7-ci gün	MDA mkmol/l	11,8±0,79 *** ^^^	6,17±0,74 ***	2,34±0,03
	Katalaza mkmol/l	10,6±0,63 *** ^	8,64±0,52 ***	2,12±0,02
	QPO, mkmol/l	319,0±7,0 *** ^^^	252,0±9,1 ***	148,0±6,1
	AOF, %	2,34±0,16 *** ^^^	4,21±0,24 ***	9,24±0,35
10-14-cü gün	MDA, mkmol/l	10,4±0,21 *** ^^^	5,81±0,61 ***	2,28±0,03
	Katalaza, mkmol/l	8,8±0,62 ***	8,01±0,42 ***	2,10±0,02
	QPO, mkmol/l	284,8±7,4 *** ^^^	206,4±8,8 ***	136,5±6,5
	AOF, %	3,61±0,18 *** ^^^	6,24±0,29 ***	9,42±0,41
24-28-ci gün	MDA, mkmol/l	6,19±0,16 *** ^^^	4,09±0,45 **	2,25±0,03
	Katalari, mkmol/l	7,2±0,35 *** ^^	5,02±0,52 ***	2,08±0,02
	QPO, mkmol/l	276,7±7,6 *** ^^^	179,0±8,1 ***	138,0±6,2
	AOF,%	4,18±0,22 *** ^^^	7,64±0,31 ***	9,66±0,34

Qeyd: Fərqin statistik dürüstlüyü: 1.nəzarət qrupunun göstəriciləri ilə * –$p < 0,05$;** –$p < 0,01$; *** –$p < 0,001$; 2.müqayisə qrupunun göstəriciləri ilə ^ –$p_1 < 0,05$;^^ –$p_1 < 0,01$; ^^^ – $p_1 < 0,001$

Cədvəl 2-dən göründüyü kimi, perinatal asfiksiya keçirmiş və bağırsaqların işemik zədələnmələri aşkar olunan yenidoğulanlarda LPO və AOF-nin səviyyəsi neonatal dövrün dinamikasında müqayisə və nəzarət qrupu yenidoğulanlarla müxtəlif istiqamətli dəyişikliklərə məruz qalmışdır. Bu dəyişikliklər əsas qrup yenidoğulanlarda müqayisə qrupu yenidoğulanlardan daha qabarıq olmuşdur; 5-7-ci gün MDA, katalaza, QPO-nun səviyyəsi nəzarət və müqayisə qrupundan dürüst yüksək ($p<0,01$), AOF-in səviyyəsi isə nəzarət qrupundan dürüst aşağı ($p<0,01$) olmuşdur.

Uşağın həyatının sonrakı günləri (10-14, 24-28-ci gün) əsas qrup yenidoğulanlarda LPO göstəricilərinin səviyyəsində 5-7-ci günlə müqayisədə azalma, AOF-in səviyyəsində artma müşahidə edilsə də, bu göstəricilər nəzarət qrupundan dürüst fərqlənmişdir ($p<0,01$).

Müqayisə qrupu (2-ci qrup) yenidoğulanlarda peroksidləşmə və antioksidant sisteminin göstəricilərinin stabilləşməsi 2-ci həftədən başlayaraq müşahidə edilsə də, tam stabilləşmə neonatal dövrün sonuna kimi (24-28-ci gün) davam etmişdir; bu göstəricilər - MDA, katalaza, QPO və AOF sağlam uşaqların eyniadlı göstəricilərindən dürüst fərqlənməmişdir ($p>0,01$).

LPO və AOF-in səviyyəsində müşahidə edilən dəyişikliklərin fərdi təhlili zamanı həm əsas, həm də müqayisə qrupuna daxil olan vaxtından əvvəl dağulanlarda onların səviyyəsi nəzarət qrupundan xeyli fərqli (yüksək və ya aşağı) olması ilə müşahidə edilmişdir ki, bu da tərəddüd hüdudunun geniş olması şəklində özünü göstərmişdir.

Tədqiqatın növbəti mərhələsində müayinə olunmuş yenidoğulanlarda bağırsaqların anadangəlmə immun sistemində baş verən dəyişikliklər ilə lipidlərin peroksid oksidləşməsi və antoksidant müdafiənin göstəriciləri arasında mövcud olan korrelyasiya əlaqələri təhlil edilmişdir. Müəyyən edilmişdir ki, uşağın erkən neonatal dövrdə HBD-2-nin konsentrasiyası nə qədər yüksəkdirsə, AOF-in səviyyəsi neonatal dövrün dinamikasında o qədər aşağı, MDA-nı səviyyəsi isə o qədər yuxarı olur. Uşağın həyatının 5-7-ci günü AOF ilə ağciyərin süni ventilyasiyasının müddəti ($r=-0,59$; $p<0,01$), MDA ilə orta AT səviyyəsi və inotrop müalicə ($r=0,62$; $p<0,01$, $r=0,51$; $p<0,01$ müvafiq olaraq) katalaza ilə oksigenoterapiya ($r=0,64$; $p<0,01$),

QPO ilə tam enteral qidalanmaya keçmə vaxtı (r=0,52; p<0,05) arasında statistik dürüst korrelyasiya əlaqələri müəyyən edilmişdir. Həmçinin MDA ilə AOF arasında dürüst əks korrelyasiya əlaqəsi (r=-0,791; p<0,01) aşkar edilmişdir. Qeyd olunanları ağır perinatal asfiksiya keçirmiş yenidoğulanlarda bağırsaqların işemik zədələnmələrinin klinik-parametrik meyarları hesab etmək olar.

Nəticə: Tədqiqatın nəticələri göstərmişdir ki, perinatal asfiksiya keçirmiş bağırsaqların işemik zədələnmələri aşkar olunan yenidoğulanlarda LPO göstəricilərinin (MDA, Katalaza, QPO) konsentrasiyası neonatal dövrün dinamikasında patoloji prosesin ağırlıq dərəcəsindən, uşağın hestasiya yaşından və aparıcı klinik sindromdan asılı olaraq dəyişir.

Bu göstəriciləri bağırsaqların işemik zədələnmələrinin əlavə markeri hesab etmək olar. Müəyyən edilmişdir ki, perinatal asfiksiya keçirmiş yenidoğulanlarda HBD-2-nin səviyyəsi nə qədər yüksək olarsa MDA səviyyəsi o qədər yüksək və AOF səviyyəsi aşağı olur.

ƏDƏBİYYAT

1. Брыксина Е.Ю. Патогенетические аспекты перинатального поражения центральной нервной системы и особенности неврологического статуса недоношенных детей // Современные проблемы науки и образования, 2015, № 4, с.410
2. Будихина А.С., Пинегин Б.В. Дефенизины – мультифункциональные катионные пептиды человека // Иммунопатология, аллергология, инфектология, 2008, №1, с.45-49
3. Вахитова Л.Ф. Состояние показателей мембранолиза и липидного обмена у новорожденных, перенесших перинатальную гипоксию, и методы коррекции: Автореф. … канд. мед. наук. Казань, 2004, 23с.
4. Дубинина Е.Е., Дамбинова С.А. Роль окислительного стресса при патологических состояниях нервной системы / Успехи функциональной нейрохимии. СПб.: Изд-во СПбГУ, 2003, с.285-301
5. Евсюкова И.И., Ковалевская О.В. Интенсивность свободнорадикального окисления и состояние антиоксидантной системы у новорожденных детей, перенесших асфиксию // Вопр. практической педиатрии, 2008, т. 6, № 4, с. 5-9
6. Косов М.Н. Свободнорадикальное окисление и антиоксидантная система у здоровых доношенных новорожденных детей // Физиология человека, 2001, т. 27, № 3, с. 133-136
7. Campeotto F., Baldassarre M., Laforqia N. et al. Fecal expression of human B-defensin-2 following Birth // Neonatology, 2010, v.98, p. 365-369
8. Giovanni B. Toll-like receptor expression in irritable bowel syndrome: On the Alert for a Microbial Threat // Am. J. Gastroenterol., 2011, v. 106, p. 337-339
9. Kapel N., Benahmed N., Morali A. et al. Fecal B-defensin-2 in children with inflammatory bowel diseases // J Pediatr Gastroenterol Nutr., 2009, v. 48, p. 117-120
10. Salzman N., Underwood M., Bevins C. Paneth cells, defensins and the commensally micro biota: a hypothesis on intimate interplay at the intestinal mucosa. Semin // Immunol., 2007, v.19, p.70-83

Резюме

Оценка состояния перекисного окисления липидов и антиоксидантной системы при ишемических поражениях кишечника у недоношенных, перенесших перинатальную асфиксию

А.С.Гаджиева, Г.М.Гасангулиева

Цель исследования состоит в определении уровня перекисного окисления липидов и антиоксидантной системы при ишемических поражениях кишечника у недоношенных детей, перенесших перинатальную асфиксию**.** В исследовании приняли участие 98 недоношенных детей. В контрольную группу вошли 14 недоношенных детей, рожденные в последствии физиологических родов. Обследование проводилось на 5-7, 10-14 и 24-28 день жизни ребенка. С помощью метода исследования иммунных ферментов были определены малондиальдегид, каталаза, глутатионпероксидаза и антиоксидантная активность (АОА), а также β-дефенсин-2 в стуле. Статистический анализ проводился с использованием непараметрических методов (тесты Манна-Уитни, Вилкоксона, корреляция Спирмена). У новорожденных, у которых выявлены ишемические поражения кишечника, перенесшие перинатальную асфиксию, концентрация показателей ЛПО (МДА, каталазы, глутатионпероксидаза) изменяется в динамике неонатального периода в зависимости от степени тяжести патологического процесса, гестационного возраста

ребенка и ведущего клинического синдрома. Эти показатели можно считать дополнительным маркером ишемического поражения кишечника. Было установлено, что у новорожденных, перенесших перинатальную асфиксию, чем выше уровень HBD-2, тем выше уровень МДА и ниже уровень АОА.

Summary

Assessment of the state of lipid peroxidation and the antioxidant system in ischemic intestinal lesions in premature infants who underwent perinatal asphyxia

A.S.Hajiyeva, G.M.Hasangulieva

The aim of the study - is to determine the level of lipid peroxidation and the antioxidant system in ischemic intestinal lesions in premature infants who have undergone perinatal asphyxia. 98 premature infants participated in the study. The control group included 14 premature babies born after physiological childbirth. The examination was carried out on 5-7, 10-14 and 24-28 days of the child's life. Malondialdehyde (MDA), catalase, glutathione peroxidase and antioxidant activity (AOA), as well as β-defensin-2 in stool were determined using the method of studying immune enzymes.Statistical analysis was carried out using nonparametric methods (Mann-Whitney, Wilcoxon tests, Spearman correlation) İn newborns who have ischemic intestinal lesions that have undergone perinatal asphyxia, the concentration of LPO indicators (MDA, catalase, glutathione peroxidase) changes in the dynamics of the neonatal period depending on the severity of the pathological process, the gestational age of the child and the leading clinical syndrome. These indicators can be considered an additional marker of ischemic intestinal damage. It was found that in newborns who underwent perinatal asphyxia, the higher the level of HBD-2, the higher the level of MDA and the lower the level of e who have undergone perinatal asphyxia.

Daxil olub: 20.07.2022

Морфологические особенности глоточных ветвей языкоглоточного нерва у плодов, новорожденных, детей различных возрастов и взрослых

М.И.Байрамов
Азербайджанский Медицинский Университет, г. Баку

Açar sözlər: dil-udlaq siniri, udlaq şaxələri
Ключевые слова: языкоглоточный нерв, глоточные ветви
Key words: glossopharyngeal nerve, pharyngeal branches

Периферическая нервная система всегда являлась предметом изучения как морфологов, так и клиницистов. Не маловажную часть в плане изучения составляет черепные нервы. Каждый из 12-ти пар черепных нервов имеет в морфологическом и гистологическом плане свои индивидуальные особенности строения. Интересным в этом плане являются VII, IX и X пары черепных нервов, иннервирующие как соматические структуры, так и внутренние органы. IX пара черепных нервов в этом плане составляет не маловажный интерес, так как содержит в своем составе двигательные, чувствительные и парасимпатические волокна и имеет 6 постоянных ветвей. Одним видом из ветвей языкоглоточного нерва являются глоточные ветви.

В имеющейся в наличии доступной литературе имеются очень скудные данные относительно глоточных ветвей языкоглоточного нерва в возрастном аспекте. К тому же эти данные носят фрагментарный характер [1,2,3,4,5].

Целью настоящего исследования послужило изучение глоточных ветвей языкоглоточного нерва у плодов, новорожденных, детей различных возрастов и взрослых.

Материалы и методы исследования. Материалом для исследования послужили глоочные ветви языкоглоточных нервов отпрепарированных на трупах 15-ти плодов, 9-ти новорожденных, 11-ти трупах детей различных возрастов, а также 17-ти трупов взрослых.

Трупы указанных возрастов препарировались макромикроскопической препаровкой по методу Воробьева – Белоусовой. Трупы предварительно фиксировались в 2-4% водном растворе формалина.

Препарирование глоточных ветвей языкоглоточных нервов производилось специально заточенными глазными скальпелями, ножницами и пинцетами, под контролем налобной лупы или стереоскопического микроскопа МБС-2. В процессе препарирования в начале нами вскрывались стволы языкоглоточного нерва, затем – его глоточные ветви.

Для доступа к стволу языкоглоточного нерва нами производились кожные срезы у переднего края грудино-ключично-сосцевидной мышцы до сосцевидного отростка.

После этого удалялась указанная мышца и вскрывалось сосудисто-нервное влагалище на уровне верхней трети шеи и там отыскивались стволы языкоглоточного, блуждающего и добавочного нервов. Затем ствол языкоглоточного нерва отпрепаровывался в проксимально-дистальном направлении.

Анализ результатов исследования показал, что глоточные ветви отходят от ствола языкоглоточного нерва обычно в количестве от 1 до 3-х в том месте, где последний проходит между внутренней сонной артерией и внутренней яремной веной. Глоточные ветви языкоглоточного нерва, соединяясь с одноименными ветвями блуждающего нерва и симпатического ствола, образуют глоточное сплетение, расположенное обычно в пределах среднего констриктора глотки. В большинстве случаев одни глоточные ветви самостоятельно подходят к задней стенке глотки, в ряде же случаев глоточные ветви, соединяясь с одноименными ветвями блуждающего нерва и симпатического ствола, участвуют в образовании глоточного сплетения.


По своему диаметру глоточные ветви, тоньше язычных. Топографически глоточные ветви находятся в пределах сонного треугольника, часто перекрещиваются с ветвями блуждающего нерва.

Глоточные ветви, направляясь к глотке, проходят вдоль шилоглоточной мышцы, в большинстве случаев пересекая ветвь к шилоглоточной мышце. Глоточные ветви образуют связи со стволом языкоглоточного нерва, с блуждающим нервом. В четырех случаях мы наблюдаем участие в иннервации верхней трети глотки вторичной глоточной ветви, которая отходит от синусной ветви языкоглоточного нерва.

У плодов, а также у новорожденных в большинстве случаев глоточные ветви отходят от нижнего края ствола вниз и вперед в виде одного, 2-х и 3-х отдельных нервных стволиков, которые делятся на

вторичные веточки вблизи и в самой задней стенке глотки. В ряде же случаев глоточные ветви отходят от ствола языкоглоточного нерва вверх и вперед в виде самостоятельных стволиков к глотке. У детей грудного и раннего возрастов, у детей I и II детства обычно от ствола языкоглоточного нерва глоточные ветви отходят вперед и вниз в виде одного ствола, который, не дойдя до стенки глотки делится на вторичные нервные стволики (от 2-х до 4), а также в ряде случаев данный ствол может дать по пути предварительно одну веточку к верхней трети глотки.

На трупах людей зрелого возраста эти ветви отходят от ствола языкоглоточного нерва в виде одного ствола, который в близи задней стенки глотки делится на вторичные веточки в количестве от 3-х до 6-ти.



Вариант I **Вариант II**

Вариант III

Рис.3. Схемы глоточных ветвей языкоглоточного нерва: Вриант I- ствол языкоглоточного нерва: Вриант II – глоточные ветви; Вариант III – язычные вети.

Наблюдались случаи, когда от ствола языкоглоточного нерва отходил ствол глоточной ветви, который потом делился на 2 ствола, каждый из которых, не дойдя до стенки глотки, делился на множество вторичных стволиков.

Длина глоточных ветвей у плодов и новорожденных колеблется слева от 5 до 10 мм, справа от 7 до 13 мм.

Как показали исследования, в этом возрастном периоде в 3-х случаях отличалось кроме отхождения глоточных ветвей от ствола языкоглоточного нерва, также отхождение глоточной ветви от передней части синусной ветви того же нерва, которая участвовала в образовании глоточного сплетения.

У детей грудного, раннего, I и II детства количество глоточных ветвей, отходящих от ствола языкоглоточного нерва слева и справа варьирует от 1-ой до 3-х, которые, пройдя к задней стенке глотки обычно на уровне верхней и средней трети, а изредка и нижней трети, где они совместно с одноименными ветвями, отходящими от блуждающего нерва, участвуют в образовании глоточного сплетения. Длина глоточных ветвей у детей в этих возрастных периодах колеблется слева от 7 до 12 мм, справа же от 8 до 11 мм, толщина глоточных ветвей у последних колеблется справа и слева от 0,6 до 0,8 мм.

Уровень отхождения глоточных ветвей языкоглоточного нерва у людей I и II периода зрелости колеблется слева от 15 до 41 мм, справа же от 16 до 46 мм ниже яремного отверстия. Длина глоточных ветвей в этих возрастных периодах варьирует слева от 5 до 23 мм, справа от 7 до 21 мм. Толщина глоточных ветвей языкоглоточного нерва колеблется слева от 0,5 до 1,1 мм, справа от 0,5 до 1,3 мм. Таким образом процесс макромикроскопического исследования глоточных ветвей языкоглоточного нерва выделены 3 варианта.

При варианте I к задней стенке глотки от ствола языкоглоточного нерва отходит один крупный ствол, который затем делится на множество вторичных тонких веточек, часто образующих между собой и основным стволом связи.

При варианте II от ствола языкоглоточного нерва отходят несколько (от 2-х до 4-х) отдельных самостоятельных ветвей, которые обычно идут параллельно друг другу и, не достигая задней стенки глотки, делятся на вторичные веточки.

При варианте III от ствола языкоглоточного нерва отходят два толстых нервных ствола, которые в свою очередь задолго не доходя до задней стенки глотки делятся на вторичные веточки, обычно анастомозирующие между собой.

ЛИТЕРАТУРА

1. Байрамов М.И. О формах изменчивости языкоглоточного нерва и его ветвей / Сб. Актуальные проблемы теоретической и клинической морфологии. Баку, 1993, с. 22-27.

2. Коростышевская А., Савелов А., Приходько И. и др. Миелиновая защита нейрона, все начинается до рождения // Наука из первых рук, 2020, №3 (88)

3. Məmmədova A.C., Bayramov M.İ. Dil-udlaq sinirinin və onun şaxələrinin anatomik dəyişiklәri, morfoloji fərdi xüsusiyyətləri və cərrahi yanaşma zamanı nəzərə alınması / ABU-nun "Xəbərləri" elmi jurnal. Bakı, 2003, № 1, s.10.

4. Takahashi K. Kaibogaku Z. et al. Facial nerve of the Chimaera (Chimaera plantasma) and its comprasion with trigeminal, glossopharyngeal and vagus nerves // Anat, Histol., Embryol., 1988, v. 63(1), p. 1-11.

5. Fiffer C.R. Course and topography of glossopharyngeal nerve at the level of the jugular foramen. (Sp.) // Anat, Histol., Embryol., 1980., v. 9, №2, p. 134-140.

Xülasə

Döllərdə, yenidoğulmuşlarda, müxtəlif yaşlarda olan uşaqlarda və yektin İnsanlarda dil-udlaq sinirinin udlaq şaxələrinin morfoloji fərdi xüsusiyyətləri

M.İ.Bayramov

Vorobyov və Belousovanın makromikroskopik üsulu ilə 15 döllərdə, 9 yeni doğulmuşlarda, 11 müxtəlif yaşlarda olan uşaqlarda və 17 yetkin insanlarda dil-udlaq sinirinin udlaq şaxələrinin fərdi quruluş xüsusiyyətləri tədqiq olunmuşdur. Apardığımız tədqiqatların məlumatlarına görə döllərdə və

yenidoğulmuşlarda dil-udlaq sinirinin udlaq şaxələrinin uzunluğu solda 5-10 mm, sağda isə 7-13 mm qədər tərəddüd edib. Müxtəlif yaşlarda olan uşaqlarda qeyd olunan sinirini udlaq şaxələrinin uzunluğu solda 7-12 mm, sağda isə 8-11 mm qədər tərəddüd edib. Yetkin insanlarda isə qeyd olunan sinirinin udlaq şaxələrinin uzunluğu solda 5-23 mm, sağda isə 7-21 mm qədər tərəddüd edib. Alınan nəticələrə görə dil-udlaq sinirinin udlaq şaxələrinin 3 variantını təklif etmişik. I varıantda dil-udlaq sinirindən udlağın arxa divarına udlaq şaxəsi 1 qalın kötük şəklində ayrılır. II variantda dil-udlaq sinirindən 2-4 qədər ayrı-ayrı udlaq şaxələri ayrılır və udlağın arxa divarına daxil olur. III variantda isə dil-udlaq sinirindən udlaq şaxələri 2 qalın kötük şəklində ayrılır və udlağın arxa divarına daxil olur.

Summary

Morphological features pharyngeal branch of the glossopharyngeal nevre in fetuses, newborns, children of various ages and adults.

M.I.Bayramov

The morphological features pharyngeal branches of the glossopharyngeal nerve in 15 featuses, 9 newborns, 11 children of varios ages and 17 adults were studied using the makromikroskopic preparation of Vorobyov and Belousova. The date obtained showed that it featuses and newborns, the lenght of pharyngeal branches of the glossopharyngeal nerve on the left is 5-10 mm, on the right 7-13 mm. In children of different ages, the lenght of pharyngeal branches of this nerve is 7-12 mm on the left, and 8-11 mm on the ringht. In adults, the lenght of pharyngeal branches of this nerve is 5-23 mm on the left, and 7-21 mm on the right. According of the results of the study we proposed 3 variants of the pharyngeal branches of the glossopharyngeal. In variant 1, the pharyngeal branch departs from the trunk of the glossopharyngeal nerve in the form of one thick trunk to the posterior wall of the pharynx. In variant 2, from 2 to 4 pharyngeal branches depart from the trunk of the glossopharyngeal nerve to the posterior wall of the pharynx. In varinat 3, pharyngeal branches depart from the trunk of the glossopharyngeal nerve in the form of 2 thick trunks to the posterior wall of the pharynx.

Daxil olub: 13.07.2022

Koordinasion birləşmələr və onların dərman maddələrinin sintezində rolu

İ.M.Bağırov
Azərbaycan Tibb Universitetinin Elmi Tədqiqat Mərkəzi, Bakı

Açar sözlər: koordinasion birləşmələr, antioksidantlar, palladium, meksidol
Ключевые слова: координационные соединения, антиоксиданты, палладиум, мексидол
Key words: coordination compounds, antioxidants, palladium, mexidol

Yaşadığımız əsr ətraf mühitin kəskin şəkildə dəyişməsi, anomal iqlimlə və ən təhlükəlisi planeti bürümüş COVID-19 pandemiyası ilə bəşər tarixinə daxil oldu. Təbii ki, canlı orqanizm ilə ətraf mühit arasında olan tarazlığın pozulması insan sağlamlığında yeni problemlər yaradaraq patoloji prosesin nazalogiyasında yeni dəyişikliklərə səbəb oldu.

Patoloji proseslərin nazalogiyası artdıqca yeni dərman preparatlarının sintezinə də tələbat artır. Əczaçılar kimyaçılarla birlikdə müxtəlif təbiətli molekulları kombinə etməklə geniş spektrli təsirə malik dərman preparatlarının alınmasına cəhd etmişlər.

Lakin orqanizmdə həyatı vacib metalların koordinasion birləşmələr şəklində mövcud olmasını lazımınca dəyərləndirilmədən yeni dərman maddələrini təbii və üzvi birləşmələr içərisində axtarmışlar. Bununla bağlı olaraq bu tip birləşmələrin bioloji fəallığının öyrənilməsi də yetərincə olmamışdır.

Orqanizmə düşən virusların həyat fəaliyyəti nəticəsində əmələ gələn toksiki maddələr metal ionları ilə rabitə yaratmağa meylli olduğuna görə faydalı komplekslərin əmələgəlmə prosesini pozur. Bu baxımdan koordinasion birləşmələrin biosintez prosesində rolunun öyrənilməsi yeni effektiv dərman maddələrinin yaranmasına yol açır.

Çünki, amerikan alimi C.Wood [1] haqlı olaraq hesab edir ki, bioloji kimya canlı sistemin koordinasion kimyasıdır. Bu baxımdan dərman preparatlarının metal komplekslərinin alınması və onun bioloji fəallığının öyrənilməsi vacib problemlər sırasına daxildir.

Bioloji fəal koordinasion birləşmələrin sistematik öyrənilməsinə son 30-40 ildə böyük əhəmiyyət verilmişdir [2,3,4]. Aparılan tədqiqatlar sayəsində platin və palladium komplekslərinin bədxassəli şişlərə qarşı müalicəvi xassəyə, palladium komplekslərinin radioprotektor, dəmir və sink komplekslərinin isə anemiya və digər bioloji xassələrə malik olması aşkar edilmişdir [5].

Müasir təbabətdə d-biogen metallarla yanaşı digər ağır və nəcib metalların üzvi bioloji fəal liqandlarla alınmış kompleks birləşmələri, o cümlədən palladium əsasında alınmış bir neçə kompleks birləşmə qarışığı məlumdur [6]. Bu birləşmələr müalicə baxımdan böyük əhəmiyyət kəsb edir [7].

Azot və oksigen atomlarından ibarət funksional qruplu bioloji fəal üzvi liqandlarla palladiumun komplekslərinin alınması, onların quruluşlarının, fiziki-kimyəvi xassələrinin, bioloji rolunu oyrənilməsi vacibdir və liqandların koordinasiya üsulları, rabitənin təbiəti, onların mərkəzi atom ətrafinda fəza ardıcıllığı, quruluş və bəzi xassələri arasındakı asılılığı öyrənmək mühüm əhəmiyyət kəsb edir.

Son zamanlara qədər helat əmələgətirici liqandlardan orqanizmdən toksiki və digər ağır metalların artıq miqdarının çixarılması məqsədilə geniş istifadə edilirdi. Koordinasion birləşmələrin bioloji fəallıqlarının geniş tədqiqi göstərir ki, bu tip maddələr universal və geniş spektrdə təsir xassələrinə malikdirlər [5].

Palladium əsasında sintez olunmuş preparatlar müasir onkologiyada kimyəvi terapiya qismində geniş istifadə edilməkdədir. Lakin ədəbiyyatda palladiumun çox funksional dərman preparatları ilə koordinasion birləşmələrinin alınıb tədqiq edilməsinə dair məlumat demək olar ki, yoxdur.

İlk dəfə olaraq palladiumun N-metil-N-(1-oksi-1-fenilizopropil) – efedrinlə kation-anion tipli birləşməni İ.A.Efimenko və V.A.Ermakov 2005-ci ildə sintez etmişdir. Birləşmənin tərkibi, quruluşu müxtəlif fiziki-kimyəvi üsullar vasitəsilə ilə aydınlaşdırılmış və bioloji təsir xüsusiyyətləri öyrənilmişdir. Müəyyən edilmişdir ki, yeni alınmış "Efazol" adlandırılan bu koordinasion birləşmə güclü radioprotektor xüsusiyyətinə malikdir [8,9,10].

Efazol – radioprotektor xassəsinə malik olan yeni sinif metal tərkibli preparatların ilk nümayəndəsidir. Şüalanma nəticəsində subletal hüceyrə zədələnməsinin bərpasını stimullaşdırır. İ.A.Efimenko, V.A.Ermakov [5] hesab edirlər ki, efazol istifadə olunan müasir radioprotektorlarla müqayisədə çox üstünlüklərə malikdir və analoqlarına nisbətən 15-20 dəfə az dozada istifadə edilir. Digər tərəfdən onun radioprotektor xassəsi preparatın verilmə vaxtından asılı deyil. Efazol şüalanmadan 15 dəqiqə qabaq və ya 2 saat sonra qəbul edilə

bilər. Şüalanmadan sonra preparatın verilməsinin müsbət effektə səbəb olması şüalanmaya məruz qalmış xəstələrin müalicəsində istifadə edilmə imkanını genişləndirir.

Beləliklə, efazol yalnız orqanizmi ionlaşdırıcı şüalardan qorumaq üçün deyil, həm də orqanizmdə radiasiyadan meydana gələn fəsadların müalicəsində də istifadə edilə bilər [5].

Müasir ədəbiyyatda verilmiş məlumatlar birmənalı şəkildə təsdiq edir ki, orqanizmdə bir çox xəstəliklərinin yaranmasına səbəb hüceyrələrdə baş vermiş oksidativ stresdir [11,12,13,14].

Bəzi bakteriyalar müstəsna olmaqla bütün canlıların oksigen almadan yaşaması mümkün deyil. Oksigen enerji mənbəyi, güclü oksidləşdirici və metabolizm prosesinin ayrılmaz bir komponentidir. Ancaq oksigen bioloji proseslərə daxil olduqda onun fəal formaları radikallar əmələ gətirir, bu da lipid peroksidləşməsinə səbəb olur və nəticədə biomolekulların məhvi və kimyəvi modifikasiyası baş verir [15].

Son illərdə normal və patoloji şəraitdə sərbəst radikal oksidləşmənin rolunu aydınlaşdırmağa çox diqqət yetirilmişdir. Orqanizmlərdə sərbəst radikallar toxumalarda həll olan oksigen mübadiləsi nəticəsində meydana gəlir və yaranan fəal oksigen membran lipidlərinin, zülalların, polisaxaridlərin və nuklein turşularının oksidləşməsinə səbəb olur [16]. Sərbəst radikal oksidləşmənin bioloji nəticələri müxtəlif ola bilər:

- plazma və hüceyrədaxili membranların lipid peroksidləşməsi;
- hüceyrə quruluşunun bütövlüyü və funksiyasının pozulması;
- iltihab daşıyıcılarının və toksinlərin sərbəst yaşamasının təmini;
- fermentlərin və reseptorların inaktivasiyası;
- DNT-ni zədələməklə teratogen, kanserogen və ya sitostatik təsiri.

Sərbəst radikalların zədələyici təsirinə sərbəst radikal oksidləşmə və antioksidant sistemlərini tənzimləyən zədələyici təsiri aradan qaldıran çox səviyyəli bir endogen antioksidant sistemi ilə qarşılanır. Sərbəst radikalların intensiv əmələ gəlməsi və antioksidant sisteminin lazımi dərəcədə fəal olmaması səbəbindən toxumalarda (zədələyici) dağıdıcı proseslərin artması ilə müşaiyət olunan bir hal meydana gəlir. Bu proses xeyli sayda xəstəliyin patogenezində iştirak edir [10,17]. Orqanizmdə sərbəst radikalların toplanmasının qarşısının alınması üçün antioksidantlardan geniş istifadə edilir [18,19,20]. Çünki antioksidantlar funksional qrupları blokadaya alır, lakin heç bir kimyəvi dəyişikliyə uğramadan orqanizm tərəfindən mənimsənilir. Orqanizmdə metabolizm

prosesi nəticəsində baş verən ionlara ayrılma və ya hidroliz prosesi metal ionlarının və antioksidantın bioloji fəallığını maksimum qoruyub saxlayır. Digər tərəfdən antioksidantın metallarla koordinasion birləşmələr əmələ gətirməsi onların bioloji fəallığında sinergizmə səbəb ola bilər [21].

Platin və palladium metallarının bioloji fəal liqandlar və dərman preparatları əsasında yeni tip bioloji fəal koordinasion birləşmələrinin 3 oksi-6-metil-2- etilpiridin – meksidolla ikivalentli palladiumun kompleks birləşmələrinin sintezi və tədqiqi Azərbaycan Tibb Universitetinin Elmi Tədqiqat Mərkəzində geniş spektrdə aparılmış və bu gün də aparılmaqdadır.

Stress oksidləşdirici vəziyyətdə sərbəst radikal oksidləşmə proseslərinin ekzogen antioksidantların farmakoloji korreksiyanın tətbiqi patogenetik cəhətdən əsaslandırılmışdır. Ona görə də kəskin şəraitdə elə bir antioksidant lazımdır ki, suda yaxşı həll olsun və qan axını ilə tez bir zamanda lazımı yerə çatsın [9].

Son zamanlarda tibbdə antioksidant kimi meksidol və emoksipin müxtəlif patoloji halların qarşısının alınması və müalicəsində geniş istifadə olunur. Emoksipin (3-hidroksi-6-metil-2 etilpiridin xlorid) və meksidol (3-hidroksi-6-metil-2-etilpiridin suksinat) bir maddənin – 3-hidroksipiridinin törəmələri olub yalnız turşu qalığı ilə bir-birindən fərqlənirlər [23,24]. Lakin bu dərman preparatlarının tərkibinə daxil olan müxtəlif turşular dərmanların farmakoloji xüsusiyyətlərində fərqlər yaradır. Bunları nəzərə alaraq 3-hidroksipiridin əsasında alınmış meksidolun palladiumla yeni kompleks duzlarının alınıb tədqiq edilməsi məqsədəuygun hesab edilir. Bu zaman əsas məqsəd meksidolun funksional qruplarını metal ionu ilə bloklaşdıraraq orqanizmə daxil etmək və onun kimyəvi və bioloji dəyişikliyə məruz qalmasının qarşısını almaq və təsir effektini yüksəltməkdən ibarətdir. Digər tərəfdən sərbəst meksidoldan fərqli olaraq kompleksin daha fərqli xassə göstərməyini tədqiq etmək də qarşıya qoyulan problemlərin sırasındadır [25].

Yeni sintez edilmiş bioloji fəal maddələrin tədqiqi - yeni maddələrin normal qəbul edilmiş və öldürücü dozalarının diaqnozunu müəyyən etməyə imkan verən toksikliyin təyini ilə başlayır. Digər tərəfdən isə onların ümumi toksikliyini yox, antioksidant kimi fəaliyyətini daha da geniş öyrənmək üçün təsir dozalarını seçməyə imkan verir. Bu tip yeni bioloji fəal maddələrin spesifik antioksidant fəaliyyətini qiymətləndirmək üçün oksidləşdirici stres modelindən təcrübə heyvanının immobilizasiyası modelindən istifadə edilir. Çünki, hətta qısamüddətli immobilizasiya orqanizmin ehtiyatlarının davamlı azalmasına və açıq oksidləşdirici stresin yanaşmasına səbəb olur [26,27].

Meksidol molekulunda iki fəal N- və -OH funksional qrupunun olması onun potensial helat əmələgətirici liqand olduğunu göstərir. Helat komplekslərin tərkibinə daxil olan metal ionunun təbiətindən asılı olaraq müxtəlif növ sərbəst radikalların əmələ gəlməsi sürətlənməklə yanaşı zəiflətməsi də mümkündür. Ona görə də tədqiqat işinin nəticələrinin müqayisəli təhlilini aparmaq məqsədilə bir neçə polifunksional liqandların müxtəlif metallarla komplekslərinin radikal əmələgəlmə prosesində iştirakını nəzərdən keçirməyi məqsədə uyğun hesab edirik.

Helat kompleks əmələgətirici maddələr sırasında oksigenin fəal formasının əmələ gəlməsini kataliləşdirən, yalnız dəyişkən valentli metal kationlarını, yəni metaldan asılı sərbəst radikal əmələgəlmə reaksiyasını inhibə edir. Yaranan komplekslərin sərbəst radikalların əmələ gəlməsi reaksiyasında iştirak etmək xassəsi həm kompleksin təbiətindən, həm də multifaktorial amillərdən asılıdır. Eksperimentin aparılma şəraitindən asılı olaraq kompleks birləşmələr həm anti-, həm də prooksidant xassəsi göstərə bilər. Prooksidant təsir yalnız maddənin kimyəvi təbiətindən yox, həm də sərbəst radikal əmələgəlmə prosesini inisiatorlaşdıran maddənin təbiətindən də asılıdır. Etilendiamintetraasetat turşusu (EDTA) induksiya şəraitində Fe^{2+} liposomların iştirakı ilə lipid peroksidləşməsinin kimyəvi lüminsesiyasının gizli müddətini uzatması onun antioksidant təsirə malik olmasını göstərir. Lipid peroksidləşməsinin Cu^{2+} - ionunun stimullaşdırıcı təsiri zamanı EDTA effektiv antioksidant rolunu oynayır. Digər tərəfdən EDTA-ın Fe^{2+} və Fe^{3+} kationları ilə kompleks birləşmələri H_2O_2-in iştirakı ilə üzvi peroksidlərdən və ya askorbin turşusundan hidroksil radikallarının əmələgəlmə prosesini müvafiq metal kationları ilə müqayisədə çox sürətləndirir [25].

Batofenantrolin – 1,10- H_2O_2-in iştirakı ilə hidroksil radikallarının əmələ gəlməsinin Fe^{2+} ionundan asılılığını dayandırır, Cu^{2+} kationundan asılılığını gücləndirir. Deməli, sərbəst radikalların əmələgəlmə prosesinin üzvi liqandlar və metal ionlarından asılı olaraq sürət dəyişməsini tənzimlənilməsi mümkündür. Desferoksamin və karnozin hətta H_2O_2-in iştirakı ilə belə metal kationlarının induksiyasından asılı olan lipid peroksidləşməsi zamanı effektli antioksidant təsiri göstərir. Nitriltriasetat turşusu və 8-hidroksixinolin keçid metallarının prooksidant təsirini artıq dərəcədə gücləndirir. Digər tərəfdən Fe^{3+} ionu ilə komplekslərin əmələ gəlməsi bəzi flavonidlərin antioksidant təsir mexanizmlərindən biridir. Karvedilol və izonikatinin birləşmələrinin antioksidant təsir göstərməsinin mexanizminin əsasını onların metal komplekslər əmələ gətirməsi təşkil edir [28].

Bu qeyd olunan məlumatlardan aydın olur ki, tibbdə geniş istifadə olunan preparatlarda antioksidant qrupları proton donorları olub onlara – tokoferol, probukol, askorbin turşusu və polenlər olan retinol, karotenoidlər aiddirlər. Onlar əsasən lipid peroksidləşməsinin qarşısının alınmasında effektivlik göstərirlər. Lakin nuklein turşularını və zülalları oksidləşmə nəticəsində zədələnmədən qoruya bilmirlər. Kompleks əmələgətirici helat liqandlar orqanizmi metal ionlarından asılı olaraq əmələ gələn sərbəst radikal oksidləşmə prosesindən qoruyur [29,30].

Klinik praktikada ən çox istifadə olunan radikal tutucu kimi bəzi müəlliflər bioloji katalizator və blokedici preparatlara üstünlük verirlər [31]. İlk növbədə sərbəst radikal oksidləşməsini inhibə edən bioloji fəal liqandlar böyük maraq kəsb edir [32]. Bununla yanaşı qeyd etmək lazımdır ki, qoruyucu reaksiyalar zamanı antioksidant katalizatorlar sərf olunmur, yəni digər antioksidant qruplara nisbətən az istifadə oluna bilər.

Hal-hazırda antioksidant xassəsinə malik kimyəvi birləşmələrin – kompleks birləşmələr əsasında alınması və tədqiqinin mühim və aktual olması heç bir şübhə doğurmur. Metal komplekslər əsasında alınmış dərman preparatları perspektivdə ateroskleroz, ürəyin işemik xəstəlikləri, neyrodegenerativ xəstəliklər, şəkərli diabet zamanı damarlarda yaranan patologiyalarda, katarakt xəstəliyində müalicəvi təsir göstərir. Digər tərəfdən bu tip kompleks birləşmələr orqanizmi radioaktiv şüalanmanın fəsadlarından qorunmaq xüsusiyyətinə də malikdirlər [7].

Metal komplekslər ümumilikdə sərbəst radikal oksidləşməsində, xüsusilə lipidlərin peroksidləşməsi prosesində antioksidant rolunu oynaması geniş tədqiqatlara yol açır. Bu zaman mühüm əhəmiyyət kəsb edən amillərdən biri bu metal komplekslərinin yüksək effektli antioksidant xassəsinə malik olması ilə yanaşı minimum kənar təsirə malik olmalıdır.

Azot tərkibli aromatik heterotsiklik üzvi birləşmələrin məsələn, meksidolun antioksidant xassəsi göstərməsinin mexanizmi fenoltörəməli antioksidantların təsir mexanizmi ilə analojidir. Bu tip birləşmələrdə əsas funksiyanı labil hidrogen atomu öz üzərinə götürür. Meksidol molekulu heterotsiklik azot atomu ilə yanaşı fenolhidroksil qrupunu da özündə birləşdirmişdir. Meksidolun palladiumla əmələ gətirdiyi kompleks birləşmədə hidrogenin azot atomuna birləşərək əlavə proton əmələ gətirərək onun labilliyini gücləndirməsidir.

Meksidol - 3-hidroksi-6-metil-2-etilpiridinin suksinantıdır. Sintetik antioksidant olub quruluşca emoksipinin təkrarıdır, fərqli cəhəti isə emoksipin kəhrəba, meksidol isə hidrogen xlorid turşusunun ammonium duzudur. Meksidol emoksipin kimi sərbəst radikal əmələgəlmə prosesinin inhibitorudur, amma daha çox antilipoksant kimi təsirə malikdir. Meksidol orqanizmi oksigendən asılılıq kimi patoloji vəziyyətə düşməsindən qoruyur. Orqanizmi şokdan, beyin qan dövranının pozulmasından qorumaqla yanaşı, mnestik funksiyonu yaxşılaşdırır, spirtli içkilərin toksiki effektini azaldır [33].

3-hidroksipiridin törəmələrinin, xüsusən də 2-etil-6-metil-3-hidroksipiridin bioloji fəal maddənin tərkibində olan turşuların tərkib və quruluş dəyişikliyi bu maddələrin farmokoloji xüsusiyyətlərinin dəyişməsinə səbəb olur. Ona görə də palladiumla meksidolun kompleks birləşməsinin sinergetik xassə göstərməsini və ya tamam fərqli bioloji fəallığa malik olması gözlənilir.

Meksidol daxilə qəbul edildikdə çox tez adsorbsiya olaraq orqan və toxumalara keçir. Əzələ daxilinə yeridildikdə isə 4 saat sonra qanın plazmasında aşkar edilir. Meksidol qan dövranından orqan və toxumalara tez keçdiyi kimi orqanizmdən də çox tez çıxır. Preparat qaraciyərdə metobolizmə uğrayır, orqanizmdən əsasən qlükuron konyuqantı (birləşmələri) və çox az miqdarda sərbəst halda sidiklə birlikdə xaric olunur.

Meksidolun əsas farmakoloji hissələrini aşağıdakı kimi ümiləşdirmək olar:

1. Zülalların və lipidlərin peroksid radikalları ilə fəal şəkildə reaksiyaya girir.
2. Bəzi membrana bağlı fermentlərə fosfodiesteraza, adenilatsiklaza modullaşdırıcı təsir gostərir.
3. Lipoproteidlərin peroksid modifikasiyasının səviyyəsini aşağı salır, hüceyrə membranının lipid təbəqəsinin özülülüyünü azaldır, hipopolidemik təsirə malikdir.
4. Bəzi prostoqlandinlərin, tromboksanın və leykotrienlərin sintezini dayandırır.
5. Hipoksiya şəraitində mitoxondriyanın enerji sintez edən funksiyasını optimallaşdırır, sinaptik ötürməni yaxşılaşdırır.
6. Qanın realoji xüsusiyyətlərini yaxşılaşdırır, trombositlərin çökməsinin qarşısını alır.

Müasir dövrdə atom energetikasının sürətlə inkişafı (atom elektrostansiyaların tikilişi, atom enerjisindən texnikada istifadəsi, radionuklidlərin atmosferə tullanması və s.) insanların şüalanma imkanını genişləndirir və nəticədə şüa xəstəliyi meydana çıxır. Şüa xəstəliyi sindromu bəzən bədxassəli şişlərin rentgen və radioterapiyası zamanı da inkişaf edir.

Bununla əlaqədar olaraq radioprotektor xassəyə malik maddələrin alınması və tədqiqi böyük əhəmiyyət kəsb edir [34,35]. Bu baxımdan palladium və meksidol əsasında sintez olunmuş kompleks birləşmənin radioaktiv şüalardan qoruyucu xüsusiyyətinin tətbiq edilməsini vacib hesab edirik.

ƏDƏBİYYAT

1. Wood J. Naturwissenschaften, 1975, Bd 62, p.357
2. Гасанов Х.И. Комплексообразования палладия (II) и пирролпроизводными лигандами //Журнал химия и химическая технология, 2001, Т.44, № 6, с.61-62
3. Jain N., Paul A.K., Srivastova T.S. Sinthesis, characterization, cytatoxicity and DNA binding studies of diamminediethyldithiocarbamato platinum (II) nitrate //J. Inorg. Biochem. 1992, V.45, N 2, p.123-127.
4. Kimberly M.E., Baag J.H., Abu-Omar M.M. Synthesis, characterization and reactivity of palladium (II) salen and oxazoline complexes //Inorg. Chem. 1999, V.38, N 20, p.4510-4514
5. Gong G.,Wang P., Ding W. The role of oxygen-free radical in the apoptosis of enterocytes and bacterial tranclocation in abdominal compartment syndrome //Free Radie Res.2009, № 43 (5), p.470-477
6. Гасанов Х.И., Мирзан Дж.И., Мамедова И.Ш., Касумов Ш.Г. Координационные соединения платины (II) и палладия (II) с серо- кислородосодержающии биологически активными лигандами Баку 2021, 143 с.
7. Ефименко И.А., Ермаков В.А. Перспектива использования противоопухолевых препаратов на основе соединений платиновых металлов // Биржа интеллектуальной собственности, 2005, 4, №1, С.26-31.
8. Ефименко И.А., Иванова Н.А., Координационные соединение палладия и способ его получения. Евроазийский патент № 010431 от 29.08.2008. Биол. Изобретений №4, 2008 г.
9. Блинов Д.С., Сернов Л.Н., Балашов В.П. Антиишемическая активность нового отечественного антиоксиданта – производного 3-гидроксипиридина этоксидола. /Бюлл.эксперим. биол. медицины, 2011, № 11, с.514-517.
10. Столярова В.В. Исследование кардиопротекторного действия препаратов с антиоксидантной активностью при острой ишемии головного мозга //Эксперим.клин. фармакология. 2001, № 6, с.3-6.

11.Дишкин М.И., Храпова М.В. Роль рецепторов активируемых пролифераторами пероксисом, в нарушении метаболического баланса при стрессе //Успехи физиологических наук 2011, № 2, с.3-24.

12.Абакушина Е.В., Кузьмина Е.Г. Стресс-индуцированные молекулы MICA/B и их роль в развитии онкологических заболеваний //Молекулярная медицина. 2012, № 2, с.16-20.

13.Плавинский С.Л. Роль антиоксидантов в лечении и профилактике заболеваний человека // Журнал «Медицина» 2013, № 1, с.41-54.

14.Ахундова Х.Р., Эйвазов Т.А., Султанова Т.А., Гараханова В.Р. Оксидантный стресс: Пути коррекции при патологических состояниях. Мат.конф., посв. 120-ти летию проф. С.Г.Ахундова 2017. С.37.

15.Yildirim A., Sahin Y.N., Suleyman H. The role prednisolone and epinephrine on gactric tissue and erythrocyte antioxidant status in adrenalectomi zed rats //J.Phystol Pharmacol, 2007, № 58 (1), p.105-116.

16.Власов А.П., Бунятов Н.Д., Быханова О.Н. Восстановление детоксикационной способности организма при эндотоксикозе на основе антиоксидантной терапии // Клин.фармакол и терапия. 2013, № 1, С.51-54.

17.Тургенева Л.Б., Новиков В.Е., Пожилова Е.В. Лечение воспалительных заболеваний пародонта мексидолом // Патогенез, 2011, Т.9, № 3, с.67-74.

18.Мартусевич А.А., Мартусевич А.К., Перетяги С.П. Особенности действия синглетного кислорода и озона на процессы липоггероксидации и антиоксидантную систему крови и тканей крыс //Российский физиологический журнал им. И.М.Сеченова. 2013, Т. 99, № 9, с.1057-1066.

19.Delorenze G.N., McCoy L., Tsai A.-L. et al. Daily intake of antioxidants in relation to survival among adult patients diagnosed with malignant glioma //BMC Cancer. 2010, v.10, p.215.

20.Martinez-Sanchez G., Delgado-Roche L, Diaz-Batista A. et al. Effects of ozone therapy on haemostatic and oxidative stress index in coronary artery disease //Eur. J. Pharmacol. 2012, v.691, p.156-162.

21.Левченкова О.С., Новиков В.Е., Пожилова Е.В. Фармакодинамика и клиническое применение антигипоксантов //Обзоры по клин.фармакол. и лек.терапии. 2012, № 3, с.3-12.

22.Acalova G.İ., Həsənov X.İ., Qasımov Ş.H. İki valentli palladiumun qarışıqliqandlı komplekşləri. Bakı, 2019, 111 s.

23.Новиков В.Е., Крюкова Н.О., Новиков А.С. Гастропротекторные свойства мексидола и гипоксена // Эксперим.клин. фармакология. 2010, № 5, с.15-18.

24.Новиков В.Е., Левченкова О.С. Новые направления поиска лекарственных средств – антигипоксической активностью и ишемии головного мозга // Эксперим.клин. фармакология. 2013, , № 5, с.37-47.

25.Азизова А.Н., Тагиев Д.Б., Сулейманова Ф.Л. и др. Комплексы палладия (II) с 2-этил-6-метил-3-гидроксипиридинвом //Актуальные аспекты химической технологии биологический активных веществ // Сборник Научных Трудов. М., 2018, с.96-99.

26.Воронина Т.А. Антиоксидант-мексидол. Основные нейропсихотропные эффекты и механизм действия //Психиатрия и психофармакология. 2007, Т.9, № 4, С.4-7.

27.Курбанов А.И., Самойлова Н.Н., Станиенко Е.Н. Антигипоксическая активность новых производных 3-оксипиридина // Психофармакология и биологическая наркология, 2006, Т.6, № 1, С.1164-1170.

28.Travniçek Z., Srucova L., Popu J. Palladium coordination complexes in Cancer Chemoterapy //J.Inorg.Biochem. 2007, 101, № 3, p.477-492.

29.Петрович Ю.А., Сухова Т.В., Лемецкая Т.И. Результаты и перспективы применения мексидола в стоматологии // Стоматология, 2004, № 6, с.17-21.

30.Гончарева Н.Д., Маренин В.Ю. Стресс, старение и надежность антиоксидантной ферментной защиты //Вестник Российской военно-медицинской академии. 2008, № 3, С.480-483.

31.Suzuki K. Antioxidants for therapevtic use: why only a few drugs in clinical use //Adv Drug Deliv Rev. 2009, № 61 (4), p.287-289.

32.Синров А.В., Ингинс В.И., Кинзирский А.С., Кинзирская Ю.А. Изучение влияния мексидола на гемототоксичность, противоопухолевую и антиметастатическую эффективность циклофосфана //Вопросы онкологии, 2007, Т.53, № 6, с.711-714.

33.Власов А.П., Трофимов В.А., Березин В.А. Модификация обмена липидов при панкреатите под влиянием мексидола // Эксперим.клин. фармакология. 2003, № 1, С.40-45.

34.Winterboum C.C., Kettle A.J. Radical- radical reactions of superoxside; a potential route to toxicit // Biocnem Biophys Res Commun.- 2003, №305(3), p.729-736.

35.Tunca R., Pyridine induction of cytochrome P4501A1, INOS and metal-lothinen in Syrian hamsters and protective effective of silmarin //Exp.Pathol. 2009, № 61 (3), p.243-255.

36.Corbi P., Cagnin F., Sabeh L.P.B. Complexes Palladium vibration spectrum //Spectrochem. Acta, Pant A. Mol. Biomol. Spectrogcopy. 2007, 66, № 4-5, p.1171-1174.

Резюме

Координационные соединения и их роль в синтезе лекарственных веществ

И.М. Багиров

В статье представлен анализ собранной из литературных источников информации о координационных соединениях и их роли в синтезе лекарственных веществ. Показано, что синтез препаратов с антиоксидантными свойствами является приоритетным направлением фармации для купирования окислительного стресса в тканях. В этом направлении обращено внимание на важность изучения веществ, синтезированных на основе палладия, через координационные соединения и их биологическую активность.

Summary

Coordination compounds and their role in the synthesis of medicinal substances

I.M. Baghirov

The article presents an analysis of information collected from literary sources on coordination compounds and their role in the synthesis of medicinal substances. It has been shown that the synthesis of drugs with antioxidant properties is a priority direction in pharmacy for the relief of oxidative stress in tissues. In this direction, attention is drawn to the importance of studying substances synthesized on the basis of palladium through coordination compounds and their biological activity.

Daxil olub: 20.07.2022

Gec reproduktiv və premenopauzal dövrdə genital endometriozun müalicəsində diyenogest tərkibli preparatların effektivliyi

T.F. Cəfərova, S.Ə. Mürsəlova, X.P. Zeynalova, A.Ə.Qocayeva
Azərbaycan Tibb Universiteti, 1 Mamalıq və ginekologiya kafedrası, Bakı

Açar sözlər: endometrioz, çanaq ağrıları, progestinlər, diyenogest, müalicə.
Ключевые слова: эндометриоз, тазовые боли, прогестины, диеногест, лечение.
Key words: endometriosis, pelvic pain, progestin, diyenogest,treatment

Endometriozun inkişaf riskinin faktorları bilavasitə aybaşıların sayı və endometrium hüceyrələrinin qarın boşluğuna düşməsi ehtimalı ilə əlaqəlidir. Bu sıraya aybaşı qanının anomal axınını yaradan reproduktiv sistemin anomaliyaları da aiddir. Çox sayda doğuşlar,uzunmüddətli sikllər, qeyri-müntəzəm aybaşılar xəstəliyin inkişaf riskini azaldır; sonsuzluq, fertilliyin azalması, hamiləliklər arası intervalların artması bu ehtimalı çoxaldır [1]. Endometrioz – geniş yayılmış patologiyalardan biridir, reproduktiv yaşda olan 7-10% qadında rast gəlinir [2]. Hal-hazırda bu xəstəliyin hüceyrə yaxud molekulyar mənşəyi haqqında ümumi fikir yoxdur [3]. Genetik konsepsiya isə endometriozu üç sinifə aid genlərin anomal fəaliyyətinin nəticəsi kimi qiymətləndirir: 1) ksenobiotik metabolizmə qatılmış; 2) iltihab proseslərinə nəzarət edənlər;3)steroidlərin təsirini requlə edənlər [4,5].

Endometriozun patogenezi hal-hazırda axıra qədər araşdırılmamışdır, lakin onun molekulyar mexanizmlərinin araşdırılması bir sıra terapevtik yanaşmaların nəzəri əsasını təşkil edir. Endometrioz genetik əsaslanmış xəstəlikdir; hüceyrədaxili və hüceyrəarası proseslərin mübadiləsi nəticəsində endometrial hüceyrələrin uşaqlığın selikli qişasından kənarda implantasiyası üçün imkanlar yaranır.Bu anomaliyalar endometrioid heterotopiyaların fəaliyyətilə birgə endometrioz simptomlarının formalaşmasına səbəb olur [6].

Endometrial hüceyrələrin onlara yad olan mühitə implantasiyasına imkan yaradan əsas mexanizmlər immun sistemin ektopik toxumanı "dağıtmaq" bacarığı və endometrioid toxumanın pozulmuş differensiasiyasıdır. Bunun əsasını yerli hormonal homeostazın defekti yaradır. Estrogenlər endometrioid toxumanın fraqmentlərinin implantasiyasına və fəaliyyətinə imkan yaradır,bu da immun və iltihab proseslərinə bilavasitə təsir hesabına baş verir [7,8].

Endometrioid heterotopiyalarda estradiol və progesteron reseptorlarının ekspressiyasının azalması,progesteron reseptorlarının genetik determinasiyalı anomaliyaları aşkar olunmuşdur [9]. Bu proses toxumada proliferativ estrogen təsirlərin artması effektini yaradır(hormonal disbalans).

İltihab-endometrioid heterotopiyaların əsas xüsusiyyətidir;proses sitokinlərin,prostaqlandinlərin və başqa iltihablehinə maddələrin artıq sintezi nəticəsində baş verir. Onların ifrazı ağrının yaranmasına səbəb olur.Endometrioid ocaqları və onların sekresiya məhsulları tərəfindən peritonun müntəzəm olaraq qıcıqlandırılması nəticəsində fibroz bitişmələr formalaşır ki, bu da öz növbəsində fertillik qabiliyyətini azaldır və əlavə olaraq ağrı simptomunu artırır. Qarının aşağı nahiyələrində ağrılar endometriozlu xəstələrin ən geniş yayılmış şikayətidir. Belə şikayətlər müxtəlifdir,bu da prosesin lokalizasiyasından və yayılma dərəcəsindən asılıdır.Endometriozlu xəstələrdə ağrılar aybaşı zamanı, siklin ortalarında, yaxud da asiklik də başlaya bilər. Ağrı dəqiq lokalizasiyalı, bel, oma, büzdüm, anusətrafı sahə,aralıq nahiyələrinə də sirayət edə bilər. Ağrının nəzərəçarpan dərəcəsi həmişə subyektivdir,lakin ağrının intensivliyi haqqında xəstənin subyektiv təsəvvürləri müalicə taktikasının seçiminin əsasını təşkil edir [10].

Ginekoloji müayinə diaqnostikanın etibarlılığı üçün vacibdir və dinamikada uşaqlığın vəziyyətini, onun hərəkətliliyini, gərgin, ağrılı bitişmələri, uşaqlığın arxa sahəsində, oma-uşaqlıq bağları,yumurtalıqlarda müxtəlif ölçülü (sist) törəmələrin təyini üçün əhəmiyyətlidir. Lakin bu əlamətlər endometrioz patologiyasına spesifik deyillər və bir sıra başqa ginekoloji nozologiyalarda da rast gəlinə bilər. Qeyri-invaziv vizual müayinə üsullarından heç biri endometrioz diaqnozunu tam olaraq təsdiqləmir, yalnız diaqnostik laparoskopiya nəticəsində diaqnoz təsdiq oluna bilər; eyni zamanda laparoskopiya müalicənin ilkin mərhələsinə çevrilir [11]. Hal-hazırda müalicənin məqsədi - əsas simptomların, mümkün qədər uzun müddətə tamamilə azalması məsələsidir. Endometriozlu xəstələrin medikamentoz müalicəsi, hormonal terapiyanın zəruriliyi və məqsədyönlü uzun müddətli olması, müalicə preparatının seçilməsi indiyə qədər aktual olaraq qalır [12]. Endometrioz xronik residivşəkilli patoloji proses olduğuna görə konkret xəstənin uzunmüddətli müalicə planın tərtib edilməsini tələb edən xəstəlikdir;bu planın tərtibi terapiyanın simptomlarından və məqsədlərindən, o cümlədən, fertilliyin və həyat keyfiyyətinin bərpası problemlərinin

həll olunması baxımından vacibdir. Müalicə planlaşdırıldıqda endometriozla assosiasiya olunan, patogenetik cəhətdən əsaslandırılmış müalicə metodlarına üstünlük vermək lazımdır. Endometriozun klinik əlamətlərinin patogenezinə təsir göstərərək onları zəiflədən preparatları seçmək vacibdir [13]. Endometrioza həsr olunmuş beynəlxalq konqres və simpoziumların əksəriyyətində kombinə olunmuş oral kontraseptivlər (KOK) və progestinlər endometriozun müalicəsində ilk seçimin medikamentoz vasitələri kimi qeyd olunurlar. Lakin KOK-lar endometriozun müalicəsinə dair rəsmi göstərişlərdə qeyd olunmurlar və klinik sübut olunmuş effektivlik bazasına malik deyillər [14]. Nəzərə almaq lazımdır ki, KOK-ların uzunmüddətli istifadəsi endometriozu proqressivləşdirə bilər. Bunun əksi olaraq bir sıra randomizasiyalı nəzarətli tədqiqatlarda progestinlərin endometriozla bağlı xronik çanaq ağrılarının müalicəsi ilə yanaşı endometrial heterotopiyaların böyüməsinin qarşısının alınmasında da rolu sübut olunmuşdur [15]. Bu səbəbdən onları endometriozun müalicəsində ilk seçim preparatları kimi nəzərdən keçirtmək lazımdır. Qonadotropin-rilizinq hormonun aqonistləri endometriozun uzunmüddətli müalicəsində seçim preparatları kimi qiymətləndirilə bilməzlər, çünki onlar estrogenlərin defisiti ilə bağlı əlavə vazomotor effektlər yaradır və sümük toxumasının mineral sıxlığını azaldırlar. Progestinlər endometriozla bağlı estrogen-induksiyalı zədələnmələrin proliferasiyasının və ağrının azalmasının inhibitoru kimi alternativ variant olaraq tətbiq oluna bilərlər. Bu preparatlar amenoreyanı yaradaraq və aybaşı qanaxmasını dayandıraraq(həmçinin reflyuksu da), hətta onun ağırlığını azaldaraq eritrositlərin qarın boşluğuna düşən miqdarını da azaltmış olurlar. Bu da, kiçik çanaq boşluğunda sərbəst dəmirin və hemin yüksək miqdarda olması ilə bağlı yaranan iltihab prosesinin əsas mənbəyi olan oksidləşmə stresinin azalmasına imkan yaradır [16]. Diyenogest yeganə progestindir ki,xüsusi olaraq endometriozun müalicəsi üçün yaradılmışdır. Diyenogestin effektivliyi kompleks klinik tədqiqatlarda müntəzəm olaraq yoxlanılır [17].

Diyenogest (məsələn,Vizanna preparatı) 4-cü nəsildən olan, progesteron və progesteronabənzər birləşmələrin, eləcə də 19-testosteronun farmakoloji xüsusiyyətlərini birləşdirən progestagendir. Diyenogest estrogen və androgen effekt göstərməyərək eyni zamanda əhəmiyyətli dərəcədə antiandrogen effektə malikdir. Tədqiqatlar göstərmişdir ki,diyenogest endometrial hüceyrələrin stromasında sitokinlərin sekresiyasını zəiflədərək anovulyator və antiproliferativ təsir yaradır. Progestinlər endometrioid toxumanın böyüməsini inhibisiya edərək endometrioid implantların desidualizasiyasına və sonrakı atrofiyasına səbəb olurlar [18,19]. Preparatın əlavə mexanizmləri matriksin böyümə faktorlarını (metalloproteinazalar) zəiflədərək ektopik endometriumun implantasiyasını və angiogenezi inhibisiya edir [20,21]. Başqa bir tərəfdən diyenogest progesteronun B/A izoformalı reseptorlarının nisbətini artıraraq endometrioid toxumanın onlara qarşı həssaslığını da artırır. Diyenogest aromatazanın inhibisiyası hesabına endometrioid toxumada və yumurtalıq endometriomalarının stromal hüceyrələrində 1 tip 17-β-steroiddehidrogenazanın səviyyəsini azaldaraq endometrioid hüceyrələrin apoptozunu artırır,endometrioid stromal hüceyrələr tərəfindən iltihablehinə sitokinlərin sintezini əhəmiyyətli dərəcədə zəiflədir [22,23].

Hazırki tədqiqatımızın məqsədi gec reproduktiv və premenopauzal dövrlərdə endometriozlu xəstələrdə diyenogestin müalicə effektinin araşdırılmasdır.

Tədqiqatın material və metodları. Tədqiqata endometrioz səbəbindən laparoskopik əməliyyat keçirtmiş 38 (yaş göstəricisi 38-45 yaş arası) qadın qatılmışdır. Endometrioz diaqnozu kiçik çanaq orqanlarının və peritonun müayinəsi (laparoskopik üsulların istifadəsi ilə), aşkarlanmasından sonra bilavasitə əməliyyatın icrası və alınan materialın histoloji təsdiqi mərhələlərindən ibarətdir. Əməliyyatdansonrakı dövrdə daxili genital endometriozu olan xəstələrə diyenogest 2 mq dozada gündəlik və fasiləsiz rejimdə 6 aylıq müddətə təyin olunmuşdur. Əsas klinik əlamətlər çanaq ağrıları və ağrılı çoxmiqdarda aybaşılardır. Terapiyanın effektivliyi klinik mənzərənin, şikayətlərin, ginekoloji statusun vizual müayinə və US müayinə zamanı obyektiv qiymətləndirilməsində əks olunmuşdur. Müalicədən əvvəl bütün pasiyentlərdə USM endometrioz əlamətləri aşkar olunmuşdur:miometriumda hipoexogen, dəqiq kontursuz,müxtəlif ölçüdə və formalarda, endometrium toxumasına analoji olan boşluqlar.Bütün pasiyentlərdə uşaqlığın ön-arxa ölçüsü hesabına summativ olaraq uşaqlığın ölçülərinin böyüməsi qeyd olunmuşdur.

Tədqiqatın nəticələri və onların müzakirəsi. İlkin kontrol müayinə müalicənin başlanmasından 3 ay sonra icra olunmuşdur. Aybaşı funksiyasının xarakterinin qiymətləndirilməsi göstərmişdir ki, ilk 3 ay ərzində 12 (31,6%) nəfərdə cüzi asiklik qanaxma müşahidə olunmuşdur.Bütün pasientlərdə klinik yaxşılaşma (aybaşı vaxtı ağrının, bilavasitə çanaq ağrılarının və aybaşı qanaxmasının həcminin azalması) izlənilmişdir. Qeyd etmək lazımdır ki, uşaqlığın divarının quruluşunun və strukturunun yaxşılaşması prosesi 8 (21%) nəfər qadında bir qədər zəif inkişaf etmişdir.Bu qadınlarda xəstəliyin müddəti 10 ildən artıq davam edir; endometriozun yayılması və klinik əlamətlərinin təzahürü nəzərəçarpan olmuşdur. Diyenogest ilə terapiyadan 6 ay sonra bütün pasientlərdə davamlı remissiya qeyd olunmuşdur. Bu həm klinik əlamətlərin

olmaması (ağrı sindromu, aybaşı siklinin pozulmaları), eləcə də miometriumdakı patoloji dəyişikliklərin zəifləməsində özün göstərmişdir və USM təsdiq olunmuşdur. Müalicənin bitməsinə yaxın 6 (15,8%) qadında amenoreya qeyd olunmuşdur, 28 (73,7%) qadında aybaşı funksiyasında pozulmalar yaranmışdır. USM zamanı heç bir qadında exoqrafik olaraq endometrium hiperplaziyası qeyd olunmamışdır. Preparatın qəbulu fonunda damar-vegetativ reaksiyalar, o cümlədən istigəlmələr, baş ağrıları, dispepsik pozulmalar, depressiyalar,arterial hipertenziya, süd vəzilərində diskomfort, allergik reaksiyalar qeyd olunmuşdur. Bu səbəbdən heç bir pasientdə müalicə dayandırılmamışdır, nəzərəçarpan dərəcədə bədən çəkisinin artımı yaranmamışdır. Hal-hazırda cərrahi müalicə diaqnostik təsdiq olunmuş endometriozun yeganə müalicə üsulu deyil, belə ki endometriozun alternativ müalicə üsulu kimi hormonal terapiya da mövcuddur [24]. Endometriozun iki mərhələli müalicə strategiyası onun laparoskopik diaqnozunun təsdiqini,vizual aşkar olunmuş endometrioid ocaqlarının ilkin mərhələdə xaric olunmasını, ikinci mərhələdə isə uzunmüddətli hormonal supressiv terapiyanın tətbiqini nəzərdə tutur [25,26]. Progestinlər və progestintərkibli preparatlar(medroksiprogesteron asetat, dezogestrel, levonorgestrel azad edən uşaqlıq daxili vasitə «Mirena»), diyenogest endometriozun ən sınanmış müalicə preparatlarıdır [27]. Onları ümumi xarakterizə edən cəhət-endometriumun sekretor transformasiyasını yaratmaq xüsusiyyətidir. Bu preparatların uzun müddətli istifadəsi yumurtalıq steroidogenezini zəiflədir, anovulyasiya yaradır və ovarial steroidlərin qan zərdabında nisbi miqdarını azaldır. Hipoestrogen və hiperestrogen hormonal status vəzi epitelinin desidual transformasiyasına və atrofiyasına səbəb olur. Endometriozun müalicəsində progestinlərin effektivliyi onların farmakoloji xüsusiyyətlərindən, dozasından və istifadə rejimindən asılıdır. Diyenogest cox yaxşı mənimsənilmə profilinə malikdir, fasiləsiz rejimdə qəbul zamanı çanaq ağrılarının blokadasında yüksək effekt göstərmişdir [28]. Progestinlərin endometrioz ağrısının aradan götürülməsində effektivliyi qonadotropin-rilizinq hormonun (QnRH) aqonistləri və antiqonadotropinlərlə müqayisə olunan səviyyədədir. Diyenogest 19-norsteroid qrupunun (antiproliferativ effekt) və progesteron törəmələrinin (müsbət metabolik profil) xassələrinə malikdir. Bu xüsusiyyətlərin bir preparatda səciyyələnməsi diyenogest tərkibli preparatların uzunmüddətli istifadəsinə zəmin yaradır [29,30].

Tədqiqatımızın nəticələri göstərir ki, diyenogest optimal farmakoloji profilə malik olaraq stromal endometrioid hüceyrələrin proliferasiyasını və hüceyrələr tərəfindən iltihablehinə sitokinlərin sekresiyasını azaldır. Genlərin ekspressiyası, spesifik zülalların,sitokinlərin və böyümə faktorlarının vasitəsilə öz təsirini göstərərək, diyenogest, eyni zamanda, endometrioid heterotopiyaların hüceyrələrinin aktivliyinin azalmasını, neoangiogenezi zəiflədən bir proses yaradır. Preparatın endometrioid heterotopiyalara qarşı yüksək təsiri progestagen,antiestrogen və antiproliferativ effektlər ilə bağlıdır [31]. Müşahidə zamanı diyenogestin heç bir əlavə təsirləri qeyd olunmamışdır. Bəzi pasientlərdə - 6 nəfərdə (15,8%) sürtkü şəklində qanlı ifrazatlar olmuş, lakin müalicə müddətinin davamında bu əlamətlər yox olmuşdur. Normal aybaşı 32 qadında (84,2%), 4(11,3%) premenopauzal dövrdə olan qadında isə amenoreya qeyd olunmuşdur, bu da müsbət əlamət kimi qiymətləndirilməlidir. Heç bir qadında endometriumun hiperplaziyası qeyd olunmamışdır. Bu xüsusiyyət preparatın yalnız endometrioz ocaqlarına deyil, eləcə də endometriuma da müsbət təsirinin əlamətidir. Çoxsayda tədqiqatlar göstərmişdir ki, endometrioz-assosiasiyalı ağrı sindromunun müalicəsində 2mq/sut. dozada diyenogest 10 mq/sut. 2 dəfə qəbul olunan didrogesteronla müqayisədə daha effektlidir. Bu nəticə çox vacibdir,belə ki çanaq ağrıları endometriozun ən nəzərəçarpan simptomlarından biridir [32].

Yekun. Beynəlxalq ədəbiyyatda dərin infiltrativ endometriozun müalicəsinə və profilaktikasına aid sistemlı araşdırmalar artıq çoxdan mövcuddur. Progestinlər estrogenlərə qarşı əks-göstərişləri olan qadınlarda endometriozun uzun müddətli monoterapiyasında uğurla istifadə olunurlar.Dərin infiltrativ endometriozu olan qadınlarda diyenogestlə 2mq/sut. dozada 12 aylıq terapiya dispareuniya əlamətinin azalmasını göstərmişdir [33]. Progestinlər, o cümlədən diyenogest endometriozun ektopik ocaqlarını zəiflədir, lakin müalicə etmir. Beləliklə, onların effekti yalnız istifadə zamanı təsirlidir və simptomlar müalicə dayandırılandan bir müddət sonra yenə təzahür edir. Bu səbəbdən xronik xəstəlik kimi endometriozun müalicəsini uzun müddətə, menopauza başlanana qədər planlaşdırmaq lazımdır. Progestinlərin uzunmüddətli qəbulu üzərində əsaslanmış terapevtik strategiya müxtəlif tibbi müayinələrin sayını minimallaşdırmağa, cərrahi müdaxilənin maliyyə sərfiyyatını və riskini azaltmağa imkan verir. Problemin praktik həlli hər bir konkret halda operativ müdaxilə ilə konservativ terapiyanı müqayisə edərək uyğun müalicə üsulunu seçməkdir. Nəzərə almaq lazımdır ki, əgər hormonal terapiya müalicəsi başlanılıbsa,onu istənilən hamiləlik yaxud fizioloji menopauza vaxtına qədər davam etdirmək daha düzgündür [34]. Progestinlərin qəbulu operativ müalicəni bir çox hallarda istisna etməyə imkan verir və pasientin diqqətini bu amilə yönəltmək lazımdır. Eyni zamanda qeyd etmək lazımdır ki, əməliyyatın icrası

hələ tam olaraq xəstəliyin simptomlarının yox olması demək deyil. XX əsrdə endometriozun xronik xəstəlik kimi tanınması onun müalicəsində yeni araşdırmaların aparılmasını daha da intensivləşdirmişdir.

ƏDƏBİYYAT

1.Petraglia F., Harnung D., Seitz C. et al.Reduced pelvic pain in women with endometriosis:efficacy og long-term dienogest treatment // Arch Gynecol Obstet. 2012, v. 285(1), p.167-173

2. Ростовцева О.О., Волков В.Г., Паклина О.В. и др. Морфологическая, иммуногистохимическая и ультраструктурная характеристика синдрома хронической тазовой боли при наружном генитальном эндометриозе // Вестник новых медицинских технологий, 2014, №4, с.142-144.

3.Гинекология: национальное руководство / Под ред. Савельевой Г.М., Сухих Г.Т, Серова В.Н. и др. М.: ГЭОТАР-Медиа, 2017.

4. Practice Committee of the American Society for Reproductive Medicine.Treatment of pelvic pain associated with endometriosis:a committee opinion // FertilSteril., 2014, v.101, p.927-935

5.Vercellini P., Frontano G., Pietropaolo G. et al. Deep endometriosis: definition, pathogenesis and clinical management // J Am Assos Gynecol. Laparosc, 2014, v.11, p.153-161

6.Vercellini P., Carmignani L., Rubino T. et al. Surgery for deep endometriosis:a pathogenesis-oriented approach // Gynecol Obstet İnvest., 2009, v.68(2), p.88-103

7.Donnez J. İntroduction: From pathogenesis to therapy, deep endometriosis remains a sourse of controversy // Fertil Steril., 2017, v.108(b), p.869-871

8.Cao Q., Lu F., Feng W. et al. Comparison of complete and incomplete excision of deep infiltrating endometriosis // Int J Clin Exp Med., 2015, v.8(11), p.21497-21506

9.Dunselman G.A., Vermeulen N., Becker J. at al. ESHRE guidline: management of women with endometriosis // Hum.Reprod/2014, v.29, p. 400-412

10.Casper R.F. Progestin-only pills may be a better first-line treatment for endometriosis than combined estrogen-progestin contraceptive pills // Fertil Steril., 2017, v.107(3), p. 533-536

11.Сапрыкина Л.В., Доброхотова Ю.Н., Сапрыкина О.А. Эндометриоз: гормональная терапия с позиций патогенеза // Эффективная фармакотерапия, 2015, 25, с.42-47

12.Busacca N., Chiaffarina F., Candiani M. et al. Determinants of long-term clinically detected recurrence rates of deep,ovarian, and pelvic endometriosis // Am J Obstet Gynecol., 2006, v.195, c. 426-432

13.Donnez J., Binda M.M., Donnez O. et al. Oxidative stress in the pelvic cavity and its role in the pathogenesis of endometriosis // Fertil Steril., 2016, v.106, p. 1011-1017

14.Федотчева Т.А., Шимановский Н.Л. Роль гестагенов в лечении эндометриоза // Проблемы эндокринологии, 2018, №1, с.54-61

15.Strawitzki T., Faustmann T., Gerlinger C. et al. Dienogest in the treatment endometriosis-assosiated pelvic pain: a 12-week, randomized, double-blind, placebo-controlled study // Eur J Obstet Gynecol Reprod Biol., 2010, v.15(2), p.193-198

16.Andres Mde P., Lopes L.A., Baracat E.C. et al. Dienogest in the treatment of endometriosis:systematic review // Arch Gynecol Obstet., 2015, v.292(3), p.523-529

17.Bizarri N., Remorgida V. Leone Roberti Maggiore U. et al. Dienogest in the treatment of endometriosis // Expert Opin Pharmacother, 2014, v.15(13), p.1889-1902

18.Seraccioli R., Mabrouk M., Frasca C. et al. Long-term oral contraceptive pills and postoperative pain management after laparoscopic excision of ovarian endometrioma:a randomized controlled trial // Fertil Steril., 2012, v.94, p.464-471

19.Ruan X., Seeger H., Mueck A.O.T he pharmacology of dienogest // Maturitas, 2012, v.71, p.337-344

20.Hayashi A., Tanabe A., Kawabe S. et al. Dienogest increases the progesterone receptor isoform B/A ratio in patients with ovarian endometriosis // J Ovarian Res., 2012, v.5(1), p.31

21.Dobrokhotova J.E.,İlyina İ.J.,Grishin İ.İ.et al.Evaluation of dienogest treatment efficacy in patients üith endometriosis // Journal of Endometriosis and Pelvic Pain Disorders, 2017, v. 9(1), p.44-49

22.Lashke M.W., Menger M.D. Anti-angiogenic treatment strategies for the therapy of endometriosis // Hum Reprod Update, 2012, 18(b), p.682-702

23.Choi J., Jo M., Lee E. et al. Dienogest nhances autophagy induction in endometriotic cells by impairing activation of ACT, ERK 1/2 and mTOR // Fertil Steril., 2015, v.104(3), p. 655-664

24.Strawitzki T., Faustmann T., Gerlinger C. et al. Safety and tolerability of dienogest in endometriosis: poleed analysis from the European clinical study program // İnt J Womens Health, 2015, v.7, p.393-401

25.Romer T. Long-term treatment of endometriosis with dienogest:retrospective analysis of efficacy and safety in clinical practice // Arch Gynecol Obstet., 2018, v.298(4), p.747-753

26.Klipping C., Duijkers İ., Remmers A. et al. Ovulation-inhibiting effects of dienogest in a randomized, dose-controlled pharma codynamic trial of healthy women // J Clin Pharmacol., 2012, v.52(11), p. 1704-1713

27.Hatem T.H., Mohammed M.A., Fawzi H.A. Comparison of the Efficacy and Safety between Dienogest and Didrogesterone in Treatment of Endometriosis: Prospective Study // İnternational Journal of Science and Research (İJSR), 2018, v.7(3), p.1704-1707

28.Morotti M., Sozzi F., Remorgida V. et al. Dienogest in women with persistent endometriosis-related pelvic pain during norethisterone acetate treatment // EurJ Obstet Gynecol Reprod Biol., 2014, v.183, p. 188-192

29.Miyashita M., Koga K., Takamura M. et al. Dienogest reduced proliferation, aromatase expression and angiogenesis,and increases apoptosis in human endometriosis // Gynecol Endocrinol., 2014, v.30(9), p. 644-648

30.Buggio L., Lazzari C., Monti E. et al. Per vaginam" topical use of hormonal drugs in women with symptomatic deep endometriosis // Arch Gynecol Obstet., 2017, v.296(3) p.435-444

31.Министерство здравоохранения Российской Федерации. Клинические рекомендации. Эндометриоз. М., 2016

32.Оразов М.Р., Чайка А.В., Носенко Е.Н. Возможности негормонального патогенетического лечения хронической тазовой боли у женщин с аденомиозом // Медико-социальные проблемы семьи, 2013, №1(18)

33.Berlanda N., Samigliana E., Vigano P. et al. Safety of medical treatment for endomeriosis // Expert Opin Drug Saf., 2016, v.15(1), p.21-30

34.Mellado B., Falcone A., Poli-Neto O. et al. Social isoliation in women with endometriosis and chronic pelvic pain // J Gynecol.Obstet., 2016, v.132(2), p.199-201.

Резюме

Эффективность диеногестсодержащих препаратов в лечении генитального эндометриоза в позднем репродуктивном и пременопаузальном периоде

Т.Ф. Джафарова, С.А. Мурсалова, Х.Р. Зейналова, А.А.Годжаева

Факторы риска эндометриоза напрямую связаны с количеством менструальных циклов и вероятностью попадания клеток эндометрия в брюшную полость. Актуальным остается медикаментозное лечение больных эндометриозом, необходимость длительной целенаправленной терапии, выбор метода лечения. Прогестины можно использовать в качестве альтернативы ингибиторам пролиферации и уменьшения боли при эстроген-индуцированных поражениях,связанных с эндометриозом.Диеногест-единственный прогестин,специально разработанный для лечения эндометриоза.Эффективность диеногеста регулярно проверяется в комплексных клинических испытаниях.Целью настоящего исследования является изучение терапевтического эффекта диеногестина у пациенток с эндометриозом в позднем репродуктивном и пременопаузальном периодах.У 38 пациенток с внутренним генитальным эндометриозом в послеоперационном периоде диеногест назначали в дозе 2мг ежедневно в течение 6 месяцев без перерыва.Основными клиническими симптомами явились тазовые боли и болезненные менструации.Стойкая ремиссия после лечения диеногестом отмечена у всех пациенток. Диеногест имеет хороший профиль всасывания, оказывает большое влияние на блокаду тазовых болей при приеме в непрерывном режиме.

Summary

Effectiveness of dienogest-containing preparations in the treatment of genital endometriosis in the late reproductive and premenopausal period

T.F.Jafarova, S.A.Mursalova, Kh.R.Zeynalova, A.A.Gojayeva

Risk factors for endometriosis are directly related to the number of menstrual periods and the likelihood that endometrial cells will enter abdominal cavity. Drug treatment of patients with endometriosis, the need for and long-term purposeful hormonal therapy, the choice of treatment remains relevant. Progestins

can be used as an alternative to inhibitors of proliferation and pain reduction in estrogen-induced lesions associated with endometriosis. Diyenogest is the only progestin spesifically designed to treat endometriosis. The effectiveness of diyenogest is routinely tested in complex clinical trials.The aim of our current study is to investigate the therapeutic effect of diyenogestin in patients with endometriosis in late reproductive and premenopausal periods.In 38 patients with internal genital endometriosis in the postoperative period,diyenogest is prescribed in a dose of 2 mg daily for 6 months without interruption has been. The main clinic signs are pelvic pain and painful menstruation. Persistent remission was reported in all patients after treatments with diyenogest. Diyenogest has a very good absorption profile,has a high effect on the blockade of pelvic pain when taken in continuous mode.

Daxil olub: 20.07.2022

Uşaqlarda stafilokokk mənşəli bağırsaq infeksiyasının patogenezində intraleykositar mikrobisid sisteminin əhəmiyyəti və müalicənin təkmilləşdirilməsi

R.R. Bəylərova, E.Q. Orucova., M.M. Muxtarov, V.N. Cavadzadə, N.M. Xudaverdiyeva, G.A. Kərimova, X.Ə. Əhmədzadə
Azərbaycan Tibb Universiteti, yoluxucu xəstəliklər kafedrası, Bakı

Açar sözlər: Stafilokokk, uşaqlar, mədə-bağırsaq sistemi, immun sistem.
Ключевые слова: стафилококк, дети, желудочно-кищечная система, иммунная система
Key words: Staphylococcus, children, gastrointestinal system, immune system

Uşaqlarda yoluxucu xəstəliklərin, eyni zamanda stafilakokk infeksiyasının inkişafında orqanizmin reaktivliyi və qeyri-spesifik mühafizə faktorları çox mühüm rol oynayır. İmmun sistem orqanizmin genetik yad substansiyalara qarşı orqanizmin cavab reaksiyasını təmin edir. Orqanizmin infeksion agentlərdən (bakteriyalar, viruslar və s.) müdafiəsini təmin etməklə yanaşı, orqanizmin hemostazına, hüceyrələrin differensasiyasına, proliferasiyasına və s. kimi orqanizimdə gedən çox vacib proseslərə nəzarət edir.[2] Eyni zamanda immun sistemin hüceyrələrinin bütün orqanizmə yayılması, qan və limfa vasitəsilə bir çox hüceyrələrin orqanizmdə daima dövr etməsi və orqanizmə daxil olan antigenlərə qarşı yüksək spesifikliyə malik olan immunoqlobulinlər sintez edilməsi kimi çox vacib xüsusiyyətlərə malikdir.

Leykositlərin bir növü olam limfositlər immun sistemin əsas heceyrələri hesab edilir. Limfositlər qanda olmaqla bərabər, limfanın və limfoid orqanların əsas hissəsini təşkil edir və qanyaradıcı toxumada polipotent kök hüceyrələrdən əmələ gəlir. İki populyasiyaya B- və T-limfositlərə bölünürlər. İmmun sistem hüceyrələrinin bir-birinə təsiri onların səthi reseptorları və həll olunmuş maddələri – sitokinləri vasitəsilə həyata keçirilir. Sitokinlər zülal təbiətli kiçikmolekullu immunomediatorlar olub, immun sistem hüceyrələri tərəfindən (antigen stimulu nəticəsində) sintez edilərək, hüceyrələrarası qarşılıqlı əlaqələrin yaradılmasında iştirak edirlər. Əsasən qısa təsirli mediatorlardır, lakin bəzi iltihab sitokinlərinin interleykin (İL)-1, (şiş nekrozu amilləri (ŞNA) və s. təsir mexanizmi çox genişdir.

B-limfositlərin səthindəki reseptorlar əsasən immunoqlobulinlərdən, T-limfositlərdə isə digər zülallardan ibarətdir. İmmunokompetent hüceyrələrə T-və B-limfositlərlə yanaşı makrofaqlarda aiddir. Eyni zamanda eritrositlər, trombositlər, hepatositlər, sinir hüceyrələri və s. orqanizmin müdafiə reaksiyalarında müəyyən qədər iştirak edirlər.

Qeyd etmək lazımdır ki, qida borusundan başlayaraq, bütün mədə-bağırsaq boyunca tək-tək limfa follikulları yerləşir ki, bunlarda bağırsağın selikli qişasında yerli immuniteti təmin edir və bağırsaq

mikroflorasının tərkibini tənzimləyir. [3] Törədici orqanizmə daxil olduğu andan bu faktorlar infeksion prosesin inkişafının qarşısını almağa yönəlir.

Uşaq orqanizmi də qeyri-qənaətbəxş fakrorların təsirinə qarşı çox həssasdır. Uşaqlarda yerli və sistem immunitetinin tam formalaşmaması, mədə-bağırsaq sisteminin selikli qişasının keçiriciliyinin yüksək olması, eyni zamanda mədə şirəsi turşuluğunun azlığı kimi səbəblər belə təsirlərə qarşı bu orqanın daha çox həssas olmasına səbəb olur. Təbii immunitet göstəricilərinin mənfi istiqamərdə dəyişilməsinə təkcə hər hansı bir xəstəliyin səbəbi kimi deyil, bu xəstəliyin ağırlıq dərəcəsini müəyyən edən əsas patogenetik həlqə kimi baxılmalıdır.

Son illər tibb elminin inkişafina, aparılan bir çox uğurlu elmi tədqiqatlara baxmayaraq kəskin bağırsaq infeksiyalarının (KBİ) uşaqlar arasında çox yayılması ciddi problem kimi qalmaqdadır. [1] Belə ki, uşaq yoluxucu xəstəlikləri arasında yayılmasına görə KBİ kəskin respirator virus infeksiyalarından sonra ikinci yeri tutur. KBİ-nin əsas səbəblərindən sanitariya-maarif işinin aşağı səviyyədə aparılmasını, sanitar gigiyenik qaydalara düzgün əməl olunmamasını, vaxtında xəstələrə düzgün diaqnozun qoyulub müalicənin aparılmamasını və s. göstərmək olar. Eyni zamanda uşaqlarda immun sistemin zəif olması, orqanizmin tam formalaşmaması da əsas səbəblərdəndir [4]. Yaş dövrlərini nəzərə alsaq, bu infeksiyalar erkən yaşlı uşaqlar arasında daha çox yayılmışdır. Buna səbəb həm erkən yaş dövründə orqanizmin kompesator mexanizimlərinin tam formalaşmaması, qənaətbəxş premorbid fonun olmaması, qidalanmanın düzgün aparılmaması, həm də bu uşaqların digər şəxslərlə, əşyalarla məsələn oyuncaqlarla çox təmasda olmalarıdır.

Uşaqlarda olan KBİ-nin səbəblərinin müxtəlif olmasına baxmayaraq, onlarda əmələ gələn klinik simptomlar çox zaman oxşar olur. Uşaqlarda stafilokokk mənşəli bağırsaq infeksiyaları daha çox rast gəlinir. Xüsusən erkən yaş dövründə S. aureus mənşəli bağırsaq infeksiyalarının enterit, enterokolit formaları çox yayılmışdır.

Staphylococcus cinsinə aid olan bakteriyaların daha çox klinik əhəmiyyəti olan üç əsas növü vardır: Staphylococcus aureus, Staphylococcus epidermidis və Staphylococcus saprophyticus. Fakultativ anaeroblardır, xarici mühit təsirlərinə davamlıdırlar, onlarda tez bir zamanda antibiotiklərə qarşı rezistentlik yaranır və şəkərli mühitlərdə daha yaxşı inkişaf edirlər. Patogenlik amilləri hüceyrə komponentləri, aqressiya fermentləri və toksinlərdir. Toksinin dörd növü məlumdur. (alfa, beta, delta, qamma) S.aureus eyni zamanda eritrositləri lizisə uğradan bir neçə hemolizin sintez edir. Bunlardan delta-hemolizin bioloji membranlara təsir edərək, bağırsaq infeksiyaları zamanı diareyanın əmələ gəlməsinə səbəb olur. S.aures ştamları tərəfindən sitez olunan Toksiki şok sindromu toksini (TSST-1, digər adı F-enterotoksindir) T-limfositlərinin poliklonal stimulyasiyasına səbəb olaraq, toksik şokun əmələ gəlməsində əsas rol oynayır. Enterotoksinlərin də bəzi fraksiyaları S.aures tərəfindən sintez olunur və TSST-1 kimi superantigendirlər. Bu enterotoksinlər bağırsaq fermentlərinin təsirinə davamlı olmaqla, bağırsaq infeksiyalarının patogenezində əsas rol oynayırlar [5]. Belə ki, enterotoksinin 25 mkq-ı xəstələrdə çox güçlü ishal və qusmaya səbəb olur.

Qeyd etmək lazımdır ki, pirogen infeksiyalar (S.aures) zamanı polimorf nüvəli neytrofillər (PNN) orqanizmin müdafiəsində mühüm rol oynayır. Xəstəliklər zamanı orqanizimdə olan antiçisimlər leykositlərin törədicilərə qarşı faqositar aktivliyinin yüksəlməsinə səbəb olur. İnfeksion proseslərdə anticisimlərin və komplementin bakteriostatik təsiri, anticisimlərin törədicinin səthində yerləşmiş ferment sistemlərini blokada etməsi ilə əlaqədardır. Lakin faqositlərdə irsi və ya qazanılmış çatışmamazlıq olarsa, şərti-patogen törədicilər də xəstəliklərin ağır, xroniki formalarının əmələ gəlməsinə səbəb olur.

Göründüyü kimi bütün infeksion proseslər kimi bağırsaq infeksiyasının nəticəsi də orqanizmin immun sisteminin vəziyyətindən asılıdır. Ona görə də immun sistemi tam formalaşmamış uşaq orqanizmində baş verən bağırsaq infeksiyalarında müalicə mütləq orqanizmin immun sisteminin möhkəmlənməsi istiqamətində aparılmalıdır.

Tədqiqatın material və metodları. Tədqiqata bakterioloji olaraq stafilakokk infeksiyası təsdiq olunmuş 46 xəstə (1-3yaş) çəlb edilmişdir. Bu xəstələrdə klinik, laborator müayinələr aparılmışdır. Müayinələr Ə.F. Qarayev adina 2 saylı klinik uşaq xəstəxanasının III-cü yoluxucu şöbəsində aparılmışdır. Xəstələr 2 qrupa bölünmüdür: nəzarət və əsas qrup. Nəzarər qrupuna 22 xəstə, əsas qrupa isə 24 xəstə daxil edilmişdir. Nəzarət qrupuna daxil olan uşaqlara xəstəliyin ağırlıq dərəcəsinə uyğun olaraq, ümumi qəbul olunmuş müalicə (patogenetik, simbiotiklər, fermentlər, antibiotiklər, vitaminlər və s.) aparılmışdır. Bu qrupda olan 22 xəstənin 3 (13,6%) nəfərində yüngül, 7 (31,8%) nəfərində orta ağır, 12 (54,6%) nəfərində ağır dərəcəli stafilokokk etiologiyalı KBİ – sı olmuşdur. 11 (50%) uşaqda qastroenterit, 7 (31,8%) uşaqda enterit, 4 (18,2%) uşaqda isə enterokolitik forma müşahidə olunmuşdur. Əsas qrupa daxil olan 24 xəstələrdən 2 (8,3%) nəfərində yüngül, 8 (33,3%) nəfərdə orta ağır, 14 (58,4,%) nəfərdə isə ağır dərəcəli stafilokokk

mənşəli KBİ olub. Bu xəstələrdən 10 (41,7%) nəfərdə qastroenteritik, 9 (37,5%) nəfərdə enteritik, 5 (20,8%) nəfərdə isə enterokolitik formalar müşahidə olunmuşdur.

Cədvəl 1
Xəstələrin ağırlıq dərəcələri

Xəstəliyin ağırlıq dərəcəsi	Əsas qrup (n=24)		Nəzarət qrupuna (n=22)	
	Xəstələrin sayı	%	Xəstələrin sayı	%
Yüngül	2	8,3	3	13,6
Orta ağır	8	33,3	7	31,8
Ağır	14	58,4	12	54,6

Əsas qrupdan olan xəstələrə nəzarət qrupundan fərqli olaraq, ümumi qəbul olunmuş müalicə ilə bərabər Makvin – preparatı təyin edilmişdir. Bu preparatın seçilməsinin səbəbi tərkibində uşaq orqanizmi üçün vacib olan vitamin kompleksinin – Vitamin A, B qrup, D, E, K,C, zink, yod, manqan, selen, Beta qlükanın olmasıdır. Preparat uşaqların qəbulu üçün daha rahat olan sirop (150ml) formasındadır. Tərkibində olan Beta-Qlükan olan təbii polisaxariddir, immun mexanizmlərin aktivləşməsində mühüm rol oynayan immunomodulyatordur. Faqositozu aktivləşdirir, bakteriosid maddələrin ifrazını sürətləndirərək immun sistemin fəaliyyətini aktivləşdirir.

Hər iki qrupda xəstələrin fərdi xüsusiyyətlərini nəzərə alaraq eyni kompleks müalicə aparılmışdır və demək olar ki, klinik əlamətlərdə olan dəyişikliklər oxşar olmuşdur. Müalicənin 5-7-ci günlərindən qusma kəsildikdən sonra əsas qrupdan olan xəstələrə olunan ümumi müalicə ilə yanaşı yaşa uyğun olaraq, Makvin preparatı təyin edilmişdir. Bu xəstələrin klinik əlamətlərində, laborator göstəricilərində olan dəyişikliklər müşahidə olunmuşdur. Əsas qrupdan olan xəstələrdə nəzarət qrupu ilə müqayisədə klinik əlamətlər, laborator göstəricilər daha tez normallaşmışdır. Bu dəyişiklik orta ağır formalarda daha qabarıq olmuşdur. Belə ki, əsas qrupdan olan xəstələrdə nəzarət qrupu ilə müqayisədə ümumi intoksikasiya əlamətləri daha tez azalmış, iştahanın yaxşılaşması, aktivliyin artması, nevroloji əlamətlərin azalması müşahidə olunmuşdur. Eyni zamanda bağırsağın disfunksiyası əlamətləri – ishal, nəcisdə patoloji qarışıqların azalması, bağırsaq florasının normallaşmasının daha tez müşahidə olunması, nəzarət qrupu ilə müqayisədə əsas qrupda daha tez olmuşdur. Bu fərq 4-5 gün tez olmaqla əsas qrupa aid olan orta ağır və ağır xəstələrdə daha çox müşahidə olunmuşdur.

Beləliklə, uşaqlarda stafilokokk mənşəli bağırsaq infeksiyaları zamanı aparılan klinik, laborator müayinələrin nəticələri göstərir ki, xüsusilə immun sistemi zəif olan uşaqlarda kompleks müalicə ilə yanaşı mütləq polivitamin tərkibli immunmodulyatorlardan istifadə olunmalıdır. Belə ki, immuniteti zəif olan uşaqlarda Stafilokoklar makrofaqların daxilində qalaraq, əlverişli şərait olan kimi xaric olub yenidən patoloji proseslər törədirlər. Xəstəliyin xronikləşməməsi, residivlərin əmələ gəlməməsi üçün belə preparatlardan istifadə olunması məqsədəuyğundur.

ƏDƏBİYYAT

1. Vəliyev Ə.H., Əhmədova S.İ., İbrahimova G.X. Salmonelloz. Metodiki tövsiyə. Bakı, 2021.
2. Bəylərova R.R. Uşaqlarda kəskin bağırsaq infeksiyalarının müalicəsi. Dərs vəsaiti. Bakı, 2016.
3. Чимитова Ю.С., Елохина М.О.,Соловьева Т.Л. Исследование микрофлоры кишечники детей до года / Сборник научных трудов. Читинская государственная медицинская академия 2018, с.163-164.
4. Учайкин В.Ф., Нисевич Н.И., Шамшева О.В. Инфекционные болезни у детей. М.: ГЭОТАР. Медиа, 2007.
5. White J., Dogan T., Sweeney J. et al. Implementation of a Staphylococcus Aureus Screening and Decolonization Program in a Pediatrie Congenital Heart Center // American Journal of Infection Control, 2018, v.6, p. S74-S75.

Резюме

Значение интралейкоцитарной микробицидной системы в патогенезе стафилококковой кишечной инфекции у детей и совершенствование лечения.

Р.Р. Бейларова, Е.К. Оруджева., М.М. Мухтаров, В.Н. Джавадзаде, Н.М. Худавердиева, Г.А. Каримова, К.А. Ахмадзаде

Обследовано 46 больных (1-3 года) с бактериологически подтвержденной стафилококковой инфекцией. Проведены клинические и бактериологические исследования. 24 больным, включенным в основную группу, наряду с лечением в контрольной группе назначали препарат Маквин - (150 мл, витаминно-минеральный комплекс, Бета-Глюкан). У больных основной группы по сравнению с контрольной группой быстрее уменьшались симптомы общей интоксикации, улучшался аппетит, повышалась активность, уменьшалась неврологическая симптоматика и др. наблюдалось. При этом у больных средней и тяжелой степени тяжести устраняют диарею с явлениями кишечной дисфункции, уменьшают патологические примеси в кале, нормализуют кишечную флору и т. д. Таким образом, особенно у детей со слабой иммунной системой, наряду с комплексным лечением целесообразно применение иммуномодуляторов, содержащих поливитамины, для предупреждения перехода заболевания в хроническую форму и возникновения рецидивов.

Summary

The value of the intraleukocyte microbicidal system in the pathogenesis of staphylococcal intestinal infection in children and the improvement of treatment.

R.R. Beylarova, E.K. Orudzheva., M.M. Mukhtarov, V.N. Javadzade, N.M. Khudaverdieva, G.A. Karimova, K.A. Ahmadzadeh

46 patients (1-3 years old) with bacteriologically confirmed staphylococcal infection were examined. Conducted clinical and bacteriological studies. 24 patients included in the main group, along with treatment in the control group, were prescribed Makvin - (150 ml, vitamin-mineral complex, Beta-Glucan). In patients of the main group, compared with the control group, the symptoms of general intoxication decreased faster, appetite improved, activity increased, neurological symptoms decreased, etc. were observed. At the same time, in patients of moderate and severe severity, diarrhea with symptoms of intestinal dysfunction is eliminated, pathological impurities in the feces are reduced, intestinal flora is normalized, etc. Thus, especially in children with a weak immune system, along with complex treatment, it is advisable to use immunomodulators containing multivitamins, to prevent the transition of the disease into a chronic form and the occurrence of relapse

Daxil olub: 27.07.2022

Эпидемиологический профиль инфекции, вызываемой вирусом гепатита С среди контингента ВИЧ-позитивных лиц

И.З. Бабазаров
Азербайджанский медицинский университет, Кафедра Эпидемиологии, Баку

Açar sözlər: HCV infeksiyası, anti-HCV, epidemiologiya, İİV-müsbət şəxslər.
Ключевые слова: ВГС-инфекция, anti-HCV, эпидемиология, ВИЧ-позитивные лица.
Key words: HCV infection, anti-HCV, epidemiology, HIV-positive individuals.

Интерес к изучению инфекции, вызваемой вирусом гепатита С (далее ВГС-инфекция), никогда не угасал в силу ее широкого распространения в глобальных масштабах [1,2,3]. При этом, наряду с изучением прочих аспектов, пристальное внимание уделяется также изучению особенностей эпидемиологии. В этой связи, авторы проявляют значительный интерес сероэпидемиологии ВГС-инфекции не только в популяции в целом, но и в обособленных группах высокого риска парентерального заражения трансфузионными вирусными инфекциями (ТВИ) [4,5]. Таким образом, большой интерес представляет собой изучение эпидемиологического профиля ВГС-инфекции среди ВИЧ-позитивных лиц.

Поэтому данный вопрос широко изучается в развитых странах [6,7,8,9]. Так, исследования выявили неоднородность распространения ко-инфекций ВГВ/ВИЧ и ВГС/ВИЧ в зависимости от региона [10,11]. В нашей стране также проводились исследования на предмет изучения эпидемиологического профиля ВГВ- и ВГС-инфекций в группах высокого риска [5]. Тем не менее, следует отметить, что эпидемиологический профиль этих инфекций может подвергаться значительным изменениям вследствие внедрения программ элиминации вирусных гепатитов. Кроме того, исследований, посвященных изучению эпидемиологического профиля ВГВ- и ВГС-инфекции среди контингента ВИЧ-позитивных лиц в Азербайджане за последние пять лет, в доступной литературе обнаружить не удалось, что обусловливает актуальность настоящей публикации.

Целью исследования явилось изучение эпидемиологии ВГС-инфекции в группе ВИЧ-позитивных лиц.

Материалы и методы исследования. Исследование проводилось на базе Ширванской Центральной Городской Больницы Публичного Юридического Лица. Были проанализированы результаты тестирования на инфекцию, вызываемую вирусом гепатита С, 3189 ВИЧ-позитивных лиц, проводившегося в Республиканском Центре по Борьбе со СПИД-а, методом ELISA, с применением тест систем 3-го поколения с максимальными показателями чувствительности и специфичности на момент проведения исследований, под названием Bio-Rad (Франция). Возраст ВИЧ-позитивных лиц колебался в пределах от 1 до 83 лет. При этом средний возраст оказался равным 37,1 годам (95,0% доверительный интервал (ДИ) 36,7-37,5; стандартная ошибка среднего 0,2). Медиана возраста составила 36.0 лет (Процентиль 25 составил 29.0 лет; Процентиль 75 – 44,0 года). Были выделены следующие возрастные группы младше 5 лет, 5-14 лет, 15-17 лет, 18-25, 26-35, 36-45, 46-55, 56-65 и старше 65 лет. Изучались данные за пятилетний период времени от 01.01.2017 до 31.12.21. Контрольную группу составили 16173 безвозмездных донора крови, которые были обследованы в Ширванской Региональной ВИЧ Лаборатории на базе Ширванской Центральной Городской Больницы Публичного Юридического Лица, с применением тех же методов и тест-систем.

Территория проживания была условно разделена на 3 региона: 1-й регион – Баку, Сумгаит и Абшерон; 2-й регион – Ширван, Аджикабул, Сальян, Сабирабад, Саатлы; 3-й регион – другие районы.

Статистическую обработку полученных данных проводили с использованием программного пакета SPSS-26. При этом для определения уровня статистической значимости различий применяли Pearson Chi-Square Tests. Различия считали статистически значимым при $p<0,050$.

Результаты исследования. Соотношение мужчин и женщин в группе ВИЧ-позитивных лиц составило 2:1. Вероятно, этот факт объясняется более рискованным поведением мужчин по сравнению с женщинами.

Серопревалентность ВГС-инфекции в исследуемой группе составила 14,801% (95,0% ДИ, 14,172-15,43). При этом наблюдалось статистически значимые различия в уровнях

серопревалентности за один календарный год, который колебался в пределах от 15,466% до 22,669%. Однако четкая тенденция эпидемического процесса с течением времени как в положительную, так и в отрицательную сторону не прослеживалась. Наряду с этим, серопревалентность по ВГС-инфекции в контрольной группе составила 1,045% (95,0% ДИ, 0,965-1,125), т.е. в 14 раз реже, чем в исследуемой группе (p<0,001) (Таблица 1). Эта вполне ожидаемая особенность эпидемиологии ВГС-инфекции связана с тем, что ВИЧ-позитивные лица, в силу рискованного поведения, относятся к группе высокого риска заражения ТВИ по сравнению с ВИЧ-негативными.

Таблица 1
Серопревалентность по ВГС-инфекции в исследуемой и контрольной группе

			Группа		
			Контрольная n = 16173	ВИЧ-позитивных лиц n = 3189	Значение p
Тест на anti-HCV	Негативный	Число	16004	2717	p<0,001
		Процентная доля	98,955%	85,199%	
		Систематическая ошибка	0,080%	0,629%	
	Позитивный	Число	169	472	
		Процентная доля	1,045%	14,801%	
		Систематическая ошибка	0,080%	0,629%	

В исследуемой группе обнаружено выраженное доминирование мужчин по уровню серопревалентности ВГС-инфекции - 19,727% (95,0% ДИ, 18,864-20,59) по сравнению с женщинами - 4,977% (95,0% ДИ, 4,311-5,643) (p<0,001). Кроме того, имели место статистически значимые различия в уровне серопревалентности anti-HCV в различных возрастных группах. Так, наиболее часто anti-HCV выявлялись в возрастной группе 46-55 лет составив при этом 27,626% (95,0% ДИ, 25,654-29,598), меньше всех других – в группе 18-25 лет, процентная доля оказалась равной 2,703% (95,0% ДИ, 1,86-3,546) (p<0,001). Примечательно, что среди ВИЧ-позитивных лиц в возрасте старше 65 лет ВГС-инфекцию обнаружить не удалось.

Микст инфекции, которые включали ВГС-инфекцию, статистически значимо чаще встречались в исследуемой группе, чем в контрольной. Так, в исследуемой группе сочетание ВИЧ/ВГС встречалось с частотой 12,324% (95,0% ДИ, 11,742-12,906), ВИЧ/ВГС/ВГВ - 0,784% (95,0% ДИ, 0,628-0,94), ВИЧ/ВГС/ВГВ/Сифилис - 0,220% (95,0% ДИ, 0,137-0,303), в то время как в контрольной группе подобные микст-инфекции не встречались (p<0,001). Комбинация ВИЧ/ВГС/Сифилис имела место в 1,474% (95,0% ДИ, 1,261-1,687) случаев против 0,006% (95,0% ДИ, 0-0,012) в исследуемой группе (p<0,001). В месте с тем, микст инфекции чаще выявлялись среди мужчин 32,062% (95,0% ДИ, 31,049-33,075), чем среди женщин 10,329% (95,0% ДИ, 9,396-11,262) исследуемой группы (p<0,001).

Не выявлено статистически значимых различий в уровне серопревалентности в зависимости от географического региона (p=0,112).

Примечание. Учитывая асимметрию размера выборки исследуемой и контрольной групп, было применен метод прямой стандартизации, который подтвердил данные, полученные в ходе исследования.

Обсуждение. Благодаря изучению эпидемиологического профиля ТВИ в различных группах населения, представляется возможным выделить наиболее уязвимые контингенты - группы высокого риска**,** что в свою очередь позволяет оценить противоэпидемические мероприятия, направленные на борьбу с их распространением, а также повысить эффективность этих мероприятий с учетом особенностей условий жизни и поведения представителей этих групп. В качестве наглядного примера можно привести успешное и широкое применение программ по снижению вреда среди потребителей инъекционных наркотиков, включающих, помимо прочего, также безвозмездную выдачу одноразовых шприцев.

В контексте обсуждаемой проблемы следует подчеркнуть, что ВГВ- и ВГС-инфекции относятся к числу наиболее значимых причин заболеваемости и смертности среди ВИЧ-позитивных лиц. Кроме того, изучение эпидемиологического профиля этих инфекций среди ВИЧ-позитивных лиц обладает, помимо практического, также и важным теоретическим значением. Так, полученные

данные сравниваются с таковыми как по популяции в целом, так и по другим группам высокого риска [12].

В клинической практике ТВИ довольно часто встречаются в различных комбинациях - микст-инфекции. Наряду с этим, необходимо иметь ввиду, что против ТВИ ведется активная борьба на глобальном и государственном уровнях, которая ведет к изменению их эпидемиологического профиля. С этой точки зрения, следует отметить важность эпидемиологических исследований, проводимых в динамике, которые позволяют получить информацию о тенденциях эпидемического процесса, а следовательно, оценить и совершенствовать программы борьбы с ТВИ.

И наконец, хотелось бы отметить, что вопрос о том, имеются ли отличия в уровнях серопревалентности ВГС-инфекции в контингенте ВИЧ-позитивных лиц в зависимости от уровня ее серопревалентности в популяции в целом, открывает широкие просторы для проведения соответствующих научных изысканий.

Выводы:

1. Эпидемиологических исследований, проводимые в динамике позволяют получить информацию о тенденциях эпидемического процесса, открывая тем самым возможности для объективной оценки и совершенствования программы борьбы с ТВИ.
2. Полученные данные демонстрируют высокие уровни серопревалентности ВГС-инфекции в группе ВИЧ-позитивных лиц - 14,801% (95,0% ДИ, 14,172-15,43), а в контрольной группе - 1,045% (95,0% ДИ, 0,965-1,125), т.е. почти в 14 раз реже, чем в исследуемой группе ($p<0,001$);
3. Чаще всего anti-HCV выявлялись в возрастной группе 46-55 лет составив при этом 27,626% (95,0% ДИ, 25,654-29,598), реже всего – в группе 18-25 лет - 2,703% (95,0% ДИ, 1,86-3,546) ($p<0,001$), что связано с большей склонностью к рискованному поведению;
4. Проведенное исследование позволило выявить выраженные гендерные различия по уровню серопревалентности ВГС-инфекции. Так, anti-HCV выявлялись у 19,727% (95,0% ДИ, 18,864-20,59) мужчин и у 4,977% (95,0% ДИ, 4,311-5,643) женщин исследуемой группы ($p<0,001$).

ЛИТЕРАТУРА

1. Бабазаров И.З. Эпидемиологические особенности инфекции, вызываемой вирусом гепатита В среди контингента доноров крови // Sağlamlıq, 2022, N1, с. 138-142.
2. Мамедов М.К. О распространении вирусных гепатитов в Азербайджане // Инфекционные болезни: новости, мнения, обучение, 2019, №1, с.23-27
3. Керимов А.А., Гаджиева П.Ш. О частоте выявления серологических маркеров инфицирования вирусами гепатитов В и С среди доноров крови, живущих в Азербайджане // Биомедицина, 2017, № 1, с. 41-44.
4. Мамедов М.К., Дадашева А.Э., Михайлов М.И. Патогенетическая характеристика инфекций, вызванных вирусами гепатитов В и С у лиц из разных групп с высоким риском парентерального инфицирования этими вирусами // Эпидемиология и вакцинопрофилактика, 2012, N1, с.55-58
5. Мамедов М.К., Дадашева А.Э., Кадырова А.А. и др. Серологические маркеры инфекций, вызванных вирусами гепатитов В и С у жителей Азербайджане из групп с высоким риском парентерального инфицирования // Эпидемиология и вакцинопрофилактика, 2012, N.2, с.58-61.
6. Thio C.L., Seaberg E.C., Skolasky R. Jr. et al. HIV-1, hepatitis B virus, and risk of liver-related mortality in the Multicenter Cohort Study (MACS) // Lancet, 2022, v. 360(9349), p.1921-6.
7. Thio C.L, Smeaton L., Saulynas M. et al. Characterization of HIV-HBV coinfection in a multinational HIV-infected cohort // AIDS, 2013, v.27(2), p.191-201.
8. Coffin C.S., Osiowy C., Myers R.P. et al. Virology and clinical sequelae of long-term antiviral therapy in a North American cohort of hepatitis B virus (HBV)/human immunodeficiency virus type 1 (HIV-1) co-infected patients // J Clin Virol., 2013, v. 57(2), p.103-8.
9. Crowell T.A., Gebo K.A., Balagopal A. et al. Impact of hepatitis coinfection on hospitalization rates and causes in a multicenter cohort of persons living with HIV // J Acquir Immune Defic Syndr., 2014, v.65(4), p.429-37.
10. Koziel M.J., Peters M.G. Viral hepatitis in HIV infection // N Engl J Med., 2007, v.356(14), p.1445-1454
11. Chen J.J., Yu C.B., Du W.B. et al. Prevalence of hepatitis B and C in HIV-infected patients: A meta-analysis // Hepatobiliary Pancreat Dis Int., 2011, v. 10(2), p.122-127

12. Бабазаров И.З. О значении сведений об эпидемиологических и вирусологических особенностях инфекций, вызванных вирусами гепатитов В и С у медицинских работников в Азербайджане // Современные достижения азербайджанской медицины, 2021, N2, с.3-6.

Xülasə

İİV-pozitiv şəxslər arasinda hepatit c virusunu infeksiyasinin epidemioloji profili

İ.Z.Babazarov

Viral hepatit İİV-müsbət qrupunda xəstələnmə və ölüm hallarının mühüm səbəbidir. Bu infeksiyalar bir-birinin klinik gedişatına təsir göstərə bilər. Tədqiqatın məqsədi İİV-müsbət şəxslərin müxtəlif yaş, cins və regional qruplarında HCV (hepatit C virusu) infeksiyasının epidemioloji xüsusiyyətlərini və epidemik prosesinin tendensiyalarını öyrənməkdir. 3189 İİV-müsbət şəxsin (2124 (66,6%) kişi və 1065 (33,4%) qadın) qan müayinəsinin nəticələri toplanaraq təhlil edilib (01.01.2017-31.12.21). İİV infeksiyasının diaqnozu Western blotting üsulu ilə təsdiqləndi. HBsAg ELISA vasitəsilə aşkar edilmişdir. İştirakçıların yaşı 1 ilə 83 arasında dəyişirdi. Nəzarət qrupu 16173 ödənişsiz qan donorundan ibarət idi. Fərqlərin statistik əhəmiyyət səviyyəsini müəyyən etmək üçün Pirsonun $\mathbf{X}^2$ -kvadrat testindən istifadə edilmişdir. Fərqlər p<0.050-də statistik əhəmiyyətli hesab edildi. Tədqiqat qrupunda HCV infeksiyasının seroprevalentliyi 14,801% (95,0% CI, 14,172-15,43), nəzarət qrupunda isə 1,045% (95,0% CI, 0,965-1,125) (p<0,001) olmuşdur. İİV-müsbət kişilər arasında anti-HCV-nin yayılması İİV-müsbət qadınlarla müqayisədə statistik dürüst yüksək olmuşdur: 19,727% (95% CI, 18,864–20,59) 4,977% (95% CI, 4,311–5,604301p).

Summary

Epidemiological profile of infection caused by the hepatitis C virus among the hiv-positive individuals

I.Z.Babazarov

Viral hepatitis are an important cause of morbidity and mortality in the HIV-positive group. These infections can influence each other's clinical course. The purpose of this study is to study the epidemiological features and trends of the epidemic process of HCV infection in various age, gender and regional groups of HIV-positive individuals. The results of testing of 3189 HIV-positive persons (2124 (66.6%) men and 1065 (33.4%) women) were collected and analyzed (01/01/2017-12/31/21). The diagnosis of HIV infection was verified by Western blotting. HBsAg was detected using enzyme immunoassay (ELISA). The age of the participants ranged from 1 to 83 years. The control group consisted of 16173 unpaid blood donors. Pearson's chi-square test was used to determine the level of statistical significance of differences. Differences were considered statistically significant at p<0.050. The seroprevalence of HCV infection in the study group was 14.801% (95.0% CI, 14.172-15.43), while in the control group it was 1.045% (95.0% CI, 0.965-1.125) (p< 0.001). Among HIV-positive men, the prevalence of anti-HCV was statistically significantly higher than among HIV-positive women: 19.727% (95% CI, 18.864–20.59) vs. 4.977% (95% CI, 4.311–5.643) (p<0.001). HCV seroprevalence among HIV-positive individuals is 14.801% (95.0% CI, 14.172-15.43).

Daxil olub: 30.07.2022

Ağciyərlərin xronik obstruktiv xəstəliyi ilə yanaşı ürəyin işemik xəstəliyinin klinik-instrumental xarakteristikası

V.A.Abdullayev
Elmi-tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu, Bakı

Açar sözlər: Ağciyərlərin xronik obstruktiv xəstəliyi, ürəyin işemik xəstəliyi, EKQ
Ключевые слова: хроническая обструктивная болезнь легких, ишемическая болезнь сердца, ЭКГ
Key words: chronic obstructive pulmonary disease, ischemic heart disease, ECG

Ağciyərlərin xronik obstruktiv xəstəliyi pulmonologiyanın an aktual problemlərindən biridir. Müxtəlif ekzogen və endogen faktorların güclənməsi şəraitində həmin problem daha kəskin şəkildə qarşıda durur. Bu xəstəliyin ürək-damar sistemi xəstəliyi ilə tez-tez yanaşı olması qeydə alınmışdır. Hər iki xəstəlik qarşılıqlı olaraq bir-birini ağırlaşdırır və müalicənin çətinləşməsinə səbəb olur.

Fikrimizcə, ağciyərlərin xronik obstruktiv xəstəliyi ilə yanaşı ÜİX olan xəstələrin düzgün müayinə alqoritminin tərtib olunması və müalicə sxeminin işlənib hazırlanması üçün ilk növbədə əsas klinik-instrumental və laborator göstəricilər öyrənilməlidir.

Tədqiqatın məqsədi ağciyərlərin xronik obstruktiv xəstəliyi ilə yanaşı ürəyin işemik xəstəliyinin əsas klinik-instrumental göstəricilərin öyrənilməsi və müqayisəli təhlilinin aparılmasıdır.

Tədqiqatın material və metodları. Tədqiqat işi 234 xəstənin klinik-instrumental müayinəsi əsasında aparılmışdır. Bütün müayinə olunanlar 3 qrupa bölünmüşlər: I qrup (nəzarət qrupu) ACXOX olan 121 xəstə, II qrup (əsas qrup) ACXOX ilə yanaşı ÜİX olan 118, ÜİX olan 116 xəstə. Onların orta yaş həddi 62,5±1,7 olduşdur.

Tədqiqat işimizin qeyd olunan məsələ ilə bağlı göstricilərin təhlili üçün biz II qrup (ACXOX+ÜİX, n=114) və III qrup (ÜİX n=116) xəstələr arasında müqayisələr aparmışıq.

Aparılan elmi tədqiqatlar, qeyri-yoluxucu xəstəliklərə aid edilən ürək-damar xəstəlikləri, onkoloji, endokrin xəstəlikləri və şəkərli diabet kimi patologiyaların insanların qidalanması ilə əlaqəsi olduğunu göstərmişdir. Bir sıra somatik xəstəliklərin patogenezində orqanizmin əsəb, endokrin, immun sistemlərinin fəaliyyətinin pozulmasında da qidanın rolu qeyd olunmuşdur [1].

Tədqiqatçılar tərəfindən bu xəstəliklərin çox vaxt balanslaşmamış qidalanma ilə bağlı olduğu müəyyən olunmuşdur, başqa sözlə, qidalanma ilə orqanizmin funksional fəaliyyətini təmin edən orqan və sistemlər arasında sıx əlaqə mövcuddur. Qida maddələrinin həddən artıq miqdarda qəbul edilməsi, irsiyyət və ekoloji əlverişsizlik orqanizmin bir çox həyati vacib funksiyalarına təsir edir və müxtəlif xəstəliklərin yaranmasına səbəb olur. Qida orqan və toxumaların inkişafında, onların daim təzələnməsində rol oynayır, insan üçün enerji mənbəyi funksiyasını yerinə yetirir. İnsan orqanizmində fizioloji funksiyaların və metabolik reaksiyaların pozulması müxtəlif patoloji sindromların və xəstəliklərin əmələ gəlməsinə səbəb olur [2].

Orqanizmin yaşaması üçün zəruri şərtlərdən biri də onun qida ilə təmin olunmasıdır, yəni, orqanizmin müxtəlif qidalara, vitaminlərə, mineral duzlara və suya ehtiyacı vardır. Orqanizmə daxil olan qida maddələri bir sıra mürəkkəb fiziki-kimyəvi dəyişiklilklərə məruz qalaraq hüceyrə və toxumaların istifadə edə biləcəyi şəklə düşür. Həmin maddələrin dəyişməsi həm fərdin böyümə və inkişafına, həm də istifadə olunan enerjinin yerini dolduran çox mühüm fizioloji proseslərə səbəb olur. Xarici mühitdən orqanizmə daxil olan qida maddələrinin qana və limfaya daxil olmasını nazik bağırsaqların divarında yerləşən xovlar təmin edir. Nazik bağırsaqlar sekretor, motor, evakuator, hidrolitik, sorma kimi müxtəlif funksiyaları yerinə yetirir və sağlam yaşamaya xidmət edir.

Düzgün qidalanma yalnız kaloriyə nəzarət və ya sərt pəhrizə əməl etməkdən ibarət deyil, burada əsas şərt orqanizmin tam dəyərli rasionla təmin olunmasıdır. Bu məqsədlə rasiona ət məhsulları, dənli bitkilərdən yarmalar, meyvə və tərəvəzlər daxil edilməlidir.

Biokimyəvi baxımdan insan orqanizminin orqan və toxumaları, onların fəaliyyətini tənzimləyən 2,5 milyon müxtəlif biomolekul və mediatordan ibarətdir. İnsan orqanizminin fəaliyyəti üçün vacib olan 20 minə qədər müxtəlif nutriyent və fizioloji aktiv birləşmələr (su, makro və mikroelementlər, qida lifləri, oliqosaxaridlər, vitaminlər, proteinlər, amin turşuları, peptidlər, nuklein turşuları, fosfolipidlər, yarım doymamış yağ turşuları və s.), kofaktorlar, ferment və başqa bioloji aktiv maddələr - ekzogen qida məhsulları və endogen olaraq, həzm sistemi hüceyrələrinin və simbiotik mikrobiotanın fəaliyyəti orqanizmi lazım olan maddələrlə təmin edirlər.

Orqanizmdə çatışmayan nutriyent və fizioloji maddələr, simbiotik bağırsaq mikrobiotası vasitəsilə təmin olunur. Nazik bağırsaqda metabolizmə uğramayan qida maddələri (polisaxaridlər, oliqosaxaridlər, qlükoproteinlər), ölmüş eukariotik və mikrob hüceyrələri yoğun bağırsaqda yerləşən mikroorqanizmlər üçün substrat olurlar. Bifedo-laktobakteriyalar və b. sağlam adamın bağırsağında yaşayaraq. törəyib artırlar. Bunlar həzmedici funksiyaları ilə yanaşı B_1, B_2, B_6, B_{12}, PP və K vitaminləri sintez edirlər. Bundan başqa, burada sellülozanın bir hissəsi mikroorqanizmlərlə sadə karbohidratlara parçalanaraq qana sorulurlar. Bağırsaqların mikrobiotasının fəal şəkildə saxlanılmasında ən yaxşı vasitə turş süd qida məhsullarıdır, meyvələrin, giləmeyvələrin və tərəvəzlərin tərkibində olan pektin və sellülozadır [3].

Beləliklə, orqanizmin lazımi nutriyentlər və digər fizioloji aktiv maddələrlə təminatı onların balanslaşdırılmış qida ilə təminatından və simbiotik mikrobların vəziyyətindən asılıdır. Orqanizmin simbiot

mikrobiotası qida komponentlərinin parçalanması və çatışmayan maddələrin əmələ gəlməsini təmin edən trofik homeostazdır [4].

Nutriyentlər və genlər arasında molekulyar qarşılıqlı əlaqənin tədqiqi, diet komponentlərinin müəyyən şəraitdə orqanizmin eukariotik və prokariotik hüceyrələrinə necə təsir etməsini müasir mövqedən anlamağa imkan verir. Orqanik məhsulların və funksional qida sənayesinin inkişafı ayrı-ayrı qrupların və şəxslərin fərdi xüsusiyyətlərini, yaşayış və iş şəraitini nəzərə alaraq, həyat keyfiyyətini yaxşılaşdırmağa imkan verir. Qida məhsullarından texnoloji əlavələri kənarlaşdıraraq, həmin qidalarla qəbul edilən nutriyentlərin miqdarını və nisbətini dəyişərək, həyati proseslərini tənzimləmək olar. Müasir insanlar öz sağlamlığını qorumaq üçün orqanik və ixtisaslaşdırılmış qida maddələrindən (BFƏ və FQƏ) istifadə edirlər.

Əksər xəstəliklərin profilaktikasında və müalicəsində funksional qida maddələrinin və bioloji fəal əlavələrin böyük tibbi-sosial əhəmiyyəti var. Müasir insanın qidasının statusunun pozulmasında bu xəstəliklərin etiopatogenezi böyük rol oynayır. Bu pozulmalarla əlaqədar bir sıra xəstəliklərin əmələ gəlməsi də məlumdur. Rasionda vitaminlərin, mineral maddələrin, qida tellərinin, bitki yağlarının və bir çox mikronutriyentlərin əhəmiyyətli dərəcədə çatışmazlığının şəkərli diabetin, piylənmənin və s. əmələ gəlməsində pandemik xarakter daşıması da məlumdur. Eləcə də, immundefisiti, allergik vəziyyət, birləşmiş toxumaların və mədə-bağırsaq traktı xəstəliklərinin meydana gəlməsinə səbəb olan bir çox hallar da səmərəsiz qidalanmanın nəticəsidir. Belə vəziyyət çox böyük tibbi-iqtisadi xərclərin artmasına, əmək qabiliyyətinin aşağı düşməsinə, xəstəliklərin səviyyəsinin yüksəlməsinə səbəb ola bilər.

Xronik xəstəliklərin müalicəsində, uzun müddətli dərman terapiyası çox vaxt fəsadların meydana gəlməsi və dərmanlara öyrənmə ilə nəticələnir. Bununla belə məlumdur ki, tam dəyərli dietalar maddələr mübadiləsini yaxşılaşdırır, bir çox xəstəliklər üçün riski əhəmiyyətli dərəcədə azaldır. Uzun illər möhkəm sağlamlığın saxlanılmasında müxtəlif ölkələrin alimləri belə nəticəyə gəliblər ki, müasir qidalanma mədəniyyəti hələ özü-özlüyündə insan orqanizmini lazım olan mikronutriyentlərlə təmin etməyə şərait yaratmır, cəhd göstərib qidalanmanın miqdarını, həcmini artırmaq isə heç bir nəticə vermir, belə halda piylənmə, şəkərli diabet, ürək qan-damar və digər xəstəliklər əmələ gəlir. Bunun səbəbi bir tərəfdən müasir dövrdə insanların qida statusunun gözə çarpan dərəcədə dəyişməsi və təbabətin bir tərəfliliyi, digər tərəfdən isə qidalanmada bioloji əlavələrin geniş istifadəsinə yol verilməsidir. Yaranmış belə vəziyyətdə və funksional qida məhsulları bioloji fəal əlavələrin geniş istifadəsinə yol verilməlidir.

1980-ci illərdə tədqiqatçı alimlər tərəfindən tərkibində fizioloji aktiv qida maddələri olan bioloji aktiv əlavələr və funksional qida məhsulları işlənib hazırlanaraq dünya bazarına buraxılmışdır [5].

Bioloji aktiv əlavələr (BAƏ), yəni qida ilə eyni vaxtda istifadə edilən və ya qida məhsullarının tərkibinə daxil edilənlərdir. BAƏ-nin qidaya qatılması üçün quru və ya maye konsentrat, ekstraktlar, cövhərlər, balzamlar, tozlar, həblər, draje, kapsul və s. formada hazırlanır. Qidaya qatılan BAƏ nutrisevtiklərə (qida dəyərinə malik olanlar) və parafarmasevtik (bioloji aktivliyə malik olan) qruplarına bölünürlər.

Nutrisevtiklər – essensial element olub, təbii qida inqridientləridir. Vitaminlər, yarım doymamış yağ turşuları, fosfolipidlər, mineral maddələr, mikroelementlər, əvəz olunmayan amin turşuları, bəzi mono- və disaxaridlər və qida lifləri (sellüloza, pektin və s.) bu qrupa aid edilən maddələrdir [6].

BAƏ-nin qidada tətbiqi geniş yayılmış piylənmə, ateroskleroz, ürək-damar, immun çatışmazlığı vəziyyətlərinin ilkin v ə təkrar pəhriz profilaktikasının effektli üsuludur.

Parafarmasevtikalar – müxtəlif maddələrin tətbiq edilməsidir, dərman və bitki qidalarından, heyvan hüceyrələrindən, kimyəvi və biotexnoloji üsullarla alınan maddələrdir. Onlar profilaktik məqsəd daşıyır, orqanizmin möhkəmlənməsini təmin edirlər, dərman preparatlarına yaxın olub, yalnız dozalarına görə fərqlənirlər.

Aparıcı nutrioloqlar və klinisist tədqiqatçıların rəyinə əsasən insan orqanizminə müsbət təsir edən funksional qida məhsulları immun sistemini möhkəmləndirir, həzm sistemini fəaliyyətini artırır və bəzi xəstəliklərin profilaktikasında istifadə olunur. Funksional qida məhsulu dedikdə qida məhsullarına əlavə edilən preparat və bioloji əlavələr nəzərdə tutulur ki, bunlar da insan orqanizminin plastik, strukturlu, enerjili materiallarla təmin edilməsi ilə yanaşı, ən çox homeostazın saxlanması üçün sistemlərin funksiyalaşmasının tənzimlənməsinə köməklik edir [7, 8].

XX əsrin sonunda yeni dünyəvi "Sağlam qidalanma" konsepsiyası qəbul olunmuşdur, bu konsepsiyanın əsasında "Probiotiklər və funksional qidalanma" proqramı durur.

FQM-nın çox hissəsi süd məhsullarının payına (60-70%) düşür. Onlara enteritlər, aşağı laktozalı və laktozasız məhsullar, asidofil qarışıqlar, probiotik məhsullar, bioloji aktiv əlavələr, nutriyentlərlə zənginləşdirilmiş məhsullar aiddir.

Funksional məhsullara aşağıdakı inqredientlər aiddir:

- B, C, D və E vitamin qrupları;
- Təbii karotinoidlər (karotinlər və ksantofillər), ən vacibi isə β-karotinlər;
- Mineral maddələr (Ca, Mg, Na, K, Fe, Se, K_2);
- Ballast maddələr – buğda, alma və portağalın sellüloza, hemisellüloza lignin və pektin formasında qida lifləri;
- Bitki və heyvan mənşəli protein hidrolizatlar;
- Doymamış yağ turşuları;
- Katexinlə, antosianlar;
- Bifidobakteriyalar (bifidobakterin, laktobakterin və s.).

Fizioloji finksional qida inqredientlərinə bioloji aktiv və fizioloji dəyərli qida elementləri aiddir ki, bunlar da insanın sağlamlığının qorunması və yaxşılaşdırılması üçün faydalı xüsusiyyətlərə malikdir. Belə qida inqridientlərinə vitaminlər, mineral maddələr, qida lifləri, yarımdoymamış yağ turşuları, probiotiklər, prebiotiklərş sinbiotiklər və digər birləşmələr aiddir [9, 10].

Vitaminlər funksional inqredient kimi qidalanmada mühüm rol oynayır. Onlar fermentlərin tərkibinə daxil olur və maddələr mübadiləsində iştirak edərək, orqanizmin immun sistemini möhkəmləndirirlər. Onlar həzm aparatının normal işi, qan əmələ gəlməsi və orqanların normal funksiyası üçün, həmçinin orqanizmin radiasiya, kimyəvi, toksik təsirlərdən qorunması üçün vacibdir.

Mineral maddələr – funksional qida inqredienti olaraq, hüceyrə arası mayenin osmotik təzyiqini sabitləşdirir, əzələ, əsəb fəaliyyətini yaxşılaşdırır, fermentləri aktivləşdirir, hormonların miqdarını nizamlayır, oksigeni ötürür, qan yaranmasında iştirak edir.

Qida lifləri - spesifik fizioloji xüsusiyyətə malik olub, bağırsağın fəaliyyətini stimullaşdırır, toksik maddələri absorbsiya edir, lipid mübadiləsini intensivləşdirir, bağırsaq mikroflorasının tərkibini normallaşdırır, xolesterinin qana sorulmasının və çürümə prosesinin qarşısını alır.

Sellüloza - həzm prosesinin sekretor fəaliyyətinə aktiv təsir edərək nazik və yoğun bağırsaqların keçiriciliyini artırır. Sellülozanın bağırsaqda parçalanması zamanı həll olan birləşmələr əmələ gəlir. Pektin molekulu ağır metalların (qurğuşun, kobalt, civə, sink, xrom və s.) ionları ilə qarşılıqlı təsirdə olub, onların orqanizmdən xaric olunmasında iştirak edir. Pektin bağırsağın faydalı mikroorqanizmlərinin fəaliyyətini stimullaşdırır və zərərli bakteriyaları kənarlaşdırır. Yarımdoymamış yağ turşuları hüceyrə membranının vacib komponentləridir, hüceyrənin təzələnməsində vitaminlərin, hormonların sintezində, bir çox mübadilə proseslərinin nizamlanmasında iştirak edirlər (linol, linolin, araxidon turşuları).

Probiotiklər – canlı mikroorqanizm və ya fermentləşmiş məhsul olub insanın sağlamlığına, mikroekoloji statusunun normallaşdırılmasına müsbət təsir göstərir. Bunlara xüsusi asidofil çubuqlar, bifidobakteriya, termofil süd turşusu, streptokokklar, metabolit törədicilər, fermentlər və bioloji aktiv maddələr aiddir [11].

Funksional qida məhsulu olan probiotik və prebiotiklərin insan sağlamlığı üçün əhəmiyyəti böyükdür. Belə ki, bağırsaq mikrobiotasını gücləndirməklə bir çox xəstəliklərin profilaktikasında mühüm rol oynayır.

Nazik və yoğun bağırsaqda əsas funksiyanı yerinə yetirən çox müxtəlif bakteriya növləri vardır. Onlar orqanizmi zərərli bakteriya və göbələklərdən qorumağa kömək edir. Araşdırmalara əsasən faydalı bakteriyaların immun sisteminin fəaliyyətinin gücləndirildiyi, depressiya əlamətlərini minimuma endirdiyi, eləcə də piylənmənin qarşısının alınmasında rolu olduğu müəyyən edilmişdir. Həm probiotiklərin, həm də prebiotiklərin lazımi miqdarda istehlakı bağırsaq mikrobiotasını sağlam saxlayaraq bakteriyaların balansını tənzimləməyə kömək edir. Probiotiklər müəyyən qidalar və əlavələrdə olan canlı bakteriyalardır. Ən geniş yayılmış ştamlara lactobacillus, bifidobakterium aiddir. Süd məhsullarından qatıq və fermentasiya nəticəsində əldə edilmiş kefir tərkibində faydalı bakteriyalar olan probiotik qidalar sayılır. Fermentasiya olunmuş qidalar liflər üzərində inkişaf edən faydalı bakteriyaları topladığı üçün tövsiyə olunur [12, 13].

Prebiotiklər insanların həzm edə bilmədiyi karbohidrat növlərindən (əsasən liflərdən) yaranır bağırsaqdakı faydalı bakteriyalar bu liflərlə qidalanır. Belə ki, prebiotiklərin qida əlavəsi formasında deyil, tərəvəz, meyvə, paxlalılar olaraq təbii şəkildə istehlak edilməsi daha məqsədəuyğundur. Prebiotik liflə zəngin olan qidalar – qoz, fındıq, badam, kətan toxumu, lobya, noxud, banan, giləmeyvə, yulaf və s.-dir.

Simbiotiklər – probiotik və prebiotiklərin müştərək kombinasiyasıdır.

Üzvi turşular (alma, limon, şərab, süd və s.) qida lifləri ilə birlikdə bağırsaqda çürümə və qıcqırmanın qarşısını alır. Onlar həzm sisteminə qıcıqlandırıcı təsir göstərir, limfanın dövr etməsini yaxşılaşdırır, qan dövranını stimullaşdırır, zərərli maddələrin kənarlaşdırılmasına kömək edirlər. Limon və alma turşuları qanda və toxuma mayesində mübadilənin turş məhsullarının toplanmasına maneçilik törədirlər.

Bioflavinoidlər (kversetin, rutin, piknogenol və s.) antioksidant aktivliyinə malikdirlər, eləcə də antibakterisid, antivirus, immunstimullaşdırıcı, damar genişləndirici təsir göstərirlər. P vitamini aktivliyinə

malik olan flavinoid birləşmələr, xüsusilə katexinlər qan damarlarını möhkəmlədir, kapillyarların kövrəkliyinin qarşısını alır. Qlikozidlər ürək-damar sisteminə müsbət təsir edir, mədə keçiriciliyini artırır.

Qida texnologiyası sahəsində qazanılan uğurlar artıq bu gün xammalın tərkibinə və xüsusiyyətinə görə qiymətli eynicinsli qida inqredientlərinin fraksiyalaşmasına imkan yaradır ki, bunun da əsasında yüksək keyfiyyətli funksional məhsul alınması mümkün olur.

Qeyd etmək lazımdır ki, funksional qida məhsulları ənənəvi qida maddələrinə malik olmaqla yanaşı, insanın sağlamlığına müsbət təsir etməli, orqanizmdə gedən müəyyən prosesləri nizamlamalı və bəzi xəstəliklərin qarşısını ala bilmək xüsusiyyətinə malik olmalıdır [14].

ƏDƏBİYYAT

1. Qasımov M.S., Namazova A.A., Səmədzadə A.Z. Sağlam qidalanmanın elmi əsasları. Dərslik, Bakı, 2014, s. 36-197
2. Панюшин С.К. Участие симбиотической макрофлоры в обеспечении энергетических потребностей человека. М., 2012, p. 250-273
3. Шендеров Б.А. Метабиотики – новая технология заболеваний, связанных с микроэкологическим дисбалансом человека // Ж. Вестник восстановительной медицины, 2017, №4, с. 40-49
4. Blant M., Clavel T. Metabolic Diversitu of the intesinal mikrobiota // Nutr. 2007, v. 137, p. 751-758
5. Шендеров Б.А. Пробиотики, пребиотики и симбиотики. Общие и избранные разделы проблемы // Пищевые ингредиенты. Сырые добавки, 2005, №2, с. 23-36
6. Козлов А.И. Пища людей. Фрязино Век-2., 2005, 272 с.
7. Доронин А.Ф. Функциональное питание. М: Грань, 2002, с. 295
8. Мюррей М.Т. Целительная сила пищи. Ростов-на-Дону, Феникс, 1997, с. 640
9. Qasımov M.S., Qurbanova K.A., Namazova A.A., Səmədzadə A.Z. Azərbaycan milli mətbəxində pəhriz və əhalinin səmərəli qidalanmasının bəzi məsələləri. Bakı, 2017, s. 600-651
10. Галыткин В.А., Кочеровец В.И Фармацевтическая микробиология, Учебник, М: Арнебия, 2015, 236 с.
11. Уголев А.М. Теория адекватного питания и трофология. М.: Наука, 2001, с. 50-75
12. Novik G.I., Samaztsev F.F. et al. Biological Activity of Probiotic Mikroorqanizms // Appl. Biochem Mikrobiol, 2006, v. 42, №2, p.166-172
13. Əliyev Ə.H., Baxşəliyev A.V., Məhərrəmov S.A., Əliyeva F.Ə. Qidalanma və həzm fiziologiyası. Dərslik, Bakı, 2009, s. 54-140
14. Cəfərov F.N., Fətəliyev H.K. Funksional qida məhsullarının texnologiyası Dərslik. Bakı, 2014, s.2-36

Резюме

Роль биологически активных добавок и функциональных продуктов в рацион питания

С.Ф.Эфендиева, Г.И.Махмудова, Т.И.Гаджиева, М.И.Алили, А.Х.Бабаева

В представленном обзоре обосновывается важность включения в состав традиционных диет органических и функциональных продуктов питания, биологически активных добавок к пище, способных помимо удовлетворения энергетических и пластических потребностей, контролировать и оптимизировать конкретные физиологические функции, восстанавливать диетический и микроэкологический дисбаланс современного человека.

Summary

The role biologicallu aktive additives and functional foods in diet

S.F.Afandiyeva, G.İ.Mahmudova, T.İ.Hacıyeva, M.İ.Alili, A.H.Babayeva

The present review demonstates the impontance of including organic and funksional food products, biologically active food supplements in traditional diets, Which, in addition to meeting energy and plastic

needs, can control and optimize specific physiological functions, restore the dietaru and microekological imbalans of a modern person.

Daxil olub: 15.08.2022

Autoimmun qeyri-spelikli qesifik xoralı kolitin kliniki və selikli qişada gedən sitomorfoloji dəyişikliklərin özəl xüsusiyyətləri

A.A.Rüstəmov
Azərbaycan Dövlət Tibb Universitetinin Elmi-Tədqiqat Mərkəzi, Bakı

Açar sözlər: qeyri-spesifik xoralı kolit, klinik göstəricilər, selikli qişa, sitomorfoloji müayinələr
Ключевые слова: *неспецифический язвенный колит, клинические показатели, слизистая оболочка, цитоморфологические исследования.*
Key words: nonspecific ulcerative colitis, clinical indicators, mucous membrane, cytomorphological studies

Xroniki qeyri-spesifik xoralı kolit, yoğun bağırsağın selikli qişasında inkişaf edən xora və qanlı ishal zədələnmələr ilə səciyyələnən uzun sürən iltihabi prosesdir. Xəstəliyin qeyri-spesifikliyi onun inkişafında xüsusi bağırsaq koli infeksiyalarından şiğella və salmonella qrup bakteriyalarının təsirinin olmaması ilə əlaqələndirilir.

Qəbul olunmuş qidanın mədə fermentlərinin və turşuluğunun təsirindən ximizmə uğramış həzm kütləsindən zülallar və karbohidratlar bir başa nazik bağırsaq xovlarından qana keçirlər. Yağlar isə limfa cibinə yığılaraq özülülüyü azaldılmaqla limfa axarları vasitəsilə qana sovrularaq hüceyrə metabolizmində iştirak edirlər. Həzmin son məhsulları isə yoğun bağırsağın fəaliyyət stukturlarından sayılan çömçəciklərin və kasacıqların hündürlüklərinin, selikli qişanın, aypara büküşlərinin, limfositlərin qədəhəbənzər hüceyrələrin ifraz etdikləri şirələrin və boylama həlqəvi əzələ liflərinin təqəllüsü nəticəsində düz bağırsağın anal hissəsinin sütunları və büzücü əzələnin vasitəsilə orqanizmdən xaric edilir. Yoğun bağırsağın köndələn çəmbər və böyük S-ə bənzər hissələri mezoperitonal üzv olduqlarından bağırsağın mütəhərrikliliyinin daha da artıraraq ifrazat prosesinin yüngülləşdirir [2].

Yuxarıda qeyd olunanları nəzərə alaraq yoğubn bağırsağın xoralı iltihabi xəstəliyinin diaqnostikası, müayinəsi, müalicəsi və profilaktikası xüsusi aktuallılıq kəsb edir.

Xəstəliyin kliniki laborator bakterioloji və istrumental diaqnostik müayinə üsulları bunlardır:

- Qanın leykoformula ilə ümumi və biokimyəvi analizi
- Qanın infeksiyalara görə sterilliyinin təyini
- Nəcisin kofroloji və parazitlərə görə ümumi analizi
- Patoloji prosesin yayılma dərəcəsinin müəyyənləşdirilməsi məqsədi ilə qastrointestinal rentgenoqrafiyası
- Kolonno fibroendoskopiya bu yoğun bağırsağın tərkib hissələrinin müayinəsinə uyğun olaraq aşağıdakı növlərə ayrılırlar.
- Proktosiqmoidoskopiya düz və S-ə bənzər bağırsağın müayinəsi və köndələn çənbər
- Qalça bağırsağın ileoskopiya, transferziyo adlanır.

- Yoğun bağırsağın selikli qişasının xoralı iltihabında patoqnomatik mexanizmlər immune allergic rol oynayırlar. Kompleks etioloji müxtəlif faktorlara aşağıdakılar aiddir.
- Bağırsaqda infeksiya törədən bakteriyalar və ibtidailər
- Hüceyrədaxili toksoplazmalar və xlamidiyalar
- əksər hallarda bağırsaq keçməzliyi ilə fəsadlaşan helmintozlar
- uzunmüddətli nəzarətsiz isteroid mənşəli dərmanların qəbulu və bakterioz
- xroniki alimentar toksiko infeksiyalar
- vərəm mikobakteriol intoksikasiyalar
- irsi genetik ailəvi meyllilik
- yoğun bağırsağın davamlı hematolimfogen mənşəli mikrosirkulyator distrofiyaları
- kəskin emosional stress faktorları

Etioloji faktorların təsirindən selikli qişada iltihabi və struktural dəyişikliklər əsasən allergik və autoimmun reaksiyalarla izah olunur. Müxtəlif allergen və antigenlərin əmələ gətirdikləri autoantitellərin birləşməsindən formalaşan immun kompleks iltihabi, eroziyanı, petexiyaları və xoranı formalaşdırırlar. Qeyri-spesifik xoralı kolit aşağıdakı əlamətlərinə görə təsnif olunur.

1) Lokalizasiyasına görə proktid, proktosiqmoidit, sol tərəfli kolit regionar kolit və total kolit
2) Ağırlığına görə yüngül, orta ağır və ağır dərəcəli formalar.

Yüngül formada sutkada 3-5 dəfə az miqdarda qan, selik qarışığı olan dəyişilmiş nəcis ifrazı, kafi vəziyyət fonunda taxirkardiya əlaməti. Orta ağırlıq dərəcəsində kafi ümumi vəziyyət fonunda sutka ərzində 5-8 qədər tezləşmiş qanlı və selikli defekasiya aktı ilə yanaşı anemiya hərarətin 38 dərəcəyə qədər yüksəlməsi və taxikardiya xarakterikdir. Ağır formada kal kütləsinə kifayət qədər qarışmış qan selik və irinlə müşayət olunan sutka ərzində 8-dən artıq ba. Verən defekasiya aktı. Ümumi vəziyyətin ağırlaşması fonunda bədən hərarətinin 38 dərəcədən yüksək olması, taxikardiya və anemiyanın artması xarakterikdir. Xəstəliyin gedişinə əsasən kəskin, xroniki və residivləşən formalar ayırd edilir.

Xəstələri bağırsaq tərəfindən və ondan kənar şikayətlər narahat edir. Bağırsaq simptomlarına müxtəlif intensivlikdə qarında olan ağrılar və nəcislə qan qarışığı ilə müşayət olunan defekasiya aktıdır. Ağrılar əksərən qarının sol kənarı boyunca yayılaraq illiosekal nahiyəsini də əhatə edir. Defekasiya aktı isə sutkada 5-8 dəfə olmaqla müəyyən dərəcədə selik və irinlə qarışmış, formalaşmış nəcis kütləsindən ibarət olur. Bəzən də bağırsaqlarda gurultulu gücənmələrlə başlayan peristalik pozğunluqlar fonunda nəcis ifrazına çağırış olunur. Ekstra intestinal şikayətlərdən, bədən hərarətinin yüksəlməsi, baş ağrıları, ürək bulanmaları, iştahanın zəifləməsi, fiziki yorğunluq, arıqlama, halsızlıq, gecə tərləmələri, görmənin zəifləməsi və aşağı ətraf oynaq ağrı əlamətləri üzə çıxır [1].

Xəstələri fizikal müayinədə onların astenik bədən quruluşu fonunda dərinin solğun çəhrayı rəngdə olması nəzərə çarpır. (65%) Dərialtı piy təbəqəsi və əzələ sistemi zəif inkişaf edirlər. Bədənin distal hissələrində qaşınma ilə müşayiət olunan düyünlü eritamo səpkilərlə dərinin sərtləşməsi aşkar olunur. Bunlar ishal və dehidratasiya nəticəsində elektrolit mübadilənin pozulması ilə əlaqələndirilir. Yoğun bağırsağı anatomik proyeksiya üzrə palpasiya etdikdə ağrıların nəzərə çarpma dərəcəsində görə proktosiqmoidal nahiyələrdə intensiv bağırsağın gərginliyi ilə sinxron olur. Bu vəziyyət yoğun bağırsaq fraksiyalarının hipotonik, hiporeflaktor və müxtəlif həcmli bağırsaq möhtəviyyatının enakulyasiyasının disbalansı ilə izah olunur. Defekasiya aktı stabil və iştaha zəifliyi ilə yanaşı ağır tənzimlərlə müşayiət edilir. Ağır hallarda anus ətrafında çatlıqlar və babasil əlamətləri nəzərə çarpır (25%). Qeyri-spesifik xoralı kolitin toksiki alergik autoimmun faktorlarının orqanizmin bağırsaqdankənar sistem orqanlarına aşağıdakı disfunksional patoloji dəyişikliklər formalaşdırır. Ürək-damar sistemi tərəfindən taxikardiya, aritmiya və ürək tonlarının karlaşması fonunda müxtəlif mənşəli küylər eşidilir.

Sümük əzələ sistemində fəqərələrin spondiliti və bel ağrıları ilə keçən bağ əzələ sərtləşməsi baş verir. Ucqar ətraf oynaqlarında hərəkətin məhdudlaşması ilə gedən deformasiyalı, ağır hallarda isə ankiloz müşayiət olunan artralgiyalar inkişaf edir. Mərkəzi sinir sistemi dəyişikliklərindən baş ağrısı, yuxusuzluq, özünəqapanma halları narahatlıq doğurur. Görmə orqanlarında vizual itililiyin azalması ilə müşayiət olunan uveit əlamətlər nəzərə çarpır. Xəstələrin laboratir və instrumental müayinə vasitələri aşağıdakı nəticələri göstərir.

- Qanın ümumi və biokimyəvi analizləri-leykositoz, retikulositoz, EÇS-nin artması, dəmirin və hemoqlobinin azalması, bazafil leykositlərin artması, disproteinemiya, C-reaktiv zülalın yüksəlməsi və qaraciyərin funskional test dəyişikliklərini göstərirlər.
- Qanın qidalı mühitdə əkilmə sterilliyində stafilokok mikrop üstünlük təşkil edir. Fekal kütlənin koproloji müayinəsində selik, irin və leykositlərlə yanaş həll olunmamış əzələ lifləri və müxtəlif parazit

helmintlər göstərilir. Qarın boşluğunun rentgenoloji müayinəsində tətbiq edilən enterokolonoqrafiyada nazik yoğun bağırsaqların selikli qişalarında gedən iltihabi dəyişikliklərlə yanaşı obstruktiv və meqakolon kimi patoloji əlamətlər təyin edilir.

Yoğun bağırsağın kolonno fibroendoskopiyası düz S-ə bənzər və köndələn çənbər bağırsaqların selikli qişalarında ödemi, eritemanı, selikli irini, eroziyanı, müxtəlif diametrli xoraları, bağırsaq qıvrılmaları və çay daşına bənzər makroskopik patoloji dəyişiklikləri göstərir. Selikli qişadan götürülmüş bioptatın histomorfoloji analizində isə bağırsaq kriptilərinin pozulması, diffuz iltihab, panet hüceyrə metaplaziyası və bazol hüceyrə plazmositozu kimi metabolik dəyişikliklər təyin edilir [3].

Xəstəlik aşağıdakı oxşar sindromlu yoğun bağırsağın patologiyalarıilə differensiyası tövsiyə olunur.

1) Kron xəstəliyi
2) Hormonal mənşəli kolit
3) İşemik kolit
4) Radiasyon etiologiyalı kolit
5) Solitar qızıqlanma sindromlu kolit

Mədənin selikli qişasında mövcud olan müxtəlif növlü xoralar. Xəstələri qida qəbulundan 30 dəqiqə əvvəl baş verən intensiv ağrılar, ürəkbulanma, ağır hallarda isə qusma ilə nəticələnən simptomlar narahat edir. Ağrılar əsasən turşu, quru və kobud qidaların qəbulundan sonra daha da kəskinləşir. Bağırsaqlar tərəfindən uzun sürən qəbizlik və defekasiya aktının ləngiməsi xarakterizə olunur. Sinir sistemi tərəfindən əsəbililik, ümumi zəiflik, tərləmə, baş ağrısı narahat edir. Obyektiv müayinədə ağrılar əsasən piloroduodenal zonada təyin edilir. Qastrofibroskopiya isə selikli qişada müxtəlif ölçüdə olan hiperemiyalı lokal əsaslı, səthi ərplə örtülmüş xoralar aşkarlanır. Histoloji müayinədə selikli qişada hüceyrə deformasiyası nəticəsində onun qalınlığının nazikləşməsi bəzən də atrofiyalaşması nəzərə çarpır. Makroskopik olaraq xoranın ətrafı ödemləşir və deformasiyalaşmış görünür. Sekretor funksiyanın müayinəsində turşuluğun və fermentlərin artması müşahidə edilir ki, bu da mədədə xoranın formalaşmasında patogenetik rol oynayan amillərindən sayılır.

Xoralı kolitin qarnı sol tərəfli ağrıları ilə müşayət olunan pankreatitlə də differensasiyası tövsiyə olunur. Xoralı kolit kimi bağırsaq infeksiyalarının inkişafında mədəaltı vəzinin fermentlərinin çatışmazlığı da mühüm əhəmiyyət daşıyır. Belə ki, fermentlərin çatışmazlığı qida həzminin bağırsaqda son məhsula qədər parçalanıb sorulma prosesinin pozulması nəticəsində inqriqentlərin qana daxil olunması çətinləşdiyindən selikli qişada uzun müddətli morfoloji əlamətlər özünü biruzə verir. Nəticədə selikli qişada distrofik dəyişikliklər müxtəlif növlü eroziyaların və xoraların formalaşmasına zərurət yaradır. Pankreatit zamanı palpasiyada ağrılar qarının sol tərəfində lokallaşır. Palpasiyada ağrılar göbəklə sol qabırğanı birləşdirən xətt üzrə təyin olunur ki, bu da Meyo-Robson simptomu adlanır.

ƏDƏBİYYAT

1. Белоусов А.С., Водолагин В.Д., Жаков В.П. Диагностика, дифференциальная диагностика и лечение болезней органов пишеварения. М.: «Медицина», 2002, с.424
2. Горгун Ю.В., Портянко А.С., Мараховский Ю.Х. Диагностика и консервативная терапия язвенного колита: справочник Видаль Специалист в Беларуси. Избранные разделы лиагностики и лечения гастроэнтерологических заболеваний. М.: ЗАО «ЮБМ Медика Рус», 2012, с.609-618
3. Рудой А.С., Нехайчик Т.А., Бова А.А. Современные подходы к диагностике и лечению спондилоартритов: учебно-методическое пособие. Минск: БГМУ, 2015, с.108
4. Семонкин Е.И. Колопроктология. М.: «Медпрактика», 2004, с. 234с.

Резюме

Клинические особенности аутоиммунного неспецифического язвенного колита и цитоморфологические изменения слизистой оболочки

А.А.Рустамов

Неспецифический язвенный колит характеризуется болью в животе, тошнотой, диареей и стулом с примесью слизи, гноя и крови. Больных беспокоят такие внекищечные симптомы, как снижение аппетита, слабость, физическая слабость, похудание, тахикардия, повышение температуры тела. В общем анализе крови выявляют анемию и ускорение СЭГ. Биохимический анализ показывает снижение диспротеинемии, функциональных показателей печени и повышение С-реактивного белка

(СРБ). В коагулограмме обнаруживается достаточно слизи, гноя, лейкоцитов, паразитов и различных видов гельминтов. Эндоскопическая колонобиофиброскопия выявляет отек, эритему, эрозии и язвы различного типа на слизистых дистального отдела протосигмовидной и поперечной ободочной кишки. При микроскопическом исследовании биоптата кишечника выявляют нарушение кишечных крипт, диффуное воспаление, метаплазио клеток Панета и признаки базально-клеточного плазмоцитоза. Заболавание осложняется стойкой анемией, мегаколоном и анальными трещинами.

Summary

Clinical features of autoimmune non-specific ulcerative colitis and cytomorphological changes in the mucous membrane

A.A. Rustamov

Nonspecific ulcerative colitis is characterized by abdominal pain, nausea, diarrhea and stool mixed with mucus, pus and blood. Patients are concerned about extraintestinal symptons such as decreased appetite? Weakness? Physical weakness. weight loss, tachycardia and increased body temperature. General blood analysis reveals anemia and acceleration of EHS. Biochemical analysis shows a decrease in dysproteinemia, liver functional indicators and an increase in C-reactive protein (CRP). In the coagulogram, enough mucus, pus, leukocytes, parasites and various types of helmints are found. Endoscopic colonobiofibroscopy reveals edema, erythema, erosion and ulcers of various types in the mucous membranes of the distal proctosigmoid and transverse colon. Microscopic examination of the biopsy shows disruption of the intestinal crypts, diffuse inflammation, metaplasia of panet cells and signs of basal cell plasmacytosis. The disease is complicated by persistent anemia, megacolon and anal fissures.


Daxil olub: 10.08.2022

Taenia saginata helminti mənşəli mexaniki sarılıq (klinik müşahidə)

B.İ. Sadıqov, İ.N. Qasımova, A.N. Ağakişiyev, X.Q. Hüseynova
Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi, Qastroenterologiya şöbəsi, Bakı

Açar sözlər: öküz soliteri, Taenia saginata, müayinə, endoskopik retroqrad pankreotoxolangioqrafiya, papillasfinkterotomiya
Ключевые слова: солитер, Taenia saginata, обследование, эндоскопическая ретроградная панкреатохолангиография, папилласфинктеротомия
Key words: tapeworm bull, Taenia saginata, examination, endoscopic retrograde cholangiopancreatography, papillasphincterotomy.

Bizim regionun daxil olduğu Asiyada endemik olaraq öküz soliteri - Taenia saginata (şəkil 1) tez-tez rast gəlinən helmintlərdəndir [1]. Çox hallarda bu parazitləri insanlar asimptomatik keçirsə də, bəzi hallarda qastroenteroloji əlamətlər-anal qaşınma (77%), ürəkbulanma (46%), abdominal ağrı (43%), başgicəllənməsi (43%), tez acıma (30%) müşahidə edilir [2]. Daha az rast gəlinən simptomlardan biri də parazitin öd yollarına və öd kisəsinə keçməsindən ibarətdir [3,4]. Bu zaman kəskin daşsız xolesistit, xolangit və pankreatitin meydana gəlməsinin müşahidə etmək mümkündür ki, bu da cərraahi müdaxilələrə səbəb olur [5]. Parazitar mənşəli mexaniki sarılıq az rast gəlinən patologiyalardandır. Xolestaza daha çox askaridoz zamanı rast gəlinir.Helmintlərin diaqnostikasında ən invaziv instrumental metod ultrasəs müayinəsidir. Bu metod helmintlərın öd yolları və pankreasda aşkarlanmasına kömək edir. Digər instrumental metodlardan qastroduodenoskopiya və endoskopik retroqrad pankreatoxalangioqrafiyadır ki, bu zaman həm də helmintlərin çıxarılmasına nail olunur [6].



Şək. 1. Tanea saginata: A – başı; B – gövdəsi; C – çoxalma orqanı

Klinik müşahidə. Klinikamıza müraciət edən pasiyent qadın 80 yaşında kəskin sağ qabırğaaltı ağrılar, qaşınma, sarılıq şikayətləri ilə daxil olmuşdur. Analizlər: bilirubin düz 8,76 mg/dL (norma 0,10-0,50), qeyri-düz bilrubin 2,74 mq/dl (norma 0-0.90), total bilrubun 11,5 mq-dl (norma 0,20-1,30). Qamma qlutamil-transferaza 531 U/L (5-36), qlobulin 37,6 g/L (norma 15-35), amilaza 644 U/L (20-160). Kreatinin 0,88 mg/dL (norma 0.50-0.30), laktatdehidrogenaza (LDH) 272 U/L (norma 90-240), Aspartat aminotransferaza (AST) 257 İU/L (norma 12-50), alanin aminotrasferaza (ALT) 249 İU/L (norma10-28) protein total 74,1 g/L (norma 60-81), qlükoza (aclıq) 175 mg/dL (norma 83-100) ,xolesterol total 247 mg/dL (norma 140-200). CA 19-9 (pankreas və kolon Ca) nəticə 178.2 U/mL (norma 0-35), CEA (karsinoembriogenik antigen) nəticə 1,88 ng/mL (norma 0-5), Anti-HCV (hepatit C) nəticə neqativ (-), HbsAg (hepatit B) neqativ (-). ECS 90 mm/saat (norma 0-25). Pasiyentin nəcisinin analizində qurd yumurtları aşkar olunmuş, parazit aşkar olunmamışdır. Xəstəyə USM müayinəsi edilmişdir. Bu zaman öd yolları genişlənib (Şək. 2).

Öd kisəsı böyümüşdür. Mənfəzdə daş izləmilməmişdir. Qaraciyər və böyrəklərdə mühüm dəyişikliklər aşkar olunmamışdır. KT məsləhət görülmüşdür. 29.06.22-ci il tarixində MRT-xolangioqrafiya olunmuşdur.

Bu zaman qara ciyər və öd yolları genişlənmişdir,xoledox d=15 mm, mənfəzində slac var. Virsunq genişlənmişdir d=5-6 mm.


01.07.22-ci il tarixində Tam qarın boşlugunun nativ və İV kontrastlı KT müayinəsində: Qaraciyərin ölçusu konturu və parenximasının strikturunda dəyişiklik olmamışdır. Solid və ya kistoz törəmə aşkar olunmadı. Öd kişəsi hidropik olmuşdur. Duodenum II seqmentində Fater məməciyi səviyyəsində 14x12 mm ölçüdə polipoid qalınlaşma qeyd edilmişdir. Qaraçiyər daxili və xarici öd yolları genişlənmişdir. Virsunq kanalı genişlənibdir. Mədəaltı vəzin ölçüsü, konturu və parenximasının strukturu təbii olmuşdur. Peripankreatik piy toxuması açıq olmuşdur. Dalağın ölçüsü norma daxilində qeydə alınmışdır. Konturu və parenximasının strukturu təbii olmuşdur. Hər iki böyrəyin ölçüsü, konturu və parenximasının qalınlığında dəyişiklik olmamışdır. Konkremen görülməmişdir. K.İ. sistemi genişlənməmişdir. Hər iki böyrəkdə 1.0 sm-dən kiçik bir neçə ədəd kortikal kista izlənmişdir.



Şək. 2. Üitrasəs müayinəsi genişlənmış xoledox


Sol böyrəküstü vəz medial ayaqcığında 6 mm ölçüdə düyün izlənmışdır (non-funksion adenoma). Sağ böyrəküstü vəzə aid patologiya görünməmişdir. Paraaortik böyümüş limfa düyünü aşkar olunmamışdır. Qarın boşluğunda sərbəst maye görülməmişdir. Sidik kisəsi boş olmuşdur. Daxili genital orqanlar yaşa uyğun qeydə alınmışdır. Çanaq boşlugunda böyümüş limfa düyünü aşkar edilməmişdir. Nəticə olaqr Duodenum II seqmentində Fater məməciyi səviyyəsində 14x12 mm ölçüdə polipoid qalınlaşma (ECRP məsləhətdir), qaraciyərdaxili və xarici öd yollarında genişlənmə. hidropik öd kisəsi qeyd edilmişdir.

Xəstəyə qastroduodenoskopiya aparılmışdır. Bu zaman qida borusu sərbəst, kardia açıq olmuş, mədədə orta həcmdə selik qeydə alınmışdır. Selikli qişa səpkili hiperemiyalı olmuşdur. Antrum sərbəst, pilorus dairəvi qeydə alınmışdır. Onikibarmaq bağırsaq soğanağı və enən hissə sərbəst olmuşdur, selikli qişasının hiperemiyalı, şişkin olduğu aşkar edilmişdir. Onikibarmaq bağırsağın enən hissəsində ağımtıl rəngli buğumlu lentvari hərəkətli parazit aşkar olunmuşdur. Fater məməciyi kəskin hiperemiyalı, şişkin olmuş, öd axımı qeyd olunmamışdır. Mənfəzdə hilmintin buğumları aşkar oedilmiş və parazitin Fater məmməciyindən öd yollarına çıxışı təyin edilmişdir (Şək. 3,4). Xəstəyə parazitar mənşəli mexaniki sarılıq, papillit, səthi qastroduodenit diaqnozu qoyulmuşdur.



Şək. 3. Bağırsaq mənfəzində bağərsaq **Şək. 4. Fater məməciyi parazitın cıxışı**

Pasientə 06.07.22 tarixində endoskopik retroqrad pankreotoxolangioqrafiya (ERPXQ) və papillasfink-terotomiya icra edilmişdir. Papilla ikinci hissədə qarşıya çıxdı. Papilla hiperemik, ödemli görümündə olub, üzəri ağ kirli ərpli xora sahəsi izlənmişdir. Duodenumda 1 ədəd ağ rəngli lentşəkilli qurd aşkar edilmişdir. Parazit endoskop vasitəsilə buğumlar şəklində tamamilə çıxarılmışdır. Papillatom ilə xoledoxa keçirilərək kontarasla görüntüləmədə ekstrahepatik və intrahepatik öd yolları geniş olmuşdur (Şək. 5).



Şək. 5. ERPXQ zamanı genişlənmiş xoledox

Xoledox distal hissədə fibrotik darlıq aşkar edilmişdir. Sklerotomiya edilərək polpillatomoya ilə genişləndirilərək balonla bir miqdar suludge ekstraksiya edilmişdir. Təkrari balonla svaşlanmış, normal halda olmuşdur. Papilladan çoxcaylı biopsiyalar alınmışdır Agırlaşmalar olmadığından əmin olunaraq prosedur sona çatdırılmışdır. Xəstə bir gün nəzarət altında olmuşdur. Parazitin laborator müayinəsinda onun öküz salitoru - Taenia saginata oldugu müəyyən edilmişdir.

Müdaxilədən sonra ağrı və sarılıq tədricən azalmışdır, 2 ay sonra təkrar baxışda üzvi dəyişiklik müşahidə olunmamuşdur.

Bizim klinikada bütün müşahidələrimiz dövründə onikibarmaq bağırsaqda öküz salitorunun tapılması 2 pasiyentdə olmuşdur. Birinci halda parazit yalnız onikibarmaq bağırsaqda olmuşdur. İkinci halda isə təsvir etdiyimiz kimi öd yollarına keçmişdir ki, bu da mexaniki sarılıga səbəb olmuşdur.

Nəticə: Sarılığa səbəb olmuş öküz soliterinin ERPXQ və papillasfinkterotomiya ilə xoledoxun sanasiyası aparılmasından sonra xəstənin tam sagalmasına nail olmuşdur. Bu da az invaziv olmaqla endoskopik müdaxilənin effektliyini sübut etmişdir.

ƏDƏBİYYAT

1.Fan P.C., Lin C.V., Chen C.C. et al. Morphological description of Taenia saginata (Cyclophyllidea Taenidae) from man in Asia // Journal of Helminthology, 1995, v.69(4), p.299-303

2.Fan P.C., Chung W.C., Lin C.Y. et al. Clinical manifestations of taeniasis in Taivan aborigines // Journal of Helminthology, 1992, v.66 (2), p. 118-123

3. Hakeem S.Y., Rashid A., Khuroo S. RajandeeoSinoh Ball.Taenia saginata A Rare Cause of Gall Bladder Perforation. Pubilshed online 2012, Jun 26

4. Malik A.A., Wani R.A., Bari S. Acute acalculous cholecsystitis due to Taehia saginata // Ann Saud Med., 2008, v. 28, p.388-389

5.Liu Y.M., Bair M.J., Chang W.H. Acutepancreatitis caused by tapeworm in the biliarytract // American Journal of tropical Medicine and Hygiene, 2005, v.73.(2), p. 377-380

6.Khroo M.S. Askariasis // Gastroenterology Clinics of North America, 1996, v.25(3), p.553-577

Резюме

Механическая желтуха, вызванная гельминтом Taenia saginata (клиническое наблюдение)

Б.И. Садыгов, И.Н. Гасымова, А.Н. Агакишиев, Х.Q. Гусейнова

В ходе клинического наблюдения у больной 80-ти лет диагностирован и пролечен паразит крупного рогатого скота Taenia saginata, вызвавший механическую желтуху, которой выполнена ЭРПХQ и папиллосфинктеротомия. После санации желтуха и болевой синдром прошли. Этим самым показана эффективность эндоскопического восстановления желчевыводящих путей, при паразитарной желтухе.

Summary

Mechanical jaundice caused by the helminth Taenia saginata (clinical observation)

B.I. Sadihov, I.N. Gasimova, A.N. Agakishiyev, X.Q. Huseynova

During the clinical observation it reported that an 80-year old female patient was diaqnosed with the parasite of the Taenia saginata whch caused mechanical jaundice and was treated with ERPXQ and papillospincterotomy. At this time the effectveness of endoscopis restoration of bile ducts was shown.

Daxil olub: 22.07.2022

XRONİKA-ХРОНИКА

Памяти профессора Октая Садых оглы Сеидбекова



Азербайджанская наука понесла тяжелую утрату - на 82-м году жизни скончался известный ученый-медик, Заслуженный врач, Заслуженный деятель науки, действительный член Международной экоэнерге- тической академии, доктор медицинских наук, профессор Октай Садых оглу Сеидбеков.

Он родился в 1940 г в г.Баку и окончил стоматологический факультет Азербайджанского мединститута им. Н.Нариманова. Первоначально он работал ординатором в Клинической больнице N.1, затем был клиническим ординатором в Военно-медицискнкой Академии в г.Ленинграде и ЦНИИ стоматологии в г.Москве. Затем он окончил аспирантуру в Центрального института усовершенствования врачей в г.Москве и в 1970 г защитил кандидатскую диссертацию на тему "Повреждения верхнечелюстных пазух при переломах костей средней зоны лица".

Вернувшись в г.Баку он связал свою профессиональную деятельность с кафедрой стоматологии Азербайджанского института усовершенствования врачей им. А.Алиева (АзИУВ), где он работал до конца жизни. На этой кафедре он начал работать ассистентом, затем, доцентом. По его инициативе в 1973 г в Республиканской клинической больнице им.М.Миргасымова в г.Баку у было открыто отделение челюстно-лицевой хирургии, которое он возглавил. Позже он многие годы руководил кафедрой стоматологии и челюстно-лицевой хирургии.

В 1991 г он защитил докторскую диссертацию на тему "Функциональное состояние щитовидной, паращитовидной, поджелудочной желез и коры надпочечников при острых воспалительных заболеваниях челюстно-лицевой области".

Долгие годы он был Ученым секретарем АзНИУВ, а с 1995 г до 1999 г он был также проректором этого института. Научные исследования О.С.Сеидбекова посвящены многим проблемам хирургической стоматологии. Он автор или соавтор более 300 научных работ, в том числе 13 монографий, 10 учебных пособий и 17 методических рекомендаций. Под его руководством были подготовлены и защищены 21 кандиатская и 4 докторских диссертации.

Кроме того, будучи активно оперирующим хирургом и авторитетным врачом, он находил время и силы для большой научно-общественной работы. С 1999 г до 2004 г он был членом экспертного совета по медицине Высшей аттестационной комиссии при Президенте

Азербайджанской Республики, с 2010 г по 2015 г оставался заместителем председателя этого совета. С 2007 года до конца жизни он возглавлял Научно-медицинский совет Минздрава Азербайджанской Республики.

Заслуги О.С.Сеидбекова в медицине и медицинской науке достаточно велики и он относиться к числу тех ученых, имя которых надолго сохраниться в азербайджанской науке, а память о нем сохранят ученики и его коллеги.

Редакционная коллегия

V.Y. Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun 100 illiyi (1922-2022)

N.C.Namazov
V.Y. Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu, Bakı

Keçmiş SSRİ-də Azərbaycan Səhiyyə Nazirliyinin Q.M. Musabəyov adına Elmi-Tədqiqat Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun 1922-ci ildə institutun təşkil olunmasına böyük dəstək verən şəxslərdən biri o vaxt Azərbaycanın Xalq Səhiyyə Komissarı M.N. İsrafilbəov (Qədirli) olmuşdur. İnstitutun Xalq Səhiyyə Komissarlığının epidemioloji şöbəsinin müdiri, həkim S.İ. Slovenski və Azərbaycan Dövlət Tibb Universitetinin tibb fakültəsinin bakteriologiya kafedrasının müdiri, dosent P.F. Zdrodovskinin təşəbbüsü ilə təşkil olunmuşdur. O vaxtlar qonşu İran, Türkiyə və Rusiya dövlətlərindən Azərbaycana müxtəlif infeksiyalar yayılırdı, belə ki, vəba çox geniş yayılmışdı və müntəzəm olaraq Bakı şəhərində qeydə alınırdı. 1918-ci ildə isə vəba epidemiyası baş vermişdi (2000 xəstə qeydə alınmışdı).

Mövsüm Nəsrəddin oğlu İsrafilbəyov (Qədirli) 1893-cü ildə Şamaxida anadan olmuşdur. 1917-ci ildə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsini bitirən M.Qədirli 1922-1934-cü illərdə Xalq Səhiyyə Komissarı vəzifəsində çalışmışdır. Onun yaxindan təşəbbüsü və dəstəyi ilə Azərbaycanda Əmək gigiyenası və peşə xəstəlikləri institutu (1926), vərəm, traxoma, malyariya və zöhrəvi xəstəliklərin yayılmasının qarşısını almaq üçün Sosial Gigiyena İnstitutu (1929), Pediatriya institutu (1925), Azərbaycan Dövlət Tibb İnstitutu (1930), Tropik institutu (1931) kimi yeni mühüm elm ocaqları təşkil edildi. O, eyni zamanda, elmi-tədqiqat işlərinə nəzarəti artırmaq və onlara bir mirkəzdən rəhbərlik etmək üçün Xalq Səhiyyə Komissarlığı nəzdində Elmi- Tibbi Şura təşkil etmişdir (1923).

İ.İ. Şırokoqorov Azərbaycanda patoloji anatomiya məktəbinin yaradıcısı hesab edilir, eyni zamanda keçmiş SSRİ Tibb Elmləri Akademiyasının və Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur. Hərbi sanitar idarənin təşəbbüsü ilə 1921-ci ildə Bakıda yaradılmış idarəarası malyariya ilə mübarizə komitəsinə rəhbərlik edir. Onun rəhbərliyi ilə Lənkəran-Muğan zonası rayonlarında malyariya ilə mübarizəni həyata keçirən 7 həkim- ekspedisiya dəstəsi təşkil olunmuşdur. Bu həkim dəstələri Cənubi Muğanda malyariyanın qarşısının alınmasında böyük rol oynamışlar.

P.F.Zdradovski Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinin mikrobiologiya kafedrasında baş assistent kimi də calışıb. 1921-ci ildə Xalq Səhiyyə Komissarlıgının göstərişi ilə o, vəbaya qarşı Xalq Səhiyyə Komissarlığının vaksin laboratoriyasını təşkil etmişdir. Bu laboratoriyanın istehsal etdiyi peyvəndin əhali arasında tətbiq edilməsi vəba epidemiyasının qarşısını almışdır. P.F.Zdrodovski 1922-ci ildə universitetin mikrobiologiya kafedrasının dosenti seçilmişdir.

Azərbaycanda sanitar eidemioloji xidmətin yaranmasında rus alimlərinin və həkimlərinin böyük rolu olmuşdur. XIX əsrin ikinci yarısında vəba ilə mübarizədə A.O.Daniyelbəyov, M.K.Sobestianski, S.M.Yerşov və İ.İ.Krivyakin kimi rus həkimlərin adlarını xüsusilə qeyd etmək lazımdır.

Inqilaba qədər Azərbaycanda baytarlıq xidməti də çox aşağı səviyyədə idi. Bu səbəbdən əhali arasında zoonoz infeksiyaları geniş yayılmışdır. Aərbaycanda baytarlıq xidmətinin ilk təşkilatçıları M.N.Martinoviç, V.S.Beyseyski və b. olmuşlar. 1903-cü ildə N.A.Saxarovun və onun ekspedisiyasının səyi nəticəsində hiperendemik malyariya ocağında böyük işlər aparılmışdır.

Respublikada yoluxucu xəstəliklərlə mübarizə və onlarin profilaktikasında elmə və elmin nailiyyətlərinə söykənən elmi-təcrübi mərkəzin yaranmasına böyük ehtiyac duyulurdu. Bu vacib missiyanın həyata keçirilməsində təzə təşkil olunmuş Q.M.Musabəyov adına Elmi-Tədqiqat Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutu sanitar-sağlamlaşdırıcı və əksepidemik tədbirlərin hazırlanmasını öz üzərinə götürmüşdür. Bu İnstitutun təşkil olunmasına yuxarıda qed etdiyimiz kimi böyük dəstək verən şəxslərdən biri o vaxt Azərbaycanın Xalq Səhiyyə Komissarı M.N. İsrafilbəyov (Qədirli) olmuşdur.

Sonralar İnstitutun ilk direktoru keçmiş SSRİ Tibb Elmlər Akademiyasının və Azərbaycan SSRİ Elmlər Akademiyasının həqiqi üzvü olmuş professor İ.İ.Şirokoqorov olmuşdur. 1925 –ci ildə institutda aşağıdakı şöbələr fəaliyyət göstərirdi:

1. Diaqnostik və bakterioloji şöbə
2. Tropik şöbə
3. Paster şöbəsi
4. Vaksin və zərdab şöbəsi

5. Patoloji anatomiya şöbəsi
6. Sanitariya-gigiyena şöbəsi

Tropik şöbədə 30-cu illərdə mühüm elmi-tədqiqat işləri aparılırdı. 1931-ci ildə Elmi-Tədqiqat Tibbi Parazitologiya və Tropik Təbabət İnstitutu yaradıldı. Bunu da qeyd etmək lazımdır ki, hələ 1928-ci ildə institutun sanitariya-gigiyena laboratoriyasının bazasında Sanitariya-Gigiyena İnstitutu təşkil olunmuşdur, 1935-ci ildə fəaliyyət göstərən bu institut bağlanmış və yenidən Epidemiologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun sanitar-gigiyena laboratoriyasına və ADU-nun tibb fakültəsinin kommunal-gigiyena kafedrasına ayrılmışdır. Bütün bu dəyişikliklər faktik olaraq institutun fəaliyyətinin 1-ci dövrünü təşkil etmişdir.

İnstitutun fəaliyyətinin 2-ci dövründə elmi-tədqiqat işləri əsas etibarı ilə kəskin bağırsaq xəstəliklərinin və onlarla mübarizənin elmi-təcrübi məsələlərinə həsr olunmuşdur.

1930-cu ildə respublikada taun hadisəsi qeydə alındığından və yayılma qorxusu olduğundan 1932-ci ildə institutun xüsusi təhlükəli infeksiyalar laboratoriyası bazasında Respublika Taun Əleyhinə Stansiyası yaradılır. Bu stansiya 1937-ci ilə kimi fəaliyyət göstərir və sonra keçmiş SSRİ Səhiyyə Nazirliyinə tabe olur. 1937-ci ildə respublikada bruselyoza görə cox mürəkkəb bir vəziyyət yarandı. Xalq Səhiyyə Komissarlığı bruselyozla mübarizə aparılması və ona qarşı əksepidemik tədbirlərin təşkili üzrə xüsusi mərkəz, institutun bruselyoz laboratoriyasının bazasında bu xəstəliyin əleyhinə stansiya təşkil edir. Böyük Vətən müharibəsindən sonra bu müəssisə respublika sanitar-epidemioloji stansiyası ilə birləşmiş və təhlükəli infeksiyalar şöbəsini təşkl etmişdir. 1937-ci ildə institutun epidemiolji şöbəsində epidemioloqlar dəstəsi yaradılır və bu dəstə butun yoluxucu xəstəliklərə görə epiemiloji nəzarəti həyata keçirir. Elə bununla da 1940-cı ildə institutun fəaliyyətinin 2 –ci dövrü başa çatır.

İnstitutun fəaliyyətinin 3-cü dövrü Böyük Vətən müharibəsi dövrünə (1941-1945) təsadüf edir. həmin dövrdə institutun direktoru professor B.F.Məcidov olmuşdur. Müharibə institutun elmi-təcrübi fəaliyyətini təməlindən surətlə dəyişdirilməsini tələb edirdi. Bu dövrdə planlı surətdə yaranan faqları, bağırsaq faqı, vaksinlər, müalicəvi zərdablar, ilan zəhərinə qarşı zərdab istehsal edilirdi. Müharibə dövrünə uyğun olaraq, xüsusi təhlükəli yoluxucu xəstəliklərin profilaktikasına yönəldilmiş tədbirlərin işlənməsi institutun qarşısında duran ən mühüm məsələlərdən biri idi. İnstitutun direktoru professor B.F.Məcidovun səriştəli rəhbərliyi, təşkilatçılığı sayəsində institut qarşısında qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gələ bilmişdir. 1945-ci ildə institutun sanitar-gigiyena laboratoriyasının bazasında respublika sanitar-gigiyena stansiyası yaradılır. hazırda bu stansiya Respublika Gigiyena və Epidemioligiya Mərkəzi kimi fəaliyyət göstərir.

İnstitutun sonrakı fəaliyyət mərhələsi 1946-1952-ci illəri əhatə edir. Bu dövrdə instituta tibb elmləri namizədi M.M. Axundov rəhbərlik etmişdir. Müharibədən sonraki dövr institutun fəaliyyət istiqamətinin dəyişməsini tələb etdiyindən institutda sanitar-gigiyena şöbəsi təşkil olunmuş və bakteriya mənşəli infeksiyalar - dizenteriya, qarın yatalağı, uşaq profilaktikası ilə bağlı tədqiqatlar aparılmağa başlanmışdır. 1952-ci ildə institutda yeniden rikketsiozlar problemi ilə məşqul olan laboratoriya yaradılır. Həmin vaxt ərzində respublikada Kü, Marsel qızdırması, siçovul səpgili yatalağı kimi infeksiyalar müəyyən edilmişdi.

1953-cü ildə institutun təşkilati-metodik şöbəsinin bazasında Azərbaycan Səhiyyə Nazirliyinin metodik bürosu yaradılmışdır. Elə bu ildən yenidən instituta professor B.F.Məcidov rəhbərlik etməyə başlamışdır. Bu dövrdə xüsusilə uşaq damcı infeksiyaları – difteriya, qızılca, skarlatina üzrə tədqiqatlar genişlənmiş, kəskin bağırsaq infeksiyalarının etiologiyası və epidemiologiyasının öyrənilməsinə başlanmışdır.

1957-ci ildə institutda virus infeksiyaları şöbəsi təşkil edilmişdir. Bu şöbənin tərkibində qrip və kəskin respirator infeksiyalar, molekulyar biologiya, elektron mikroskopiya və patomorfologiya, rikketsiozlar və xlamidiozlsr, viruslu hepatitlər, transmissiv virus infeksiyaları laboratoriyaları fəaliyyət göstərmişdir.

1964-cü ildə instituta Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutu adı verilmişdir. Institutun tarixində respublikanın görkəmli dövlət və ictimai-siyasi xadimi, gigiyenist alim, bacarıqlı səhiyyə təşkilatçısı, Azərbaycan Respublikası EA-nın həqiqi üzvü, professor V.Y. Axundovun rəhbərlik etdiyi dövr xüsusilə qeyd edilməlidir. Onun təklifi ilə institutda gənc elmi işçilərin ingilis dili kurslarında hazırlanması, ingilis dilində elmi konfransların təşkil olunması həyata keçirilirmişdir.

1986-cı ildə V. Axundovun vəfatından sonra institutun direktor əvəzedicisi T.H. Həsənov olmuşdur. T.e.n., dosent T. Həsənov ixtisasca virusoloq olmaqla, apardığı elmi tədqiqatlar qrip və adenovirus infeksiyalarının virusoloji tədqiqinə həsr edilmişdir.

1988-ci ildə Elmi-Tədqiqat Tibbi Parazitologiya və Tropik Təbabət İnstitutu, həmin ildə Elmi-Tədqiqat Epidemiologiya, Gigiyena və Peşə Xəstəlikləri İnstitutu birləşdirərək rəhbərliyi T.Ə.Tağızadəyə tapşırılmışdır.

Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra bütün sahələrdə inkişaf və tərəqqi başlandı. Bərpa-quruculuq işləri ilə yanaşı, geniş surətdə islahatlar da aparılmağa başlandı. Prezidentin məqsədyönlü kadr siyasətinin nəticəsi olaraq, Milli Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutuna rəhbərlik professor N.N. Əliyevə tapşırıldı. Onun rəhbərliyi ilə dərhal geniş bərpa və yenidənqurma işləri başlandı. Böyük uzaqgörənliklə bir vaxtlar işlənmiş bir sıra vacib laboratoriyaların fəaliyyəti bərpa edilmişdir. İnstitutun yeni ştat strukturu müəyyən edilmişdir. Mübarizəsinə diqqət zəifləmiş bir sıra infeksiyalar – malyariya, bruselyoz, difteriya, kəskin bağırsaq infeksiyaları, viruslu hepatitlər, qrip, toksoplazmoz kimi infeksiyaların laborator diaqnostika, müalicə və profilaktika üsullarının təkmilləşdirilməsinə başlandı. İnstitutun eksperimental bazası olan vivarinin işə bərpa edilmişdir, genişmiqyaslı abadlıq, tikinti-quraşdırma işləri başlamışdır. İnstitutda fəaliyyət göstərən 3 klinika – yoluxucu xəstəliklər, parazitar xəstəliklər və peşə xəstəlikləri klinikaları institutun ayrı-ayrı elmi-struktur bölmələrinin elmi-nailiyyətlərinin nəticələrinin tətbiq edilməsi üçün baza, respublikada yuluxucu – parazitar və peşə xəstəlikləri xidməti üçün elmi metodik mərkəz rolunu oynamağa başlamışdır. İnstitutda elmi-tədqiqat və klinik işlə yanaşı, respublikanın müxtəlif rayonlarında ixtisaslaşdirilmiş tibbi yardımın göstərilməsi üzrə iş canlanmışdır. Bu məqsədlə, yerlərə yüksək ixtisaslı kadrlardan ibarət briqadalar göndərilir ki, onlar yerli səhiyyə orqanlarında eyni vaxtda elmi-praktik konfrans və seminarlar kecirilirdi.

Azərbaycan Respublikasının Ümumi Lideri Heydər Əliyevin fərmanı ilə instituta anadan olmasının 70 illik yubileyi münasibətilə alim-gigiyenist, səhiyyə təşkilatçısı, akademik Vəli Axundovun adı verilmişdir.

İnstitutun klinik şöbəsi 3 klinikadan- 80 çarpayiliq yoluxucu xəstəliklər klinikası, 60 – çarpayılıq əstəliklər klinikası və 50 çarpayılıq peşə xəstəliklər klinikasından ibarət olub.

İnstitutun klinik şöbəsi eyni zamanda Azərbaycan Tibb Universitetinin tələbə və subordinatorları üçün də tədris bazasıdır.

Azərbaycanda yoluxucu xəstəliklərlə xəstələnmə uzun illər yüksək səviyədə qeydə alınmışdır. Inqilaba qədərki dövrdə Azərbaycanda difteriya taun, təbii çiçək, vəba kimi yoluxucu xəstəliklərin yayıldığı ölkələr sırasında imiş.

Yalnız 1918-ci ildən başlayaraq, yoluxucu xəstəliklərlə mübarizə və profilaktika tədbirləri məsələsi səhiyyə orqanlarının diqqət mərkəzinə keçdi və xüsusi diqqət verilməyə başlanmışdır.

Sevindirici faktdır ki, ilk dəfə olaraq difteriya anatoksini akademik R.F.Zdrodovski tərəfindən məhz bizim institutda hazırlanmışdır. X.H. Hüseynova öz tədqiqatlarında (1946-1954)-cü illərdə bu infeksiyaların epidemiologiyası və mikrobiologiyasını öyrənmişdir. M.Ə. Kərimova 1951-1958-ci illərdə Kirovabad (indiki Gəncə) şəhərində yoluxucu xəstəliklərin epidemiologiyasaının öyrənilməsi üzrə tədqiqatlar aparmışdır.

I. Epidemiologiya, mikrobiologiya və immunologiya sahəsində aparılmış tədqiqatlar. D.Y. Qasımova elmi fəaliyyətini 1970-ci ildən başlamişdir. Onun əsas istiqamətini spesifik profilaktika vasitələri ilə idarə olunan infeksiyaların azadılması və ləğvinin elmi əsaslarının işlənib hazırlanması təskil edirdi.

İnstitutun yarandığı ilk günlərdən Azərbaycanın şəhər və rayonlarında kəskin infeksiyalara görə çox gərgin epidemioloji vəziyyətin olduğu bir vaxtda institutun bir sıra alimlərinin infeksiyalarla mübarizəyə həsr olunmuş çoxsaylı tədqiqatları vardır. Bunlardan professor B.F.Məcidov, V.Y.Axundov, S.Y. Berman, R.Ə. Ağayeva, M.İ. Lurye, Z.M. Sayenko, Ş.H. Şahbazov, A.Q. Babayev, E.P. Korneva, B.Q. Məhərrəmov, K. Bəylərbəyov, M.F. Mahmudbəyova, X. Quliyeva, Q.M. Kruqlova və b. işlərini göstərmək olar.

Professor M.F. Mahmudbəyovanın apardığl elmi tədqiqatların istiqaməti müasir təbabətin aktual məsələlərinin- bioloji aktivliyi yüksək olan maromolekulyar zülallar, nuklein turşularının həll olunan antigen fraksiyalarının öyrənilməsinə həsr olunmuşdur.

Professor S.Y.Bermanın elmi tədqiqatları bir sıra yoluxucu xəstəliklərin bakterioloji, seroloji diaqnostikasına və spesifik profilaktikasına həsr olunmuşdur.

Azərbaycanın görkəmli mikrobioloq-alimi, N.C. Əliyev, həqiqətən "Azərbaycan Pasteri" adını ləyaqətlə daşımışdır. O,Tibb İnstitutunun mikrobiologiya kafedrasının müdiri vəzifəsində calışaraq bir sıra mühüm əhəmiyyətli kəşflərin müəllifi olmuş, mühüm elmi nəticələrin əldə olunması üçün gərgin elmi iş aparmışdır. N.Əliyev mikrobiologiya sahəsində aramsız olaraq elm sahəsində aşağıdakılara nail olmuşdur. Ilk dəfə olaraq "Tibbi mikrobiologiyanın əsasları" adlı dərslik,mikrobiologiyadan təcrübə dərslərinə aid vəsait, praktik virusologiyadan vəsait tərtib etmişdir, Naftalanın təsir mexanizmi haqqında monoqrafiya və s. elmi əsərlər yazmışdır.

O, 200-dən artıq elmi işin, o cümlədən 49 müəlliflik şəhadətnaməsinin, onlarla tədris vəsaitinin, bir neçə monoqrafiyanın müəllifi idi.

1989-1991-ci illərdə R.F.Yaqubov tərəfindən "Orqanizmə təsir edən şüanın faktor kimi radiasion və qeyri – radiasion vəziyyətinin qiymətləndirilməsi" mövzusu üzərində doktorluq dissertasiyası işi yerinə

yetirilməyə başlanır və bu 1993-cü ildə dissertasiyanın müdafiəsi ilə nəticələnir. 1994-1998-ci illərdə laboratoriyada "Neft-qaz sənayesində işləyən işçilərin və Çernobıl qəzasının ləğvində iştirak edən şəxslərin immun statusunun öyrənilməsi" mövzusu üzrə tədqiqatların aparılması planlaşdırılır və bu tədqiqatlarda İ.Ə.Həmzəyeva, S.M. Bağırova, S.Ə. Kazımova iştirak edirlər, 1997-ci ildən etibarən radiobiologiya və immunologiya laboratoriyasına tibb elmləri namizədi S.M. Bağırova rəhbərlik edir. 1999-2001-ci illərdə radiobiologiya və immunologiya laboratoriyasında "Neft-qaz sənayesində çalışan işçilərin immun statusu və "İnsanov bronxoliti" biopreparatının imunstimuləedici təsirinin öyrənbilməsi" mövzusu ilə bağlı tədqiqatlar aparılmağı başlanmıdır.

II. Tibbi ekologiya və ətraf mühitin gigiyenası problemi üzrə aparılmış tədqiqatlar. Tibbi ekologiya və ətraf mühitin gigiyenası problemi üzrə aparılmış tədqiqatların nəticəsində uzun müddət ərzində respublikada sanitariya-əksepidemik müəssisələr, kafedralar, əsas etibarilə institutun müxtəlif sanitariya-gigiyenik laboratoriyalarının bazasında yaradılmışdır - 1928-ci ildə Sanitariya-gigiyena institutu, 1935-ci ildə Azərbaycan Tibb İnstitutunun kommunal gigiyena kafedrası,1945-ci ildə Respublika Sanitariya-Epidemioloji Stansiyası (hazırda Respublika Gigiyena və Epidemiologiya Mərkəzi).

Sonralar respublikada epidemioloji vəziyyət və geniş gigiyenik, sanitariya-epidemioloji tədbirlərin keçirilməsinin vacibliyi nəzərə alaraq institutun sanitariya-gigiyena laboratoriyası sanitariya-gigiyena şöbəsinə çevrildi. Şöbədə ətraf mühitin gigiyenası üzrə elmi tədqiqatların yüksək səviyədə yerinə yetirilməsi də V.Axundovun böyük fəaliyyəti nəticəsində olmuşdur.1946-cı ildən başlayaraq Q.M.Musabəyov adına Elmi-Tədqiqat Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri və nəhayət, institutun direktoru vəzifələrində çalışan V.Axundov görkəmli ictimai və dövlət xadimi, səhiyyə təşkilatçısı kimi tanınmıdır. Onun elmi işlərinin böyük bir hissəsi ətraf mühitin gigiyenasının müxtəlif məsələlərinə həsr olunmuşdur. Həmin tədqiqatlarda o, Gəncə şəhərinin məişət tullantılarının çirkab sularından bioloji üsulla təmizlənməsini təklif etmiş, mədə-bağırsaq xəstəliklərinin səviyyəsinin şəhərdə aparılan sanitar-epidemioloji tədbirlərlə düz mütənasib olduğunu müəyyənləşdirmişdir. Bununla yanaşı, V.Axundov qarın yatalağı, dizenteriya və bağırsaq infeksiyalarının yayılmasında qidalanma faktorunun rolunu göstərmiş, Gəncə şəhərinin qida-yeyinti sexlərinin sanitar-gigiyenik xarakterisrikasını vermişdir. V.Axundov apardığı tədqiqatların nəticələrini yekunlaşdıraraq 1956-cı ildə namizədlik dissertasiyası müdafiə etmişdir.

1958-ci ildən başlayaraq şöbədə V.Axundovun iştirakı ilə Bakı şəhərinin neftcıxarma rayonlarında ətraf mühitin sanitar-gigiyenik və epidemioloji xüsusiyyətlərinin xarakterizə edilməsi üçün kompleks elmi-tədqiqat işləri aparılmışdır. 1964-cü ildə görülən işlərin nəticələri əsasında V.Y. Axundov tərəfindən doktorluq dissertasiyası müdafiə etmişdir.

Apardığı elmi-tədqiqat işlərinə əsasən K.F. Axundov yaşayış məntəqələrinin içməli su təhcizatının yaxşılaıdırılmasında, əhalinin keyfiyyətli su ilə təchiz edilməsində, yeni su mənbələrinin aşkar edilib öyrənilməsində, su normativlərinin işlənib hazırlanmasında, sutəmizləmə prosesində tətbiq edilən reagentlərinin gigiyenik cəhətdən qiymətləndirilməsində, su mənbələrinin sanitariya mühafizəsi tədbirlərinin işlənib hazırlanmasında elmi-praktik nəticələr əldə etmişdir.

K.F. Axundov 200-dən çox elmi məqalə, monoqrafiya və metodik tövsiyələrin müəllifidir. O, 10 nəfərə kimi elmlər namizədi hazırlamışdır.

1972-ci ildə şöbədə tanınmış alim, tibb elmləri doktoru, professor R.Q. Əmirovun köməyi ilə kənd təsərrüfatı işçilərinin əmək gigiyenası laboratoriyası yaradılmışdır. Onun rəhbərliyi altında kənd təsərrüfatı işçilərinin əmək şəraiti və sağlamlıq vəziyyəti öyrənilmişdir. Fizioloji-gigiyenik tədqiqatlar nəticəsində kənd təssərüfatında məşqul olan işçilərin, o cümlədən mexanizatorların, üzümçülərin, pambıqçıların, sağıcıların və b. sağlamlıq vəziyyəti öyrənilmiş və onların iş şəraitinin yaxşılaşdırılması üçün tövsiyələr verilmişdir. Onun 200-dən çox elmi əsəri, müxtəlif sanitar qaydaları, metodik sənədləri və s. çapdan çıxmışdır. Milli elmi kadrların yetişdirilməsində R.Əmirov böyük əmək sərf etmiş, 43 elmlər namizədi və doktoru hazırlamışdır.

Laboratoriya müdiri, t.e.n. İ.Seyidovun rəhbərliyi ilə bir neçə il ərzində respublikanın müxtəlif təbii-iqlim zonalarında torpaqların sanitar vəziyyətinin əhalinin sağlamlığına təsirinin və onların tərkibindəki bəzi mikroelementlərin miqdarı asılılığı öyrənilmişdir. Kadr hazırlığı sahəsində də İ.Seyidovun böyük rolu olmuşdur. Onun rəhbərliyi altında 3 elmlər doktoru, 8 elmlər namizədi hazırlamışdır.

1966-ci ildə Əmək Gigiyenası və Peşə Xəstəlikləri İnstitutunun direktoru vəzifəsinə həmin institutun şöbə müdiri, t.e.n. İ. Ələkbərov təyin edilmişdir.

Neft və neft-kimya sənayesi işçilərinin əmək gigiyenası və peşə xəstəliklərinin profilaktikası məsələlərinə aid apardığı tədqiqatların nəticələri əsasında İ.Ələkbərov 1967-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir.

Professor İ.İ.Ələkbərov bir tərəfdən əmək gigiyenası və peşə xəstəlikləri sahəsində yüksək ixtisaslı mütəxəssis, digər tərəfdən isə, tibb təşkilatçısı idi. O, ömrünün axır illərində V.Axundov adına Milli ET Tibbi Profilaktika İnstitutunda fəaliyyət göstərmişdir.

Professor İ.Ələkbərov 300-dən çox elmi işin, monoqrafiya, metodik göstərişlər və normativ sənədlərin müəllifi olmuşdur. Onun rəhbərliyi ilə 20-dən cox namizədlik dissertasiyası müdafiə olunmuşdur.

Bir neçə il ərzində Əmək Gigiyenası və Peşə Xəstəlikləri İnstitutunun elmi işlər üzrə direktor müavini, t.e.n. R.H.Əliyeva tərəfindən quruda və dənizdə neftçıxarma sənayesində işçilərin sağlamlığına təsir edən kompleks amillər meteoroloji şərait, küy, vibrasiya, iş yerlərində işıqlanmanın zəifliyi, tozluluq, havada bəzi qazların konsentrasiyası, ümumiyyətlə əmək proseslərinin avtomatlaşdırılma və mexanikləşdirilməsinin səviyyəsi öyrənilmişdir. R.H.Əliyeva 125-dən çox elmi işin, 6 metodik tövsiyənin müəllifidir.

İnstitutun əməkdaşı F.Ə.Mərdanlı tərəfindən atmosfer havasının keyfiyyətini xarakterizə edən amillərlə sağlamlıq vəziyyəti arasında qarşılıqlı əlaqənin analizi üçün model işlənib hazırlanmışdır. O, " Atmosfer havasını çirkləndirən maddələrin sanitariya-gigiyenik normativləri və onların istifadə qaydaları" normativ sənədinin müəllifindən biri olmuşdur. Uzun illərin tədqiqatları F.Mərdanlının doktorluq dissertasiyası ilə nəticələnmişdir. Onun rəhbərliyi ilə 3 namizədlik dissertasiyası hazırlanmışdır. F.Mərdanlı 60-dan çox elmi işin müəllifidir.

Sonrakı illərdə qidalanma rasionlarında və bioloji materiallarda zərərli kimyəvi maddələrin qalıq miqdarının tədqiqində D.Ə.Babazadə mühüm işlər aparmışdır. Tədqiqatların nəticələrinə əsasən D.Ə. Babazadə doktorluq dissertasiyası müdafiə etmişdir.

D.Babazadənin işləyib hazırladığı "E- kaprolaktamın D.Babazadə üsulu ilə miqdarca təyini" Almaniya, Polşa, Bolqarıstan, Macarıstan, Ukrayna və başqa xarici ölkələrdə istifadə olunmuşdur.

D.Babazadə tərəfindən öyrənilmiş polivinil təbəqələrindən nəinki Azərbaycanda, həm də Polşa, Bolqarıstan, Rusiya, Ukrayna və Moldovada qida məhsullarının qablaşdırılması məqsədilə geniş istifadə olunmuşdur.

Tibb elmlər doktoru, professor D.Ə. Babazadə 2 dərslik, 2 monoqrafiya, ölkə və xarici ədəbiyyatda nəşr olunmuş, 88 elmi işin müəllifidir. O, 2 elmlər namizədi hazırlamışdır.

III. Virus mənşəli infeksiyalarin tədqiqi. Epidemik, yaxud siçovul rikketsiozu ilə bağlı elmi axtarişlar 1933-1935-ci illərə təsadüf etmişdir. Bir çox alimlərin sirasında N.N. Mirzəyevanın da adını çəkmək olar. Onun elmi tədqiqatlarının əsas istiqaməti respublikada aşkar edilmiş yeni arbovirusların ölkə patologiyasında rolunun araşdırılması olmuşdur. Bu viruslardan Qərbi Nil qızdırması virusunun və Taginya viruslarının hərarətli və sinir sistemi xəstəlikləri olan xəstələrdə aşkar edilməsini qeyd etmişdir. Azərbaycanda ilk dəfə orkitoz virusunun ölkə patologiyasında mühüm rolu onun tərəfindən tədqiq edilmişdir. Bundan başqa dünya elmi üçün yeni sayılan 3 arbovirus – Bakı, Qızılağac və Kaspi virusları Azərbaycanda aşkar edilmişdir. O, 80-dən artıq elmi işin, o cümlədən 5 metodik məktubun, Azərbaycanda arbovirusların müxtəlif zonalarda yayılmasını əks etdirən xəritə və albomun müəllifidir.

1957-ci ildə İnstitutun əməkdaşı A.N. Sterxova əməkdaşları ilə birgə Masallı rayonunda qizdırma ilə keçən 7 xəstəlik aşkar etmişdir. Bunlar marsel qızdırması kimi sübut edilmişdir. Beləliklə, Azərbaycanda gənə rikketsiozlarının təbii ocaqlarının olması ilə bağlı tədqiqatlar aparılmağa başlandı. Onun elmi tədqiqatlarının böyük əksəriyyəti Ku- qızdırması, səpgili yatalaq, qrip və ornitoz xəstəliklərinin törədicilərinin bioloji xüsusiyyətlərinə, onların diaqnostokası və epidemioloji göstəricilərinə həsr edilmişdir. O, respublikada təbii ocaqlı infeksiyaları öyrənən ilk alimdir, 70-dən artıq elmi işin müəllifidir.

Viruslar və bakteriyalar arasında aralıq mövqe tutan xiamidilərin törətdiyi xəstəliklərin – xlamidiozların tədqiqi ilə institutda 1966-cı ildən cox geniş surətdə F.A.Abuşov məşğul olmağa başlamışdir.

1968-ci ildə F.A.Abuşov Q.M.Musabəyov adına ET Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunda ornitoz laboratoriyasının müdiri təyin edilmişdir. Tibb elmləri doktoru F.A.Abuşov 146 elmi məqalənin, epidemiologiya üzrə 6 tədris vəsaitinin, 2 monoqrafiyanın müəllifidir. Onun rəhbərliyi ilə 4 namizədlik dissertasiyası müdafiə edilmişdir.

İnstitutun əməkdaşı A.Ə.Kazımova 1957-ci ildə Q.M.Musabəyov adına ET Mikrobiologiya, Epidemiologiya və Gigiyena İnstitutunda çiçək detriti laboratoriyasını təşkil etmiş və onun müdiri olmuşdur. A.Ə.Kazımova 1963-cü ildə respirator infeksiyalarin diaqnostikası üzrə doktorluq dissertasiyası müdafiə etmişdir.

1965-ci ildən 1971-ci ilə qədər enterovirus infeksiyaları laboratoriyasında Bakı şəhərində əhalinin diri polimielit vaksini ilə kütləvi immunizasiyası dövr edən enterovirusların bəzi xüsusiyyətlərinin öyrənilməsi üzrə kompleks tədqiqatlar aparılmışdır. Bu elmi tədqiqatlar Ə.Ə.Babayevin rəhbərliyi ilə F.Ə.Sadıqova tərəfindən aparılırdı. 1965-1977-ci illərdə Q.M.Musabəyov adına ET Virusologiya, Mikrobiologiya və

Gigiyena İnstitutunun enterovirus infeksiyaları laboratoriyasında çalışmışdır. Bu dövrdə o, Bakı şəhərində əhalinin canlı poliomielit vaksini ilə kütləvi immunizasiyası şəraitində enterovirusların dövretmə xüsusiyyətlərini öyrənmək məqsədi ilə elmi tədqiqatlar aparmışdır. F.Ə.Sadıqova-İmaməliyeva 100-ə qədər elmi məqalənin, o cümlədən 4 metodik tövsiyənin, 4 namizədlik şəhadətnaməsinin müəllifidir.

Kamal Hüseyn oğlu Kərimzadə 1959-cu ildən Q.M.Musabəyov adına ET Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunda virusologiya şöbəsinin müdiri, viruslu hepatit laboratoriyasının müdiri olmuşdur. K.N.Kərimzadə və başqaları 1967-1973-cü illərdə geldə xromatoqrafiya üsulundan istifadə edərək viruslu hepatit xəstələrinin qan zərdabından əldə etdiyi virusların adenovirus olduğunu təsdiq etmişlər.

K.N.Kərimzadə 100-dən artıq elmi işin, o cümlədən 2 metodik tövsiyənin, bir neçə səmərələşdirici təklifin, 1 monoqrafiyanın müəllifidir.

1954-1969-cu illərdə Məmmədov Akif Əliş oğlu Q.M.Musabəyov adına ET Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunda elmi işçi, immunokimya laboratoriyasının və virusların biokimyası laboratoriyasının müdiri vəzifələrində çalışmışdır. A.Ə.Məmmədov 60-dan çox elmi məqalənin, biokimya və idman biokimyası məşğələlərinə metodik rəhbərliyin müəllifidir. Onun rəhbərliyi altında 4 namizədlik və 2 doktorluq dissertasiyası müdafiə edilmişdir.

IV. Tibbi parazitologiya sahəsində aparılmış elmi tədqiqatlar. Qeyd etmək lazımdır ki, aparılan çoxsaylı dəyərli eksperimental və epidemioloji, epizootoloji təcrübi işlərin nəticələrindən istifadə edilərək respublikada teniarinxoz və onların yerlərdə tədbiqi nəticəsində (2-3 il ərzində) bu xəstəliyin intensiv və orta gərginlikli ocaqları tam sağlamlaşdirilmış, zəif gərginlikli ocaqlarda isə invaziya kəskin aşağı düşmüşdür.

Tibb elmləri doktoru İ.H.Nəcəfov 1959-cu ildə ET Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunda işləmişdir, sonralar isə adı dəyişmiş həmin institutda malyariya, leyşmaniozlar və onların keçiriciləri ilə mübarizə laboratoriyasında aparıcı elmi işçi kimi çalışmışdır. Tibb elmləri doktoru İ.H.Nəcəfov 131 elmi işin, 9 metodik göstərişlərin 3 ixtira və səmərələşdirici təklifin müəllifi idi. "Parazitoloqun stolüstü kitabı" və "İnsan helmintozları və onların müalicəsi" kitablarının müəllifi idi.

Nəriman Cəfər oğlu Quliyev 1982-ci ildə keçmiş ET Epidemiologiya, Gigiyena və Peşə Xəstəlikləri İnstitutunda baş elmi işçi kimi çalışmışdır, sonralar tibb elmləri doktoru adı aldıqdan sonra 1966-2000 illərdə V.Axundov adına METTP institutunda bağırs aq protozoozları laboratoriyasının müdiri vəzifəsində işləmişdir. O, 100-ə yaxın elmi işin, " İnsanın mühüm helmintozları" monoqrafiyasının, 4 metodik tövsiyənin, 4 səmərələşdirici təklifin müəllifi idi.

Respublikada tibbi helmintologiyanın inkişafının 3-cü mərhələsində helmintozların elmi əsaslarına profilaktikasının işlənib hazırlanması, istər tək, istərsə də bütün rayonlarda təcrübi sağlamlaşdırma işlərinin praktikaya tətbiqi aparılmış əksər tədqiqatların ən maraqlı cəhəti olmuşdur. Bu isə nəzərə çarpacaq dərəcədə effektli olmuş, sanitar-epidemioloji xidmətin fəaliyyətində ciddi perspektivərin aşkara çıxarılmasına imkan vermişdir. Bu, son dərəcə çətin, eyni zamanda şərəfli işdə mütəxəssislərin bütöv bir dəstəsi bilavasitə iştirak etmişdir. Onlardan R.B.Cavadov, X.D.Abasov, H.Ə.Əhmədov, İ.H.Nəcəfov, N.C.Quliyev, R.Ə. Çobanov və başqalarının xüsusi xidmətlərini göstərmək olar.

Rafiq Ənvər oğlu Çobanov Tibb İnstitutunu bitirdikdən sonra ETTP və TT İnstitutunda müxtəlif vəzifəflərdə calşmışdır. V.Axundov adına ETTP İnstitutunda tibbi parazitologiya şöbəsinin aparıcı elmi işçisi vəzifəsində çalışmışdır. Hazırda professor R.Ə.Çobanov Azərbaycan Tibb Universitetində "İçtimai Sağlamlıq və Səhiyyənin Təşkili" kafedrasında elmi fəaliyyətini davam edir.

R.Ə.Çobanov 300-dən artıq elmi işin, 6 monoqrafiya,12 dərslik, 24 metodik materialın, 8 müəlliflik şəhadətnaməsinin müəllifidir. Onun rəhbərliyi ilə 8 elmlər doktoru, 30 tibb və biologiya elmləri namizədi hazırlamışdır.

Exinokokkozun epidemiologiyası üzrə daha geniş tədqiqatlar A.Ə.Salehov tərəfindən həyata keçirilmişdir. Akif Əyyub oğlu Salehov Elmi-Tədqiqat Tibbi Parazitologiya və Tropik Təbabət İnstitutunda fəaliyyətə başlamışdır. Onun elmi tədqiqatlarının əsas istiqamətləri tibbi helmintologiyanın ən müxtəlif problemlərinə həsr olunmuşdur. Elmi-Tədqiqat Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunda baş elmi işçi, laboratoriya və şöbə müdiri vəzifələrinə qədər yüksəlmişdir. Hazırda V.Axundov adına ETTP İnstitutunda Parazitar və Tropik xəstəliklər şöbəsinin müdiri vəzifəsində çalışır. O, tibbi helmintologiya problemlərinə həsr olunmuş 110 elmi məqalənin, 5 səmərələşdirici təklifin müəllifidir, onun rəhbərliyi ilə 10 elmlər namizədi hazırlamışdır.

M.M.Nəzirov 1950-ci ildə doktorluq dissertasiyasını müdafiə etdikdən sonra ETTP və TT İnstitutunun direktoru təyin edilmişdir.

Azərbaycanda 50-ci illərdən başlayaraq, bir sıra mühüm yoluxucu və parazitar xəstəliklərə qarşı mübarizə və profilaktika tədbirlərinin uğurla həyata keçirilməsində görkəmli səhiyyə təşkilatçısı Rizvan

Cavadovun böyük xidmətləri olmuşdur. R. Cavadov 1972-ci ildə ET Tibbi Parazitologiya və Tropik Təbabət İnctitutuna direktor təyin olunmuşdur. O, 80-dan artıq elmi iş və 200-ə qədər müxtəlif məsələlərə həsr olunmuş məqalələrin müəllifidir.

Xəlil İslam oğlu Abdullayev Tibb İnstitutunu bitirdikden sonra təhsilini Moskvada davam etdirmiş. O, aspiranturada təhsil almişdir. 1991-ci ildə ona "Parazitologiya" ixtisası üzrə professor adı verilmişdir. O, V.Axundov adına Milli ETTP İnstitutunda malyariya, leyşmaniozlar və onların keçiriciləri ilə mübarizə üsullarının işlənib hazırlanması laboratoriyasının aparıcı elmi işçisi və institutun elmi katibi vəzifəsində çalışmışdır. Professor X.İ.Abdullayev 135 elmi işin, 30-dan artıq metodik materialın, 3 səmərələşdirici təklif və çoxsaylı elmi-kütləvi məqalənin müəllifi idi. Onun rəhbərliyi və elmi məsləhəti ilə 1 doktorluq və 4 namizədlik dissertasiyaları müdafiə edilmişdir.

Əbülfəz Yusif oğlu Nəcəfov Tibb İnstitutunu bitirdikdən sonra ET Mikrobiologiya, Virusologiya və Epidemiologiya İnstitutunda kiçik elmi işçi kimi fəaliyyətə başlamışdır. Ə.Y.Nəcəfov 1953-1965-ci illərdə keçmiş S.M.Kirov adına Elmi-Tədqiqat Tibbi Parazitologiya və Tropik Təbabət İnstitutunda elmi işlər üzrə direktor müavini, 1972-ci ilə qədər isə institutun direktoru vəzifəsində çalışmışdır. Professor Ə.Y.Nəcəfov 100-dən artıq elmi işin, o cümlədən 2 monoqrafiyanın, 5 müəlliflik şəhadətnaməsinin müəllifi idi. Onun rəhbərliyi ilə 5 namizədlik dissertasiyası müdafiə edilmişdir.

Pyotr Petroviç Popov 1930-cu axırlarında Azərbaycanda Tropik İnstitutu təşkil etmiş və 23 il müddətində onun rəhbəri idi. P.P.Popov 1930-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunun tropik xəstəliklər kafedrasının professoru, 1952-ci ildə epidemiologiya kafedrasının müdiri təyin edilmişdir.

Professor P.P.Popov parazitologiya elminin müxtəlif sahələri və tropik xəstəliklər üzrə 150-dək elmi əsərin müəllifi olub. Dəyərli elmi fəaliyyətinə görə ona əməkdar elm xadimi adı verilmişdir. Onun rəhbərliyi ilə bir neçə doktorluq və namizədlik dissertasiyaları müdafiə edilmişdir.

Ismayıl Əbdülxaliq oğlu Axundov 1931-ci ilə qədər Elmi Tədqiqat Epidemiologiya və Mikrobiologiya İnstitutunda işləmiş, sonra Azərbaycan Tropik institutunda epidemiologiya şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Həmin ildə Bakıda sarı qızdırma xəstəliyinin keşiricisi *Aedes aegupti* ağcaqanadlarının sürfəsini başqa alimərlə birgə Coq. richiardii, Ae. pulchritarsis, Ae.geniculatus ağcaqaadlarını ilk dəfə olaraq aşkar etmişlər. İ.Ə. Axundov öz araşdırmaları nəticəsində Azərbaycanda 15 növ ağcaqanadın olmasını müəyyənləşdirmişdir.O, 1942-ci ildən Azərbaycan Dövlət Tibb İnstitutunun epidemiologiya kafedrasının müdiri işləmişdir. İ.Ə.Axundov malyariya və qeyri-malyariya ağcaqanadları, onlarla mübarizə, hünü qızdırması və keçiricisi, gənə qayıdan yatalağı keçiricilərinin bioekologiyası sahəsində görkəmli mütəxəssis idi.

Professor İ.Ə.Axundov 40-dan artıq elmi məqalə, o cümlədən "Azərbaycanda malyariya və Culicidae" adlı monoqrafiyanın müəllifi idi.

Georgiy Klavdiyeviç Trofimov Elmi-Tədqiqat Tibbi Parazitologiya və Tropik Təbabət İnstitutunda baş elmi işçi, şöbə müdiri vəzifələrində çalışmışdır. O, 120-dən artıq elmi işim müəllifi idi. Onun rəhbərliyi ilə 3 elmlər namizədi və yüzlərlə entomoloq hazırlanmışdır.

1983-1986-cı illərdə E.Ə. Hacıbəyovanın Entomologiya elminə böyük əməyi olmuşdur, belə ki, onun tərəfindən ilk dəfə olaraq mığmığaların sutkalıq və mövsümi miqdar güdişı, insanlara hücum etməı fəallığı, mığmığaların promastiqotlarla təbii yoluxması, onların xlorlu və fosforlu üzvi insektisidlərə həssaslığl öyrənilmiş və mığmığaların əleyhinə mübarizə tədbirləri işlənib hazırlanmışdır. əldə edilən məlumatlar E.Ə.Hacıbəyovanın namizədlik dissertasiyasında ümumiləşdirilmişdir. (1986) və onun 62 elmi-praktiki əhəmiyyəti olan məqalələri və 1 metoduk tövsiyənin müəllifidir.

İnstitutun əməkdaşlarından parazitoloji şöbənin müdiri b.ü.f.d. M.İ.Əliyev və t.ü.f.d. İ.A.Haciyev "Tibbi parazitilogiya" monoqrafiyasını cap etdirmişler. İnstitutun əməkdaşlarından biridə bu il oktyabrin 15-də Şəfiqə xanim Mahmudovanin da 100 yaşı tamam oldu. 1949-cu ildə Tibb İnstitutunu bitirdikdən sonra həmin ildə Azərbaycan həkimlərinin təkmilləşmə institutuna Malyariya və Tibbi parazitologiya və laboratoriya diaqnostikası kafedrası üzrə kliniki ordinaturaya daxil olob və bitirdikdən sonra həmin kafedrada assistent vəzifəsində çalışıb. O, 1964-cü ildə Səhiyyə Nazirliyinin əmri ilə S.M.Kirov adına Elmi-Tədqiqat və Tropik Təbabət institutuna keçirilmişdir. 1968-ci ildə aspiranturanı bitirdikden sonra namizədlik dissertasiyasını müdafiə edib. 1994-1997-ci illərdə parazitar xəstəliklər klinikasında baş həkim, 1997-ci ildə isə elm üzrə İnstitutun direktor müavini vəzifəsinə təyin ilunmuşdur. Elə həmin vaxtdan 2017-ci ilə qədər İnstitutun Malyariya, leyşmanioz xəstəlikləri və onların keçiriciləri ilə mübarizə laboratoriyasının baş elmi işçisi kimi çalışmışdır. O, 83 elmi məqalənin, İnsan helmintozları monoqrafiyasının, (1967, Azərnəşr) müəllifi və "Malyariya Azərbaycanda" monoqrafiyasının həmmüəllifidir.

Hazırda Parazitar və Tropik Xəstəliklər şöbəsinin entomologiya bölməsinin müdiri b.e.d., dosent Nəsib Cəfərqulu oğlu Namazov tərəfindən 4 monoqrafiya, 4 metodik tövsiyə, 1 səmərələşdirici üsul və 60 elmi praktik əhəmiyyəti olan məqalə dərc edilmişdir. 1991-ci ildə biologiya elmlər namizədi adı almışdır,2016-cı ildə biologiya elmlər doktoru adını almışdır O,həmin şöbədə elmi fəaliyyətini davam etdirir.

Beləliklə hazırda İnstitutda t.e.d. A.M.Allahvediyev, direktor; t.e.d. professor A.İ.Qurbanov elmi işlər üzrə direktor müavini; t.e.d. A.Ə.Salehov Parazitar və Tropik Xəstəliklər şöbəsinin müdiri, Entomolodiya bölməsinin müdiri b.e.d., dosent N.C.Namzov və müxtəlif ixtisaslar üzrə 20 nəfər fəlsəfə doktoru elmi fəaliyyətlərini göstərirlər. İnstitutda elm sahəsində 8 şöbə və 19 bölmə elmi fəaliyyətlərini davam etdirirlər.

ƏDƏBİYYAT

1. Труды Азербайджанского института микробтологии и гигиены им. Г.М.Мусабекова, вып.I, Баку, 1925, 171 с.
2. Архив Азербайджанского института микробтологии и гигиены им. Г.М.Мусабекова, Баку, 1929, том I, N 1-2, 159 с
3. Труды Азербайджанского института микробтологии и эпидемиологии им. Г.М.Мусабекова, вып.I, том 5, Баку, 1935, 297 с.
4. Труды Азербайджанского института пидемиологии и микробтологии вып. II, том 6. Баку, 1940, 166 с.
5. Сборник рефератов и отдельных работ по эпидемиологии, микробиологии и гигиены, Баку, 1956, 236 с
6. Труды Азербайджанского института эпидемиологии, микробтологии и гигиены. Баку, 1957, 453 с.
7. Сборник материалов по медико-географическому изучению инфекционных заболеваний в Азербайджанской ССР, Баку, 1966, 263 с
8. Материалы симпозиума по проблеме: Охрана труда и здоровья сельского населения, Баку, 1977, 161 с
9. Труды I Всесоюзной конференции «Научные основы гигиеным села», Баку, 1979
10. Материалы конференции «Гигиенические аспекты окружающей среды», Баку, 1981, 170 с
11. Труды IV съезда гигиенистов и санитарных врачей Азербайджана, Баку, 1981
12. Материалы конференции «Научные основы гигиены окружающей среды и инфекционной патологии», Баку, 1987, 203 с
13. Сборник материалов конференции «Исследования по гельминтологии в Азербайджане» Баку, 1990
14. Сборник материалов конференции «Патологические процессы и методы их коррекции», Баку, 1998
15. "XXI əsrdə klinik mikrobiologiyanın aktual problemləri" mövzusunda respublika elmi-praktik konfransın məcmuəsi, Bakı, 2001, 170 s.

MÜNDƏRİCAT

İCMALLAR- ОБЗОРЫ

К вопросу об онкологических аспектах изучения микотических инфекций
М.К.Мамедов, Л.П.Халафова, С.Н.Джавадзаде.....3
Yenidoğulanlarda nekrotik enterokolitin patogenezi, klinikası, diaqnostikası və müalicəsi
A.A.Musayev 7
Yenidoğulanlarda nekrotik enterokolit: diaqnostik və proqnostik problemləri
İ.İ.Hüseynova 16
Современные представления профилактики и регулирования артериальной гипертензии
Г.Ч. Алиева, Э.С.Рагимова..... 22
Ətraf mühit təsirindən yaranmış patologiyalar
G.Q.Qarayeva..... 27
Süd vəzi xərçəngi xəstələrində aksilyar limfatik metastazların radio-immunoloji xüsusiyyətləri
C.N. Axundova, N.V.Qasımov..... 34
Pilonidal sinusa görə aparılmış əməliyyatlardan sonra yara sağalmasının vacib aspektləri
F.H. Camalov, G.A. Kosayeva, A.A.Kosayev..... 41
Kombinə olunmuş hipotenziv preparatlarla müalicənin əhəmiyyətli aspektləri haqqında
A.A.Bəydəmirova, S.H. Məhərrəmova..... 46

ORİJİNAL MƏQALƏLƏR-ОРИГИНАЛЬНЫЕ СТАТЬИ

К проблеме нафталанотерапии: о токсичности нативного нафталана
Ф.Э.Садыхова, И.С.Гулиев, Г.С.Мартынова,Р.К.Таги-заде, Л.М. Ахмедова, С.Г. Зейналов, С.Э.Салманова..... 53
Hipoksiyaya adaptasiyanın ağciyərlərin respirator şöbəsinə və miokarda təsiri
T.S.Sultanova, T.A.Sultanova..... 63
Подходы к оценке региональной радиационно-экологической обстановки по определению изменений иммунного статуса
Г.М.Мамедов, М.М.Мурсалов..... 67
Ультраструктурная характеристика предсердных кардиомиоцитов
Ф.О.Раджабова..... 69
Torako-abdominal onkologiya şöbəsində əməliyyat sonrakı infeksion ağırlaşmaların mikrobioloji xüsusiyyətləri
S.Y. Qaraisayeva..... 74
The burden of hepatitis B and evaluation of surveillance system in Azerbaijan, 2018-2020
V.N.Safarova, Z.I.Rasulzade, N.A.Mursalova..... 78
Tp53 Geninin Arg72pro polimorfizminin kolorektal poliplərdə tədqiqi
H.M. Aslanov, B.İ. Bayramov, Z.M. Məmmədova, G.Ə.İsmayılova..... 83
Populyasiya səviyyəsində yaşlı əhalinin orqanizmində maqnezium çatışmazlığının müəyyən etməsinə aid standartlaşdırılmış sorğu anketlərinin effektivliyinin qiymətləndirilməsi
R.Ə.Çobanov, M.Ə.Məhərrəmov, S.F.Mirhadi, A.O.Bədəlova, X.F.Şirinova.....89
Эпидемиологический анализ больных с COVID-19 в Азербайджане
С.А. Фараджева, Ш.М. Велиева.....93
Qaraciyər transplantasiyasından sonra resipiyentlərin həyat göstəricilərinə təsir göstərən faktorlar
N.H. Novruzov, N.Y. Bayramov, E.A.Əliyev..... 101
О серологических маркерах инфекций, вызванных вирусами гепатитов В и С у детей разного возраста, живущих в г.Баку
А.Э.Дадашева, Р.И.Исмаилова, Н.Д.Гулиев, С.А.Гусейнова, Л.П.Халафова, А.Ю.Магамедли.108
Ürəyin işemik xəstəliyi və arterial hipertenziya ilə qalxanabənzər vəzin patologiyaları olan qadınların müalicəsində beta-blokatorların klinik əhəmiyyəti
İ.M.Əfəndiyeva..... 111
Ucar rayonunda mığmığaların populyasiyasının hazırki vəziyyətinə dair
Ə.E.Hacıbəyova, A.Ə.Salehov, E.Ə.İsmayılova, F.H.Hüseynova..... 116
Предикторы преждевременных родов
Н.А. Шахбазова, Л.Р.Сулейманова..... 119
Современные проблемы детей с дакриоциститом новорожденных в Азербайджанской Республике
Г.В. Велиева..... 124

Bakı şəhərində əhali arasında bəzi dəri xəstəliklərinin yayılması vəziyyəti
P.Q.Manafov, M.H.Əliyev, L.İ.Rüstəmova, M.M.Muxtarov, B.Ə.Vəliyev.....130
Koronavirus COVID–19 pandemiyası və digər hallar zamanı profilaktik məqsədlə istifadəsinə zəruriyyət yaranmış bioloji aktiv maddələr
E.F.Babayev, R.İ.İsmayılova, A.E.Dadaşova, S.T.Məmmədov.. 134
Bronxial astma və allergik rinitin olan uşaqların allerqoloji-immunoloji göstəriciləri
T.T.Pənahova..... 138
Böyük Qafqaz təbii bölgəsinin qərb ərazisində leyşmanioz xəstəliyinin yayılmasında mığmığıların rolu
N.C. Namazov, F.H. Hüseynova, E. Ə. Hacıbəyova Z.Z. Abseynova.....143
Perinatal asfiksiya keçirmiş vaxtından əvvəl doğulanlarda bağırsaqların işemik zədələnmələri zaman lipidlərin peroksidləşməsi və antioksidant sisteminin vəziyyətinin qiymətləndirilməsi
A.S.Hacıyeva, G.M.Həsənquliyeva..... 147
Морфологические особенности глоточных ветвей языкоглоточного нерва у плодов, новорожденных, детей различных возрастов и взрослых
М.И.Байрамов 152
Koordinasion birləşmələr və onların dərman maddələrinin sintezində rolu
İ.M.Bağırov..... 156
Gec reproduktiv və premenopauzal dövrdə genital endometriozun müalicəsində diyenogest tərkibli preparatların effektivliyi
T.F. Cəfərova, S.Ə. Mürsəlova, X.P. Zeynalova, A.Ə.Qocayeva..... 162
Uşaqlarda stafilokokk mənşəli bağırsaq infeksiyasının patogenezində intraleykositar mikrobisid sisteminin əhəmiyyəti və müalicənin təkmilləşdirilməsi
R.R. Bəylərova, E.Q. Orucova., M.M. Muxtarov, V.N. Cavadzadə, N.M. Xudaverdiyeva, G.A. Kərimova, X.Ə. Əhmədzadə..... 167
Эпидемиологический профиль инфекции, вызываемой вирусом гепатита С среди контингента ВИЧ-позитивных лиц
И.З. Бабазаров..... 171
Ağciyərlərin xronik obstruktiv xəstəliyi ilə yanaşı ürəyin işemik xəstəliyinin klinik-instrumental xarakteristikası
V.A.Abdullayev…….....……175
Облепиховое масло в лечении геморроидальных узлов у беременных
Г.Х. Абдыева, Дж.Б. Пашаева, К.А. Эйвазова, Л.В. Лятифова, Ф.В.Абдыева…….....179
Оценка эффективности хирургического лечения при комбинированной патологии органов брюшной полости и малого таза
Г.А.Мамедова..... 182
Изучение контрацептивного поведения женщин в возрастном аспекте
К.Г. Габибова, Н.Р.Джаббарова 185
Оценка и анализ распространенности клинических проявлений COVID-19 ротовой полости
М.Х.Гусейнова…….....189
Изучение научно-методического аппарата таможенного регулирования ввоза лекарственных средств в Азербайджанскую Республику
Т.Р. Аббасалиева, Ф.И.Мадатли…….....…..193
Qaçqın qadınların tibbi-sosial xarakteristikası
L.A.Quliyeva…….....….201
Принципы выбора хирургического лечения пролапса органов малого таза у женщин активного репродуктивного возраста (31-40 лет)
И.Г.Кафаров…….....206

PRAKTİK HƏKİMƏ KÖMƏK-ПОМОЩЬ ПРАКТИЧЕСКОМУ ВРАЧУ

Kantrell pentadası: Təsnifatı, diaqnostikası, proqnozu və müalicəsinə müasir yanaşma
H.N.Abbasova…….....…209
Возможные ошибки при снятии двойного оттиска
Э.Р. Мусаев, Э.Р. Алиева, А.И.Тагиев..... 213
Qida rasionunda bioloji aktiv maddələrin və funksional qida məhsullarının rolu
S.F.Əfəndiyeva, G.İ.Mahmudova, T.İ.Hacıyeva, M.İ.Əlili, A.X.Babayeva……..…216

Autoimmun qeyri-spelikli qesifik xoralı kolitin kliniki və selikli qişada gedən sitomorfoloji dəyişikliklərin özəl xüsusiyyətləri
A.A.Rüstəmov ……..……..220
Taenia saginata helminti mənşəli mexaniki sarılıq (klinik müşahidə)
B.İ. Sadıqov, İ.N. Qasımova, A.N. Ağakişiyev, X.Q. Hüseynova…….……224

XRONİKA-ХРОНИКА

Памяти профессора Октая Садых оглы Сеидбекова.....228
V. Y. Axundov adına Elmi – Tədqiqat Tibbi Profilaktika İnstitutunun 100 illiyi (1922-2022)
N.C.Namazov.....229